www.kitabxana.net
Milli Virtual Elektron Kitabxana

"Çağdaş Azərbaycan bədii nəsri": N 42 (51 - 2016)

Qəni Camalzadə

# "Kişilik də bir şey deyil..."

## Hekayələr toplusu

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**YYSQ – 2016**

04.05.2016
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

# www.kitabxana.net

## Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu e-kitab Yeni Yazarlar və Sənətçilər Qurumunun **"Çağdaş Azərbaycan bədii nəsri"** ədəbi-kulturoloji layihəsi çərçivəsində təqdim edilir. Elektron kitab N 42(51 - 2016)

**Kulturoloji layihəni maliyyələşdirən qurum:**

Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.az

**YYSQ - http://www.yysq.org**

# Qəni Camalzadə

# "Kişilik də bir şey deyil..."

Hekayələr toplusu

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

Virtual redaktoru və e-nəşrə hazırlayanı:Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri – **2016**






# DİQQƏT

***Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.***

Qəni Camalzadə

# “Kişilik də bir şey deyil...”

## Hekayələr toplusu

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

**Bakı. YYSQ – 2016**

# Ön söz

# Vaqif Yusifli Q.Camalzadənin hekayələri

# BİR HEKAYƏLƏR KİTABI

İyirmi il olar ki, qəzet və jurnal səhifələrində Qəni Camalzadə imzasını izləyir, onun hekayələrini oxuyuram. İlk hekayələri elə "Ədəbiyyat qəzeti"nin səhifələrində oxuduğum Qənidə güclü həyat müşahidəsi, ümumiləşdirmə bacarağı hiss etdim. Ən başlıcası isə gerçəkliyin sanki gözə görünməyən, ilk baxışda heç bir təəssürat doğurmayan məqamları bu hekayələrin mövzüsuna çevrilirdi. Hiss olunurdu ki, Qənidə yumor duyğusu da güclüdür; o, təsvir etdiyi hadisənin və təqdim etdiyi obrazların gülüş doğuran cəhətlərinə də diqqəti yönəldə bilir. Və bununla yanaşı açıqca onu da görürdüm ki, Qəni Camalzadə hələ sözün dərin-dərin qatlarına yiyələnməlidir. Bəzən onun gülüşündə hədəfdən yayınan məqamlar da az deyildi, yəni yumorunda duzsuzluq da nəzərə çarpırdı. İndi budur, Qənin "Sonuncu yeznə" hekayələr kitabı (1998) qarşımdadır və kitab müəllifinin bu iyirmi ildə nəyə nail olduğundansoraq verir.

Bütün yaradıcılığı boyu yalnız hekayə janrı ilə tanınan sənətkarlar çox deyil. Yaxud lap povest, roman yazsa da, elə yazıçı var ki, yalnız hekayəçi kimi tanınır. Ömrünün qırxıncı aşırımını çoxdan keçən Qəni Camalzadə hələlik öz sevimli hekayə janrına sadiq qalıb. O, yaxşı bilir ki, bir neçə səhifədə də böyük bir romana, ya povestə sığa biləcək həqiqətləri ifadə etmək mümkündür. Görəsən, o, buna nail ola bilirmi? Kitabda toplanan iyirmi doqquz hekayə təbii ki, eyni səviyyədə deyil. Bunların içində mövzunun öz bədii həllini tapmadığı, təqdim olunan hadisələrin və obrazların epizodik səciyyə daşıdığı nümunələr də var. Ancaq kitabda bir neçə hekayə var ki, həmin hekayələr Q.Camalzadənin yaradıcılığında az-çox püxtələşdiyindən xəbər verir.

Qeyd etdim ki, Qəninin hekayələri ötən illərin – sosialist gerçəkliyinin "həqiqətlərindən" söz açır. Bu hekayələrin əksər qismi bilavasitə onun həyati müşahidələrindən yaranmışdır. Özü də Qəni çox vaxt, yuxarıda dediyim kimi, gerçəkliyin zahirən nəzərə çarpmayan məqamlarına üz tutur, kiçik, bəlkə də ötəri təsir bağışlayan hadisənin içində məğzi, mahiyyəti axtarır. "Daş küçə" adlı ikicə səhifəlik bir hekayədə nədən danışılır? "Xüsusi konstruktor şöbəsinin nəhəngləri" tutduqları vəzifəyə uyğun bir həndəsi ardıcıllıqla baş-başa

vermişdilər. Rəisin kor quyu kimi dərin baxışından sonra pıçıltılar tamam kəsildi".

Görən nə olub? Məlum olur ki, "Al-80" cihazının istehsalı dayandırılıb. Zavod da bu konstruktor şöbəsinə müraciət edir ki, bu barədə bir tədbir görsün, ikitərəfli müqavilə imzalansın. Amma bürokratizm o qədər qana yeriyib ki, cihazın cüzi qüsurunu aradan qaldırmaq barədə yox, sənədləşmə, məktublaşma yolu ilə onu birtəhər it-bata salmaq barədə fikirləşirlər. Halbuki, zavodla konstruktor şöbəsi arasında 5-10 kilometr ola, ya olmaya, daş küçənin o başından bu başına 10 dəqiqəlik yoldur.

Qəninin bir çox hekayələri beləcə "adi" hadisələr üzərində qurulub, amma məharəti orasındadır ki, bir mühüm mətləbi ifadə edə bilir. Ola bilsin ki, Qəninin tənqid hədəfinə obyekt olan neqativ cəhətlər günümüzün bu çağı üçün öz reallığını itirsin, bunlar ancaq sosialist həyat tərzinin nam-nişanı kimi xatırlansın. Amma keçib gəldiyiniz yolda rastlaşdığımız maneələr, üzləşdiyimiz mənfi hallar indi də bu və ya başqa şəkildə davam edir. Ona görə də, bir çox hekayələri indi də aktuallığını saxlayır.

Bəli, indinin özündə də "Sonuncu yeznə" hekayəsində olduğu kimi qaz vurub qazan doldurmaq iddiasıyla yaşayan Xasaylar az deyil. Və indinin özündə də təmiz

həyat tərzi ilə Xasayları mənən məğlub edən Ələmdar kimilər yaşayır.

"Papaqçı oğlu" hekayəsində təsvir olunan hadisə bəlkə də sosialist gerçəkliyi üçün bir təsadüf sayıla bilərdi (əslində belə deyildi), bu gün üçün isə artıq adi haldır. Atası papaqçı olan tələbə diplom işi götürür, gəlir zavoda və istəyir ki, loboratoriya şəraitində öz diplom işini yazsın. Onu ixtisası üzrə şöbə müdiri ilə tanış edirlər. Əsl həngamə bundan sonra başlanır. Məlum olur ki, papqçı oğlunun götürdüyü mövzunu elə bu şöbə müdiri diplom işi kimi çoxdan yazıb. Daha doğrusu kimdənsə köçürüb. Və papaqçı oğlu da həmin o diplom işini eyni səliqə ilə köçürüb təhvil verir.

Maraqlıdır ki, Qənin bu tipli kiçik hekayələri vaxtilə "Mozalan" satirik kino-jurnalında təsadüf etdiyimiz süjetləri xatırladır. Yəni yığcamlığına, az sözlə, kiçik bir hadisənin təsviri ilə maraqlı mətləb qaldırmağına görə paralel aparmaq mümkündür. Tutaq ki, "Şorba" hekayəsindəki bağça müəllimlərinin əhvalatı kimi. Bişirdikləri yeməkləri heç özləri dadmaq istəməyən bağça əhli-müdirə, aşbaz uşaqlara belə bir sual verirlər: Deyin görüm siz bu gun çoxlu oynamaq istəyirsiniz, ya birinci xörəyi yemək? Uşaqlar xorla cavab verirlər ki, oynamaq istəyirik. Təfərrüata varmadan deyə bilərəm ki, kitabda

olan "Düz xətt", "Qərənfil-2", "Nağıl gecəsi" və s. hekayələr də bu qəbildəndir.

Ümumiyyətlə, Qəninin hekayələrində bir az mübaliğə ilə desək, yaşadığı, ünsiyyətdə olduğu cəmiyyətin lap kiçik də olsa, mikromodeli əks edilmişdir. Əlbəttə, bu mənzərə o cəmiyyətin mənəvi ab-havası, durumu haqqında heç də qədərincə təəssürat yaratmır. Ancaq hər halda lap kiçik mikromodelin özündə də müəyyən ümumiləşdirici cizgilər, xassələr tapmaq çətin deyil. Elə hekayələr var ki, elə o hekayədə dünən və bu gün – ötən illərin və bu çağımızın neqativ cizgiləri ümumiləşdirmə məqamındadır. Məsələn, cəmiyyətdə hamının bir-birini aldatması artıq heç kəsdə təəccüb doğurmur. Bunun bədii həqiqət kimi təsbitinə isə Qəni Camalzadənin "Hesab" hekayəsində rast gəlirik. Yaxud azərbaycanlı cavanların kütləvi şəkildə Rusiyaya üz tutub bir daha geri qayıtmamaları, orada evlənib milli mənliklərindən də üz çevirmələri, Nataşalara uymaları "Teleqram" hekayəsində məharətlə əks olunub.

Qəni Camalzadənin ilk kitabının məndə doğurduğu xoş təəssürat əsasən bunlardır. Ancaq istərdim ki, öz dediyi kimi, ədəbiyyata, qəzet və jurnal səhifələrinə çətinliklə yol tapa, bu yolda az məhrumiyyətlər görməyənQ. Camalzadə "Yolçu yolda gərək" inadına da tab gətirsin. Çünki yaradıcılıq həmişə yeniliklə, novatorluqla müşayiət

olunmalıdır. Bu gün ilk kitabında bəzi hekayələri Qəni Camalzadəyə xoş təsir bağışlaya bilər “yazıçı üçün hər yazısı, hətta hər cümləsi əzizdir”, amma bu hekayələr oxucu-tənqidçi diqqətinə çəkildikdə əks mənzərə də yaranır. Məsələn, “Yalançı oğul”, “Zəif damar”, “Abşeron bağlarının gecələri” və daha bir neçə belə hekayədə mətləb aydın deyil, hədəf qeyri-müəyyəndir, təqdim olunan əhvalat, hadisə tipik deyil.

Və bir də onu demək istəyirəm ki, gözlərinin qarşısında baş verən hadisələrə də müəllif biganə qalmamışdır. Bu gün məhz satirik ədəbiyyata daha çox ehtiyac duyulur və çox güman, istedadına inandığım Qəni Camalzadə də bu həqiqəti unudmayacaq.

***Ədəbiyyat qəzeti***

***9 aprel 1999-cu il№ 14 (3139)***

# MƏZƏNNƏ

Molla Fəti vədəni ötürmədi, orucluğun elə birinci günü telefon açdı. Vərdişkarlıqla uzun-uzadı əhvallaşdı:

- Salam. Nə var, nə yox, ay müəllim? Alverin necə gedir, müəllim? Evdə-eşikdə salamatlıqdır? Orucluq əziyyət vermir ki?

Ali təhsilli riyaziyyat müəllimi Dərdayıl həmişə uzunçuluqdan qaçırdı, indi də mollanın bütün suallarına qısa bir cavab verdi:

- Hər şey yaxşıdı...

- İstilərlə neynəyirsən? Bağa köçmürsən?

- Bağ? - VəziyyətDərdayılı elə sıxmışdı ki, bağ yadına düşmürdü. - Görək, inşallah!

Molla isə deyəsən onun yaxasından əl çəkmək fikrində deyildi, biliciliklə:

- Müəllim, manat yaman büdrədi ha! Amma Allah üzümüzə baxdı, yaxşı qurtardıq, yıxılmadı. – söylədi. Sonra inamsız soruşdu: - Sən bilən əvvəlki məzənnəsinə qayıdacaqmı?

Dərdayıl müəllim könülsüz:

- Çətin söhbətdi! - dedi

Molla, nəhayət, əsas mətləbə keçdi:

- Müəllim, sənin rəhmətlik valideyinlərinin ruhunun səlamətliyi üçün “Quran” oxuyuram. İnşallah, beş günə,

bir həftəyəxətm elərəm, - bildirdi. - Məclisimizihaçana salaq?

Dərdayıl müəllimin əli pula çatandan sonra, hər il, cavan yaşında Allah rəhmətinə getmiş valideyinlərinə ramazan ayında “Quran”oxutdurur, ehsan süfrəsi açırdı. Bu il işləri heç düz gətirmir, necə deyərlər, iqtisadi durumu yaxşı deyildi. Molla demişkən, manat büdrəmişdi, üzləşdiyi maliyyə çətinlikləri artıq özünü büruza verirdi. Mal sahibləri pulunu dollarla tələb edirdilər, alver isə günü-gündən zəifləyirdi...

Amma Dərdayıl müəllim bu il də ənənəni pozmadı. Hər dəfə ehsanın vaxtınımollanın öhdəsinə buraxırdığından , indi də:

- Öz məsləhətinə bax, ay molla, - dedi. - Yaxşısını sən bilərsən!

- Ramazan ayının birinci həftəsi necədi?

Dərdayıl müəllim bir az təəccübləndi:

- Ay molla, biz axı həmişə mərasimi orucluğun üçüncü həftəsinə salırdıq, - soruşdu, sonra nə fikirləşdisə, yumorundan qala bilmədi. - Tələsməyindən məlum olur ki, əlin çox aşağıdır. Güman ki, manatın büdrəməyi səni də silkələyib ha...

Dərdayılın istehzası dəstəkdən gələn səsin sanki rəvanını dəyişildi. Xəttin o başından mollanın utancaq səsi gəldi:

- Düz tapmısan, müəllim, neçə aydı quraqlıqdı. Bu qrizis nə pis şeymiş. Gör, iş nə yerdədi ki, insanlar, qrizisin qorxusundan ölməyi də tərgidiblər. Həəə, əlqərəz, uzunçuluq eləyiblap başağrısı verdim. Mənə elə gəlir ki, ramazan ayının birinci şənbəsi yaxşı gündü, müəllim. – O, cavab gözləmədənfikriniəsaslandırmağa tələsdi. - Hamı bizim kimi boş-bekar deyil. Hökumət işində, şirkətlərdə çalışanlar var. Asudə vaxta salıram ki, sənin adamların arxayın toplaşa bilsinlər.

Dərdayıl müəllim daha uzatmadı, təkliflə razılaşdı.

Mollanın elə bir savadı yox idi, amma gəlirini-çıxarınıyaxşı bilir,külfətini dolandırmaq üçün dəridən-qabıqdan çıxırdı. Cavan olsa da, ailəsi böyük idi: səkkiz qızı, bir oğlu vardı. Artıq dörd, ya da beş qızını köçürtmüşdü. Dərdayılı bir övladı vardı. Amma mollanın bütün toy məclislərində iştirak eləyir, karlı nəmər salırdı. Onlar bağ qonşusu idilər. Molla xahiş-minnət gözləmədən hər yaz hasardan aşır, onun talvara qaldırılmış meynələrini kəsirdi.Yaydan yaya bağa köçən müəllimin ev-eşiyinə il ərzində göz olur, sahibsiz qoymurdu.

Dərdayılın var-dövləti başından aşmasa da imkanlı idi, şəhərin lap mərkəzində, metronun yaxınlığındaxudmanı bir xəm-xurd dükanıaçmışdı. Dostu hacı Məşti ilə icarəyə götürdükləriyarımzirzəmidə on beş ildi kəsbkarlıq edirdilər.Gen-bol yaşamasalar da, kefləri yaxşı idi,

çörəkləribaşlarının altındaydı. Axır vaxtlara qədər həmişə qazancda olduqlarından, icarəni də vaxtlı-vaxtında verirdilər, özlərinə də bir şey qalırdı.

Şəriki hacı Məşti ağır adamdı,sızanaqlı üzü gülməzdi. Keçənlərdə bir yol Dərdayıl müəllimi qınamışdı:

- Dostum, qazancını heçə-puça nahaq xərcləyirsən. Bilirsən ki, mən də müqəddəs kitabı başdan-ayağa oxumuşam,“Quran”dan çıxmışam. İstəsən məclislərini də yola verərəm, rəhmətə gedənlərinə də “Quran” oxuyaram. - Onun molla Fətidən yaman acığı gəlirdi. - Nə deyirsən? Həm mollanın laqqırtısından canın qurtarar, həm də pulun cibində qalar.

Dərdayıl müəllim razı olmadı:

- Hacı, molla Fəti yazıqdı, bir çətən külfəti var, çörəyinə bais ola bilmərəm.-dedi, sonra dostunu inandırmağa çalışdı. - Vallah, pis adam deyil, həyət-bacama göz olur, ağaclara qulluq edir, meynələrmi kəsir, yayda qonaq-qara gələndə əl yetirir...

Hacı Məşti qaşının üstündəki iri xalı qaşıdı, birdən qətiyyətlə:

- Müəllim, bu molla tayfası ki var, İslam dininin birinci düşmənidir. Hamını dini-imandan pisikdirən də onlardı, – söylədi, ürək yanğısıyla deyindi. -Əşi,“Quran”ı da pulnan oxuyarlar!? Bu hansı kitabda yazılıb, axı!?

Dərdayıl müəllim istehza ilə gülümsədi:

- Yerlimizdi də, daha neynəmək olar. – Köhnə şərikinə hörmət eləsə də, fikrindən dönmədi. - Bir eldən, eyni obadanıq.

- Bu qırılmışların hansı bizimlə eyni eldən deyil, axı? - Hacı deyindi, amma daha inad etmədi.

Hər ikisi gülümsədi, onların hər üçü cənub bölgəsindən idilər.

Yeni ildə vəziyyət gözlənilmədəndəyişmiş, alverləri rəvanlığını itirmişdi. Ayın axırı gələndə hər ikisininqanı qaralırdı. Zirzəminin sahibi ağızdan yava bir qadın idi, icarə haqqını yarımca saat gecikdirən kimi gül ağzını açırdı, başlayırdı pis-pis söylənməyə.

...Bu il Dərdayıl müəllim çox adam çağırmadı. Ehsan məclisində yalnız ailə üzvləri, yaxınları, bir də hacı Məşti həyat yoldaşı ilə iştirak edirdi.

“Quran” tapşırılan gün, iftara yarım saat qalmış maşını qoşdu,mollanı yanına oturdub qəbir üstə getdilər. Qəbristanlıq evlərinə yaxın, gölün sahilindəki təpədə idi. Ətrafın həzinmənzərəsi insanın könlünə neştər kimi işləyirdi. Qəbiristanlığa çökən toranlıqkədər gətirirdi. Molla“Yasin” surəsini oxuyub bitirənə qədər kədərlənmişDərdayıl müəllim məzarın ətrafına əl gəzdirdi. Sonra molla ilə bir yerdə “Həmdi-surə”nini oxudu, salavat çevirdi, övladlıq borcunu yerinə yetirdiyinə görə sanki

xeyli yüngülləşdi. Onlar qəbiristanlıqdan çıxanda mollaya dil-ağız elədi:

- Oxuduğun “Quran”sənə kömək olsun!..

Evə qayıdanda artıq təamlar masayadüzülmüşdü. Qadınlar üçün qonşu otaqda süfrə salındığından məclisdə ancaq kişilər idi.Kondisionerin sərinlədiyi otağın xoş havasındaiftarı qaydası ilə açdılar. Əvvəlqaynanmış su, sonra duru yemək, sonra da plov verildi.Yeməkdən sonra molla yerindən tərpənmədi. Dərdayıl müəllim təəccübünü büruza vermədi.

Qonaqlar bir az da oturub dağılışdılar. Otaqda ancaq onlar - hacı Məşti, molla Fəti, Dərdayıl müəllim qaldı. Ev sahibi köynəyinin döş cibindən çıxartdığıəlli manat pulu mollanın qabağına qoydu:

- Allah imanını kamil eləsin, molla əmi, - yavaşca dedi. - Bu pulu az da olsa, çox bil.

Molla tərəddüdləpulu ev sahibinə tərəf itələdi:

- Utanıram da deməyə, müəllim. - söylədi - Ya bu əlliliyinüstünü düzəlt,ya da əlli dollar ver.

Dərdayıl müəllim molladan bunu gözləmədiyindən tutuldu, bilmədi nə desin. Hacı Məşti öskürüb təsbehini çıxarsa da, çevirib eləmədi, əsəbiliklə qaytardı çibinə. Bir az acıqla şərikinə müraciət elədi:

- Buyur, molla manatdan imtina edirsə, deməli,bir azdan əhli-qübur da daha manatı bəyənməyəcək, -

bildirdi, sonra üzünü mollaya tutdu. - Rəhmətliyin oğlu,azərbaycanlının azərbaycanlı ölüsünə Azərbaycanda “Quran” oxuyursan, amma dollar istəyirsən. Nədi, Amerikada yaşamırsan ki!

Molla dili dolaşa-dolaşa:

- Hacı, bilirsən ki, dollara nisbətdə manat dəyərini yarıbıyarı itirib. Bazar-dükan od tutub yanır. Mən də gözümü buna dikmişəm...

- Ay oxuduğun sənə qənim olsun! Biz, bəyəmləri, malımızı dollarla satırıq ki, sənə də dollarla verək? - Hacı Məşti səsini ucaltdı.

Molla Fəti başını aşağı saldı, hacı Məşti Dərdayıl müəllimə üzünü tutdu:

- Dərdayıl müəllim, gələn il orucluqda “Quran”ı özüm oxuyacağam, daha molla Fətiyə əziyyət verməzsən.

Molla, deyəsən, səhv elədiyini anladı. Pulu masadan götürübdəhlizə adladı. Nimdaş ayaqqabılarını tərs-avand ayağına çəkdiyinəfərqinə varmadan qapıdan çıxdı...

# Ədəbiyyatın lətafəti

Yaşlı şairlərdən birinin, - sözsüz, adını çəkməyəcəyik, - həm yaradıcılıqgecəsi keçirilirdi, həm də yeddicildlik küllüyatının təqdimatı idi.Kiçik salon adamla dolmuşdu. Belə tədbirlərin, səbəbkarını tanıdı, ya tanımadı, bircəciyini də buraxmayan satirik yazıçı Həşim Güllübu dəfə gecikdiyindənqabaqda oturmağa yer tapmayıb o yana-bu yana boylandı. Arxa sıradakılarsıxlaşıb ona yer elədilər. Həşim Güllü tələsik model kimi açıq-saçıq geyinmiş cavanxanımla yanbayan oturdu. Yazıçı qəzetlərin,İnternet saytlarının əməkdaşlarını yaxşı tanıyırdı, amma bu qadını heç cür yadına sala bilməd. Odur: “Yəqin təzə işə başlayanlardandı.”-deyə fikirləşdi.

Ədəbi mühitin əksər görkəmli simaları iri dəyirmi masanın ətrafında əyləşmişdilər. Səbəbkarın ədəbiyyatdakıxidmətləri danılmaz faktlar olduğuna görə deyilən təriflər heç tənqidçilərdə dəşübhə doğurmurdu. Məclisi idarə edən vəzifəli şəxs qarşısında cəmlənmiş küllüyata toxunaraq:

- Bu kitablar, ədəbiyyat tacının cıqqasına çevriləcək kitablardır, - söylədi. O, yeni çıxışçıya söz verməzdən əvvəlçıxışının bünövrə daşını qoydu. -Buyurun, müəllim.

Hörmətli qələm yoldaşımız böyük şair haqqında görək nə deyəcək...

Səksən yaşlı şairin,- əlbəttə, adını çəkməyəcəyik, - tariflərə aludəçiliyi hamıya məlum idi. Natiqlərin ağzından gözünü çəkmirdi, onları baxışları ilə daha dolğun təriflərə ruhlandırırdı.

Həşım Güllü deyilənləri irişə-irişə dinləyir, yumorlu hekayələrinə mövzu axtarırdı, amma fikirlərini toplaya bilmirdi. Cavan qadın bütün bədəni ilə sankiona sığınmışdı. Onun ətri-rahiyyəsiHəşim Güllünü həyəcana gətirmişdi. Başqa sözlə, altmış yaşlı kişi hayıl-mayıl olmuşdu. Qəfildən qadınla tanış olmaq eşqinə düşdü.

- Xanım, yerinizi dar eləmədim ki?

Qadın ətrafda eşidiləcəyindən çəkinmədən bərkdən:

- Bütün ömrüm boyu belə dar yer arzulamırammı!? - bildirdi, sonra müsahibinə tərəf əyildi, astadan,gülümsəyərək səbəbkara işarəyləqeyd elədi: - Əcəb böyük şairdir, səksən yaşı var, cəmi yeddi cild kitab yazıb. Bir belə yaşayan şairin yetmiş cild kitabı olmalı idi.

Ədəbi gecənin səbəbkarını sevməsə belə, Həşim Güllü qadının istehzasından xoşlanmadı. Ona yanakı baxdı. Qadının toppuş yanaqları işım-işım işıldayırdı, ənlik-kirşansız idi. Həşim Güllünün döşünə yatan qadınlardan olduğundan müsahibini acılamaqdançəkindi. Mülayimliklə soruşdu:

- Neçə yaşınız var, xanım?

Qadın, nədənsə,hikkələndi:

- Otuz yaşım var. Nədi ki? Söz deməyə yaşım çatmır?

Həşim Güllü mübahisədən qaçdı:

- Heç kim sizin söz demək haqqınızı əlinizdən almaq istəmir, xanım. Sadəcə, demək istəyirəm ki, adama döyüş uzaqdan asan gəlir. Lağ elədiyiniz səksən yaşlı şair köhnə sovetlər vaxtında dövlət mükafatı alıb.

Qadın onu dinləmədi, çantasında eşələndi, bir qutu siqaret çıxartdı, gözlənilmədən təklif elədi:

- Bəlkə mənimlə foyeyə çıxasız? Tanışlığın bünövrəsini qoyarıq... – Ərklə dedi, cavab gözləmədən qalxıb döşəməni taqqıldada-taqqıldada bayra çıxdı.

Həşim Güllüyə maraq üstün gəldi, bir az yubandı, sonra yanındakıların təəccüblü baxışları altındasalondan bayıra çıxdı. Ayaqyolunun qarşısında divara söykənib siqaretini tüstülədən qadın cazibədar bir gülüşlə astadan soruşdu:

- Siz də yazıçısız?

Bu sual Həşim Güllüyə güllə kimi dəydi. Çallaşmış gur saçlarınıəsəbiliklə geri sığalladı. O, kifayət qədər tanınmış yazıçı idi, tez-tezTV-nin ekranlarında görünürdü. Ədəbiyyat aləmində tənqidi məqalələri ilə məşhur idi. Sandı ki, qadın qəsdən onu ələ salır. Diqqətlə baxandan

sonra əmin oldu ki, qadın tam ciddi soruşur. Könülsüz halda başını tərpətdi, ağızucu:

- Yazıçı və tənqidçiyəm.

Qadın əl çəkmək fikrində deyildi:

-Neçə kitabınız var? - Soruşdu.

Həşim Güllü çap olunmuş kitablarının sayını dedi. Qadın qəribə bir həqarətlə:

-Beş? Niyə belə az? – Soruşdu. - Yəqin istedadınız zəifdir ki, belə az yazmısız.

Həşim Güllü vurğunluqla qadına baxıb izah eləməyə çalışdı:

- Düzü, bir az tənbəlliyim , bir az da maddi problemlərim var. – Sonra əlavə etdi: - Kitabı da məlumdur ki, müftə nəşr eləmirlər. - Güldü. - Yoxsa yazmağa nə var ki... Əlimdə bu saat iki kitablıqyazım var. Heyif ki, imkansızlıqdan yazdıqlarım sandıqda yatır...

Sonra bu qəribə müsahibi onun nədən yazdığını bilmək istədi. Həşim Güllü başdansovdu cavab verdi:

- Satira və yumorla məşğulam, arada tənqidi məqalələr dəyazıram. - Qadın üçün anlaşıqlı olsun deyə, əlavə elədi: - Yəni lağlağı yazıram.

- Təəccüblü deyil ki, sizi heç kim tanımır. İndiki dövrdə lağ-lağı kimə lazımdır e?!

Həşim Güllü qadına baş qoşduğuna görə peşiman oldu. Həvəssiz halda:

- Bəs, nədən yazmaq lazımdır? Bəlkə mənə məsləhət verəsiz, yol göstərəsiz?!

Yazıçının zəhərli istehzasını qadın eyninə belə almadı:

- Gecdi, bu yaşda sənə məsləhət dəkömək etməyəcək, - dedi. - Gərək məhəbbətdən, sevigidən yazaydın. Əbədi mövzudu, hamını cəlb edir.

Həşim Güllü hirsləndi. Qadınla yaxından tanışlıqdan vaz keçdi, onunla yuxarıdan aşağı danışan gözəlçəni yerinə oturtmaq fikrinə düşdü:

- Ay qız, get, bozbaşını bişir! Məsləhətçimə bax! Özün bir şey yaz, sonra ona-buna vedrə bağla. Bəlkə deyəsən, hansı divar qəzetində cızma-qara edirsən!?

Qadın siqaretini çırtma ilə zibbil yeşiyinə göndərib təzəsini odladı.

- Mən də yazıçıyam, – dedi. - Bu günə kimi on dör kitabım çıxıb.

Həşim Güllü quruyub qaldı. Təkrar soruşduqda qadın istehza ilə:

- Düz eşitmisən, - dedi. - Yeddi şeir, səkkiz nəsr kitabım var. Yaxınlarda daha iki romanım çıxacaq, nəşriyyata vermişəm.

- Maşallah! Bir belə kitabı nəynən buraxırsınız?

- Sponsorum var, -deyə qadın dişini ağartdı, foyedə gəzişən kəlpeysərə tərəf əlini uzatdı. - Gördüyün o kişi

mənim xeyirxah sponsorumdur. İstəsən səninlə tanış eləyə bilərəm.

Yazıçı qadının dediyi tərəfə baxdı. Kəlpeysərin görkəmindən ürəyi düşdü, bu yaşda yumruq-təpiyə dözəsi canı yox idi.

- İstəməz, - tez dilləndi. Amma marağı qorxusuna güc gəldi: - Ədəbiyyat jurnallarında, qəzetlərində çap olunursuzmu heç?

- Yox! - Qadın pıqqıldadı. - Kimə lazımdı sizin səfsətə ilə dolu qəzet və jurnallarınız?

- İmzanızı söyləyə bilərsizmi mənə?

Qadın birdənhiddətləndi, gözəl üzü dəyişdi:

- Guya bilmirsən? Haqqımda məqalə yazırsan, amma tanımırsan!? – dedi. Sonra istehza ilə irişdi: - Yazdığın məqalə başına dəysin. Adım Lətif Lətafətdir.

- Nə???

-Nənə! - Qadın açıqla çımxırdı. - Ağzını Allah yolunda qoymusan, iş bilmişəm, tənqidçiyəm! "ƏdəbiyyatımızınLətafətsiz günləri"ni yazmaqla nə demək istəyirsən, axı!? Onu dolayırsan, bunu doluyursan, sənə nə,xalq nə təhər yazır. Şairəm, şair deyiləm, yazıçıyam, yazıçı deyiləm, özüm bilərəm. Sənin nə borcuna? Yadında qalsın, birdə cızma-qaralarında adımı çəksən özündən küs! Deyərəm, qol-qabırğanı sındarlar, qoca dəyyus!..

Qadın Həşim Güllünün məqaləsi dərc olunmuş qəzeti çantasından çıxarıb yerə atdı. Ayaqqabılarını ona yaxşı-yaxşı silib dabanlarını taqqıldadaraq foyedə gəzişən kəlpeysərə yanaşdı, qoluna girdi. Onlar deyə-gülə uzaqlaşdılar...

Həşim Güllüdurduğu yerdə səntirlədi,ayaqları sözünə baxmırdı, qadının tapdaladığı qəzetin üstünə çökdü. Pıçıldadı: “Şükür, yaxşı qurtardım!”. Sonra qəzetinbaş redaktorunun dalınca deyindi: “Əlin quruyaydı o kitabı mənə verdiyin yerdə. Dilin quruyaydı, bundan bir şey yaz dediyin yerdə. Ədəbiyyatın lətafətini dadmaq elə mənə qalıb?..”

## Müdrik buqələmun

Satirik yazıçı Həşim Güllü ahıl yaşında mal-mülk qədri bilən olmuşdu.İyirmi il qabaq hökumətin ona müftə-müsəlləm verdiyi torpaq sahəsindən möhkəm yapışmışdı. Daha neynəməli idi ki? Təqaüdə çıxandan sonra bilmişdi ki, olan-qalanı, var-dövləti elə budur. Bağ yeri Subənddə idi. Ötən o illər ərzində torpaq sahəsini hasara almaqla, bir-iki ağac əkməklə kifayətlənmişdi, gücü elə buna çatmışdı. Təzəlikcə isə qədr-qiymətə minmiş bağına qeydiyyat sənədi almaq fikrinə düşdü. Uzun get-gəllər heç bir nəticə vermirdi. Sənədləşmə işləri sanki dalana dirənmişdi. Əvvəldən üzləşəcəyi çətinliklərdən agah olsaydı, bəlkə də heç barmağını da tərpətməzdi. Daha iş işdən keçmişdi, başladığıəməli yarımçıq qoya bilməzdi, mütləq sona çatdırmalı idi.

Sənədlər yerli-yerində olsa da, çəpərləmədə kənaraçıxma var idi. Ayrılmış on sot torpaq sahəsi iyirmi ildə artıb iyirmi sot olmuşdu. Həşim Güllü gülərəkbundan xəbərsiz olduğunu söyləsə də, inanan yox idi.Ünsiyyət qurduğu məmurların heç biri zəbt olunmuş sahənin

sənədləşməsini boynuna götürmürdü, dinməz-söyləməz kağızlarını qoltuğuna verirdilər.

Həşim Güllü bir neçə ay idarələrə ayaq döyəndən sonra saxlanclarını eşələdi, amma tapdığı qəpik-quruşa yaxın duran olmadı. Qeydiyyat idarəsinin ətrafında var-gəl edən dəllallarağızlarının dadını bilirdilər. Həşim Güllüdən artıq sahənin bazar qiymətini qırtmaq istəyirdilər.

Eləmədi tənbəllik, ora zəng elədi, bura zəng elədi, bir şey çıxmadı. Karlı vəzifəsi olan tanışlarının hamısının ağzını aradı, yenə bir şey alınmadı.

Bir gün bulvara təmiz hava almağa çıxmışdı, köhnə tanışlarından biri ilə təsadüfən rastlaşanda şox sevindi. Haçansa qəzetdə bir yerdə çalışmışdılar. Düzdür, işlədikləri müddətdə bir elə də yaxın ünsiyyətləri olmamışdı. Tanışı tezlikləqəzetdən uzaqlaşmışdı. Həşim Güllü onun adını xatırlamağa çalışdı, yadına sala bilməyib soruşmaq istədi, amma utandı. Bunu aydınladırmağı sonra saxlayıb söhbətə nərdivan qoydu. Onsuz da vaxtını öldürməyə, laqqırtı vurmağa adam axtarırdı.

Ordan-burdan xeylimırt vurdular, keşmiş həmkarlarını yada saldılar. Həşim Güllü bekarçılıqdan başına gələnləri ona danışdıqda köhnə tanışı birdən qəh-qəhə çəkdi. Həşim Güllü incidi:

- Qardaşım, başqasının dərdinə gülməzlər...

Tanışı gülməkdən yaşarmış gözlərini sildi:

- Bağışla, Həşim müəllim, sənin sadəlövhlüyünə heyranam! Heç dəyişməmisən, - dedi. Daha sonra ciddiləşdi: - Yaxşı pul verməsən, çətin ki, bu işi başa çatdırasan.

Həşim Güllü inanmadı, nəsə yadına düşdü, güldü:

-Xatırımdadı, qəzetdə işləyəndə də özündən toqquşdurmağı xoşlayırdın. Hətta, bir dəfə...

Həmkarı Həşim Güllünün köhnə palan içi tökməyinə imkan vermədi:

- ...Müəllim, qəzetdən gedəndən sonrahəmin idarədə işləmişəm. Bir neçə il mətbuat xidmətində çalışmışam.

- Bəs, sonra nə oldu?

Tanışı Həşim Güllünün diqqətli baxışları altında boynuna aldı:

- Vəziyyətim əla idi, pula pul demirdim, - boynuna aldı. - Sonra dalımdan dəydilər. Onları qınamıram, günah özümdə idi. Burnumu hər yerə soxmağım rəislərin xoşuna gəlmirdi. Bir sözlə, qəzetçilik vərdişim başıma bəla oldu. Danışmalı deyil...

Həşim Güllü ümidlə ona baxdı:

- Hər halda idarədə köhnə tanışlarından qalmamış olmaz. İstəsən yəqin ki, kömək edərlər.

Tanışı başını buladı:

- İnanmıram! – dedi. - O idarədə pulsuz heç kimi yaxına buraxmırlar. Hər şey rəis müavinin əlindədir. Çox qansız adamdı.

Həşim müəllim inanmadı:

- Mənə müdrik adam təsiri bağışladı, - dedi. - Sabah təkrar qəbuluna yazılmışam.

Həmsöhbəti başını buladı, yana-yana dilləndi::

-Əsl həqiqətdə isə o, baş kəsənin biridi. Sən bilmirsən, o şəxs buqələmundur, dondan dona girməyi əla bacarır. Bu adamın gözü doymur! Şəhərdə onlarla obyekti, mənzili, adını çəkdiyin Subənd yolunda hektarla torpağı var. Başqa-başqa adamların adına sənədləşdirib. Elə bilir heç kim bilmir. Elə gəzdiyi bahalı maşınının nömrəsi nəyə desən dəyər. Bütün doqquzları yığıb ora.

- Sən hardan bilirsən?

- Bayaq dedim axı, qəzetçinin gözündən heç nə yayınmır. Elə marağım başıma bəla açdı. Torba tikib mitilimi bayra atdılar. Tuturdular, Allahın rəhmi gəldi, yaxamdan əl çəkdilər.

Bu əsnada həmkarının telefonuna zəng gəldi. O, telefonda nəsə deyənə qulaq asıb ayağa qalxdı:

- Bağışla müəllim, getməliyəm. Yazıçı adamsan, müavinin qəbuluna gedəndə kitablarını götür. Kisəsinin başı dolubsa kömək eləyəcək. - dedi, yenə qəh-qəhə çəkdi.

- Düzdür, inanmıram, amma həyatda hərdən möcüzə də baş verir...

...Səhərisi Həşim Güllü qəbula nagüman getdi. Rəis müavinicavan olsa da, başındakı saçları ağappaq ağarmışdı. Arxası pəncərəyə tərəf qoyulmuş masanın arxasında oturmuşdu. Pəncərədən düşən işıq onun ağ saçlarına bir müqəddəs çalar verirdi.Bu hal isə Həşim Güllünün ürəyini kövrəltdi. Asta addımlarla onun masasına yaxınlaşdı, kitablarını müavinin qabağına qoyub oturdu, gəlişinin məqsədini söylədi.

Kabinetin qüdrətli sahibi kitablar üçün təşəkkür elədi, birini laqeydliklə varaqlayıb soruşdu:

- Neçə yaşın var, şair?

Həşim Güllü gəldiyi məsələyə aidiyyəti olmasa da, yaşını söylədi. Müavinbaşını buladı:

- Ay rəhmətliyin oğlu, dövlət sənə on sot havayı yer verib, sənə kifayət eləmir, əlavə on sot da zəbt edirsən. İndi də düşmüsən qapılara onu özəlləşdirmək istəyirsən.

Həşim Güllünün üzündə şeytanlaroynadı

- Günahkaram, rəis, amma... - Dedi, amma dərhal dilini dişlədi, yadına düşdü ki, bura mübahisəyə gəlməyib.

Rəis ağ saçlarına sığal çəkib əda ilə:

- Neynəyirsən bir belə torpağı, şair, özünlə aparacaqsan? - Soruşdu, sonra qondarma bir mehribanlıqla əlavə etdi: - Dünya görmüş adamsan, şair,

görəsən insanın gözü haçan doyacaq?İnsan övladı haçansa tamahına “dur” deyə biləcəkmi?

Həşim Güllü daha özünü saxlaya bilmədi, şirin dillə dedi:

- Rəis, tamahıma necə “dur” deyim, axı? O gün minmişdim maşına getmişdim Biləcəriyə tərəf. Sağ tikilib, sol tikilib, Sumqayıta qədər yüz hektarla ərazil hasara alınıb. Bunu görəndə adamın ağzı sulanır, tamahı cümbüşə gəlir. O biri gün gedirəm Qaradağa tərəf,Salyana qədər torpaqlar çəpərlənib. Adamın gözü həsəddən qaralır, tamahı oyur-oyur oynayır!

Rəis müavini çoxbilmiş bir istehza ilə:

- Yəni yazacağın felyeton belə başlayacaq?

Həşim Güllü rəis müavinin dərrakəsinə heyranlıqla təsdiqlədi:

- Düz tapmısız, - söylədi. Ardıyca yarımçıq qalmış monoloqunu bitirməyə çalışdı: - Hə, minirəm maşına gedirəm Subənddəki bağıma. Bəh-bəh-bəh!Yolun solu tutulub, sağı tutulub, qabağı tutulub, arxası tutulub... Hə, öz aramızda qalsın, sizin maşınınızı da hərdən oralarda görürəm. Doqquzların sayından tanıyıram.

Bu yerdə rəis müavinin nəinki üzünün , az qala, ağ saçlarının rəngi də bozardı. O, boğuq səslə onun sözünü kəsdi:

- Görürəm, hazırlıqlı gəlmisən...

Həşim Güllü eşitmirmiş kimi:

- Həəə,futbol meydançası kimi nəhəng istilikxanalar bir deyi, iki deyil, üç deyil ...

- Qurtar, ay kişi, palan içi tökmə. O yerlər sənədli-sübutlu yerlərdir...

Həşim Güllü onun ağrıyan yerini tapdığına sevindi, amma sevincini büruzə vermədi, qondarma laqeydliklə:

- Əslində, məni nə hektarla hasarlanmış yerlər, nə də istilikxanalar maraqlandırır. Öz torpağım mənə bəs eləyər. Artığı lazım deyil, bir ayağım burdadı, bir ayağım gordadı... – dedi. - Düzmü deyirəm?

Rəis müavini ağarmış başını qaldırmadan:

- Sənədlərini qoy, qalsın...Görüm, neynəmək olar... – sakitcə dedi. - Sabah gələrsən...

Həşim Güllüqeydiyat sənədini alacağına əminliklə fikirləşdi ki, rəis müavini buqələmun olmağına buqələmundu, amma müdrik buqələmundu. Saçları havayı yerə ağarmayıb ha...

# SABAH PUL GÜNÜDÜR...

Onların üç uşağı var. Xranoloji ardıcıllıqla desək, birincisi qız, iki sonrakı oğlandır. Qərarları bu olub ki, kifayyətdir, həvəsdi bəsdi, nöqtə qoymaq lazımdır, elə atalar da üçəcən deyib.

Qızın on yaşı var, məktəbə gedir, qayğıları artıb, evdə səsi çıxmır. Oğlanlar kiçikdir. Biribələkə də əl-qol atır, o biri altı yaşın içindədir, yaman da nadincdir, bir yerdə oturmaqla işi yoxdur, az qala düz divara dırmaşsın. Nadiclikdə kimə oxşamışdı,məlum deyildi. Atası tərəfindən dəfələrlə döyülsə də, söyülsə də usanmırdı.

Ev söhbətsiz olmaz. Qadınlakişi "atışanda" çalışırlar ki, uşaqlar eşitməsinlər. Nə vacib düşüb, fikirləşirdilər, indidən səfeh-səfeh mübahisələrin şahidi olsunlar. Bir gün gələcək onlar da həyatın ağrı-acısını dadacaqlar. Hələlik, qoy, qulaqları dinc, ürəkləri rahat olsun.

Amma axır vaxtlar qoyduqları qaydaları istəmədən pozurlar. İkisinin də əsəbləri korlanıb, münasibətlərində bir haqq-hesab güdmə meyli peydə olub. Neynəsinlər, şadlıq qapılarının yolunu unudub, məişət ehtiyacları onları göz açmağa maçal vermir. Mübahisə qəflətən, qarşısı alınmaz bir sürətlə baş verirdi. Uşaqlarbunun tamaşaçısına

çevrilirdilər. Qız böyük olduğundan, hər şeyi anlayır,ürəyinə salır, üzündə uşaqlara xas olmayan bir ciddilik yaranırdı.

Bir də görürdün ki, cib boş, maaş günü uzaq, qadın da axır vaxtlar dildən pərgar, başlanırdı... Kişi qulaq asır, asır, sakitcə cavab versə də, hiss edirdi ki, içərisində hər şey sim kimi tarım çəkilib!

İkisinin də əlli yaşı var. Ali məktəbi bir qurtarsalar da, uzun illər bir zavoddamühəndislik eləsələr dəizdivacları gec baş tutmuşdu. Onların yaşıdları indi nəvə sahibi idilər, onlar isə hələ də çağa bəsləyirdilər.

Üçüncü uşaq doğulandan sonra qadın evdə oturmuşdu.Dolanacaqları bir az da çətinləşmişdi. Qanqaralığın kökü də burada idi.

İndiqadın səbrlə gözləyirdi ki, kişi çay-çörəyini axıra çıxsın. Sonra süfrəni yığışdıra-yığışdıra dilləndi:

- Heç bilmirəm sabaha nə bişirim... Kartof qurtarıb, ət bir həftədir yoxdur, o günləri axırıncı tikəni bişirdim. Neçə gündür uşaqlar səhərlər yağ yemirlər. Nədir, bizi acından qırmaq fikrindəsən?!

- Alaram...

Kişinin bu mülayim və asta cavabında nə vardısa qadınbirdən bomba kimi partladı:

- Bəsdir, doladın məni!-deyə çığırdı-Yaxşı yolunu tapmısan! Nə deyirəm başını tərpədirsən! "-Alaram!"

deyirsən. Haçan, axı?!

Kişi başını qaldırdı,yorğun halda:

-Qışqırma!-deyə xahiş etdi- Sabah alaram!

Qadının ağzı əyildi:

- Yenə sabah?! Əşi, bir həftədir sənə söz deyirəm. Bilmirsən ki, azuqənin axırıdır? Bəs, tərpən də... Bir çarə tap da.

- Maaş sabah olacaq.Neynəyim , neçə gündür gecikdirirlər.

- Necə neynəyim?

- Ay qız, uşaqlardan utan!Eşidirlər, axı!

Qonşu otağın qapısından boylanan oğlanla qıza bir nəzər fırladan qadın səsini bir xal endirsə də davam etdi:

- Qoy, eşitsinlər! -dedi- Sənə deyəndə ki, iki uşaq bəsimizdir, dedin, yox, atamın səkkiz oğlu olub. Dedin, mən bir qız, bir oğlanla kifayyətlənməyəcəyəm! Buyur! Dolandır da! Dolandıra bilməyəcəkdin niyə... Əh, yenə ağzımı açacaq ha! Sən ölənlərinin goru, başa sal, bu tifillərəsabah nə bişirim?! Mən cəhənnəmə...

Kişi səbirlə bir də izah elədi:

- Sənki bilirsən bizim zavodu! Maaş keçən həftə verilməli idi. Gecikdiriblər. Sabah mütləq verəcəklər...

Qadın artıq sakit səslə:

- Yaxşı, heç olmazsa çörək aldırmağa pulun varmı?! Ver, mənə.

- Odur, cibimdən bir manat götür...

Qadın kürsüyə səliqə ilə qoyulmuş pencəyin cibindən pulu götürür,birdən təəcüblə:

- Daha yoxundur?!

Kişi cavab vermir.

- Bəs, işə necə gedib-gələcəksən?!

Kişi könülsüz gülümsəyir:

- Birtəhər gedərəm...

- Biletsiz?!

- Nə olar ki?!- deyə kişi laqeyid əlini yelləyir. - Neçə gündür avtobusda kənara baxmıram ki, birdən tanışlardan biri rastıma çıxar göz-gözə gələrəm, biletini götürməli olaram...

Qadın köksünü ötürür, kişiyə yazığı gəlir, sakitləşir.

Qız aranın sakitləşdiyini görüb astadan xahiş elədi:

- Ana, olarqaqaşla həyətə çıxıraq?

- Olar-deyə qadın icazə verdi. - Amma geyinin, hava çevrilib.

Uşaqlar geyinib çıxdılar.

Bayırda erkən payız küləyi vıyıldayırdı.Ailənin yaşadığı alçaq, birmərtəbəli evin damının şiferlərini qonşunun tut ağacınınçılpaq budaqları döyəcləyirdi. Qadın gözünü balaca pəncərənin imkan verdiyi uzaqlığa baxırdı, birdən dedi:

- Nə olaydı, lotoreyamız udaydı...

- Latoreya hardan səninçün?! – deyə kişi təəcübləndi.

- O günü dükançının xırdası olmadı, lotoreya verdi.

Kişi tüklü çənəsini qaşıdı: “- Sabah qırxmaq lazımdır, amma ülgüc kütdür. Əlac nədir, maaşı alana kimi dözmək gərək!”

- Çətin udsun...- deyə kişi dilləndi.

- Bu ili də bir təhər yola verək, inşallah, işə çıxaram.

- Xeyri nədir ki!?! Sənin aldığın yüz on manatdır, elə üst-başına gedəcək...

- Niyə elə deyirsən?- deyəqadın incidi-Necə olsa, köməkdir...

- Deyirəm, adamın basaratı bağlananda bağlanır da! Barı yolda beş-on manatpul da tapmıram ha!

Qadın istehza ilə:

- Bəlkə xəzinə arzusundasan?!

Kişi dirçəlir:

- Nə olar ki?!

- Eləsə, gərək gedib ev sökəsən, ya yer qazasan... Xəzinə ancaq elə yerlərdə olur.

Kişi mızıldandı:

- Yerqazmaq üçün on beş il oxumaq lazım deyil ha!

- Guya böyük iş görmüşük! İnsan öz axmaq səhvi üzündən ac qalır da!

- Sovet hökuməti dağılmasaydı yaşayacaqdıq. Qoydular bəyəm...

- Kənarda iş tapsaydın...

- Mən bu yaşımda gedib nə iş görə bilərəm?

- Ailəni saxlamaq lazım deyilmi?

Kişi qalxır ayağa, bayaqdan bəri birinci dəfə gülümsəyir:

- Vallah, hamısının günahı atamdadır.

Başımıza döyə-döyə məktəbə göndərirdi. Deyirdi:

"-Balalarım, çörək oxumaqdadır!" Oxuduq. Buyur, ağ günlü olmuşuq! Bəh-bəh!

Qadın məkkildəyən çağanı arabadan götürdü, soruşdu:

- Sizinkilərin səkkizi də inistitut qurtarıb?!

Kişi pencəyini üsulca kürsüdən aldı, asılğana keçirib aparıb asdı. Yeganə bayırlıq paltarı bu idi.

Kostyum almağa imkan yox idi.Qayıdıbkürsüyə yayxandı:

- İki kiçiyi texnikum qurtardı. – dedi. -Utanmasaydım, vallah, tüpürərdim diploma. Gedib fəhlə işlərdim. Qorxuram atam eşidə bağrı çartlaya. Kişi həmişə deyir ki, mən on baş külfəti yeddiyüz əlli manatla, yəni indiki yetmiş beş manatla, dolandırmışam. Siz yəqin çox bədxərcsiniz ki, iki mühəndis maaşı ilə dolana bilmirsiniz, həmişə də şikayətlənirsiniz... Nə deyəsən?!

Qadın uşağı döşünə salmışdı, birdən ufuldadı:

- Üff! Gör, necə dişləyir ha! - dedi. - Köhnə adamları başa salmaq mümkün deyil! Hər şeyin bahalaşdığını nəzərə almırlar...

Bir də aşıq kördüyün çağırar... Mənim anam da elə deyir.

Onlar uşaqları unutmuşdular. Bacı-qardaşın səsi bayırdan gəlirdi. Birdən qapı taqılltı ilə açıldı, oğlan qışqıra-qışqıra içəri təpildikdə onlar susdular.

- Ata, ata, bax, gör, nə qədər pul tapmışam?!

Çağa səsdən diksindi, bərkdən ağladı. Qadın yaxasından çıxmış döşünü içəri salmağı unudub həyəcanla ayağa durdu. Kişinin rəngi ağardı, gözləri iriləndi. Oğlan əlindəki bir qom kağızı başı üstündə yellətdikdə kişinin beynindən ildırım kimi bu fikir keçdi: “- Deyəsən, Allah səsimizi eşitdi! Bundan sonra necə inanmayasan?!”Özünü atdı uşağına üstünə:

- Ver bura, oğlum, ver atana! - dedi.

Oğlan bir qom kağızı onun ovcuna dürtdü, kişi baxdı və udqundu:

- Bu nədir?! - deyə bağırdı.

Oğlan hırıladadı:

- Ata, konfet kağızlarıdır da! Zarafat edirəm...

- Zarafat?! – deyə kişinin tutulmuş səsi açıldı və uşağın yaxasını çəngələdi, boynun kökünə bir-iki şapalaq

çəkib, fırlatdı o biri otağa, təngimiş halda- Bu da sənin zarafatının mükafatı! Dəyyus balası!

Bir azdan qonşu otaqdan oğlanın aramsız hıçqırtısı gəlirdi. Qız dəftər-kitabını töküb dərslərini hazırlayırdı. Qadın yenidən çağanın döşünə sıxmışdı, işıq uşağı narahat etməsin deyə əlini çətir kimi tutmuşdu.Pəncərədən daha heç nə görünmürdü, qaranlıq düşmüşdü. Küləyin səsi tədricən kəsilirdi.

- Oğlanı bərk vurdun...

- Deyəsən...

- Bəlkə qalxıb könlünü alasan?

- Qoy bir az da sızıldasın, ağlı başına gəlsin sonra...

- Uşaqların yanında gərək mübahisə etməyək.

- Özünə desənə! - deyəkişi onu acıladı. - Adamı dəng edirsən! Mən valideyinlərimi bircə dəfə də pul üstündə sözləşdiyini görməmişəm... Biz isə...

Qadın qımışa-qımışa onun sözünü kəsdi:

- Elə odur da pul qazanmağın yollarını bilmirsən!

- Yaxşı, gəlsənə hər gün dalaşaq - deyə kişilağ elədi. - Hər gün deyək: “-Pul, pul, pul!” Qoy oğlanlarımızpullu olsun! Hə?!

Qadın mülayimliklə:

- Bu yaşdadalaşmağımızayıbdır-dedi- Uşaqlardan ayıbdır.

- Elədir...

- Görəsən biz də ağ gün görəcəyik?

- Pənah Allaha!...

Qadın birdən pıqqıldadı:

- Amma konfet kağızlarına nə sevindin!

Kişi tərs-tərs ona baxdı, qadın güləndə gözəlləşirdi.O da haçandan-haçana gülümsədi. Sabah maaş veriləcəkdi. Evə azuqə alınacaqdı.

# TEATRDA

O, ayda bir dəfə uşaqları şəhərə çıxarırdı. Bu da ancaq istirahət günləri mümkün olurdu. Başqa vaxtlar işdən o qədər yorğun gəlirdi ki, ona suvaşan balalarına bir xoş söz deməyə ərinirdi.

Bu gün arvadı toya getmişdi. Böyük oğlu dedi ki, dərslərimi hazırlayıram, gedə bilməyəcəyəm. Məhəmməd

bir az düşünüb on iki yaşlı oğlunu və səkkiz yaşlı qızını götürüb çıxdı şəhərə.

Xeyli gəzdilər.Parkda onları şeytan arabasına mindirdi, yedirtdi, dondurma aldı. Lap axırda soruşdu ki, daha nə istəyirsiniz?

İkisi dəbir səslə dedi ki, gedək sirkə.

Məhəmməd dodağını büzdü:

- Əşi, yekə adamlarsınız,nə görmüsüz sirkdə, axı? Gör neçə dəfə aparmışam, hələ də doymamısız ?! –dedi.

Düzü, onun sirkin səs-küyündən bərk acığı gəlirdi. Bir də bilet üçün uzanan növbə yadına düşdü, çalışdı ki,

mümkün qədər sirki çoxpisləsin, uşaqların gözündən salsın. Buna nail oldu. Onlar soruşdular:

- Bəs hara gedək?!

- Gedək teatra, - deyə Məhəmməd fikirləşmədən təklif elədi.

Razılaşdılar.

Teatrlardan hansınınsa qarşısından ötürdülər.

Afişaya baxdı. Tamaşanın başlanmasına yarım saat qalırdı, amma kassanınönü boş idi. Bu, Məhəmmədi sevindirdi. Rahatca bilet alıb foyeyə keçdilər. Seyrək tamaşaçı axınına qoşulub yerlərini tutdular. Məhəmməd özündən razı halda fikirləşdi: "-Yaxşı oldu. Yoxsa sirkdə çığ-vığdan qulaq tutulur. Burda isə hamı pıçıltı ilə danışır. Yaxşıca dincimi alaram..."

Uşaqları astadan xəbərdar elədi:

-Baxın ha! Özünüzü yaxşı aparın. -dedi- Bura sizin üçün sirk deyil.

Oğlu mısmırığını salladı. Bilirdi ki, söz hər ikisinə deyilsə də yalnızona aiddir.

Bir azdan pərdə qalxdı, tamaşa başlandı. Aktiyorlar canı-dildən bağırırdılar, ayağını yerə döydülər, sirkdəki kimi şit-şit oyunbazlıq eləyirdilər, ammasidqi-ürəklə əsnəyən tamaşaçılarıinandıra bilmirdilər.Məhəmmədi xoş bir mürgü basırdı. Amma pərdənin enməsibuna mane oldu. Antrakt elan olundu.

Onlar foyeyə çıxdılar.

Ata istədi uşaqlarını bufetə aparsın, oğlu qayıtdı ki:

- Ata, mən də artist olacağam!

Məhəmməd bufeti yaddan çıxartdı:

- Baho, deyəsən aktyorların oyunu xoşuna gəlib?!

- Yaxşı idi! - deyə oğlu ehtiyyatla təriflədi. - Amma bağırtı çox idi.

Məhəmmədin gözləri iriləndi:

- Sən lap bizim məşhur tənqidçilər kimi mülahizə yürüdürsən ki! - deyə zarafat elədi.

Oğlu zarafatı qəbul eləmədi:

- Mən dram dərnəyinə yazılmışam.-dedi.

- Deməli məktəbdə sizə artislik öyrədirlər?!

- Bəli, ata!

- Deməkteatr bilicisi olmusan?-deyə ataistehza ilə dilləndi.

- Hələ yox!-deyə oğlu istehzanı anlamırmış kimi cavab verdi-Sadəcə ədəbiyyat müəllimimizdeyir ki, bağırtı hələ sübut deyil...

- Müəllim düz deyir, - Məhəmməd sözü çevirdi. -Bəs, niyə birdən-birə artistlik fikrinə düşmüsən?! Deyəsən,kloun olmaq istəyirdin, axı?!

Qızı birdən böyürdən qaqqıldadı:

- Ata, Fərrux o günləri deyirdi ki, pasport alan kimi Sibirə qaçacağam, orda maralotaran olacağam. Sənə, deyirdi, maral dərisindən şuba göndərəcəyəm...

Fərrux onun sirrini açmış bacısına gözünü ağartdı:

- Xəbərçi!-dedi. - Ölsən də sənə daha heç nə

deməyəcəyəm ...

Qızcığaz düz iş görmədiyini anlayıb, başını atasının dalında gizlətdi, daha səsini çıxarmadı.

Məhəmməd hələ də marağını təmin edən cavab alacağına ümüd etdiyindən dedi:

- Əlbəttə, artistlik pis sənət deyil, amma pis odur, sən gündə bir fikrə düşürsən. Bəlkə bir az da fikirləşəsən, Fərrux?!

Fərrux inadla dedi:

- Daha fikrimi dəyişməyəcəyəm! Mütləq artist olacağam! - dedi və gözləri parıldaya-parıldaya atasına doğru əyildi. - Dünyanın ən xoşbəxt adamı onlardır...

Məhəmməd özünü gülməkdən zorla saxladı, bığlarını sığalladı:

- Bu bir az qəliz oldu, axı?! – dedi. - Götürək məni, mühəndisəm, səncə bədbəxtəm?! Ya anan həkimdir, o xoşbəxt deyil?! Ay səni! Ha-ha-ha!

Məhəmməd daha özünü saxlaya bilmədi, qəhqəhə çəkdikdə Fərrux hirsləndi:

- Həmişə beləsən də! – dedi. - Gülmək hələ sübut deyil:

- İncimə, oğlum,- deyə ata dəsmalla gülməkdən yaşarmış gözlərini qurutdu. - Artistin nəyi axı, xoşbəxtdir?!

- Onlar nə istəsələr deyə bilərlər! Ürəklərini boşaldırlar. Hamı onlara qulaq asır, sözünü kəsmir... Bax, buna görə!- deyə Fərrux atasının qolundan tutdu.

Məhəmməd işin bu tərəfinidüşünməmişdi, amma atmacasından qalmadı:

- Sənin ki ağzını bağlayan yoxdur! Sən də ürəyindəkini de də! Kim sənə mane olur?!

Fərrux birdən uşağa xas olmayan bir istehza ilə:

- Qoyursuz bəyəm?! – dedi. - Sinifdə bir ağıllı

söhbət salan kimiuşaqlarhırıldaşırlar: “ -Təzə filosof çıxıb,” - deyirlər. Müəllim masanı tıqqıldadır: “- Dərsdən kənar şeylərlə başını qatma, bala!”- deyir. Evdə də sən qayıdırsanki, a bala, baş-qulağımı dəng eləmə, yaxşısı budur gündəlikdəki üçləri düzəlt. İndi də deyirsən ki,ağzını bağlayan var?! Bəs, bu ağız bağlamaq deyil, nədir?!

Məhəmməddiqqətlə oğluna baxdı:

- Afərin, bir sıfır sənin xeyrinə, - dedi. - İndi mənə qulaq as! Birincisi,danışmaq da elmdir. Yaxşı danışa bilsən qulaq asan da tapılar. İkincisi, hər artist ürəyindəkini desə, onda bu teatır olmaz ki! Olacaq bazar! Artist sən deyən kimi də nitqində azad deyil. Onun başı üstündə bilirsən nə qədər adamdayanır? Nə bilim baş rejissor, rejissor, teatrın bədii rəhbəri.

Fərrux fikrə getdi, və utana-utana soruşdu:

- Deyirsən, rejissor, ya bədii rəhbər olsam,ürəyimdəkiləri deyə bilərəm?!

- Oğlum, mətni onların heç biri yazmır, axı!

Bunun üçünyazıçılar var, şairlər var, dramaturqlar var... Bir də hər sənətdə ürəyindəkini deməyə imkan var. Bəyəm konstruktor ürəyindəkini demir?! Deyir! Amma cizgilərlə. Rəssam rəsimləri ilə. Mühəndis yaratdığı maşınlarla. Rejissor da qoyduğu tamaşalarda ürəyini açır. Artistsə rolları ilə...

Fərrux atasına fəxrlə baxdı:

- Ata, sən fikrini yaxşı ifadə eləyirsən. - deyə onu təriflədi.

-Tərifinə görə sağ ol, oğlum!Amma açığı, mən indiyə qədər bu barədə heç düşünməmişdim. - deyə Məhəmməd saatına baxdı. - Gedək ,vaxtdır...

Tamaşanın ikinci hissəsifikir-xəyal içində keçdi. “-Buyur, bu da mənim hər ay sirkə apardığımuşaq! Demə, Fərrux daha yekə kişidir! İyirmi ildir mühəndislik eləyirəm, hələ indiyə qədər ağlıma gəlməyib ki, mən ürəyimdəkini deyə bilirəm, ya yox?! Deyəsən ,heç belə bir ehtiyac hiss eləməmişəm. Əziz Nesin haqlıdır,indiki uşaqlar möcüzədir!”

Teatrdan çıxıb evə qayıdanda yol boyugötür-qoy elədi, bir qərara gələ bilmədi. Fərruxunyerişinə-duruşuna bir xeyli baxandan sonra birdən qət elədi : “ – Bundan sonra

onları elə sirkə aparsam yaxşıdır! Qoy, sakitcə böyüsünlər, - deyə fikirləşdi. – Onlarınnə vaxtıdır ki? Böyüyərlər, özləri bilərlər, kimə nə demək lazımdır!”

# KİŞİLİK DƏ BİR ŞEY DEYİL...

G.G. on beş il oxuyub, diplom almışdı, sənət sahibi olmuşdu. Mühəndisliyi bir şey olmasa danakişilikdə çox püxtələşmişdi.Bir adam qabağında çöp sala bilməzdi.

Nakişilik sənətinin otuz doqquz üsulunu bilirdi... Qırxıncı üsulunubilməsə də bəzən elənakişiliyə qol qoyurdu ki, bu sənətin ustaları da heyrətdən beşbarmağının beşini də ağzına aparırdı....

Bir gün G.G. könlündən keçdi ki, bir kişilik eləsin. Bilirdi ki, nakişilik nə qədər böyük olursa olsun,adı-sanı yoxdur. Bir kiçikkişilik çoxunun kölnünü açır. Fikirləşdi ki, görəsən, kişiliyin neçə üsuluvar?Kitabxanalara baş vurdu,həm məşhur kişilərin , həmnakişilərin xatirələrini oxudu. Məlum oldu ki, nakişilikdən fərqli olaraq kişiliyin bircə üsulu var,o da kişilikdir.

Səhər işə gedəndə arvadına tapşırdı:

- Əzizim, axşama hazırlıq gör, qonaqlıq verəcəyəm.

Ərinin işləklərinə çoxdan adət eləmiş arvadışəkləndi, elə bildi qulaqları onu aldadır. Bir xeyli olardı ki, evlərində qonaq-qara səsi eşidilmirdi. G.G.-nınəlininaçıq vaxtı bircə ad gününə düşürdü, o da dördildən bir olurdu, çünki fevral ayının iyirmi doqquzu doğulmuşdu.

- Nə olub, ay kişi?!- deyə soruşdu.

Bu dünyanın çox qəribə işləri var, hətta nakişi arvadı da ərinə “ay kişi”müraciyət eləyirdi.

Arvadərinin dinmədiyini görüb təkrar soruşdu:

- Bayram gəlməyib, ad günün deyil,qonaqlıq niyə verirsən? Bəlkə bir kimsənənin damını başına uçurmusan?

G.G.acıqlandı:

- Hərzə-hərzə danışma! – dedi. - Bu gündən kişilikdən savayı bir iş görməyəcəyəm. İstəyirəm bir-iki kişini evə çağıram.

Arvadın ağzı getdi qulağının dibinə:

- Yüngülsaqqal olarsan!

Özünə kişi deyən sənin çörəyini kəsməz.

G.G. izah elədi:

- İş ondadır ki, bu gündən mən də ancaq kişilik eləyəcəyəm.

Arvad inanmadı:

- Özünə zəhmət vermə, ay kişi, kişilik kişi işidir...-dedi.

G.G. özündən çıxdı:

- Kəs səsini, - deyə qışqırdı: - Kişilik edənin nəyi məndən artıqdır?Maşınım, evim -eşiyim, bağım-bağçam, şəhərdə məndən də əlli-ayaqlısı varmı?! Bir əl, iki ayaq mənim var, bir əl iki ayaq daonların... Onlar bacaran işi mən hay-hay bacararam...

Arvad geri çəkildi, amma qorxa-qorxa mızıldandı:

- Elə bilirsən,kişilik eləmək bir içimlik sudur?.. -dedi: - Kişilikhalvadır bəyəm?!

- Əzizim, sən necə də səfehsən? - deyə G.G. yanıb-yaxıldı. - Elə bilirsənnakişilik kişilikdən asanddır?! Nakişilik çox çətin sənətdir.

Günlərlə gərəksəbr edəsən, ov güdəsən, can qoyasan... Kişiliyi isə addım başıeləmək olar.

- Bəs elə isə, - deyə arvad istehza ilə dilləndi. - Bu vaxta qədər niyə bircəkişilik dəeləməmisən?!Əlindən tutanmı vardı?!

G.G. ah çəkdi:

- Eh, - dedi: - Birini bilirsən birini yox. Deyirlər, kişilik edənin papağı həmişə cırıq olur, çünki qapazı əskik deyil...

- Bəs bunu bilə-biləsənə nə düşüb haram çörəyinə halal qatırsan! - deyəarvadı xeylitəəccübləndi. - Kişiliyiniyəmüştaq olmusan?Bəlkə felə düşmüsən?

- Dünya, arvad, gəldi-gedərdi... Bir də nakişilikdən yorulmuşam.Kişiliyin heç nəyi olmasa da , adı-sanı var.Nakişiliyin hər şeyi var, amma şərəfsiz işdir.

Vay o gündən ki, bu sənətdə adın çıxa, ondan sonra dükandan bir beş arşın ağ al bürün, uzanqəbrə... Yaxşı, başım söhbətə qarışdı, işə gecikirəm... Al, bu pulu, bazardan yemək-içmək al!

Şöbəyə girəndə gün çeşt yerinə qalxmışdı, hamı öz işi ilə məşğul idi.

G.G. ayağınıiçəri qoyan kimi birkişilik elədi:

- Salam! - dedi və iki yüz kvadrat metrlik otağı dolandı, masa dalında oturan işçilərlə görüşdü.

Beş il olardı ki, G.G. bu şöbədərəislik eləyirdi. İndiyə qədərişçilərlə əl verib görüşdüyü nədir, baş endirib salam verdiyi olmamışdı. Hamının boğazı qurumuşdu, gözü dörd olmuşdu.

Küncdə oturmuşmühəndis Vilayət kiçik mühəndislərdən birinə pıçıldadı:

- Yəqin bu G.G-nintəzə nömrəsidir. Şöbədə tufan qopacaq.

Baxarsan,G.G.-nın bizə verdiyi“salam” bizisağalmaz dərdə salacaq.

Hamı ilə görüşəndən sonraG.G. daha bir kişilik elədi:

- Keyfiniz necədir?- deyə soruşdu.

- ...

Şöbənin işçiləri donuxub qalmışdı. Otaqda milçək olsaydı, vızıltısı eşidilərdi, amma milçəklər də qorxudan buralarda hərlənmirdilər, bu beş ildə G.G.-nın xasiyyətini bildiklərindən aradan çıxmışdılar.

- Elədir ki,var!-deyə mühəndis Bilayət pıçıldadı-Deyirdilər rəisimiz nakişiliyin otuz doqquz üsulun bilir, inanmırdım. Bu yəqin qırxıncı üsuludur...

G.G. üzünü narahatlıqla qurcuxan bir mühəndisə tutdu:

- Əkrəm, o günləri rayona getmək istəyirdin... İki günsənə icazə verirəm... - deyə daha bir kişilik elədi.

Pəncərə qabağındakı masa arxasında oturmuş, qorxaqlıqda ad çıxarmış Əkrəmin rəngi ağardı, qorxa-qorxa:

- İstəmirəm, rəis, dahaistəmirəm... - dedi.

G.G.başa düşmədi:

- Getmək istəyirdin, axı! - dedi. - Neçə dəfə kabinetimə gəlib xahiş eləmisən.

- Daha istəmirəm, - deyə qorxudan Əkrəmin dişləri bir-birinə dəydi. - Məni çevir balalarının başına, rəis.istəmirəm...

- Özün bil, mən səni məcbur eləmirəm..- deyə G.G. razı oldu.

Sonra aparıcı mühəndis Cavada döndü:

- Axırıncı layihəni vaxtından qabaq qurtardığına görə sənin qurupunu mükafatlandıracağam... - dedi.

Cavad gözünü qıydı:

- Zarafat eləmirsiniz ki, rəis?! - deyə soruşdu. - İldəiyirmi-otuz elə layihəqurtarırıq. Hələ ki, mükafat görməmişik. İndi nə olub.?!

G.G. inamla:

- İnanmırsınız? - deyə soruşdu. - Vallah, verəcəyəm.

- Özünüz bilərsiniz. - deyə Cavad şübhə ilə dilləndi: - Verərsiniz də sağ olun, verməzsiniz də!

Rəis özünü, deyəsən, təmiz çaşdırmışdı. Dedi:

- Vilayət, cəzanı üstündən götürəcəyəm.

Mühəndis Vilayət keçən həftə bir yağlı töhmət almışdı. Rəisdən bərk yanıqlı idi. Töhmət bir yana, aylıq mükafatı əldən getmişdi. G.G. qəsdəntapşırığı ayın ortasındavermişdi, demişdi: “Ayın axırına qədər qurtarmasan, özündən küs”.

Vilayət özünü oda- közə vursa da, işi başa çatdırmamışdı...

Rəis dikbaş Vilayət barəsində məlumat yazmışdı. Direktor da onun çaldığı ilə oynamışdı, mühəndisi bica yerə cəzalandırmışdı.

Vilayətyanındakılara pıçıldadır:

- Deyəsən, dünyanın axırıdır. - dedi. - G.G. kişilik eləmək istəyir... Allahaxırını xeyrə calasın!

Rəis bütün bu kişilikləri eləyəndən sonra yoruldu. Ləhliyə-ləhliyə bir şüşə su içdi. İclasa tələsdi. Çıxış eləməkadəti deyildi. O hər işini qapı dalında görməyə öyrəşmişdi. İndi söz istəyəndə şöbə müdürləri boylandılar. Direktor sevimlisinə söz verdi.

G.G.ayağa qalxdı:

- Cənab direktor, mənim şöbəmdə Vilayət adında bir mühəndis işləyir. Biz ona töhmət vermişik, mükafatını

kəsmişik. Bu qərar əslində düz deyil. Aldığı tapşırığı nəinki bir aya, heç üç aya da qurtarmaq olmazdı. Mən öz etirazımı bildirirəm.

Direktor çaşıb qaldı.

Fikirləşdi: "-Ay dadi-bidad, bu cüvəllağı da dil açdı?! Dikbaş Vilayət bundan şükranlı imiş. Yazıq gəlib mənəmərd-mərdanə iki kəlmə söz demişdi. Yaxşı!"

Şöbə rəisləri sevinirdilər. Direktorun sevimlilərindən biri üsyan bayrağı qaldırmışdı...

- G.G.qurtardınmı? - deyə direktor soruşdu.

- Bəli.

- Eləsə qulaq as! Mən sənin xahişinlə mühəndis Vilayəti cəzalandırmadımmı?

- Elədir, amma siz demişdiniz ki, ...

- Saxla, - deyə direktor kadırlar şöbəsinin müdürünə döndü, - Əmrdə düzəliş eləyərsən, mühəndis Vilayətin adını pozub G.G.-nın adını yazarsan.

...G.G. evə qanı qara qayıtdı. Arvadı soruşdu:

- Nə oldu qonaqların?

- Qoy hamısı cəhənnəm olsun.

- Niyə?

- Direktor mənə töhmət verdi.

- Niyə? Sənki onun sağ əlisən?

- Bir kişilik eləmək istəyirdim,

direktorun acığı tutdu.-deyə G.G. boynunu bükdü - Elə kişiliyin dəadı çıxıb,axırı yox imiş. İndi bildim niyə düz danışanın papağı cırığolurmuş...

O gündən G.G.bir də kişilik eləmək fikrinə düşmədi. Ömrünün axırına kimiöz xislətinə qulluq elədi. Bu dünyadan nakişi köçdü.

# BASTAR ULDUZA HÜRÜRDÜ

Yox, Bastar it deyildi, adam idi. Söz qanırdı, dil bilirdi. Zarafat eləsən səninlə zarafat eləyirdi, nasaz olsan halına yanırdi.Söz qanmaqda, dil bilməkdə çox adamlara dov gələrdi.

Üç-dörd il qabaq bekara bir küçük idi. İndi əmələ gəlib şəkil kimi bir it olmuşdu. Neçə vaxt idi ki, qapı-bacadan arxayınlaşmışdım. Bir adamı bu həndəvərdə hərlənməyə qoymurdu.

Bastar zəncirlərini tərpədir, hasar hündürlüyündə atılıb-düşür, qart itlər kimi "hav-hav" hürürdü. Gəlib gedənin ürəyi qorxudan ağzına gəlirdi.

Bir kimsənə qapımızı qorxudan aralamazdı. İşi düşən uzaqda dayanıb ev adamlarını haraylayar, haraylayar, səsinə hay verən olmayanda çıxıb gedərdi. Bastar belə Bastar idi. Hürə-hürə it olmuşdu.

Bir gün Bastar zəncirindən qırılıb məhəlləyə küy salmışdı. O gün daha it qalmadı ki, əzikləməsin, basmarlayıb qanına qəltan etməsin. Zəncirini təzələdim. Gördüm yox, Bastara davam eləmir. Gedib bir dənə ton yarımlıq yükə davam gətirən tros tapdım. Bu zəncir Bastarı daha da qudurtdu. İndi ona yaxın getməyə özüm də ehtiyyat eləyirdim...

Bir səhvim olmasaydı Bastar it də anası Bozdar it kimi ev-eşiyə keşik çəkər, çəkər, qocalıb gəbərəcəkdi.

İş belə düşdü. Eşitdim itlərin yarışı keçirilir. Gününü dəqiqləşdirib, mən əli qurumuş, Bastar iti təmizlədim, bir-sirkəsini tökdüm, yuyundurdum, daradım, götürüb apardım it yarışına...

Başqa itlərlə müqayisədə, demə, Bastar tamaşa

imiş... Boyu bir yaşar cönkə boyu, rəngi yanar alov, ağzı qazan ağzı, biləkləri çəpər payası. İt pəncələrini asta-asta atır, pələng kimi ətrafa laqeyid baxırdı. Çox qəribə də olsa, bu gün nəhəmcinslərinə, nə adamlıara hücüm çəkmirdi. Ölmüşə deyəndə ki:

-Dayan, Bastar.

İt dayanırdı.

-Get, Bastar.

Gedirdi.

- Otur.

Otururdu.

- Hoppan.

Hoppanırdı.

Qərəz, tamaşa idi. Üzü yüz cür it üzü görmüş hakimlər belə Bastarın dərrakəsinə, fəhminə heyranqamışdılar. Medalın biri də bizim Bastara düşdü. Ay allah, it necə sevinərmiş.! Nə oyunlardan çıxmadı. Medalı onun

boynundan asan hakimin ayaqlarına suvaşıb qopmurdu. Hakimin gözləri yaşardı:

- Bu it sədaqətdə çox adamların əlinə çöp verə bilər!Hayıf ki, it doğulub. - deyəəyilib Bastarın başını sığalladı.

İt dal ayaqları üstə qalxdı, meydandaqəşəng bir dövrə vurdu, gəlib yanımda oturdu.

O gündən it tamam dəyişdi. Həyət bacaya daha azfikir verirdi, lap yazıqlaşmışdı. Qonşuların iti, pişiyi həyətə ayaq açdı. Bastar isə saatlarla yağış gölməçənin, ya da it damında qoyulmuş yalağın qabağında çönbəlir, boynundan asılmış medalın sudakı əksinə tamaşa eləyirdi.

Bir gün qonşunun itini mətbəxdə gördüm. Hirslənib cumdum Bastarın üstünə. Bir təpik, iki təpik... Ayağım medalın qaytanına ilişdi. Qaytan qırıldı. Bundan sonrait üstümə atıldı. Əlimdəki yarmaça ilə ona bir-iki tutuzdurdum. Başladı zingildəməyə, ulamağa. Dedim, indi sakitləşər. Bir saat keçdi, iki saat keçdi, gördüm sakitləşmir.

Qorxu düşdü canıma. Dedim, it quduzlaşdı.

Çıxdım bayıra, gördüm, it quduza oxşamır.. Medal qabağında ulayır. Ağlıma gələn fikirdən sümüyüm eymәndi.

Cəld medala bir ip keçirtdim, saldım Bostarın boynuna. İt dərhal səsini kəsdi. Mən barmağımı dişlədim:

- Bay, canın yansın it!

Bu bir parça metalda sən nə görmüsən, axı?!- deyəheyrətləndim.

Keçən həftə qonşunun oğlu əlinə keçən bir şahılığı deşib onun boynundan asıbmış. İşdən qayıdıram, mənim də xəbərim yox! Bastar ildırım kimi atmasın özünü üstümə! Heç demə şahılığa sevinirmiş...

Bir gecə onun zingiltisinə çıxdım bayıra. Gördüm it başını göyə qovzayıb, ulayır.

Xoş bir yaz gecəsi idi. Hava sakit, ulduz əlindən göydə barmaq basmağayer yox idi. Bastar aya baxır hürüdü, ulduza baxır hürürdü. Ay bir dənə idisə, ulduzun sanı yox idi. İtin hürüşü də haçan kəsiləcəkdi məlum deyildi. Evdəkilər də çıxdılar... Qızım qışqırdı:

- Ata, ay ata! Bastarın ulduza gözü düşüb, vallah! -deyə güldü. - Yəqinyazıq aşiq olub!

- Ay qız, axmaqlama! - deyə qızıma acıqlandım. O birinci sinifə gedirdi, çöldə- bayırdaeşitdiklərini təkrar etməyi xoşlayırdı-İt nədir, aşiq oldu nədir?!

Oğlum soruşdu:

- Bəs, bu heyvana nə olub belə?

- Deyirlər, köpəkqocalanda aya-ulduza hürər!

- Ata, bəs, Bozdar qocalanda niyə ulduza hürmürdü? - deyə qızım soruşdu.

Əlimi yellətdim:

- Bozdar it, qızım, aya-ulduza hürmürdü, düzdür, amma Günəşəhürürdü.

Onun iddiası daha böyük idi.Sənin yadında olmaz, onda uşaq idin.

Bastar isə hürməyində idi. Bir gün, beş gün, canımı boğazıma yığdı. Özümüz də dəng olmuşduq, qonşular da. Əgər köpəyin gecələr aya-ulduza baxıb ulamağı olmasaydı, gəbərənə kimi saxlayacaqdım... Xeyrinə-şərinə baxmazdım... Öldürməyə əlim qalxmırdı. Gözünü bağlayıb mindirdim maşına , aparıb azdırdım...

# BİZİM ADAM

Bəxtiyar tığ vurulmuş dəmir-dümür qalağının yanından adlayıb, özünü ağaclığa saldı. Qollu-budaqlı

söyüdün altında dörd həmkarı oturub söhbət edirdi. O da yanını yerə basıb ağacın gövdəsinə söykəndi. Həyəcanla üzrxahlıq etdi:

- Gecikdim deyəsən! – dedi. - Əllərimi yudum, qabaq qapıya gedirdim elə, eşitdim, Əliqulu sexdədir, biriqadirləri soraqlaşır, tez yolumu dəyişdim. İzi yayındırmaq üçün zavodu dövrə vurmuşam....

Yazın axırı idi. Gün günorta yerinə yürüyürdü. Zavodun hündür hasarlarına boy verən ağaclar həm onları kölgələyirdi, həm də izafi maraqdan yayındırırdı. Yığıncaq məxfi idi.

Qaynaqçılar biriqadiri Əli çox əlləşəndən sonra, axır ki, bir-biri ilə didişən həmkarlarınıdinə-imana gətirmişdi.

Barışıq elan olunmuşdu. Sabah da sınaq günü idi. Yerli komitənin sədri Əliqulunun sexə gəlişi təzə xəbər deyildi. Axır günlər əl-ayaqda idi. Gəlirdi gedirdi,gelirdi gedirdi. O da briqadirləri dilə tuturdu...

Tornaçılar briqadiri Əkrəm yerini rahatlayıb dedi:

- Elə o vaxt sizə deyəndə ki, Əliqulu direktorla cici-bacıdı, inanmırdız. Gördüz? O gün məni tovluyurdu.

Deyir, istəsən sənə Kislovodska bir müftə putyovka təşkil edərəm... Gör nə ilə satın alır!

Səfər sinəsinə döydü:

- Yığma briqadasının briqadirinin qiyməti daha ağırdı! Səni lap ucuz tutublar ki!- dedi: - Bolqarıstana turist səfəri gözləyir məni!

Bəxtiyar istehza ilə:

- Noldu bəs!- deyə soruşdu.

Səfər eyni istehza ilə:

- Kağızlarımı tikdilər sənin mənzilinin orderinə!-dedi.

Səfər bilirdi ki, Əliqulu Bəxtiyara növbədənkənar mənzil vəd eləmişdi.

Əli mətləbə keçdi:

- Yaxşı, bir azdan fasilə qurtarır. Başlayaq, - dedi. - Yığışmağımızın məqsədi bəllidi. Müqəddimə artıqdır. Biz...

- Qoy bu işə əncam çəkək, inşallah, Əlqulunun puçunu burmaq mənə borc olsun... O fəhlələrin “atasını” elə bir günə qoyum ki... – deyə Bəxtiyar yanğı ilə Əlinin sözünü kəsdi.

Qafar kişi çal bığlarını səbirsizliklə didişdirdi:

- Hələ sən dayan!- dedi. - Nə düşmüsən ortaya? Qoy, görək, Əli nə deyir! Heç böyük-kiçik yoxdur ey!!

Qafar kişi iyim ildi sexdə işləyirdi. Sayılan adamlardandı. Dəmirçilər briqadası onun bir sözünü iki eləmirdi. Amma axır vaxtlar kişinin şiti şoruna qarışmışdı. Cavanlarla buynuzlaşırdı. Bir vaxtlar onun briqadasından qaçmış lağlağıcı Bəxtiyardanisə lap acığı gəlirdi.

Əli uzun qollarını avar kimi yellədi:

- Ayıbdı, Qafar kişi, ayıbdı! – dedi. - Böyük nədi, kiçik nədi?!

Burayığlanların hamısıböyükdü! Hərənin dalında otuz-qırx nəfər dayanır.

Bəxtiyar köhnə ustasını ayağa vermədi:

- Qafar kişinin ürəyi hələ də doludur. – dedi. - Qoy danışsın.

Əli narazı halda:

- Elə belə edirsiz ki, iki həftədi bir sex rəisi seçə bilmirik. Müdiriyyətin göndərdiyini bəyənmədik, yaxşı! Dedik, özümüz seçəcəyik. Buda yaxşı! Buyur! Hər briqadanın öz namizadı var! Əcəb! İki namizad göstərən briqadanın üzüvləri nə fikirləşir...

Bəxtiyar pərt-pərt güldü. İki namizad göstərən onun briqadası idi.

- Hələ üç idi! - dedi və birdən şaqqıldayıb güldü-Ha-ha-ha! Qulaq asırlar bəyəm?!Demokratiya hara, seçki hara, biz hara! Deyirəm, uşaqlar, ikisiçoxdur. Deyirlər, sən demokratiya qanmırsan! Qərəz, gücnən yola gətirdim.

Araya bir şirin gülüşmə düşdü. Qafar kişi bir məsəl çəkdi:

- Deyirlər, görməmişin bir oğlu oldu, şadlığından vurub gözünü tökdü. Balam, bu demokratiyadı, aşkarlıqdı,

deyəsən bizim əlimizdə həlak olacaq...

Əli saata baxdı:

- Di yaxşı, - dedi. - Namizadımız kim olacaq.?!

Bir-birinə macal vermədən hərə bir ad çəkdi:

- Baş usta Nağıyev...

- Usta Kəbir yaxşıdır...

- Mən mühəndisVəliyevi təklif edirəm...

Əli üz-gözünü turşutdu, elə bil yağırını taptalamışdılar:

- Əkişi, siz nə təhər adamsız!?! – dedi və köksünü ötürdü. - Deyəsən, Usta Qafardan savayı dünən dediyimi heç kim götür-qoy eləməyib. Ay başınıza dönüm, biz hər yetəni sex rəisi qoya bilmərik. Təkrar edirəm, namizadımız mülayim, söz qanan, çörək verən, yox yerdən fəhləyə pul çıxaran, həm dolanan, həm də dolandıran bir adam olmalıdır. Budur bizim qəlibimiz!

Dördü də vəcdlə başını tərpətdi. Bəxtiyarəl çaldı:

- Əla qəlibdi! –dedi. – Ustasına eşq olsun!

Usta Qafar astadan qeyd etdi:

- Bu qəlibə Allahın bacısı oğlu da sığmaz!

Hardan tapaq belə əməli-saleh adamı?!

Əli onun sözünə gülümsədi:

- Usta, ümüdsüz düşmənin olsun! Taparıq! -dedi- Ürəyiniz qalmasın deyənə adı çəkilənləri qəlibləyək! Götürək Nağıyevi! Bircə acı dili kifayətdi ki, qəlibdən çıxsın. AlaqKəbiri! Ondan da bizə yar olmaz! Yeyib-içən oğlandı, onunla hamımız badə badəyə vurmuşuq.Hər xasiyyətinə, hətta, yalançılığına da bələdik! Keçək mühəndis Vəliyevə! Acgözdü! Açıq danışaq, özgəsi yoxdu, işdi beş manat artıq naryad bağlayanda, kor dilənçi kimi kəsir adamın başının üstünü, deyir, beşini də ver! Yox, bizim adam deyil!

Usta Qafar söz aldı. Əvvəl özündən on beş yaş kiçik Əlinin dərrakəsinə alqış dedi, daha sonra demokratiyanın iki başından danışdı, daha sonra hamını birliyə səslədi. Bir sözlə ucundan tutub, üz qoydu ucuzluğa! Hamının səbri tükəndi.

Bəxtiyar Qafar kişinin ucuzluqdan da o yana ötəcəyini görüb aman vermədi, sözünü kəsdi:

- Sözünün arasında balan dursun, usta Qafar, mən səmim-qəlbdən Əli qardaşın namizədlıyinitəklif edirəm!- dedi və hamının diqqətini topladı. – Əli qardaş ali təhsillidir! Əli qardaş ağıllıdır! Əli qardaş dost qədri biləndir! Əli qardaş, maşallah, boylu-buxunludur...

Əli hirslə dizi üstə qalxıb onun ağzını əydi:

- "Əli qardaş", "Əli qardaş"! Kəs səsini, lağlağaçı! Təzə vəkil çıxıb mənə!Sənə neçə dəfə deyərlər ki, mənə rəislik lazım deyil, - söylədi.

Bəxtiyar günahkar halda əllərini yana açdı:

- Bəs sən kimi məsləhət görürsən?-deyə soruşdu.

Əli başını bulaya-bulaya güldü:

- Mənimnamizadımhazırdır, - dedi və üzünü yana tutdu: - Cəfər qardaş, irəli çıxsana!

Briqadirlər bir-birinin üzünə təəccüblə baxdılar. Yaxındakı küknarın altından çıxan Cəfəri görüb, hamı ayağa qalxdı. O, neçə illərdi ki sex rəisinin müavini işləyirdi. Rəislər dəyişilirdi, o isə qalırdı. Cəfər dinməzcə gəlib onların bərabərində durdu. Əli öskürdü:

- Bu kişini tanımayan varmı? - deyə soruşduqda məlum oldu ki, Cəfəri tanımayan yoxdu. - Bəs eləsə, niyə

gözünüz tutulub?! Bəlkə biri ondan inciyib? Narazı olan varsa barmağını qaldırsın! Yoxdur. Hansı naryadı vermisiz ona , o, bağlamayıb?! Sənədə soruşmadan qol çəkir! Birindən umacağı varmı?! Yoxdur. Özünüz nə vermisiz götürüb qoyub cibinə, verməmisiz ağzını da açmıyıb! Neçə ildi müavindi, sexi tanıyır. Bir sözlə, bizim adamdı! Dahanəyi gözləyirsiniz?! Allahın bacısı oğlu yerləşməyən qəlibə bu kişi yerləşir...

Sabah biz onun namizədliyini təklif edəcəyik, dalında da dayanacağıq!

Hamı əlini qaldırdı. Doğurdanda, bu kişi layiqli namizad idi!

## TƏKQULAQ XOTUĞZADİN HƏYATI

Ağqulağin sevinci Tırkədi kəndinə sığmırdı. Yeddi qızdan sonra oğlu olmuşdu. Heç ona istehza ilə “çoşşa” deyənlərin ilim-ilim itməsi, indi ona hörmətlə “dayı” deyilməsi Ağqulağıbu qədər sevindirməmişdi.

O, adqoydu keçirmədi.

Dedi: “- Fərli oğuladı özü qazanmalıdır.”

Boy-buxundan, yekə başından oğlu bir az ona çilət vururdu, bir az da,.. bir az da,.. amma öz aramızdı qalsın, bir az da qonşuya çilət vururdu. İş indi onda deyil. Xotuğ şəkil kimi uzunqulaq idi. Palaz qulaqlarılap düşmən gözü çıxarırdı. Gözləri də düz idi, dahaAğqulağın gözləri kimi çəp deyildi.

Yaman da nadinc idi. Üç ayı tamam olmamış gedib it məhəlləsinə girmişdi.

Dingildəyib vazdamağıitləriboğaza yığmışdı. Alabaş itəvvəl xoşluqla mırıldanmış, sonra acıqla, daha sonrahır-zır qanmayan yekə baş xortuğun üstünə atılıb, onun göz çıxaran qulaqlarından birini yerindən qoparmışdı. Nadinci qan aparmışdı. Hamı dedi, öləcək. Hətta məşhur Qulaqlı Loğman da: “- Ümüd yoxdur,” - dedi. AmmaAğqulağın son beşiyi ölmədi, üzü bərk çıxdı, sağaldı. Adı da o gündən qaldı Təkqulaq.

Ağqulağı övlad basmışdı.

Günün on saatını işləyirdi, axşamlar keşik çəkirdi, səhərlər muzdla anqırıb kəndi oyadırdı. Amma yenə də borc-xərclə ayı başa vururdu. Cavan çağlarında könlündən müğənlilik keçirdi, müğənliliyin dalınca gedirdi, şairlik keşirdi,şairliyin dalınca gedirdi. Hətta bir-iki mahnının ilk və son ifaçısı, bir neçə şerin sandıq müəllifi idi. Şerləri indi də uzunqulaq folklor xəzinəsində möhkəm yer tuturdu... İstedadının parladığı bir vaxtda, evləndi. Bununla başına kül oldu. Bütün həyatı araba çarxı kimi diyirlənməyə başladı. İndi, düzdür, sahibi yox idi. Sahiblər gedər gəlməzə göndərilmişdi. Amma çörəyi yenə də daşdan çıxırdı. Hamı deməyinə ona "dayı" deyirdi, di gəl ki, puluna minnət yükləyəndən sora yükün üstünə minir, minmək haqqını da, əllbətdə, vermirdilər. Bu da, oxşayır ki, köhnəliyin qalığı idi.

Bir gün Ağqulaq acgözlük elədi, bir kərəmə çox yük qaldırdı.

Düşdüsamanlığın bir küncünə. Yığdı balalarını başına. Tapşırmalısını tapşırdı, deməlisini dedi. Bu sözlərlə onları yola saldı: "- Bəsdir, havayı yediniz, çıxın gedin, özünüzə bir gün ağlayın".

Uzunqulaq da olsa müxtəsər elədi,daha uzunçuluq eləmədi . Bircə sevimlisi Təkqulağı yanında saxladı.

Dedi:

- Bala, bircə oğlumsan.

Nəslimizin davamçısı sənsən. Mən noxtasız, azad eşşəyəm, amma elə bircə adımvar. Nənən bir vaxtlar deyirdi: “- Eşşək elə eşşəkdir, hara getsə dəbelindən yük, boğazından çatı əskik olmaz. İstəyir ona “coşşa” desinlər, istəyir “dayı” desinlər, fərqi yoxdur.” Doğrudan da, çörəyimiz daşdan çıxır, oğul. Mən səhv elədim yazmağın daşını atdım. Davam etdirsəydim, indi mən də kəndin beş uzunqulağından biri idim.

Atanla şairliyə başlayanlar, odur, gur-gur guruldayırlar. Biri Xot-Xotdur, o biri Coşşadır, daha sonra İşakovdur, saymaqla qurtarmaz. Elə Xot-Xotu götür. Üç şivədə kitabı çıxır. Di gəl ki, qafiyə qondarmağı, şeir yazmağı məndən öyrənib. Amma küçədə məni görəndə başını dik tutub keçir, sağlığıma quruca bir anqırtı da çəkməyə özünü əskiklik sayır. Nə var, nə var, mənim belimdə yük,tərləyə-tərləyə, bizlənə-bizlənə gedirəm, o isə dalı ipək çullu,ağzı demili gedir. İndi, oğul, sənə yazmaq, oxumaq,gaplama üsullarını öyrətmişəm. Daha əlindəki qələmi yerə qoyma. Şeri boşla, nəsrə keç. Uğur olsun! Get, bizim uzunqulaqnəslimizi şöhrətləndir!

Təkqulaq gaplama sənətinə qədəm qoydu. Əvvəl-əvvəl özündən bir neçə hekayə, povest uydurdu, başladı qapı-qapı gəzməyə. O, qapı sənin, bu qapı mənim, qapılar rəngbərəng, üzlü-üzlü. Birində deyirdilər: “- Çox uzun

yazırsan. Qısalt!” Təkqulaq qısaldırdı. O birində deyirdilər: “ - Tünd yazma, böyüklərin xoşuna gəlməz.” Dilində qənd əzirdi.Biri deyirdi: “-Maşallah, talantlısan ha. Nəsrin şeirdi elə bil. Gəlsənə nəzimdə də bir özünü sınayasan” Təkqulaq sınayırdı, amma nəzmi də nəsrinin çəkdiyinin çəkirdi.

İki il öyrənməyə, axtarmağa sərf olundu. İki cüt bir tək qotur yazı dərc etdirdi, Təkqulaq dünyaya gəldiyi günə lənət dedi. “- Qurban olum sənə, ay yaradan! - deyə Təkqulaq zarıdı. - Məni niyə uzunqulaq yaradırdın?! Sənə nə pisliyim keçib? Nolardı it olaydım, pişik yaranaydım, siçan doğulaydım, təki uzunqulağ doğulmayaydım...” Axırıncı dəfə yanında olduğu baş uzunqulaqlardan biri lap kökündən vurmuşdu. Demişdi: “-Bala, vallah, sən bizim uzunqulaq dilinin ahəngindən, ildırım gurultusundan, zınqırov səsindən, löhrəm yerişindən, uzun qulaqlarından, inadından, könül açan folklorumuzdan, “ai-ai” ilə başlayan dünya şöhrətli musiqimizdən, onun zilindən,bəmindən, xalqımızın yaxşı yaşamaq arzusundan, “çoşşa” dan “dayıya” qədər uzun, çətin, inadlı mübarizəsindən xəbərin yoxdur. Zəmanəyə bax ha! Əcəb cavanlar yetişir!?

Uzunqulaq gap sənətinə gör kimlər gəlir.?! Necə?! Bala, oXot-Xotdur, o biriÇoşşadir, nə yazırlar dərc edirik. Əlacımız yoxdur. Sizə isə tələb başqadır!”

Təkqulaq daha dözə bilmirdi. İntihar fikri ilə baş götürdü, qaçdı. Tırkədi kəndinin o yanı meşəlik idi. “- Gedib, canavara yem eyləyəcəyəm bu tək qulağımı!” – deyə fikirləşdi.

Yolu At məhəlləsinin yanından keçirdi. Başıaşağı gedirdi. Uşaqlıq yoldaşı Alapaçaya rast gəldi.

Onlar çoxdan dostluq edirdilər. O, buna At şivəsinin, bu ona Uzunqulaq şivəsini öyrədirdi. İndi Alapaçaona Uzanqulaqca, Təkqulaq da cavabında Atca “xoş gördük” dedi. Sevinə-sevinə görüşdülər.

Söhbət Təkqulağın işlərindən düşdü. Alapaca naz-qəmzə ilə:

- Niyə səs-sorağın gəlmir?- deyə soruşdu-Yaman darıxmışam səninüçün, Təkulaq.

- İşlərim pisdir, Alapaca!

– deyə Təkqulaq ah çəkdi. - Bir gün özümü öldürsəm təəccüblənmə. Bu dünyanın əzab-əziyyətindən canımı qurtararmaq istəyirəm, Alapaca!

- Axı, niyə? – deyə Alapacanın ona ürəyi yandı.

- Niyəsi çoxdur, Alapaca! - deyə Təkqulağ kədərləndi. - İstedadımı başda oturan bir dəstə eşşək məhv elədi. Nə ürəkləri var mənim halımayana, nə də başları var mənim halımı qana. Noxta taxdım, noxtamı da aparıb başda duranların quyruqlarına bağladım, yenəmurad hasil olmadıki, olmadı.

Alapaça Qırat nəsilindəndir deyənə uzunqulaqlara bir az yuxarıdan baxırdı. İndi də:

- Ay Təkqulaq, doğrudan da, sizin bu uzunqulaqlar niyə elədirlər,ey?! - deyə soruşdu. - Nə bir-birinə kömək edirlər, nə əl tuturlar. İşləri elədidişməkdir ha!

- Daha, demə!-Təkqulaq təsdiq etdi-Bir-birinə badalaq gəlməkdən yorulmurlar. Əgər birinin dörd ayağının dördü də palçığa batsa, obiri quyruğunu ələ verməz. Əksinə, başından basır ki, palçığa düşənin qulaqları da zığa batsın...

- Elə onu deyirəm də!- deyə Alapaça dilləndi: - Sən, axı,əvvəllər yazırdın,pozurdun. Dalınə oldu?!

Təkqulaq Xotuğun gözləri yaşardı:

- Məni intihara sürükləyən bu dərd deyilmi?!-dedi-Hara gedirəm, yazdıqlarımıverirlər qoltuğuma!

Alapacagetdi fikrə. Birdən dilləndi:

- Hayıf ki, sən At şivəsindən yazmırsan. Atama deyərdim, o da bizim dərgilərdə sənin yazılarını dərc etdirərdi, - deyə gülümsədi. -Əşi, heç indi də gec deyil! Sən ki, şükür, atca bilirsən, otur, yazılarını çevir bizim şivəyə. Ora-burasını da mən düzəldərəm, aparıb verərəm atama. Dalısı ilə işin yoxdur. Bircə ildə məşhurlaşacaqsan. Onda Uzunqulaq mətbuatı sənə yalvaracaq.

Təkqulaq başını itirmişdi.

Alapaçanın təklifini əvvəl anlamadı. Qəmli-qəmli dilləndi:

- Yox , daha dözə bilmirəm.

Bir dəfəlik bu noxtalı eşşəklərdən canımı qurtaracağam. İşə bax ha! Bir qərinədir noxtanıqırıb atıblar, yenə dəo yandan biri muşquran kimi dörd ayaq qaçırlar pişvazına! Alapaça, yadda saxla, qəlbən noxtalılar noxtasız danoxtalıdırlar. Bəsdir, mənözümü öldürməkdən savayı bir yol görmürəm.Əlvida, Alapaça!

Alapaçanın urəyi bir tikə oldu:

- Bəs, məni gözü yaşlı qoyub hara gedirsən?!- deyə əzilə-əzilə soruşdu. - Heçmənə yazığın gəlmir?!

Təkqulaqqulaqlarına, bağışlayın, o tək qulağına inanmadı, elə bildi səhv eşidir, küt-küt ürgəyə baxdı. Dili tutuldu. Birdən uzun-uzadı anqırdı, yəni dedi:

- Ola biməz, Alapaça, ola bilməz!

- Olar, Təkqulaq, olar!

- İnanmıram, Alapaça,

inanmıram! Sən hara, mən hara?!

- İnan, Təkqulaq! - deyə Alapaçaşirin-şirin kişnədi- Mən səni çoxdan gözaltılamışam.

- Necə? Axı, sən mənim nəyimi?....

-Sənin hər şeyini... Qara mükəddər gözlərini, o tək qulağını, qızılı başını, şirin ləfzini, Atca ləhcə ilə danışmağını...Yadındadır, uşaqlıqda “xala-xala”

oynamağımız? Sən ata olurdun, mən ana? Üstümə hoppanmağını, oynaqlaşmağımızı unuda bilmirəm...

Necə-necə ərdə oldum , yenə səni unuda bilmədim.

- Yəni, doğurdan, sən məni sevirsən? - deyə Təkqulaq həyəcanla soruşdu.

Alapaça vurğun-vurğun ona baxdı, dinmədi. Alov kimi yanan yalı, oynaqlayan dalı, şumal sağrısı, təpəsində ulduz kimi ağaran qaşğası həsrətdən titrəyirdi.

- ...Təkqulaq bu baxışdan, bu duruşdan az qala dəli olsun.

- Oh, mən necə də xoşbəxtəm! - deyə səsləndi. - Gəl, sənin o qaşqandan öpüm, Alapaçam! Tək qulaqlı başımın tacı! Noxtam, yüyənim, qəlb sirdaşım.

Xoşbəxtan qırtı dünyanı başına aldı.

Alapaçanın dodaqları titrədi, başını qabağa əydi, gözünü yumdu. İynəşdilər, dinəşdilər, sürtüşdülər... Onlar ömürlərinin ən unudulmaz çağlarını yaşayırdılar.

Sonra Alapaça nazik səslə kişnədi:

-Gedək, gedək, mən səni atamla, anamla tanış edəcəyəm. – dedi. - Daha səndən bir dəqiqə də ayrı dura bilmərəm...

Təkqulaq onunla lap dünyanın o başına da gedərdi, nəinki qulağının dibində olan At məhəlləsinə. Razı oldu.

Küçə ilə gedirdilər. Bütün At məhəlləsi tamaşaya çıxmışdı. Cavan ayğırlar Təkqulaqla onların nəslindən olan ürgəni yanaşı görəndə pis-pis kişnədilər.

Madyan atlar isə həsədlə, yarımçıq-yarımçıq kişnədilər.

Alapaça Təkqulağı bağa ötürdü:

- Sən buralarla tanış ol, mən də evdəkiləri hazırlayım! Qorxuram anam şadlıqdan xarab olsun... - dedi.

Anası Alapaçanı bu sözlərlə eyvanda qarşıladı:

- Qızım, nə yaxşı edib uzunqulaq gətirmisən... Düşüb bazara gedirdim. Aparıb bazarlığı yükləyərəm dalına, gətirər evə...- dedi.

Alapaça qızardı.

Utana-utana başa saldı. Ananın ürəyi az qala dayansın:

- Nə?! Elə bircə eşşək kürəkənimiz çatmırdı. Qanımızı eşşək qanına qatma, qızım.

Alapaça inadla qızıl yallı başını tərpətdi:

- Nə olar ki?! Eşşək də bizim kimi bir canlı deyilmi?! İndi onlar da noxdasız, sahibsiz yaşayırlar. İstəyəndə yük daşıyırlar, istəyəndəbaşqa sənətlə məşğul olurlar...

- Bala, səfehləmə, eşşək elə eşşəkdir! Yüklüsü də, yüksüzü də.

- Təkqulaq çox talantlı uzunqulaqdır. –deyə Alapaçaanasını dilə tutdu - Məşhur olacaq.

- Boşla, qızım! Beləməni başa salgörüm onda nə görmüsən, axı?!

Alapaça acıqlandı:

- Onda nə gördüyümü yaxşı bilirsən. – dedi. - Özün söhbət edirdin ki, cavanlıqda, az qala, bir qara uzunqulağa ərə gedəcəkdin... Sən ovaxtınə görmüşdün?!

Ananın daha sözü qalmadı, pərt oldu. Haçandan haçana dilləndi:

- Bala, eşşəkdən kürəkən çıxmaz, küləkən olar.Qalanlarını sən bilərsən, atan bilər.

Bu ara Alapaçanın atası Qıratzad gəldi çıxdı. Xəbəri eşidib acı-acı güldü, istehza ilə:

- Bəli, Alapaçanın toyu, deyəsən, tarixi toy olacaq- dedi-Qırat nəsli ilə boz eşşək nəsli qohum olacaq. Zəmanədir də! Gör bizi kimlərə tay elədi! Nə qədər noxtalı idilər,biz hara deyirdik uzunqulaqlar daora gedirdilər. İndi bizimləbərabər olublar da! Neynəyək!

- Sən razısan? – deyə ana heyrətləndi.

- Razı oldum, ya olmadım, Alapaça qızıxıb, gedəcək!Yaxşı, qoy belə olsun, – deyə Qıratzad kənarda dayanıb qulaq asan Alapaçaya baxdı. - Get, qızım, bəlkə bunun bir xeyri də oldu.

Uzunqulaq məhəlləsi ilə qohumluqbizə vacibdir. Sabah şıllaq davası qızışanda bilərik köməyimiz var. Toy oldu, yas oldu bilərik, su daşıyanımız var! Uğur olsun! Çağır gəlsin o Tayqulağı, görəkminəndə əlimiz qulağına çatar, ya yox!

Alapaçagetdikdən sonra Qıratzad uzun müddət sakitləşə bilmədi.

- Ha, ha, ah! Eşşəklərlə də qohum olaq! Ha,ha,ha! Deyirlər, atın at yeri var, eşşəyin eşşək! Bəs hanı?!

İndiikimizin də yeri bir oldu ki!

Yanasan,zəmanə! Axırda eşşəklər gəlib arpa yeyəcək, atlar samana da həsrət qalacaqlar.

O gündən Təkqulaq Xotuğzad imzasılə At mətbuatında tez-tez görünməyə başladı. Atlar bu imzaya əvvəl dəvə nalbəndə baxan kimi baxırdılar. Sonra maraq onları üstələdi. Oxudular, gördülər, yox, bunda nəsə var. Xotuğzad olanda nə olar, insafən, adlı-sanlı atlardan pis

yazmır.

Xotuğzadın uzunqulaqların həyatından olan hekayələri, povestləri yüksək at dairələrində də maraq oyatdı. Təkqulağın yazılarındaneşşək adət-ənənələri, onların ağrıları, arzuları yaxşı təsvir olunurdu.

Məsələn, atlara indiyə qədər məlum deyildi ki, niyə inada düşmüş eşşək yerindən tərpənmədikdə, onun quyruğundan dartırlar. Dartan kimi də inad eşşək inadını yerə qoyur. “Eşşək gətirdi, eşşək yedi” məsələnin izahı isə atları valeh elədi.

Uzunqulaq psixologiyasının dərin qatları hələ heç kim tərəfindənbelə təndürüst işıqlandırılmamışdı....

At mətbuatı ilə əməkdaşlıq Təkqulağa pul, şöhrət, dizinə qüvvət gətirdi. Elə həmin il At şivəsi ilə tanışlığı olan Alabaşonun yazılarını İtçəyə çevirdi. Təkqulaq Tırkədigapçıları arasında tanınmağa başladı. İtlərlə binədən düşmənçilikləri olan pişiklər onların dilini öyrənməyə məcbur idilər. Adlı- sanlı pişiklər tez-tez İt mətbuatına müraciyət edirdilər. Müxtəsər tanışlıqdan sonra Təkqulağın yazıları Pişikcə çap olundu. Bu artıq Təkqulağınmüəffəqiyyəti idi. Deyəsən, Tırkədi gap sənəti daha bir klassikini əldə edirdi.

Təkqulağın gaplama sənətində irəliləyişini izləyən Ağqulaq çox sevinirdi. Onu heyrətləndirən doğma

uzunqulaq mətbuatının eşşək inadı iləsusması idi. Bir gün Təkqulaq atasının yanına gəldi. Kefi kök halda bir-iki ağız anqırdı, yəni:

- Vaxtdır, elçiliyə getmək lazımdır! Evlənmək istəyirəm.-dedi.

Bu sözü eşidən Ağqulaqbərk sevindi. Əvvəl elə bilirdi ki, gapçılığa uyduğundan Təkqulaq dünyanın qalan nemətlərinə biganədir.Demə, yox!

- Toyunu görüm, a bala-dedi- Kimlərdəndir gəlnimiz?!

- Biz tərəflərdən deyil...

- Bəs, hardandır? Olmaya Çətonru kəndindəndir? Nə olar ki?Yol yaxşı, çay üstündə körpü salamat!..

- Yox, ey! O yandandır.., adı nədir?!..

Təkqulaq düzünü deməyə utanırdı. Atasının mühavizəkarlığını bilirdi. Dilini sürüdü:

- Əşi,gəlnimiz At məhəlləsindəndir...

Ağqulaqbir ara dinə bilmədi.

- Nə? - deyə soruşdu. - Belə yerdə deyirlər ki, sənin başına at təpib? Axmaqlama, oğul, at nəsli hara, biz hara?!

- Mən Alapaçaya yaman vurulmuşam. Dünya mənim üçün bir tərəfə, o bir tərəfədir. Atalar deyib: “ Ər kişiniyaxşı saxlar yaxşı arvad, yaxşıat!” Mən bir şıllaqla iki hədəfi vururam. Həm ata sahib oluram, həm də arvada...

- Biz hara, onlar hara?!

Biz yük daşımağa yaranmışıq,onlar minilməyə.Biz qanqal yeyirik, onlar arpa. O məhəllənin qızları da quyruq düyüyüb gəzməkdən başqa bir şey bilməzlər.Minilmişindən isə gəlin olmaz.

Təkqulaq ümidini bağlamışdı atasının sağlam dünyagörüşünə.

Çalışırdı inandırsın.

- Birini bilirsən, birini yox! Arada borc məsələsi var, axı! Alapaçanınatası məşhur Qıratzaddır. Tutmuşam onunquyruğundan ki, bəlkə məni bir ağ günə sürüyüb çıxartdı. İndisənin sözün nədir, bütün bunlardan vaz keçim?! Nə var, nə var Alapaça minilmiş madyandır!

Nə olar ki?! Arvadı elə ona görəalmırıqmı?!

Ağqulağın qanmaz oğluna acığı tutdu:

- Eşşək oğlu, qocalanda peşman olacaqsan! Atın doğduğundan sənəövlad çıxarmı?! Bala, mən istəmirəm nəslimizin kökü səninlə də kəsilsin, çünki bizim nəslin tarixi tərifədiyin Qıratzadın nəslindən də qədımdir. Mən o nəsli yaxşı tanıyıram. Sən nə qədər cavansanAlapaçaşirəni çəkəcək, elə ki, qocaldınqoyub qaçacaq. Quyruğunubelinə düyüyüb düşəcək başqaağırların dalınca.

Təkqulaq axırıncı sözünü dedi:

- Dediklərin indi qulağıma girmir ey, girmir!

Mən razı ola bilmərəmki, ilk övladım dünyaya bic gəlsin...

Bu yerdə Ağqulağın nitqi kəsildi.Gördü iş-işdən keçib. Bir-iki hörmətliuzunqulağı yanına alıb elçiliyə getdi.

Qıratzadın evinisoruşdu. Nişan verdilər.Qıratzadın mülkü nəhəng saray idi. Həyətdə muzdla tutulmuş dəstə-dəstə at, eşşək, dəvə işləyirdi.

Aparırdılar, bişirirdilər, düşürürdülər, süpürürdülər, yuyurdular...

Ağqulaqla gələn uzunqulaqlar bu cah-cəlalı görübqorxudan hərə bir yana dağılışdı. Qaldı Ağqulaq tək. O,“-Hər nə olar, olar!”- deyə fikirləşdi və qorxa-qorxa mülkə yaxınlaşdı...

Qıratzad eyvanda oturub bala-bala dəmlənir, arabir də demisini fısqırdırdı. Birdən aşağı baxdı. Quruyub qalmış Ağqulağı gördü, istehza ilə soruşdu:

- Ay uzunqulaq, nə gözünü bərəltmisən?!-dedi- İş istəyirsənsə, gəl,həyətdə eşşək işi çoxdur...

Ağqulağınkeçmiş qüruru baş qaldırdı:

- Ay müftəxor, deyirsən, baxmaq da olmaz?! Sənin kimilər gedər gəlməz yolun yolçularıdır. Nə əcəb səni yaddan çıxarıblar?!

Qıratzad çıxdı özündən:

- Gör, noxtadan çıxandan sonra bu uzunqulaqlarnecə də dil açıblar. Yaxşı, mən sənə göstərərəm.

- Nə dartirsan özünü? - deyə Ağqulaqbir az da dərinə getdi. -Miniləminilə baş saxlayırsınız da!

- Nə? Bu saat sənin...

Arada eyvana çıxan Alapaça aşağıda dayanmış Ağqulağı tanıdı. Tez Qıratzadın qulağına pıçıldadıQıratzadə özünü itirmədi:

- Yox, əşi?!-dedi- Pah, atonnan! Eşşək ki, eşşək! Əşi, bir tanışlıq verdə! Axı, biz quda olacağıq!

Çıx yuxarı, daha ağzını əngəltməorada.

Ağqulaq çar-naçar qalxdı eyvana. Ev sahibi bir

də üzürxahlıq elədi:

- Quda, daha gərək bağışlayasan da! Mən nə bilim.

Tez süfrə açdılar. Ömründə qanqaldan başqa dadlı yemək tapmayan Ağqulaq bolluğa düşmüşdü. Həvəslə özünü yeməyə təpdi. Düm deyənə qədər də vurdu... Ürəyində fikirləşdi: "-Mərhəba Təkqulaq, yaxşı yerə söykənmisən!"

Yemə-içmədən sonra toydan söhbət düşdü. Qıratzad Təkqulağı təriflədi:

- Vallah, sənin oğlun uzunqulaq deyil, atdır, at! Bir şirin kişnəməyi,bir dördnal çapmağı, bir ədəblə su içməyi var ki, daha nə deyim!Arpa yeməyi elədir ki, baxan deyir, zalım, ömrü boyu arpa ilədolanıb! Üzünü

görməsən xasiyyətinə görəona at deyərsən...

Ağqulağın incidiyini görüb sözünü çevirdi.:

- Yəni uzunqulaq olanda nə olar, ey?! Uzunqulaq yük götürməkdədəvəyə dov gəlir... –deyə Ağqulağın kölnünü aldı.

Qıratzad cehiz verəcəyi evdən söz saldı. Razılaşdılar ki, gəlin otağında bir saz gəlin çalası qazısınlar, içini də yaxşı-yaxşı bəzəsinlər, sonra da dambadurum salsınlar...

İndən belə Təkqulaq Xotuğzadın işi yüznən gedirdi. Daha parta-part dərc olunurdu. Əsərləri Pişik şivəsindən tezliklə Siçançaya çevrildi. Hardansa onun yazılarından Dəvə mətbuatı xəbər tutdu. Çox keçmədi onu öz doğma dilində qoyunlar da, qarğa-quzğun da oxudu. Daha nə

başınızı ağrıdım, bir azdan XotuğzadıTırkədinin yetmiş yeddi şivəsində kitabları, yazıları dərc olunurdu.

Təkqulaq bir saz toy elədi. Gəlin çalasında özmuradına çatdı.

Tırkədinin yetmiş yeddi şivəsində təbrik məktubu aldı.

Bircə eşşək mətbuatı öz məşhur eşşək inadı ilə susurdu. İndiyə qədər onun bircə barmaq yazısını da dərc eləməmişdi. Təkqulaq da qəzəbləndi, uzunqulaq şivəsində olan bütün yazılarını cırıb atdı. Başladı ancaq Atca yazmağa. Eşşəkvarı mövzulardan get-gedə uzaqlaşdı, indi atvarı mövzular onun yaradıcılığının əsasını təşkil edirdi.

Oxucu deyirdi: " Yazan atdır ki var!". Xotuğzad daha sonra İt, Pişik,.. və bu kimi canlılardan povest, roman yazdı. Yenə də oxuyanlar deyirdi: "-Yazan elə bil İtdir" və ya " – Yazan elə bil Pişikdir". Gapçılıq sənətində o qədər

ustalaşmışdı ki, yetmiş yeddi şivədə onu "Doğma gapçımız Xotuğzad" adlandırırdılar...

Ömrünün axırına kimi yazdı, yaratdı.Adı gur-gur guruldadı.

Dünyadan isə ürəyi niskilli köçdü. Ağqulağın dediyi düz çıxdı. Ondan sonra işığını yandıran qalmadı. Bircə övladı Boz Qatırı nə eşşəklər yaxına buraxırdı, nə də atlar.

Bu dərd Xotuqzada rahatlıq vermədi. Bu münasibətlə bir tarixi roman yazmaq istəyirdi ki, Əzrayıl macal vermədi...

Ölümündən beş-on il keçəndən sonra At, İt, Pişik, Qoyun, bir sözlə saymaqla qurtarmaz, yetmiş yeddi şivəli kapçılıq ustaları arasında mübahisə qızışdı. Sual bir idi: “-Məşhur Xotuğzad hansı zümrəyəmənsubdur”?!

Atlar özünə tərəf, İtlər özünə tərəf, Pişiklər özünə tərəf çəkirdi. Elə bil yal davası düşmüşdü.Bir qışqırtı, bir

bağırtı vardı ki, gəl, görəsən!

Yalnızuzunqulaqlar susurdu. Arabir lap astadanmızıldanırdılar: “ –Xotuğzaddırsa, demək bizimkidir.

Bircə bizdə eşşəyin balasına xotuğ deyir.

# D A Ş

...Gözlədiyim adamhündür , nahamvar binadan çıxmaq bilmirdi. Var-gəl eləməkdən yoruldum. Memarlıq üslubu naməlum binaya nə qədər baxmaq olardı. Bağçaya keçdim. Oturacaqlardan birində təzəcə qərar tutmuşdum

ki, qart səsdən diksindim.

- Deyəsən, Elçiyevin yaradıcılığısizə zövqvermədi?

Yanımda haçan oturduğu məlum olmayan kişi diqqətlə mənə baxırdı. Onun üzü tüklü idi, üst-başından baxımsızlıq yağırdı. Yaşı altmışdan çox olardı ki, az olmazdı.

Yekə qaşları titrəyirdi, deyəsən əsəbləri yerində deyildi. Sərrast danışsa datəpiklənməyə alışmış küçə itləri kimi sərvaxtoturmuşdu.

Belə həmsöhbət tapıntı deyildi, amma vaxtı öldürmək lazımdı. Elə-belə soruşdum:

-Elçiyev kimdir?

Kişi marağımdan məmnun oldu.Yerini rahatladı:

- Paho!Heç demə Elçiyevi də tanımayan varmış! –dedi.

İstehzamı saxlaya bilmədim:

- Bu qəbahətimi düzəltməkdə mənə köməkeləsəzminnətdar olaram!

Kişi iztehzamı eyninə almadı:

- Məmuniyyətlə! - dedi. - Elçiyev ölkə memarlarının başçısıdır. Bayaq tamaşasından həzz aldığınız binanın memarıdır. Xoşunuza gəlirmi?

Özümü itirmədim:

- Belə də! – dedim. - Binadır da! Açığı, memarlıqdan uzaq sahədə çalışıram. Fikirlərim primitiv

olacaq.

Kişi təşviqedici bir səslə:

- Olsun, olsun...-dedi- Maraqlıdır...

Mən fikrimi tamamladım:

- Bir sözlə, bu bina sənət əsəri deyil.

Həmsöhbətim şadlıqla güldü:

- İnsaflı adamsınız! – dedi. - Sənət baxımından bu bina bir yığın daş qalağıdır.Otuzuncu illərdə belə memarlarıdivara söykəyib güllələyirdilər.Bəli, bəli...

Mən maraqlandım:

- Sizin sənətiniz nədir?

Həmsöhbətim sözünün kəsilməyindən narazı halda dedi:

- Mən arxeoloqam. Memarlıqdan az-çox xəbərim var. Deyirəmsə bu bina daş qalağıdır, deməli belədir. Belə binalarınmemarlarını meydanda sünbə ilə döymək lazımdır. Görün şəhərin simasını necə kor qoyurlar?

Binanın fasadı, görün. nə ilə örtülüb? Tikinti tullantıları ilə!

O, nəzərlərini mənə dikdi. Mən soruşdum:

- Sizcə, binanın divarlarına ilə üzlənməli idi?

Kişi titrək barmaqlarının arasınabir siqaret alıbodladı. Tüstünü yana üfürdü.

Sakitləşmiş halda:

- Mən Elçiyevə bu işə yararlı yüzlərlədaş nümunəsi təklif elədim. Heç birini qəbul eləmədi! Xalqın milyonlarla pulunuhavaya sovurdu, bu əcaib binanı tikdi. Mənim topladığım iki min daş nümunəsi...

Mən təəccübümü gizlədə bilmədim:

- İki min daş? Belə çox daş nümunəsi var?-deyə onun sözünü kəsdim.

Həmsöhbətim rəncidə oldu:

- Əlbəttə, var! – dedi. - Otuz ildir ölkəni gəzirəm, dağsüxurlarınıtədqiq eləyirəm,tikintiyə yararlı daş nümunələrini toplayıram. Topladığım nümunələrin tərkibi, xasiyyəti, istifadə sahələri, təbiətdə miqdarını araşdırmışam, şəkillərini çəkmişəm, monoqrafiya yazmışam.

-Çox maraqlı işdir. - deyə təriflədim. - Yəqin
elm aləmində qədrinizi bilirlər.

- Siz necə də sadəlövhsiniz? - deyə həmsöhbətim yağırı tapdanmış adam kimi çığırdı. - Mənim monoqrafiyamın

xülasəsini oxuyan bir ingilis alimi işlədiyim tədqiqat institutunamüraciət eləyib. Mənimlə tanış olmaq istəyib, işbirliyi qurmaq istəyib.

Ona deyiblər ki, müəllif çoxdan ölüb.

-Ola bilməz! - deyə heyrətləndim.

- İndiki olub! - deyə həmsöhbətim mızıldandı, - Bizim adamları puldan başqa heç nə maraqlandırmır...

- Siz təslim olmayın!

Sərgi açın. – dedim: - Bu çox lazımlı işdir.

Kişi üstümə çımxırdı:

- Elçiyev qoydu bəyəm?Onun dəstəyi olmasa kimdi sərgi açmağa icazə verən?

- Qəbulunda olmusuz?

-Əlbəttə! Gör mənə nə dedi:"Sənin daşların kimə lazımdır, qoca? Daha müasir memarlıq sənətinintəbii tikinti materiallarına ehtiyacı yoxdur". Bir də getdim, bir də xahiş elədim. Məni başından elədi: "Biz daş sərgisi açsaq bizə gülərlər!" Adamı yandıran bilirsiniz nədir? Bütün zəhmətim hayıf olub gedəcək. Sabah ölsəm, hamısı başlı-başına qalacaq.

Ona ürəyim yandı,

mənasız söz danışdığımı bilsəm də , məsləhət gördüm:

-Yuxarılara müraciət eləyin...

- Eləmişəm, qardaş, eləmişəm. –deyə həmsöhbətim ah çəkdi. - Çox qapıları döymüşəm. Hər yerdə:

"-Təqaüddəsən, başına cəncəl açma!"- dedilər. Bir yumorist qayıtdı ki, xalqın ağzınıdaşlığasalan az idi, sən də bu yandan çıxdın!

Başqası çoxdan usanardı, mənisə əl çəkmirdim. Teleqram vururdum, ərizə yazırdım.

Bir gün mənimemarlıqla heç bir əlaqəsi olmayan bir idarəyə dəvət elədilər. Mehribanlıqla soruşdular ki, hörmətli adamları dəng eləməkdə məqsədin nədir? Mən bu mehribanlığa aldanıb ürəyimdə nə var, danışdım. Onlar dinməz qulaq asdılar, öz aralarında pıçıldaşdılar. Sonra mənə dedilər ki, gəlib yerində baxarıq.

Həmsöhbətim susdu. Mən səbirsizliklə soruşdum:

- Aldatdılar?

Gəlmədilər?

Kişi qart səslə güldü:

- Yox, gəldilər.

- Bəs, nə oldu?

- Daşların üç otaqda rəflərə səliqə ilə düzüldüyünü, ailəninsə bir otaqda, mətbəx və eyvanda yerləşdiyini gördülər. Başlarını buladılar, getdilər.

- Vəssəlam? İş bununla bitdi?

Həmsöhbətim qısa pauzadan sonra:

- ...İki gündən sonra məni əsəb dispanserinəçağırdılar. Dedilər ki, əmr almışıq,səni müayinədən keçirməliyik.

Quruyub qaldım:

- Belə şeymi olar?-deyə çığırdım. – Sonra nə oldu?

- Heç nə! Canımı onların əlindən zorla qurtardım. Bundan sonra qorxumdandaha heç yerə getmədim.

Mənsöhbəti dəyişdim:

-Övladlarınız varmı? - deyə soruşdum.

Həmsöhbətim başını tərpədib könülsüz dilləndi:

- Bir oğlum var.

Evlidir, mənimlə qalır. Arvadım keçən il rəhmətə gedib.

- Allah rəhmət eləsin - deyə ona başsağlığı verdim. -Bu işlərə oğlunnə deyir, gəlinin necə baxır?

- Onların dadaşlardan zəhləsi gedir. Oğlum hər gün deyir, ata, sən eqoistsən. Daşlar, deyir, ürəyini daşa döndərib. Sən, deyir,bizim rahatlığımızı əlimizdən almısan. Bir qalaq daşı , deyir, üç otağa yığdığın azmış, qapı-qapı gəzib bizi gülünc günə qoyursan.

Söhbətin bu yerində məni səslədilər. Binadan ağır-ağır aralanıb bizə yaxınlaşan tanışımın yerişindənanladım ki, işimizalınmayıb. Kefim pozuldu. Qalxıb dedim:

- Bağışlayın, getməliyəm. Daş qəlbli insanlarla rastlaşmaq ancaq sizin nəsibiniz deyil.

Həmsöhbətimetinasızlıqla mənə baxdı. Ondan aralandım.

Arxamcasəslənən tərkidünyamırıltısıeşidildi:

- Daş! Daş! Daş kimə lazımdır ki!

# TƏLƏBƏ DOSTLAR

Onlar şəhərətrası elektrik qatarılə inistituta gedirdilər. Qatar səhər tezdən çıxırdı. Üçü də bir kursda idi.Şəfəqlə Məhəmməd birqrupda, Əfrayılsa başqa qrupda oxuyurdu. Qəribə trio idi. Yol boyu Şəfəqlə Məhəmmədin həttaəndazəni aşanatmacalarını belə Əfrayıl dinməz təhəmmül eləyirdi. Səsini çıxarmağa qorxurdu.

Çünki ağzını açan kimi atmaca yağışına düşürdü.

Bu gün oturan kimi Şəfəq:

- Məhəmməd, kvant mexanikasında naxırıncı mühazirəni qavraya bilmirəm. - deyə mühazirə dəftərini Məmmədə uzatdı. - Bəlkə izah eləyəsən.

Məhəmməd dəftəri almadı:

- İmtahanlara hələ çox var! - dedi- Vaxtı çatanda izah eləyərəm.

Başını pəncərənin çərçivəsinə söykəyib mürgüləyən Əfrayıl gözünü açmadan deyindi:

- Bu qız ya Landau olacaq, ya Lifşits. Bizərahat yol getməyə də macal vermir. Hər günvaqonu mühazirə salonuna döndərir.

Şəfəq tam ciddi:

- Afərin, Əfrayıl əmi!-dedi.

Əfrayıl mürgülü olduğundan qazılan quyunu görmədi. Soruşdu:

- Nə tərifli iş gördük ki?

- Daha Landau ilə Lifşitsi bir birindən ayırırsan.

Məhəmmədüğundu:

- Bu bir illik alitəhsilin uğurlarıdır.

- Mənə elə gəlir ki, Əfrayıl əmi institutu qurtaranda dahi olacaq!-deyə Şəfəq qeyd elədi.

- Heç indi də pis deyil.-deyə Məhəmməd guya Əfrayılımüdafiyə elədi.-İnkişaf göz önündədir.

- Hayıf ki, cəmi iki kəsri var! - deyə Şəfəq pıqqıldadı.

- Dahilərin həyatına nəzər salsan görərsən ki,bu elə də çox deyil, - Məhəmməd qəh-qəhə çəkdi.

Əfrayıl gözünü açdı, gülüşən dostlarına qanlı-qanlı baxdı. Köksünü ötürdü:

- Uşaq-muşaq yığnağına düşmək budur da!-dedi və yenidəngözünü yumdu.

Onunboyu iki metrə çatardı. Uzun qollarını

yellədə-yellədə yeriyirdi. Öküz kimi güclü ili. Hirslənəndə buğdayı çöhrəsi

kömür kimi qaralırdı.O, dostlarındanyaşlı idi. Əsgərliyini çəkib gəlmişdi. Neçə il zavoddaişləyəndən sonra ali təhsil eşqinə düşmüşdü.

Bu belə olmuşdu.

Məhəmmədlə Əfrayıl hasarbir qonşu idilər. Bir

birinin əsli-nəcabətini tanıyırdılar.Keçən ilƏfrayılhər gün işdən sonraeyvanda oturub hasarın o tərəfindəMəhəmmədin imtahanlara hazırlaşmağına tamaşa eləyirdi.Arada balaca dostu ilə söhbətləşirdi.

Məhəmmədgilin həyətlərindəki iri tut ağacının altında kənarları bağlı özbək taxtı qurulmuşdu. Çox rahat yer idi. Xalçanın üstündəbardaş qurmuş Məhəmməd tək olmurdu. Başınasinif yoldaşları toplaşırdı. Ən çox da Şəfəq gəlirdi. Saatlarla otururdu. Onlar dərsləri bir yerdə təkratlayırdılar.

Bu gün tək idi. Dəftər-kitabı qabağında olsa da fikri başqa yerdə idi. Məhəmməd imtahanlara laqeyd yanaşırdı. Özünə çoxarxayın idi. İstənilən instituta girməyə savadı çatardı.

Əfrayılsoruşdu:

-Hazırlaşırsan , qardaşoğlu?

- Hazırlaşıram, əmi.-deyə Məhəmməd könülsüz cavab verdi.

- Güman ki, yaxınlarda ali məktəb tələbəsi olacaqsan, -deyə Əfrayıl həsədlə dilləndi.

-Allah qoysa..

Əfrayıl birdən astadan soruşdu:

- Məni də instituta hazırlaya bilərsən?

Məhəmməd Əfrayılın arzusuna güldü:

-İnstitut sənin yemin deyil, əmi!

-Niyə?

- Gör neçə ildir orta məktəbi bitirmisən.

-Nə olsun!

-Yəqin vurma cədvəlidə yadından çıxıb!-deyə Məhəmməd dişini ağartdı.

- Bəlkə cəhd eləyək?

- Axı, inistitut nəyinə gərəkdir?-deyə Məhəmməd təəccübünü gizlətmədi.

Əfrayıl arzusunun səbəbini dostuna demədi. Sadəcə:

- Lazımdır!-dedi.

- Əfrayıl əmi, zavodda işləyirsən, gül kimi sənətin var, qom-qom pul alırsan, - deyə Məhəmməd onun istəyinə qarşı çıxdı. - Başına niyə cəncəl açırsan?

-Zavodu atmıram ki! - deyə Əfrayıl izah elədi- Axşam növbəsində işləyəcəyəm.

-Olmaz ki, tərsinə eləyəsən? Axşam şöbəsinə girəsən?- deyə Məhəmməd məsləhət gördü- Deyilənə görə, müəllimlər axşam şöbəsində oxuyanları elə də sıxmırlar.

-Xeyr, mən gündüz oxumaq istəyirəm.

- Həm işləyib, həm oxumaq səni əldən salacaq!- deyə Məhəmməd gülümsədi.

-Dözərəm!

- İnstitut belə vacib düşüb?

- Lazımdır- deyə Əfrayıl yenə inadla təkrar elədi.-Hə, nə deyirsən?

Məhəmməd başını buladı:

- Yox, mən bu işi boynuma götürə bilmərəm.-dedi- Havayı hamballıqdır. Səndən oxuyan çıxmaz.

Əfrayıl onun yadına saldı:

- Əvvəllər bizim küçəninpalçığı-zığı qurumurdu. Sən kiçik olandamən hər günsəni çiynimə alıb palçıqdan keçirirdim, qolundan tutub məktəbə aparırdım. İndi növbə sənindir. Məni palçıqdan çıxarmalısan...

Söz Məhəmmədi tutdu. Daha Əfrayıla etiraz eləmədi.

Aralarında altı-yeddi il yaş fərqləri vardı.

Məhəmməd birinci sinfə gedəndə Əfrayıl yekə kişi idi. Onu məktəbə aparıb-gətirməyi xahişsiz-minnətsiz boynuna götürmüşdü. Bəzən Məhəmmədin çantasını qoltuğuna alır,özünü də çiyninə mindirirdi. Məhəmməd uşaqlıqda zəif idi, yeriyəndə qılçaları bir-birinə dolaşırdı. Amma həddən artıq dilli-dilavər idi. Əfrayıl onu danışdırmaqdan ləzzət alırdı.

Məhəmmədin iri başı vardı. Cılız belini qayışla elə sıxırdı ki, görən onun ortadan qırılacağından ehtiyyatlanırdı.

Sısqa gövdəsi yekə başının ağırlığından əyilmişdi. Bütün bunlar onun həmişə civə kimi hərəkətdə olmağına mane olmurdu. Yekə başı ideyalarla dolu idi.

Boynuna götürdüyüişlə ürəkdın məşğul olurdu. Müəllimliyinə söz ola bilməzdi. İki ay gecəni gündüzə

qatdı, məzunuyyətə çıxmış Əfrayılı instituta hazırladı. Şəfəq də bu işdə ona yardımçı idi. Tez-tez deyirdi:

- Əfrayıl əmi, sən imtahanlardan kəsilsən mən özümü asacağam.

- İki kəlləli müəllimi olan şagird kəsilə bilməz. - deyə Əfrayıl cavab verirdi.

İxtisas seçəndə mübahisələri düşdü. Əfrayıl dedi:

-Mən sizinlə bir qrupda oxumaq istəmirəm.

Məhəmməd təəccübləndi:

-Niyə?

- Müəllimlə şagirdin bir yerdə oxumağı yaxşı deyil.- deyə Əfrayıl zarafat elədi.

Vədə yetişdi. İmtahanlara üçü də bir girirdi. Əfrayılı ortayasalırdılar.

Hərə bir tərəfdən kömək eləyirdi. Möcüzə baş verdi. Əfrayıl institut tələbəsi oldu.

Tələbə biletini alıb nəhəng sütunlu binadan çıxanda Əfrayıl yalançı pafosla:

- Quş kimi qanadlanmaq istəyirəm, – dedi: - Mən tələbəyəm.

Şəfəq özünü saxlaya bilmədi:

- Əfrayıl əmi, institutun yekə sütunları olmasaydı yerə girərdi. - deyə onları güldürdü. - Çünki sən də tələbəsən...

Dərslər başladı. Məhəmmədin gözündən heç nə yayınmırdı. Əfrayılla bir-iki dəfə institut kitabxansının

yerləşdiyi korpusda rastlaşmışdı. Əvvəl buna fikir vermədi. Elə bildi kitab götürməyə gəlib. Sonra götür-qoy eləyəndən sonra hər şeyi anladı. Şübhələrini dəqiqləşdirmək üçün çox vaxt sərf eləmədi. Əfrayıl, deyəsən, başına gələnlərdən dərs almamışdı. Yenə Səbirənin həndəvərində dolanırdı.

Səbirə də qonşuları idi. İnstitut kitabxanasında çalışırdı. Bir üzü qız, bir üzü gəlin idi. Ərə gedib boşanmağı üç ay çəkməmişdi.

Məhəmmədin böyük bacısılə cici-bacı idi. Orta məktəbi bir qurtarmışdılar.Tez-tez bir araya gəlirdilər. Səbirə institut xəbərlərini rəfiqəsinə çatdırırdı.

Bir dəfə Şəfəq adi bir şeyi Əfrayıla izah eləməyə çalışdı. Buna nail olmayanda heyrətini bildirdi:

- Əfrayıl əmi, bu boş başına güvənib ali məktəbə girmisən?

Əfrayıl hazırcavablıqla:

- Mən boş başıma yox, dostlarımın dolu başına güvənib oxuyuram. - dedi.

Şəfəq onun hazırcavablığından çaşdı:

-Gör necə dil açıb! - deyə heyrətləndi.

Məhəmməd əl çaldı:

- Yaxşı çavabdır.

Şəfəq əl çəkmədi:

- Məhəmməd , sən bu dəyişikliyənə deyirsən?-deyə soruşdu. - Buna səbəb nə ola?

Məhəmməd Füzulinin bir məşhur beytini təkrarladı:

“Məndən Məcnundan da artıq aşiqlik istedadı var!

Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var...”

Şəfəq başa düşmədi. Əfrayıl nəsə hiss eləyib ona gözünü ağartdı. Məhəmməd sözü uddu.

Şəfəqə gözəl demək olmazdı, amma o qədər suyuşirin idi ki, ən gözəl qızları kölgədə qoyurdu. Şaqraq gülüşü, məlahətli səsi vardı. Dildən də pərgar idi.

Məlumdur ki, hər bir dostluğun bir qəliz tərəfi var. Hamımız görə-görə gəlmişik. Dostluqda bərabərlik olmur. Lap futboldakı kimi. Top ya Məhəmməddə olurdu, ya da Şəfəqə. Qapçı Əfrayıl idi.

Şirin dilinə, baməzəliyinə görə qrupun qızları Məhəmmədin ətrafında fır-fır fırlanırdılar. O, zehinli olduğundan birinci smestrdən fakultənin əlaçılarından idi. Deyib-gülməkdə ondan geri qalmayan Şəfəq də həmişə böyründə olardı. Ümumi mühazirələr vaxtı iki-üç qrupun cəmləndiyi auditoriyaya girən müəllimlərin günü qara idi.Şəfəqlə Məhəmməd birləşəndə mühazirəsalonu dəli yığıncağına dönürdü.Onların hər kəlməsi auditoriyada gur qəh-qəhəyə səbəb olurdu.

Məhəmmədin hafizəsinə söz ola bilməzdi. Əzbərdənsaatlarla şeir deyirdi. Auditoriyanı ədəbiyyat

dərnəyinə çevirirdi. Hərdən özü də şeir yazır, tələbə yoldaşlarına oxuyurdu. İnstitut qəzeti Məhəmmədin yazılarınıdərc eləyəndən sonra siyasi iqtisadiyyatdan dərs deyən İsaməddin müəllim ona dedi:

-Bala, sən gərək ədəbiyyat institutuna girəydin. Sən hazır şairsən.

-Keçmişdə şair olmaq üçün institut qurtarmırdılar.- deyə Məhəmməd cavab verdi.

Müəllim razılaşmadı:

-Bala, keçmişdə bəlkə belə idi, indi başqa cürdür. – dedi. - Hələ gec deyil.

-Mən mühəndis olmaq istəyirəm.

İsaməddin müəllim güldü:

-Onda ədəbiyyatı boşla. - dedi.

Məhəmməd sözgəlişi dedi:

- Mühəndisə ədəbiyyat daha çox lazımdır.

Müəllimlərin çoxu tezliklə Məhəmmədlə Şəfəqin zarafatlarına alışdı. Buşirin atmacalarda könülə dəyən bir şey yox idi.

Bircə yarımkeçiricilər fizikasını tədris eləyən Qasir müəllim onlarla mübarizə aparırdı. Zarafatlarını təhəmmül eləmirdi. İki gündən bir şikayət eləyirdi. Hər dəfə Məhəmmədlə Şəfəqi dekanlığa çağırıb danlayırdılar. Axırda onlardan söz aldılarki, daha Qasir müəllimin mühazirələrində ağızlarını açmayacaqlar.

Məhəmməd başqa yol tapdı. Bilirdi ki, qrup yoldaşı Rüstəmin bərk qıdığı gəlir. Diqqətini özünə cəlb eləmək kifayətdir. Qasir müəllimin kəsalət gətirən mühazirələri yenidən canlandı. Məhəmməd Rüstəmi səsləyir, diqqətlə ona baxır, barmağını havada oynadırdı. Hava qıdığından tələbə yerində dingildəyir, uğunurdu. Təbii ki, uşaqların da arasına gülüşmə düşürdü. Qasir müəllim Rüstəmi qaldırırdı:

-Bala, nə soncuxursan? - deyə onu hədələyirdi: - Sən ali məktəbi qurtarmaq istəmirsən? Kursda qalmaq istəyirsən?

Rüstəm uğuna-uğuna:

- Müəllim, vallah, Məhəmməd əl çəkmir!

Qasir müəllim ona inanmırdı:

- Kiri! Gör Məhəmməd harda oturub, sən harda oturmusan! Öyrəşmisiz hər şeyi onun boynuna atmağa.

Tezliklə Qasir müəllim də onlardan şikayət eləməyi boşladı.

Əfrayıl Məhəmmədin ətəyindən möhkəm yapışmışdı. Dərslər güc gələndə çəkinmədən onun üstünə qaçırdı. Məhəmməd Əfrayılın əvəzinə kurs işlərini yazır, cizgilərini çəkirdi. İmtahan vaxtı onu imtahana hazırlayırdı, zaçot vaxtı zaçota. Korazehin dostunu darda qoymurdu.

Birincismestrin sonu idi. Qasir müəllim axırıncı mühazirəni oxuyurdu. Auditoriyanın qapısı açıldı. Əfrayıl həyəcanlı içəri təpildi. Müəllim sözünün yarımçıq qoydu, narazı qaldı:

- Sənə nə lazımdır? Mühazirəni niyə pozursan? - deyə soruşdu.

Əfrayıl az qala qışqıra-qışqıra dedi:

-Mənə Məhəmməd lazımdır!

- Məhəmmədi neynəyirsən?

-Bizim müəllim mənim kurs işimi qəbul eləmir.

Qasir müəllim kimi bir adam özünü itirdi:

- Yaxşı, buna Məhəmməd neynəsin?

- O bizim müəllimi yola gətirəcək, - deyə Əfrayıl dilləndi.

- Nə təhər yola gətirəcək? - deyə Qasir müəllim təəccübləndi.

- Kurs işini Məhəmmədlə bir yerdə yazmışıq.

Məhəmməd dostunu ağır vəziyyətdən çıxarmaq üçün yerindən qalxdı. Qasir müəllim daha özünü saxlaya bilmədi:

- Allah evini tiksin, gör nə yekəlikdəsən, az qala başın tavana dəysin, əl boyda uşaqdan kömək umursan!

Əfrayıl ondan gözlənilməyən bir hazırcavablıqla:

- Müəllim, o mənim gözümdə Məhəmməd Əliyə bərabərdir.

Qasir müəllim eynəyini çıxarıb silə-silə söz atdı:

- Şəfəq xanım lazım deyil ki? - deyə soruşdu.

-Yox.

Qasir istehza ilə:

- Bəs, Məhəmmədə kim vagirə tutacaq?

- Bu gün Şəfəqsiz də keçinərik... - deyə Əfrayıl burnunu çəkdi.

Qasir müəllim, nəhayət, səbrlə gözləyən Məhəmmədə bayra çıxmağa icazə verdi.

Məhəmməd dəhlizdə dostunu danladı:

- Məni biabır elədin ki! Mühazirənin axırını gözləyə bilməzdin?

Əfrayıl danlaqdan incimədi:

- Müəllim cədvəli dekanlığa aparırdı, zorla yola gətirmişəm. Bizi gözləyir.

- Kurs işində səhv tapıb?

- Yox, kurs işi düzdür!

- Bəs, səndən nə istəyir?

- Deyir ki, kurs işini sən özün yazmamısan.

Məhəmməd onu danladı:

- Sənə demişdim, axı, işi əzbərlə. Yəqin hıqqına-hıqqına danışmısan , müəllim də belə nəticəyə gəlib də.

Əfrayıl burnunu çəkdi:

- Kurs işini gecə səhərə qədər südəzbəri eləmişdim, hıqqınmaq nədir, bülbül kimi ötürdüm. Müəllim də elə

buna görə hirsləndi. Soruşdu ki, ay tutuquşu, dediklərini anlayırsan? Dedim, anlayıram. Lap hirsləndi. Məni bircə sualla ilişdirdi. Yoxsa kurs işinin səliqəsinə valeh olmuşdu. Az qala soruşmadan zaçot yazacaqdı. Bir sualdan sonra paxırım açıldı, bildi bunu özüm yazmamışam.

Məhəmməd qımışdı:

- Uzatma sən canın, müəllim nə istəyir, axı?

- Müəllim dedi ki, bu kurs işini yazan oğlanı yanıma gətirməsən səni kursda saxlayacağam. - deyə Əfrayıl mızıldandı.

Məhəmməd qabağa düşdü:

- Gedək, görək müəllimin nə deyir!

Məhəmməd Əfrayılın müəllimilə çox asanlıqla dil tapdı. Onun sifarişi ilə bir-iki kurs işi yazmağı boyun oldu. Bundan sonra müəllim dostuna qiymət yazdı.

Hər gün dərslərdən sonra Əfrayıl Məhəmmədlə Şəfəqi gözləyirdi. Evə də bir qayıdırdılar.

Yay tətilindən sonra vəziyyət bir az dəyişdi. Şəfəq nişanlanmışdı. Barmağındakı üzüyün parıltısı adamın gözünü qamaşdırırdı. Həmin gündən Məhəmmədin rəftarı dəyişdi. İndi Şəfəqlə yarıkönül danışırdı. Əfrayılınsa dili açılmışdı, tez-tez Şəfəqdən soruşurdu:

-Gəlinbacı, toy haçandı?

Şəfəq, nədənsə, kobudluq eləyirdi:

-Əmi, burnunu bu işə soxmasan yaxşıdır.

- Nə olacaq ki?

Şəfəq könülsüz halda:

-Burnunu itirəcəksən , - deyə onu zarafatla hədələyirdi.

- Gəlin bacı, dost yolunda boran olar, qar olar. Bir burunla kimdi məni tanıyan...

Şəfəq ona baş qoşmurdu, gülümsəyərək sözü başqa səmtə yönəldirdi. Dostların münasibətində bir gərginlik yaranmışdı.

Amma Şəfəq nişanlanandan sonra da köhnə şakərindən əl çəkmirdi. Məhəmmədin etirazlarına baxmırdı. Tənəffüzlərdə yenə onun qoluna girib dəhlizdə dolanırdı.

Bir dəfə Əfrayıl dostuna söz atdı:

- Mənə elə gəlir ki, bir gün nişanlı qızla qol-qola gəzmək başına bəla açacaq!

Məhəmməd onun ağzından vurdu:

-Sənin falçılığın da varmış! - dedi.

Əfrayıl əl çəkmədi:

-Mən bir sözdü dedim!

Məhəmməd irişdi:

- Biz ki ayrılmaz dostlarıq. – dedi. - Dost arası pak olar.

Əfrayıl yerində qeyd elədi:

- Odla pambığın dostluğuna inanmıram.

Bir gün Məhəmməd institutdan tək çıxdı. Şəfəq neçə gün idi dərsə gəlmirdi. Xəstələnmişdi. Əfrayıl da gözə görünmürdü. Məhəmməd institutun qarşısındakı bağdan keçəndə qabağını iki nəfər kəsdi. Dinmədən hərəsi bir qolundan tutub onu ağaclığın dərinliyinə sürüdülər. Məhəmməd müqavimət göstərmədi. İstəsəydi də buna gücü çatmazdı.

Qoluzorlulardan biri kifir idi. Hirslə soruşdu:

- Adə, sən nəkarəsən ki, mənim nişanlımın qoluna girirsən?

Məhəmməd cüssəsiz qollarını onların əlindən qurtarmağa çalışmadı. Dəqiqləşdirmək üçün:

-Nişanlın kimdir ki?

- Şəfəq mənim nişanlımdır.

Günahını anlayandan sonra Məhəmməd arxayınlaşdı. Mülayim halda dedi:

- Vətəndaş nişanlı, sənə düz məlumat verməyiblər. Mən nişanlının qoluna girmirəm, nişanlın mənim qoluma girir.

Sol qolundan tutan oğlan gülümsədi. Məhəmmədin baməzəliyini qiymətləndirdi:

- Elə olmağına elədir, - dedi. - Hər halda sən gərək nişanlı qızdan uzaq duraydın!

Qoluzorlunişanlı söhbətin şirin məcraya düşməyə yol vermədi. Hökmlə dedi:

- Bundan sonra yerini dəyişərsən. – dedi. - Şəfəqlə bir partada oturmağı sənə qadağan eləyirəm.

Məhəmməd olduqca mülayim:

- Olmaz ki, bu sözü nişanlına deyəsən?

Söz qoluzorlu nişanlıya təsir elədi. Dilindən qaçırtdı:

- Demişəm, qulaq asmır! –dedi. - Dəlisov şeydir, sözümlə durub-oturmaq istəmir.

Məhəmməd qollarını məngənədən çıxarmağa çalışdı, yenə buna nail olmadı, amma dilini saxlamadı:

- Onda sən nişanlının sözü ilə durub-otur.-dedi. – O qədər arvad sözü ilə durub-oturan kişilər var ki! Sən də biri!

Bu sözdən sonra qoluzorlu nişanlı hirsləndi, qolaylanıb Məhəmmədə bir sillə vurmaq istədi. Əfrayıl özünü yetirdi. Qoluzorlu nişanlının qolundan tutdu, burdu, ağrıdan çığırana qədər sıxdı. Məhəmmədin o biri qolundan tutmuş ikinci oğlan işi fırıq görüb yoldaşını darda qoydu, tez aradan çıxdı. Əfrayıl nişanlı oğlana qıcandı:

- Bir də səni dostuma yaxın gedən görsəm bez kimi cıraram. Bildin?

Nişanlı ağrıdan inildədi:

-Anladım! - dedi və xahiş elədi: - Qolumu burax.

Əfrayıl onun qolunu boşladı, dalından diziynən vurdu:

-Buna bax! – dedi. - Özündən gücsüzə hünər göstərir.

Onlar ağaclıqdan çıxdılar. Məhəmməd mızıldandı:

-Lap vaxtında özünü çatdırdın! – dedi. - Məndə ağız-burun qoymayacaqdılar.

- Bir az yubanmışdım, -d eyə Əfrayıl qımışdı və qollarını ovuşduran Məhəmməddən soruşdu: - Bunlar kim idi? Səndən nə istəyirdilər?

Məhəmməd üz-gözünü turşutdu:

- O qolunu burduğun oğlan Şəfəqin nişanlısı imiş.

Əfrayıl bir an dinmədi. Haçandan-haçana dedi:

- Sən gərək tez tərpənəydin!

Məhəmməd anlamadı:

- Nəyi deyirsən?

Əfrayıl güldü:

- Elə bilirsən Şəfəqi istədiyini bilmirəm?

- Boş-boş danışma! - deyə Məhəmməd çaşdı. - Sən hardan bilirsən , axı?

- Mən çox şey bilirəm. Hətta onu da bilirəm ki, Şəfəq də səni istəyir.

Məhəmməd köksünü ötürdü:

-Daha nə eləmək olar? - dedi. - İndi o nişanlıdır.

Əfrayıl inamla:

- Hələ gec deyil!

- Demək asandır...

- Sən ki zəvzək deyilsən. Yubansan qorxuram mənim günümə düşəsən! Gec tərpənməyim mənə baha başa gəldi.

Səhvimi hələ də düzəldə bilmirəm. Mənim bu işdə kədərli təcrübəm var...

Bu hadisədən sonra Məhəmmədlə Əfrayılın dostluğu daha da möhkəmləndi.

Bir neçə gündən sonra Şəfəqi görəndə Məhəmməd qaşqabağını tökdü. Heç nə olmamış kimi gəlib böyründə oturmuş qıza əyri-əyri baxdı. Əfrayıl yetik-yetik irişdi. Məhəmməd Əfrayıldan bir siqaret istədi, durub tambura adladıqda Şəfəq onun qolundan tutub gülümsədi:

-Məndən qaça bilməzsən, - dedi.

Məhəmməd bu gülüşün önündə dayana bilmədi, sadəcə dedi:

- Qaçan mən deyiləm, - dedi və aralandı.

Şəfəq heç nə olmamış kimi Əfrayıla tərəf çevrildi:

- Sənin gözünə dönüm, əmi!.. O zırramanın dərsini nə vermisən! - deyə gülümsədi..

Əfrayıl çaşqınlıqla:

- İşim elə zırramalarladır da!

Şəfəq üzbəüz oturmuş Əfrayıla baxmadan ondan gözlənilməyən bir kövrəkliklə pıçıldadı.

- Allahdan gizli deyil, səndən nə gizlədim, əmi, əmioğlu günümü qara eləyib. Hər axşam bacısı ilə sifariş göndərirdi: "-Şəfəq belə otursun! Şəfəq elə otursun!"

Əfrayıl istehza ilə:

- Kiri, ay qız, xoşuna gəlmirdi niyə nişanlanırdın?

Şəfəq burnunu çəkdi:

-Dədəmin işləridir.

Əfrayıl təəccüblə:

-Səni, deyirsən, razılığın olmadan nişanlayıblar?

- Əlbəttə! Bilirsən ki, dədəm tərs adamdır! Məndən soruşmadan bu işi tutub. Deyir ki, qoy, var-dövlətim qardaşım oğluna qismət olsun.

Əfrayıl bilmədi nə desin. Soruşdu:

-İndi nə olacaq?

Şəfəq çiyinlərini çəkdi:

- Olan daha oldu da. - dedi və üzüksüz adsız barmağını göstərdi. – Döyüləndən sonra əmim oğlu nişanımı qaytarırdı .Deyib ki, əmi, başqa oğlanın qolundan sallanan qız mənə lazım deyil. Atam onu zorla yola gətirdi. Amma mən daha onun üzüyünü taxmayacağam. Dədəmin fikri odur ki...

Əfrayıl birdən hirsləndi:

- Məni sənin fikrin maraqlandırаır, dədənin yox.

Şəfəq başını qaldırmadan:

- Mən onsuz da əmimoğluna ərə gedən deyiləm. - dedi.

Əfrayıl ehtiyyatla:

- Məhəmmədə münasibətin necədir?

Şəfəq birdən pıqqıldadı:

-Əmi, olmuya mənə Məhəmmədin elçiliyini eləmək istəyirsən?

-Sən sözdən qaçma! Cavab ver.-deyə Əfrayıl təkid elədi.

Şəfəq mərd-mərdanə:

- Məmnuniyyətlə ona ərə gedərdim...-dedi.

-Bəs, o nə deyir?

Şəfəq həqiqiqi bir heyrətlə:

-Əmi, bu zalım oğlu hər şeydən danışır, bircə məhəbbətdən danışmır.

- O danışmır, sən danış.

-Əmi, lap xərifləyirsən ha! - deyə Şəfəq istehza ilə dilləndi. - Harda görmüsən ki, qız oğlana eşq elan eləsin?

Əfrayıl da lağ elədi:

-Könlü balıq istəyənin quyruğu suda olmalıdır, – dedi. - Fikrin ciddidirsə, Məhəmmədin hərəkətə gəlməyini gözləmə.

Şəfəq birdən qət elədi:

-Neynək, bunu da sınaqdan keçirərik... - dedi. - O yekəbaşa özüm eşq elan eləyəcəyəm.

Əfrayıl şadlıqla:

-Bu, başqa məsələ! Bunu kampotla da olsa qeyd eləmək lazımdır. –dedi. - Dərsdən sonra Zabitlər yeməkxanasına gedirik.

Məhəmməd söhbətin axırına qayıtmışdı. Şəfəqə baxmadan zarafata salmağa çalışdı:

- Əmi, hesabı kim verəcək? - deyə soruşdu. - Təqaüd vaxtına hələ çox var.

- Bəlkə atışaq... - deyə Şəfəq təklif elədi.

Əfrayıl başını buladı:

-Mən sizi dəvət eləyirəm. Deməli, hesab da mənim boynumdadır.

O, axşamlar zavodda işləyirdi. Karlı maaş alırdı. Üstündə həmişə pul olurdu. Gəzməyə çıxanda dostlarına əlini cibinə salmağa imkan vermirdi.

Həmin gündən dostlar arasında gərgin ovqatdan əsər qalmadı. Məhəmmədlə Şəfəqin münasibətlərində bir aydınlıq yarandı.

Bir gün Əfrayıl Məhəmmədgilə gəldi. Həyətdə oturdular. Əfrayıl sözlü adam kimi susurdu. Dostunun atmacalarına cavab vermirdi.

Məhəmmədin ürəyinə nəsə damdı.

- Çoxmu susacaqsan? – dedi. -Bəlkə dərdini deyəsən?

Əfrayıl birdən dilləndi:

- Mən Səbirəni istəyirəm.

Məhəmmədguya inanmırmış kimi:

-Mən bilmirdim!-dedi.

Əfrayıl ona acıqla baxdı:

- Yaxşı bilirsən! – dedi. - Siçan-pişik oynamağın yeri deyil. Məni pusduğunu elə bilirsən bilmirəm?

Məhəmməd həqiqətən çaşdı:

- Hardan bilirsən?

-Deyirəmsə, deməli,bilirəm.

Məhəmməd boynuna aldı:

- Bu , doğurdan, belədir.-dedi. – Amma Səbirəni unutsan yaxşıdır.

- Niyə?

- Yenə tökülüşəcəklər üstünə.

- Bilirsən ki, mən onlardan qorxmuram.

- Qorxsan yaxşıdır. Qırılmışlar çoxdular. Dayısı oğlanları, əmisi oğlanları, bibisi oğlanları, saymaqla qurtarmırlar.

- Hə, çəyirtkə kimidirlər. Davalarımız yadındadır?- deyə Əfrayıl soruşdu.

- Yadımdadır. Mən onda uşaq idim.

- Uşaq da olsan qiryətli idin. Hər dəfə onları daşa tutmağın yadıma düşəndə məni gülmək tutur. - deyə Əfrayıl güldü.

- Neçə nəfərlə vuruşurdun! Sənə yaxın gələ bilmirdilər. Fırfıra kimi fırlanırdın.

- Heç indi də mənə bata bilməzlər.

- Səni vurub öldürə bilərlər.

- Vurub öldürsəydilər indiyə qədər öldürərdilər.-deyə Əfrayıl gülümsədi.

-Bu davaların səbəbi nə idi, axı?

-Guya bilmirsən? Bacın danışmayıb?

- Ucundan-qulağından söhbət eləyib. Amma səhih bilmək istərdim.

Əfrayıl yerini rahatladı:

- Səbirə doqquzuncu sinifdən bizimlə oxuyurdu. İlk dəfə onu görəndə ağzım açıla qaldı. Belə gözəl hələ dünyaya gəlməmişdi. Atasıvəzifədə imiş. Təqaüdə şıxandan sonra şəhərdəki evini buraxıb ata-baba ocağına qayıtmışdı. Səbirə məktəbə gələndə hamı tamaşasına çıxırdı. Ələlxüsus, ağ paltar geyinəndə adam gözünü ondan ayıra bilmirdi, göydən enmiş mələyə oxşayırdı. Bütün oğlanlar kimi mən də ona vurulmuşdum. Amma ona yaxın getməyə ürək eləyən yox idi.

Zalım qızının bir metrə dili vardı. Ona söz çatdırmaq olmurdu. Hamını dalayırdı. Hərəyə bir ad qoymuşdu. Ən çox da mənə ilişirdi. Bəhanə tapan kimi hoyduya götürürdü. Ağızdan pərtövlüyümə lağ eləyirdi, hoqqar boyuma gülürdü, bir sözlə, vedrə bağlamaqda usta idi.Həm də qohum-əqrabalı idi. Tək bizim sinifdə dörd-beş qohumu oxuyurdu. Ona yaxın gedənintükünü didməyə hazır idilər. Ən çox canfəşanlıq eləyənConik adlı qohumuidi. Əsil adı Cahid olsa da hamı onu belə çağırırdı. Təşəxxüslü oğlan idi. Atasının pulunagüvənənlərdən idi. Varlığa nə darlıq, məktəbə gündə bir libasda gəlirdi.Heç demə o da Səbirəyə vurulubmuş.

- Maşallah, lap şair kimi danışırsan ki!

Əfrayıl atmacanı eyninə almadı:

- Bir dəfə dəhlizdə zarafatlaşırdıq. Bir neçə oğlan arxamızda söhbət eləyirdi. Onların arasında Conik də var idi. Başım qarışdı, birdən məni möhkəm itələdilər, müvazinətimi saxlaya bilmədim, büdrəyib yanımdan keçən Səbirəni yerə yıxdım, özüm də onun üstünə yıxıldım. Allah üzümə baxdı, qıza bir şey olmadı, bircə burnu qannadı. Amma bu da kifayyət idi.

Səbirənin qohumları üstümə tökülüşdülər. Birinə cavab verməmiş o birisi gəlirdi. Müəllimlər bizi ayırdılar. Sonra bildim ki, bu işi Conik qurub. Davaların bünövrəsi həmin gündən qoyuldu.

Məhəmməd onun sözünü kəsdi:

- Sən indiyə qədər ürəyini Səbirəyə açmamısan?

- Xeyr!

- Niyə?

-Mən ondan qorxuram.

-Səbirə, bəyəm, adamyeyəndir?

-Dilindən qorxuram. - deyə Əfrayıl yazıq-yazıq boynunu bükdü. - Bilirsən ki, Səbirə orta məktəbi bitirən kimi instituta girdi.

Kitabxanaçılıq fakultəsinə. Mən heç yerə getmədim. Məktəbi zorla qurtarmışdım. Oxumaq mənim işim deyildi.

Səbirəni görmək üçün hər gündalınca instituta gedirdim. Xəlvətə çəkilib baxırdım. Bir gün təsadüfən

rastlaşdıq, qaçıb gizlənə bilmədim. Səbirə rəfiqələrinin yanında məni o qədər doladı ki, elə sözlər dedi ki, yadıma salanda indi də xəcalət çəkirəm. Tezliklə məni əsgər apardılar. Dedim, unudaram. Amma unuda bilmədim, hər gecə onu yuxuda görürdüm.

Ordudan qayıdanda onun nişanlandığını eşitdim. Elə bil dünya uçdu, altında qaldım. Sonra özümə gəldim. Zavodda işə girdim. Sənəti tez götürdüm. Yaxşı qazanırdım. Pulum pul idi, hörmətim hörmət.

Səbirə institutu qurtardı, ərə getdi. Keçən il ərindən ayrıldığını eşidəndə, düzü, sevindim. Qərara gəldim ki, instituta girəcəyəm, onu hər gün görəcəyəm.

Məhəmməd qımışdı:

- Sənin ləğəbin nə idi? Məktəbdə sənə nə ad qoymuşdular?

Əfrayıl könülsüz halda:

- Heç yeridir?

Məhəmməd əl çəkmədi:

-Sən cavab ver...

- Mənə o qədər adlar qoyublar ki, sayı-hesabı yoxdur.- deyə Əfrayıl da güldü. - Hansını bilmək istəyirsən?

Məhəmməd uğundu:

- Uyarlılarını deyə bilərsən?

- Mənə qorilla da deyirdilər, dəvə də deyirdilər, qozbel də deyirdilər... Yenə sadalayım? - deyə Əfrayıl mızıldandı.

Məhəmmədddə can qalmadı:

- Hahaha! - deyə qəh-qəhə çəkdi. - Bu adları sənə kim qoymuşdu?

- Səbirə qoymuşdu.

- Yaman deyib ha!-deyə Məhəmmədyenə uğundu-Mənə elə gəlir ki, sənə bu ləqəbləri verən qız sənə qarşı laqeyd deyil.

Əfrayıl təlaşla:

- Bunu öyrənməyi sənə həvalə eləyirəm, - dedi. - İndi əl məndən, ətək səndən.

Məhəmməd təzə tərləmiş bığ yerini sığalladı:

-Boş-boş danışma. Mənə niyə yalvarırsan?-dedi-Mən kiqız atası deyiləm!

Əfrayı onun sözünü eşitmirmiş kimi:

- Bir yol tap!-deyə yalvardı.

-Söz verə bilmərəm!

-Niyə axı?

- Sən Səbirəni tanıyırsan. Xoş sözünü balla yemək olmur.

-Bacının rəfiqəsidir ki! Evinizə tez-tez gəlir...

-Səbirə belə şeyləri eyninə alan deyil.

Əfrayıl incik-incik baxdı:

-Mənim gümanım sən idin!-deyə qalxdı.

Məhəmmədinkönülsüz dedi:

-Dostum, mənə bir-iki gün möhlət ver, görüm neynəyirəm. - deyə Əfrayılı yola saldı.

Bir həftə keçdi. Neçə gün idi həsrətdən solub-saralan Əfrayıl yol boyu susurdu, arada Məhəmmədə gözaltı baxırdı,amma heç nə demirdi. Bir gün ŞəfəqƏfrayıldansoruşdu:

- Sənə nə olub?

Əfrayıl mızıldandı:

-Xəstələnmişəm... Halım yoxdur.

Heç nədən şübhələnməyən Şəfəq güldü:

-Rəngin yaxşıca ağarıb, Əfrayıl əmi! – dedi. - Xəstəlik səni gözəlləşdirib.

Məhəmməd qımışdı:

-Əfrayıl əmini gözəlləşdirən xəstəlik deyil...

Əfrayıl mızıldandı:

-Kişini gözəlləşdirən hülqumudur! - dedi və durub tambura çıxdı.

Məhəmməd dərhal susdu. Şəfəq diqqətini topladı:

-Olmuya məndən nəsə gizlədirsiniz? - deyə soruşdu. - Heç utanmırsınız? Danış görüm...

Məhəmməd başını buladı:

- Deyə bilmərəm! Sirr sahibi mən deyiləm, Əfrayıl əmidir.-dedi.

Şəfəq əl çəkmədi, onu xeyli dilə tutdu. Məhəmməd dözə bilmədi, için-için gülərək Əfrayılın uğursus məhəbbətinin tarixçəsini danışdı. Şəfəq ürəyiyanıqlıqla:

-Dostumuza kömək eləməliyik! - dedi və onu danladı: - Sən isə hırıldayırsan.

Məhəmməd gülməkdən yaşarmış gözlərini sildi:

-Nə təhər? - deyə soruşdu. - Bu da kurs işi deyil ki, qoyaq qabağımıza yazaq, Əfrayıl əmimiz də köçürsün.

Şəfəq handan hana:

- Mənim bir təklifm var. - deyə dilləndi.

Məhəmməd Şəfəqi diqqətlə dinlədi. Onun təklifini bəyəndi. Bir neçə gün də keçdi.

İnstitut qəzetində dərc olunmuş dörd şeir tələbələrin həyəcanına səbəb oldu.

Qəzet əllərdə gəzirdi. Yazıların altında Əfrayılın adı dururdu. Dəyərli şeirlər idi. Hamı mat qalmışdı. Demə köntöy Əfrayılşair imiş! Təbriklərdən Əfrayıl başını itirmişdi. Qəzet əlində tez Məhəmmədin üstünə qaçdı. Dostunu çəkə-çəkə dəhlizin axırına apardı:

- Adə, bu nə oyundur başıma açırsan? - deyə çığırdı.

Məhəmməd irişdi:

- Xoşuna gəlməyən nədir?

- Məndən şair olar?

-Vüsala çatmaq istəmirsən?

-İstəyirəm, amma belə hələm-qələm yolla yox.

- Bilmirsən ki, vüsala çatmaq üçün bütün yollar məqbuldur?

- Bunun axırı nə olacaq?

- Axırı da yaxşı olacaq. - deyə Məhəmməd ona ürək-dirək verdi.

Əfrayıl qorxa-qorxa soruşdu:

- Səbirənin şeirlərdən xəbəri varmı?

Məhəmməd hırıldadı:

-Əlbəttə! –dedi. - Qəzeti özüm aparıb ona çatdırmışam.

Əfrayılın rəngi ağardı:

-Nə oldu?

Məhəmməd cavabı qəsdən yubatdıqda Əfrayıl yalvardı:

-Ürəyimi partladacaqsan, qardaşım, danış!

Məhəmməd irişə-irişə dedi:

- Səbirə sənin şerlərini oxuyandan sonra madım-madım mənə baxdı. Soruşdu ki, Əfrayıl əvvəl də şeir yazırdı? Dedim ki, yox, təzəlikdə başlayıb. Dedi ki, yəqin başı xarab olub! Dedim ki, məhəbbət hər şeyə qadirdir. İnsana saz çaldırır, söz dedirdir. Səbirə soruşdu ki, Əfrayıl kimə vurulub ki? Dedim ki, sənə, ay Səbirə bacı. Dedi, ola bilməz. Dedim, niyə? Dedi ki, indiyə qədər bircə dəfə də bu barədə danışmayıb. Dedim ki, səndən qorxur. Səbirə

bir az fikirləşib dedi ki, eləsə qoy ağlını başına toplasın, indi aşıqlıq vaxtı deyil. Soruşdum ki, ona nə deyim?

Gülümsədi, amma heç nə demədi.

Əfrayılın üzü sevincdən işıqlandı:

-De, sən öl!

Məhəmməd şadlıqla güldü:

-Sən öl! - dedi.

Əfrayıl dedi:

- İndi mən neynəyim?

-Özünü Səbirənin yanına ver. - deyə Məhəmməd məsləhət gördü. - Sözünü de.

Əfrayıl tərəddüd elədi:

- Bəkə sən mənim sözümü çatdırasan.

Məhəmməddedi:

- Bağbani adında bir şair olub. Onun bir beyti var: Yarı özün gör, özün danış,

Ev yıxar ara sözü.

Əfrayıl başa düşmədi:

- Şeri xırdala görüm...- deyə xahiş elədi.

Məhəmməd özünü saxlaya bilmədi:

- Əmi, sən necə də kütsən! - deyə onu acıladı: - Yəni sən özünü yubanmadan kitabxanaya verməlisən! Şerin mənası budur!

Əfrayılı, işi düzələndən sonra, tanımaq olmurdu. O, əməlli-başlı yaraşığa minmişdi. Daha geyiminə-geciminə

fikir verirdi. İki gündən bir dəlləkdə idi. İnstituta Səbirə ilə bir gedib-gəlirdi. Sevgililər səhərlər qonşu vaqona minirdilər. Onlar tanışlardan qaçırdılar.

Məhəmməd Əfrayıla görə narahat idi. Gizlicə sevgililərin arxasınca düşdü. Bir-iki həftədən sonra narahatlığı keçdi. Məlum oldu ki, ehtiyyat əbəsmiş. Səbirənin qohum-əqrabasından onların sevdasına maneçilik eləyən tapılmadı.

Keçən illər hər şeyi yerbəyer eləmişdi.

Dostları Əfrayılın üzünə həsrət qalmışdı. O, Məhəmmədlə Şəfəqi uzaqdan uzağa salamlayırdı, söhbətləşməyə vaxt tapmırdı. Onun günü kitabxananın yerləşdiyi korpusda keçirdi.

Bəli, işin gedişatından belə görünürdü ki, tezliklə toy olacaq.

Amma belə olmadı. Əfrayıl yenidən dostlarına yan aldı. Şəfəq məzəmmətlə dedi:

- Əmi, hələ evlənməmisən bizi unutmusan!

- Belə getsə, evlənməyim çətin söhbətdir. - deyə Əfrayıl deyindi.

-Məhəbbət elə bir bəladır ki, giriftar olmayan bilməz.- deyə Məhəmməd gülümsədi.

Əfrayılın əndişəli görkəmi Məhəmmədi məzələndirirdi:

- Şəfəq, dostumuz oxu daşa dəymiş ovçuya oxşayır.- dedi və Əfrayıldan soruşdu. – Danış görək, ovu harda əldən buraxmısan.

Əfrayıl nəm-nüm eləmədən açdı sandığı, tökdü pambığı, dostlarından heç nə gizlətmədi:

- Qısası,evdə razı deyillər.

Məhəmməd təəccübləndi:

- Nə deyib razı olmurlar?

- Deyirlər, boşanmış arvaddan bizə gəlin olmaz.

Məhəmməd bilmədi nə desin. Şəfəq ehtiyyatla soruşdu:

- İndi fikrin nədir?

Əfrayıl sıxıla-sıxıla :

-Gümanım sizədir. – dedi. - Axşam yığışın bizə gəlin.

Məhəmməd şübhə ilə:

-Gəlməyinə gələrik, amma bunun nə xeyri?

- Bəlkə onu inandıra bildiniz.

- Kimi nəzərdə tutursan?-deyə Şəfəq heyrətləndi.

Əfrayıl acıqla:

- Anamı deyirəm də... - dedi. - Açığı, hamı razıdır, aranı qarışdıran anamdır.

Məhəmmədin ağzı açıla qaldı. Şəfəq çığırdı:

- Sənin başına hava gəlib? Ananı Tofiq Dadaşov da inandıra bilməz. Dilli arvaddır. Onu yola gətirmək bizlik deyil.

Əfrayıl bunu bilirdi. İncik halda əlini yellətdi:

- Sizin də elə hap-gopunuz var, bərk ayaqda geri verirsiniz... - deyərək bir siqaret şıxartdı, yandırıb tambura çıxanda Məhəmmədin səsinə çevrildi.

Dostu:

- Ağlıma bir şey gəlib. – dedi. - Yaxşı, biz cəhd eləyərik. Tutar qatıq, tutmaz ayran... Amma bir şərtim var.

Əfrayılın üzü güldü:

-Nə desən eləyərəm.

- Bir-iki gün evə getmə, başqa yerdə qal. - deyə Məhəmməd onu öyrətdi. - Qoy Bilqeyis xala elə bilsin ki, sən evdən qaçmısan.

Müxtəsər hazırlıqdan sonra fəaliyyətə başladılar. Məhəmmədlə Şəfəqi Bilqeyis xala top-tüfənglə qarşıladı.

- Ay yekə baş kişi, adını dost qoymusan, aylarla qapımızı açmırsan. - deyə onu qucaqlayıb öpdü.

Şəfəqə çox üz göstərmədi. Onun oğlanlarla dostluğunu bəyənmirdi. İstehza ilə:

- Ay qız, sorağın həmişə oğlan yığnağından gəlir! - dedi və kiçik qızına işarə elədi. - Şəfəqi apar otağına. Mənim bu yekəbaşla söhbətim var. - dedi.

Şəfəq Bilqeyis xalanın narazılığını eyninə almadı, yerindən tərpənmədi. Məhəmməd izah elədi:

-Xala, Şəfəqlə ikimiz də eyni işə gəlmişik.

Xalanın sifətindən bir intizar kölgəsi keçdi, onlara eyvandakı divanı göstərdi:

- Eləsə keçin oturun. - dedi və qızına tapşırdı: - Çay-çörək hazırla.

Sonra qonaqların yerbəyer olduğunu görüb giley-güzara başladı:

- Yəqin ki xəbəriniz var. İki gündür Əfrayıl evdən didərgin düşüb. Sizin bu cüvəllağı dostunuz başımıza oyun açır.

Evlənmədi, evlənmədi, indi seçdiyi qıza bax! Üzü üzlər görmüşün birisini ocağımızın başına keçirmək istəyir. Nə söz eşidir, nə məsləhətə durur, elə dediyini deyir. Deyirəm, oğlum, xalanın gül kimi qızları var, hansını deyirsən alım sənə,nə düşmüsən bu əldən çıxmışın dalınca. Daşdan səs çıxır , ondan səs çıxmır. Başına ağıl qoyan lazımdır. Siz də çəkilmisiniz kənara. Eşitsə yenə sizin sözünüzü eşidər. Onu evə qaytarın. Deyin, yad qızına görə adam anasını ayaqlayıb keçməz.

Məhəmməd bilirdi ki, indi danışmaq havayı şeydir. Bilqeyis xala ürəyini boşaltmasa dayanan deyil. Nəhayyət, araya düşən pauzadan istifadə elədi:

- Əfrayıl əmiyə söz qandırmaq olmur, xala.

- Niyə elə deyirsən,bala. Sənin adın Əfrayılın dilindən düşmür. Lap zərb-məsəl olmusan. - deyə Bilqeyis xala etiraz elədi.

- Xala, oğlun hır-zır qanmır ey! - deyə Məhəmməd Şəfəqə göz vurdu. - Qorxuram ondan.

Bilqeyis xala özünü itirdi:

- Nə danışırsan? – dedi. - Allah tərəfi, oğlum başıaşağı oğlandır, hələ bir sözümü iki elədiyi olmayıb. Xasiyyəti də ipək kimi yumşaqdır. Rəhmətlik atasına çəkib. O da qarışqanı tapdalamazdı.

Şəfəq işarəni anlayıb dərhal gümanla dedi:

- Əfrayıl əmi bəlkə evdə elədir, xala, amma bayırda üzünü görmə.

Məhəmməd Şəfəqdən razı halda:

- Bəli, bəli, - dedi, - Sözümüz çəp gələn kimi salır məni şillə-şapalağın altına!

Bilqeyis xala ağzı açıla qalmışdı:

-Bəs belə de!

Məhəmməd şövqə gəlmişdi, qaradan başqa boyaq tanımırdı. Əfrayılı rəngləyirdi.

- Hə, xalacan, əvvəllər belə deyildi, instituta girəndən sonra dəyişildi. Hələ keçən il bir sevdaya düşmüşdü, qabağını zorla aldım. Dedim ki, əmi, bu sevdadan əl çəkməsən kurs işlərini yazmayacağam, sənə əl yetirməyəcəyəm, səni də institutdan qovacaqlar. Yalnız bundan sonra sevdasından əl çəkdi.

Bilqeyis xala başa düşmədi:

-Sevda nəyə deyirsən?

- Yəni evlənmək istəyirdi... - deyə Məhəmməd dəqiqləşdirdi.

Bilqeyis xala quruyub qaldı.

- Evlənmək istəyirdi? - deyə boğuq səslə soruşdu. - Kimə?

Məhəmməd burnunu çəkdi:

-Bir rus qızına.

Bilqeyis xala çımxırdı:

- Bir əməlli danış. Bu rus qızı hardan çıxdı?

- Bizim institutda rus bölməsi var. Orada Rusiyadan gələn qızlar oxuyur. Əfrayıl əmi onlardan birinə vurulmuşdu.

Bilqeyis xala heyrətlə:

-Doğurdan?

- Əlbəttə, xala, -deyə Məhəmməd dodağını büzdü. - Yaxşı ki, qabağını ala bildim.

Bilqeyis xala az qala üzünü cırsın:

- Bir elə matışkəmiz çatmırdı!

Məhəmməd başını tərpətdi:

-Mən də onu deyirəm də! İndi Səbirəyə quşu qonub. Gəl, sən razı ol, Əfrayıl əmi hərdəmxəyal şeydir, bir də gördün fikrini dəyişdi, köhnə sevdaya qayıtdı. Rus qızı hələ də onun ətrafında fırlanır, əl çəkmir. Səbirə isə, necə olsa, özümüzünküdür. Həm də Əfrayılla bir sinifdə oxuyub.

Bilqeyis xala hirslə:

-Adə, nə boş-boş danışırsan. Sən mənə Səbirəni tanıdacaqsan? – dedi. -Mən oğluma boşanmış arvad alım?

Məhəmməd işə başqa tərəfdən yanaşdı:

- Xala, Səbirənin şəhərdəmənzili var. Dədəsindən qalıb. Əfrayıl əmininbeyni qandır, səndən rüsxət almadan evlənsə, neynəyəcəksən?

Bilqeyis xalanın gözləri doldu:

- Bu oğulluq olmadı ki!

Məhəmməd onu dilə tutdu:

- Odur ha! Daha tərslik eləmə, xala, razı ol. Könül sevən göyçək olar. - dedi.

Şəfəq də boş dayanmadı. Qalxıb kövrəlmiş Bilqeyis xalanın qucaqladı:

-Xala, Səbirə yaxşı qızdır. Yazığın bəxti gətirməyib boşanıb. Buna görə onu öldürmək olmaz ki! - dedi.

Ortaya çay gəldi, araya sükut çökdü. Bilqeyis xala birdən bomba kimi partladı:

-Üçünüz də bir bezin qırağısınız... - dedi və sakitləşmiş halda. - Ona deyin, qoy nə istəyir, eləsin. Təki evə qayıtsın.

Bu minvalla Əfrayılla Səbirənin işləri sahmana düşdü. Bir-iki aydan sonra üfüqdə toy mərasiminin işartıları görünürdü.

Bu nümundən görk götürən Şəfəqə hadisələri tələsmədən iradəsinə tabe elədi, əmisi oğlunun nişanını qətiyyətlə qaytardı. Çox keçmədi ki, Məhəmmədin elçiləri qapılarını döydü. Sonra baş verənlər səadət adlanır. Burda hekayəni bitiririk.

Səadət haqqında hekayə isə sona qədər yazılmır...

# MİNARƏNİN ƏRİ

Minarə dükan-bazarı, ev-eşiyi bütöv tapşırmışdı ərinə. Bunu ona eyib tutanqohum-qardaşa cavabı bu idi: “ Mən elmlə məşqulam, mətbəx arvadı deyiləm.” O, elmi-tədqiqat institutunda işləyirdi. Səhər saat səkkizdə gedər,axşam saat altıda qayıdardı. Qohum-qardaş səbrlə gözləyirdi ki,haçan onun elmi bəhrə verəcək. Elə əri dəı gözləyirdi. Gözləyə-gözləyə də cibi dükan-bazar toru gəzdirməkdən torbalaşmışdı.

Minarənin əri (madam ki,qohum-qonşu onu bu adla tanıyır, biz də çox dərinə getməyək; kişiyi bir ayrı adqoymayaq) hansı orkestrdəsə, əyri boru – musiqici dililə desək tranbon çalırdı. Axır vaxtlarbədii rəhbəri əvəz edirdi. Qazancı azdan az, çoxdan çox idi. Yəni aydan-gündən asılı idi. İnsafən pis çalmırdı. Minarədən savayı dünyada sevdiyi ikinci şey vardısa biri işdə çalıb, elə işdə qoyduğu tranbonu, digəri isə məşq üçün evdə çalıb, elə evdə də saxladığı əyri borusu idi. Niyə də sevməyəydi ? ! Bu borunu çalanda hansı şənlikdəsə Minarəni gördü . Bir könuldən min könulə necə vuruldusa, elə çala-çala evləndi. Daha sonra uşaqları oldu.İndi də çox şükür çala-çala onları əsrəyə çatdırırdı.

Dünyada bir gileyi vardısa, o da Minarənin deyinməyi idi. Kişi onun açılıb-yumulmayan ağzını titrəyən görəndə

canına vicvicə düşürdu, deyirdi bəs, üstünə ikiağızìı əjdaha gəlir. Minarəni dünyalar qədər sevsə də ürəyindən keçirdi ki, kaş, bu arvad lal doğulardı, onda qiyməti olmazdı!...

İstirahət günü, günorta idi. Minarənin əri mətbəxdə qapı-pəncərəni basdırıb borunu əlinə almışdı. Bu xoş yaz günü bala-bala püləyirdi. Dünya-aləm yaddan çıxmışdı. Arvad nə vaxt başının üstünü almışdı, nə demişdi eşitməmişdi. Minarə də çıxdı özündən. Əlini necə yellətdisə az qaldı boru kişinin boğazına gedə.

Minarə dedi:

-Uşaq əmziyə dadanan kimi, sən də boruya dadanmısan!- Sonra hökm elədi: - Dur, divara bir-iki mıx çal! Şəklimi böyütmüşəm, çarpayının üstündən asacağam.Al, bu çəkic, bu da mıx.

Kişi dinməzcə qalxdı, sözü çevirmədi. Otağa keçəndə soruşdu:

- Bir mıx çalım, iki mıx?

Arvad qəti:

- İki dənə,- dedi.- O boydaşəkli bir mıx saxlayar heç!! Bəlkə divara hayfın gəlir?!

Kişi cavab vermədi. Bilirdi ki, söz sözü çəkəcək. Göstərilən yerə mismar qoyub çəkiclə çaldı. Amma mismar bir dırnaqdan artlq divara işləmədi. Bir parça suvaq qoparıb əyildi. Minarə ufuldadı:

- Bir az asta! – dedi. -Divarı dağıtdın. Heç elə də çəkic tutarlar,mıx çalarlar?! O qədər tranbon çalırsan ki, mıx çalmağa da hey qalmayıb səndə.

Kişi dinməzcə ikinci mismarı onun əlindən aldı... Bu da əyildi. Minarə hikkələndi. Döşəməyə səpilən suvağa yana-yana baxdı. Boğma çixartdı:

-Uff... Day bu nə kişilik oldu?! İki mıxdan birini divara çala bilmirsən!—dedi vəsüpürgəni götürdü.- Nənəmelə düz deyir ki, indikilər nə kişidir! Allahın mağmunudurlar. Babam bir küt balta ilə ərəbə təkəri də yonardı qaşıq içi də çıxarardı. Bəs sən? Odur televizor orda, radio burda zəlil! Soyuducunun gürultusu qulaq batırır.

Kişi astadan:

- Mini, bəsdi,-dedi.

Minarə körüklənmiş alova döndü:

-Hə bəsdi, əşi—dedi—ömrünboyu özgələrinə çalançılıq etmisən, mənim üçün iki mıx çala bilmirsən.

- Kişi yalvardı:

- Ay başına dönüm!Nə etmək olar,divar betondur! Elektroburğutaparam, sabah mıx yeri açaram, qurtarar gedər də!

Minarə bu sözdən az qala dəli oldu:, dəmirə! Divarbir qonşunu götür...- vəxırp kəsdi. Minarənin ərinə bircə anlığa yazığı gəldi. Sonra isə valın o biri üzünü çevirdi: -Gedib özünə iş tapmısan: “Tranbonçalan”. Soruşurlar: “

Ərin nəçidir?" Qalırsan belə. Deyirəm: "Musiqiçidir". Yenə soruşurlar: " Nədə çalır?"Candərdi deyirəm: " Nəfəsli alətdə". Bundan sonrakı sualdan adamın nəfəsi gedir day bir də qayıtmır. Heç olmazsa klarnet çalaydın. O qaraca Şərif qədər də deyilsən. Çala-çala Bakının yarısını ərə verib, yarısına daarvadalıb.

"Ay allah, mən onu necə susdurum? Qışqırım? Yox, bu ona təsir etməz. Vurum? Qaçıb qohum-əqrəbanı tökər bura. Gərək onda əlimə alam tranbonumu çala-çala gedəm bu şəhərdən" –kişifikirləşir, əlac tapmırdı. Bu ara Minarə, həmsöhbətinin səsinə ehtiyac duydu. Soruşdu:

- Hə, nə gözünü döyürsən, yalan deyirəm?

- Sözündən belə çıxır, kim klarnet çalır, betona da mıx çalır?!- soruşdu.

-A, a, a, kişidə üzəbax ey! – Minarə təəccübləndi. - Mən elə dedim.

-Yaxşı, bes dərdin nədir? Az gətirirəm? Pis çalıram?

Minarə enidən od aldı:

- Əh... Bu da söz dedi! " Pis çalıram?" Yaxşı çaldın xeyri nədir?!

Kişinin dərddən ürəyi çəkilirdi. Əgər bu dəm əlinə əyri borusu keçsəydi,elə bir " yetim segah" çalardı ki, bütün çalğıçılar onun yanından çala-çala keçərdilər.

O, birdən yerindən atıldı, elə bil kişini ilan çaldı. Minarənin qolundan tutdu :

- Bəsdi, daha! – qışqırdı . - Bəsdi!İşdə hamı mən deyənlə oturub-durur, amma mən evdə, hələ də sən çalanla oynayıram... Bəsdi!

Və darta-darta onu mətbəxə apardı. Minarənin bişirdiyi xörəkdən cəld bir çömçə çəkdi boşqaba .Yedi.Sonra bir çömcə də çəkdi, “ piş-piş”—çağırdı.

Qoydu boşqabı yerə. Pişik qaça-qaça gəldi. Bir ağız edi,geri sıçradı. Yazıq-yazıq miyoldadı. Qapıya getdi. Kişi qışqırdı :

- Gördün?! Allahın pişiyi də yemədi. Mənsə hər gün bunu yeyirəm. Çala-çala ağzımın dadını itirmişəm. - Onun gözləri yaşardı.—dublyonkan üçün çalıram, qolbağın, saatın üçün çalıram, gül kimi balalarımız var — onlar üçün alıram, toy gəldi çalıram, yas gəldi çalıram... Ömrüm çala-çala gedir. Ay məni çala-çala qəbrə qoyasan!Bəsdi də!

Minarə döyükə-döyükə baxırdı. Əri ilk dəfə idi ki, belə “bül-bül” kimi ötürdü. Sözlər sanılı qozkimi çıxırdı ağzından və dəyirdi Minarənin başına.

Bu çalhaçal çox çəkəcəkdi. Amma iki qəribə iş oldu. Əvvəl bu oldu ki, Minarə ağladı. Gözündən gildir-gildir yaş gəldi. Elə ağlaya-ağlaya da :

- Daha bəsdi—dedi.

Sonrası qəribəlik yox, mö’cüzə idi. Dünyanın yeddi möcüzəsinin yeddisi də yalandı bunun yanında. O, da bu

idi ki, ogündən Minarənin əri nə hava çalırdı, Minarə də o havaya oynayırdı.

Bu belə! Amma kişinin ürəyində bir niskili qaldı. Bu da nə ola, nə olmaya, ola ad məsələsi. Qonum-qonşu yenə də biçarəni Minarənin əri kimi tanıyırdı. Kişi birçə bu ad məsələsində çala-çala qaldı.

# HEÇ NƏ İTMİR

“Get, 90 nömrəli açarı gətir!” Gətirdim, “Kabeli aç!” Açırdım.” İzolyasiya tap, məftil tap!” Həm onu, həm də bunu tapırdım. “ Baş energetiki çağır!” Çağırırdım. Bəzən də çox qorxduğum tapşırığı verirdi: “Bışkaya qalx,elektrik xəttini yoxla!” Külək olanda, yağış yağanda çıx, yoxla, görüm, necə yoxlayırsan! Buna baxmayıb qalxırdım. Bütün bu buyruqlardan sonra oturub bir az dincəlmək istəyirdim, rahatlanmaq istəyirdim, əzazil adam isə əmri əmrə calayırdı: ”Qaç su gətir!” Mən də qaçdım. Çünki... o, iyirmi il işləyib VI dərəcəli elektrik olmuşdu, mənim briqadirim idi, məncə, hazırına nazir olmuşdum, institutda beş il “ baş girrəyib” aldığım mühəndis-energetikixtisası ilə V dərəcəli elektrik işləyirdim...Yadına gəlir də, qurtarında təyinatımı bura vermişdilər. İdarə rəhbərləri bir-iki gün gözlədilər, gördülər dalımca “mürəbbi-filan” gəlmir, zəng edən də yoxdur. Dedilər: - “ Bir ay, ay yarım elektrik işlə, təcrübə qazan, şəraitlə tanış ol, sonra səni mühəndisliyə keçirərik”.

Gördüm çığır-bağır salmağın yeri deyil, dedim:

-Neynək, işlırəm!

O işləməklə 8 ay montyotr işlədim. İnsafən pis də qazanmırdım. Bir az da elə buna görə tərpənmirdim. Bu neçə vaxtı sən neyləyirdin? Mərdəkanda, DRES-də mühəndis işləyirdin?İndi də? Babətdir. Ancaq deyəsən bizimlə qurtaranlardan elə qabaqda gedəni mənəm. Sonra nə cür olacaq ki? Beş il məftil çəkmək, izolyator sarımaq üçün oxumamışdım ki. Bir gün yapışdım rəisimizin yaxasından:

- Yoldaş rəis, mənə iş ver!

Gördüm, nəm-nüm edir, daha durmadım, elə sabahısı getdim nazirliyə. Nazir müavini məni qəbul etdi. Dərd-sərimi danışdım. Uzun sorğu-sual etmədən, məni birbaşa öz idarəmizə böyük energetik tə’yin etdi. Necə? Rəisiniz hirslənmədi? Əh...Rəhmətliyin nəvəsi,hirslənib neyləyəcək. İndi texniki təhlükəsəzlik şöbəsinə başçılıq edirəm. Maaşım da pis deyil!

...Sənin axtarıb məni tapmağın əla oldu. Çoxdandır uşaqlarımızdan heç kimi görmürəm. Gedərik restorana, düm deyənəcən “qırmızıgözdən”, ”ağbaşdan” vurarıq. Tələbə deyilik ki, qəpik güdək. Bilirsən, qardaş, dünyada heç nə itmir, heç nə yaddan çıxmır...

Onu deyirdim axı, yaqxınlarda bizdə qəza baş verdi. Günahı da elektriklərdə olub. Odur ki, texnik təhlükəsizlik şöbəsi qərara aldı ki, elektriklərin ixtisas səviyyələri yoxlanılsın. Komissiya təşkil edib imtahan keçirtdim.

Bəzilərinin dərəcələrini aşağı saldıq,bəzilərinin iş sahələrini dəyişdik. Köhnə briqadirim özünü biabır etdi, ən adi suallara cavab verə bilmədi. Kəsdim dərəcəsini, iki ay müddətində II dərəcəyə endirdim. Yalvardı, yaxardı: " Balalarım var, kəsmə çörəyimi!"

Deyirəm: - " Ə kişi, bes o boyda buruq yansa, yaxşımı olar?" Axır, o qədər sıtqadı ki, cəza müddətini bir aya endirdim. Amma nahaq, gərək endirməyəydim. Niyə?... Əvvələn, ona görə ki: dünyada heç nə itmir. İkincisi də bax budur: mən fiziki əməyin əleyhinə deyiləm, əksinə, bəzən zehni əməyə görə nisbətdə ona üstünlük verirəm.Amma o briqadir məni elə insafsızcasına o yan bu yana qovurdu ki, yadıma düşəndə tüstüm təpəmdən çıxır. İnanmazsan, əvvəllər əllərimin, ayağlarımın ağrısından gecə səhərədək yatmazdım. Bəli, dynyada heç nə itmir... Pəncərədən bax, görürsən, aşağıdan keçən odur. Ə kişi, onu yox, əlində məftil aparan o yoğunu deyirəm. Sən, deyəsən, bayaq su istəyirdin? Bu saat gətirdim. Elə pəncərədə açıqdır.

--Briqadir, ay briqadir! Ə kişi, başını yuxarı qaldır, buradayam, kabinetimdə. Ələykəsalam, hara gedirsən? 445-ci buruğa? Nə olub ki?Xətt yanıb? Deməli, onu təmir etmək istəyirsən? Qulaq as , briqadir, qaç bir termos çay gətir... Eybi yox, gözləyərlər. Daha yubanma. Yolüstü

evimizə dəy, deginən bu gün gec gələcəyəm, işim var. Di durma!..

# DAŞHASAR

İslam kişi bir köhnəkişidir. Vaxt var idi, dik bığları göz çıxarırdı. Onda cavan idi. Gecevlənmişdi. “ Allah, allah” deyirdi ki, biroğul qırığı olsun, o öləndən sonra onun çırağını yandırsın. Amma qızı qız üstündə gəlirdi. Birincisinə sevindi;ikincisinə “Nə olar” – dedi; üçüncüsünə “ Bəsdi,” – dedi, – arvad durmadı, “Qızbəs” – dedi , arvad da yanmadı, “ Kifayət”—dedi ; gördü , yox ey, deməknən muradhasil olmur. Deyəsən bu qızların yolu asfaltdandı. Cavanlıqdan dik dayanan bığları şaxını itirdi, gün-gündən sallandı aşağa.

İslam kişi qızları əl-ayağ açandan iki gözu vardısa, ikisnidə borc aldı. Evin ətrafındakı çəpəri sökdü, daşdan adamboyu hasar qaldırdı. Beşinci qızdan sonra hasar bir daş da qaldırdı. Yeddinci qızdan sonra eyvana çıxanıheç təyyarədən də görmək olmazdı. İndi onun evi qalacaya oxşayırdı. Kimsə də o həndəvərdə dolanmazdı.

Qızlar böyüyürdü. Onların yaşıdları çoxdan ərə getmişdilər. Hərə bir hasarsız evdə gəlinlik edirdi.İslamın qızları isə hər dəf-dumbul səsinə evdən çıxır, daş üstə daş qoyub hasardan boylanırdılar. Elə boylana-boylana da qalmışdılar, gözəl-gözəl, çirkin-çirkin qızlar ev oldular, ər

sahibi oldular. İslam kişi isə fikirləşirdi ki, hasarı bir daş da qaldırsın, ya yox?Qorxurdu ki, yad nəzəri onlara sədəmə toxundurar. Yrəyini gecə-gündüzşübhələr üzürdü: “Bır də gördün bir atasından bixəbər çıxdı yolun qırağındakı tut ağaçına boylandı heyətə...Yox, o ağacı da kəsmək lazımdır. Qoy, bu yay keçsin...”—öz-özlüyündə qərarlaşdırdı.

Yayın axırı idi. Axşamüstü İslam kişi eyvana çıxmışdı .Hasarınyanındakı tut ağaçındarəhmətlik Əlinin oğlunu gördü.Hirs vurdu təpəsinə, bığları deşərəm ha deşərəm qalxdı. Qeyzlə soruşdu:

-Adə, neynəyirsən orda?!

-Axşamınız xeyir, İslam əmi! –oğlan sakitcə dilləndi.—Tut yeyirəm. İki ildi bu xar tutun üzünə həsrətdim.

Onun adı Vəli idi. Əsgərlikdən təzə qayıtmışdı. Sürücü işləyirdi. Yekəpərin biri idi. Maşına qalxamda , yalan olmasın, maşının bir yanı yatırdı yerə.

-Düş aşağı!—İslam qışqırdı, sonra eyvana çıxmış qızlara acıqlandı.—İtilin evə! İndi sənə tut yeməyi göstərərəm.

Axırıncı söz Vəliyə aid idi.

-Heç dəxli var! –Vəli təəcübləndi.—İndi qoymazsan bu ehsan tutundan doyunca yeyim?

İslam dəli kimi qışqırdı:

- Kəs, haramzada! Sən tut yeyən yetim deyilsən! Özgə həyətinə boylanırsan!

Oğlan quruyub qaldı.

- İslam əmi, nə danışırsınız ?—dedi .—Dörd-beş il qabaq olduğum həyət deyil? Axı, orda nə var ki,baxım da ?!

Bu sözdən İslam kişi daha bərk acıqlandı:

- Məni qana salma, küçük, düş aşağı! –Bə hələ də evə keçməmiş ortancıl qızına qolaylandı. O, üzünü tutub kənara çəkildi, amma yenə evə keçmədi. Bu qız Vəli ilə yaşıd idi, səkkizinci sinfə qədər bir yerdə oxumuşdular.

Vəli qıpqırmızı oldu. Elə bil şapalaq ona dəymişdi.

-İndi ki, belə oldu,-qışqırdı. –Mən bu hasarın daşını daş üstə qoymaram.

Ayağını hasara dayadı. Güc verdi. Bir sıra daşla qaldırılan hasardan daşlar calbalanmış qoz kimi yerə töküldü.

-Adə...Adə...—İslam kişi özünü yetirincə, hasar darvaza boyda açıldı. Onlar əlbəyaxa oldular.

Qonum-qonşu töküldü gəldi. Onları araladılar. İslam o gündən yatağa düşdü. Vəli isə aradan çıxdı. Bir il haralardasa itib-batdı. Günlərin bir günü onu kənddə gördülər.

Bu il ərzində çox sular axmışdı. İslamın üç qızından başqa qalanları ərə getmişdi. Qızların qalan ikisi xırda idi,

ərlik yaşı yoxdu. O birisi isə Vəli ilə yaşıd olandı, bütün elçiləri də geri qaytarmışdı.

Vəli bütün bunların hamısına qulaq asandan sonra elə gəldiyi axşam İslamın qızına elçi göndərdi. Elçisi atasının dostu idi. Vəli onu gqclə razı saldı. İslam xeyli fikirləşəndən sonra “Razıyam!”—dedi . Bununla da elçini lap heyrətləndirdi.

Toy oldu.

İslam kişi hasarın dağılmış yerinə hələ də əl vurmamışdı. Əvvəl nasaz idi, sonra xeyir iş xeir iş üstünən oldu. Hasar da elə elə qaldı. Vəli bir dəfə utana-utana dedi ki, gəlim oranı qaldırım.

İslam yenidən dikəlmiş bığlarını sığallayıb,gülümsədi:

- Lazım deyil, oğul! –dedi.—Qorxuram, hasarı təzələyəm iki xırda qızım bəxti bağlana. İnşallah, gələn ildə-zadda onlarıda köçürəcəyəm. Evdə daha kim qalacaq ki ?! Heç kim! Bir qarım qalacaq, ona da çoxdandır hasar-filan lazım deyil...

# DƏDƏMİN TƏSBEHİ

Nə vaxtdandı dədəm mənə göz verib işıq vermirdi. Bir sözlə əzbər olub düşmüşdü dilinə. Otururdu deyirdi durardu deyirdi, çörək üstə deyirdi, çay içəndə deyirdi. Bir əli bığında, bir əli təsbehində deyirdi. Qara bığın tərpənişi, qara təsbehin dən-dən şıqqıltısı həmin sözlə elə bir trio idi ki, ahəngi məni dəli eləyirdi.

Dediyi nə olsa yaxşıdır?Nə olsa yaxşıdır?

-Ay oğul, gəl, səni evləndirək!

Mən də doldururdum ətəyimə daşları, bir-bir atır, başımı da qabaq tuturdum.

-Evlənmək nədir, əşı—deyirdim .—İndi evlənənin gərək yeddi başı olsun.

Dədəmin təsbehi dən-dən olurdu, məni dilə çəkirdi:

-Sən gəl bu daşı ətəyindən tök. Bir halal südəmmiş alaq sənin üçün. Daha çənəmin çüyü çıxıb, saqqalım ağarıb, bu gün varıq, sabah yoxuq. Hələ onu demirəm, səndən də kiçikləri var, axı... Onlarıda yola yetirənə qədər bizimki bizə yetəcək... Hə, oğul

Bu qəmli söhbətdən ürəyim bir tikə olur. Əlim boşalır, daşlar tökülür ətəyimdən. Deyirəm:

-Dədə, başına dönüm, razıyam amma əhd eləmişəm. Əhdim yerinə yetməsə evləndi yoxdu.

Kişi sevincindən təsbehi cibinə atdı və dedi:

-Hə... Sözünü de! - dedi

Üzümə ələk tutub əhdimi birnəfəsə düdülədim:

-Əhdim maşındır, dədə! Bir maşın al, elə günü sabah evlənim!

Dədəm necə çeçədisə, yalan olmasın beş dəqiqə özünə gələ bilmədi. Anamın gətirdiyi çaydan bir qurtum alandan sonra sinəsi yumşaldı. Dili söz tutar-tutmaz dedi:

- Ə qırışmal, atam məni heç at-arabaya da şərik eləmirdi, gərək evlənməyəydim?

-Şərik etmədi deyəndə, sonra arabanıbütöv sənə verdimi?!

Dədəm mərd-mərdanə:

-Verdi!—dedi. İndiki zamanənin də at-arabası maşındır... Özün deyirdin ki?

Kişi təcbehi əlinə alır, bir dərin ah çəkir,soruşur:

-Oğul,neçə ildir institutu qurtarmısan? Beş il olar?

-Olar! –ammamən də mərd-mərdanə cavab verirəm.

-Belə!—Təcbehdə bir dən düşdü.—İnsafnan de : bu beş ildə qazancın nə olub?!

Bu yerdə dilxor oluram:

-Hə olub olub da!

-Yox, ay oğul, xətrinə dəyməsin. Görək bir maşın təkəri qədər evə xeyir veribsənmi?

Mən qulağımın ardını qaşıdım :

-Maşın təkəri qədər xeyir vermişəm! –dedim.

Atamtəsbehindəbir dən saldı. Üzünü anama tutdu.

-Arvad , xəzinədarımız sən! Oğlundüz deyir?

Anam lap baltanı kökündən vurdu:

-Daha burda özgəsi yoxdur ki! Aldığın yüz olub, yüz otuz olub , indi də yüz əllidir! O yandanvermisən, bu yandan almısan. O üz-bu üz yolxərcin,

Atam təsbehdə saldığı dəni gəri qaytardı. Özündən razı:

-Bu belə!—dedi .—Bəs eləsə mən maşını nə ilə alım, ay oğul? Beş hazır yiyənim var, səni çıxıram. Bunlarla heçvelosipet də almaq olmaz—təsbehi mizin üstünə atdı.

Mən əlimi uzadıb götürdüm:

-Dədə,təsbehi olar?—Soruşdum .—Dədəm tərs-tərs mənə baxdısa da dinmədi. O,təsbehini heç kimə vermirdi. Mən özümü o yerə qoymayıb

bir dən saldım :

-Ay dədə, deyək mən hec,- dedim,- sən ki adlı-sanlı maşinistsən. Elədirmi? Elədir. Ayda üç yüz, dörd yüz qazanırsanmı? Qazanırsan.Allahın bir maşını nədir, axı, ala bilmirsən? Qonşunu götür... Elə Kəblağanıdeyək.

Dükandardır, yetmiş –həştad manata satıcı işləyir.Maşınları qoşa-qoşa!Bu biri... Cəfərkişi zavodda qarovulçudur, bir təzə “ Qaz-24” –ü var.Bu üçü. Zərgər Ağanı day demirəm. Alt-üst tikdirdiyi evini satsa on dənə “Qaz-24”olar. Daha qapısındakı bir cüt maşını demirəm... Bu dördü...

Mən dedikcə təsbehin dənələri bir-bir düşür, şaqqıldayırdı. Yarıya çatmışdım ki, dədəm dartıb təsbehi əlimdən aldı. Ayağa qalxdı, acıqlandı mənə:

-Sənə min kərə demişəm ki, təsbehe əl vurma!—dedivə o biri otağa keçdi.

Mən rahat nəfəs aldım! Amma bilmədim dədəmi hirsləndirən nə oldu: təsbehi əlimə götürməyim, ya təsbehdə saldığım hesab?!

## Parkda "ədəbi disput"

Şəhərin hörmətli ziyalılarından biri olan Ədhəm müəllim söhbət həvəskarı idi. Amma bir müddət idi ki, o, auditoriyasız qalmışdı. Şura hökuməti dağılandan sonra heç yerə dəvət almırdı. Onun söhbətlərinin müştağı olan zavodlar, fabriklər, kolxoz-sovxozlar dağılmış, kitabxana, mədəniyyət sarayları isə maddi çətinliklərin caynağında çabalayırdı. Məktəblərdən isə heç danışmağa dəyməzdi. Bazar iqtisadiyyəti hər yeri bazara çevirmişdi. Bir vaxtlar yazıçılar ittifaqı, bilik cəmiyyəti xətti ilə ədəbi görüşlərə, təntənəli mərasimlərə ezam olunardı. İllahda rayonlara göndəriləndə Ədhəm müəllimin könlü gül kimi açılırdı. Şair demişkən, bir qaraquş kimi uçan xəyalı, vətən torpağını seyrə çıxırdı. Bulaq başında doyunca yeyib-içəndən sonra Ədhəm müəllim düşürdü kolxozçuların canına. De ki, deyəsən. Kişinin sinəsi dolu idi, söz fantanı səngimək bilmirdi.

« - Ax, hanı o dövran! Adam özünü adam hiss edirdi. - deyə Ədhəm müəllim gözünü yumub xəyala gedərdi…, və açanda reallıq onu kədərləndirərdi. - İndi kimə lazımsan,ay Ədhəm? Dil tərpədən kimi, vururlar adamın ağzından. Bəs, müəllim, sus, bu sən girən kol deyil.»

Danışmaq azarı Ədhəm müəllimin ürəyini üzürdü. Həmişə çənəsinin altına salmağa adam gəzirdi. Axır vaxtlar işlədiyi yerdə otaq yoldaşları üzə durdu. Şöbə rəisinə şikayət elədilər:

- Bizi işdən qovsan da, bu adamla bir otaqda oturmayacağıq.

Rəis təəccüblə:

- Ədhəm müəllim sizə neyləyir? Axı, o, mədəni, savadlı bir adamdır. İşini də əla bilir.

- Ay rəis, bu adam səkkiz saat dil boğaza qoymur. Dərdimiz-çorumuz azmış, bu da bir yandan başlayır keçən günlərdən danışmağa. O qədər danışır ki, adam az qalır özünü assın.

Rəis işçiləri sakitləşdirib yola saldı. Ədhəm müəllimi yanına çağırdı, bir xeyli danladı, sonra ondan iltizam aldı ki, daha xamuş dolanacaq. İş yoldaşlarından qəlbi sınmış Ədhəm müəllim qurdunu öldürmək üçün qonşu otaqlara ayaq açdı. Amma o biri şöbələrin cavanları hörmət-izzət bilmirdilər. Onun hər sözünü lağa qoyurdular. Ədhəm müəllim də abrına qısılıb qonşu şöbələri gəzmək adətinitərgitdi.

Bazar günü lap darıxdı. Evdəkiləri öz söhbəti ilə bezdirəndən sonra geyinib bayıra çıxdı. Həyətdə domino oynayan qonşular onu görən kimi dərhal dağılışdılar.

Bilirdilər ki, ona baş qoşsalar bazar gününü haram eləyəcək. Ədhəm müəllim ah çəkdi. Bağçaya tərəf irəlilədi. Oralarda həmişə həmsöhbət tapmaq olardı. Hava ayaz olduğundan bağçada seyrəklikdi. Təmiz havanı köksünə çəkən Ədhəm müəllim oturacaqlardan birinə yanını verdi. Bir az keçdi. Parkın kimsəsizliyindən darıxdı,durub getmək istədi. Birdən iki nəfərin peyda olması onu sevindirdi. Amma bu adamlardan gözü su içmədi. Onlar bərkdən danışır, dirəşə-dirəşə gəlirdilər. Deyirdin, indi yıxılacaqlar. Ədhəm müəllimlə üzbəüz oturacaqda qərar tutduqda, məlum oldu ki, ikisi də dəmdi. Arağın iyi gül kimi havanı dərhal bulandırdı.

Ədhəm müəllimin könlü bu qonşuluqdan açılmadı. Çünkibunlar söhbət adamı deyildilər. Yerini dəyişməyi isə şəxsiyyətinə sığışdırmadı. Əlini-qolunu ölçə-ölçə danışan pəzəvəng kişi arıq yoldaşına deyirdi:

-Qəm eləmə, lələşin sənin xəcalətindən çıxacaq. Mən həmişə deyirəm ki, Əlibala kişi adamdı. Mərdlikdə tayı-bərabəri yoxdu. Mənim canım sənə qurbandı, Əlibala! Sən mənim gözümün işığısan, Əlibala!

Onun xırıltılı səsindən ağaca qonmuş quşlar pırıltı ilə uçdular. Ədhəm müəllim dözmədi, səsi bağçanı başına götürən pəzəvəng kişiyə irad tutdu:

-Ay vətəndaş, sakit danışsana!

Pəzəvəng kişi sözünü yarımçıq kəsib ona çəpəki bir nəzər saldı, deyəsən, Ədhəmin cılız görkəmi onda heç bir hörmət hissi oyatmadı. Arıq yoldaşından soruşdu:

-Sən bu kişini tanıyırsan?

-Yox.

-Mən də tanımıram. Bəs, niyə söhbətimizə müdaxilə edir?

Əlibala deyilən kişi hıçqırdı:

-Bilmirəm, - dedi və gümanla. - Bəlkə, o, bizi tanıyr?

-Tanıdı, tanımadı, mənə vətəndaş niyə deyir?

Əlibala da təəccübləndi:

- Doğrudan ha, - dedi və yenə gümanla.- Bəlkə, vəzifə adamıdır, adət

eləyib?

Pəzəvəng dilini nırçıldatdı:

-Vəzifə adamının parkda nə işi? Onların başı rüşvətdən ayılmır. - dedi.

Əlibala barışdırıcılıqla:

-İşin yoxdur, vətəndaş deməyində bir qəbahət yoxdur…- dedi.

Pəzəvəng ona qulaq asmadı, ayağa durub Ədhəm müəllimin qarşısında dayandı və əlini onun çiyninə qoydu:

-Vətənin daşına qurban olum! Vətənin qumuna qurban olum! Amma niyə mənə vətəndaş deyirsən? Sənə neyləmişəm?

Ədhəm müəllim çaşıb qaldı, bilmədi bu sözün müqabilində nə desin. Əlibala yoldaşına züy tutdu:

-Doğurdan ha, vətəndaş sözü beş il qabaqkı məhkəməni yadıma salır.

«-Vətəndaş müttəhim, siz özünüzü günahkar sayırsınızmı?» « - Yox,vətəndaş, hakim.» Doğrudan da, hakim vətən daşı idi. Haqqını alandan sonra günahkarı buraxdı, məni türməyə saldı. İki il iş kəsdi mənə.

Pəzəvəng ona çımxırdı:

-Yaxşı, yaxşı, köhnə palan içi tökmə, - dedi. - Mənim bayırda çəkdiyimi

sən içəridə çəkmədin! İnan Allaha, sənin halını fikirləşəndə könlüm qubar eləyirdi. Bu işi bir tutmuşduq, gərək, cəzanı da bir çəkəydik.

Söhbət çox maraqlı olsa da şəxsiyyətinə göstərilən etinasızlıq Ədhəm müəllimi qəti təmin eləmirdi. Pəzəvəngin əli zindan kimi ağır idi. Bu vəziyyətdə söhbətdən ləzzət almaq olmazdı. Ədhəm müəllim səbrlə dilləndi:

-Ay yoldaş, olmaz ki, əlini çəkəsən?

Pəzəvəng əlini çəkmədi:

-Yoldaş, yoldaş, - deyə təkrar elədi. - Bu söz də işimizə yaramır.

Düşüncəsi ayrı, dünyagörüşü fərqli olan yad adamları, nəinki, birləşdirmir, hətta, ayırır. Bu söz tarixin arxivinə keçib. Elə deyil, Əlibala?

Əlibala dərhal dilləndi:

-Əlbəttə, amma bir qeydim var. Haçansa varlıların, əsilzadələrin fəhləyə

yoldaş deməyi fəhlə sinfinin böyük qələbəsi idi. İnqilab etmiş zəhmət adamının özünü təsdiqi idi. Yəni, ay bəy, ay xan, ay varlı səni hakimlikdən salmışam, varını-dövlətini əlindən almışam, özümə bərabər etmişəm, özümə yoldaş etmişəm!

Pəzəvəng əl çaldı:

-Əla, - dedi. - Yox, həqiqətən də türmə sənə düşüb. Lap filosof olmusan,

ay gözünə dönüm. Davam elə.

Bundan ruhlanan Əlibala:

-Amma, kommunizim ideyaları bir xəyala çevriləndən sonra bu müraciət

mənasını itirdi. Bəy yenə bəy oldu, varlı yenə varlı oldu. Deməli, biz eyni yolun daşları ola bilmədik.

Pəzəvəng bir də əl çaldı, Ədhəm müəllimin şlyapasına bir yağlı çırtma vurdu, şit-şit güldü:

-Anladınmı?

Ədhəm müəllim düşdüyü axmaq vəziyyətə mat qaldı. Hələ də sülh yolu ilə canını qurtarmaq fikrində idi. Şlyapasını düzəldib:

-Dostum, bu hərəkətin gülməli deyil, - dedi. - Mən də hərdən içirəm,

amma kimsəyə dolaşmıram. Sizsə şitini çıxarırsınız. Yol verin, mən gedirəm.

Pəzəvəng Əlibalanın sərxoş qəhqəhələri altında Ədhəm müəllimi oturacaqdan qalxmağa qoymadı:

-Hara? Söhbətimizi yarımçıqdır hələ. Otur. Bir dəhaçan rastlaşacağıq? - dedi. -İndicə mənə dost dedin. Çox səfeh müraciətdir. Sözün özü gözəldir. Dost! Adamın könlü açılır. Bax, bu Əlibalailə bir xalvar çörək kəsmişəm, neçə illər biryerdə işləmişəm, gəliş-gedişimiz var. Yaxşı pullar qazanmışıq. Daha zavodda alümin-mis qalmadı satmayaq. Bir manatını da onsuz yemirdim. Hələ də bir-birimizə dost deyə bilmirik.

Əlibala heç gözlənilmədən bomba kimi partladı. Ayağa sıçradı, hiddətlə:

-Sənin kimi dostu olana düşmən lazım deyil, - dedi və sərxoş çılğınlıqla: - Mən sənin kəramətindən türməyə düşdüm.Dəfələrlə sənə dedim ki,bəsdir,tamahını saxla, qulaq asmadın. Axırı da belə oldu. Dost dosta canqurban edər, sən isə məni dünya malına satdın,hər şeyi belimə yüklədin. Dedin, Əlibala, hamısını boynuna al, mən

qıraqda olsam adam tapıb səni çıxarmaq asan olacaq. Mən axmaq da razılaşdım. İki il güpladılar böyrümə. Budur dostluq?

Pəzəvəng kişi cücə kimi büzüşdü və boğuq səslə Ədhəmə:

-Eşitdinmi?Əlibala bayaq dediyimə qüvvət verdi. Haqq sözə nə deyəsən?

- dedi və Ədhəmin yaxasını boşladı, dönüb Əlibalanı qucaqladı. - Sənə mənim canım qurban, Əlibala! Amma o dünya malını tək yemədim, sənin ailənlə bölüşdüm, valideyinlərinə əl tutdum, qoymadım onlar korluq çəksinlər. Bunu niyə demirsən? Yad adamın yanında niyə məni xəcil edirsən? Elə bilər mən xəspuşun biriyəm.

Ədhəm müəllim bir-birinə sarılmış bu iki sərxoşun yanından sivişib aradan çıxmağı fikirləşirdi ki, pəzəvəng ona tərəf döndü:

-Sən de, mən pis adamam?

Ədhəm müəllim könülsüz halda:

-Qardaş, niyə pis olursan ki?-dedi.

Pəzəvəng  küt-küt ona baxdı, mızıldandı:

-Mənə qardaş deyəndə qonşumuzun bir sözü yadıma düşür: «- Atamın bir arvadı, anamın bir əri, sən hardan çıxdın?»

Əlibala ürəyini boşaldandan sonra deyəsən yumşalmışdı, pəzəvəngə bir dürtmə vurdu, pis-pis güldü:

-Bəlkə, dədənin əskərlik günahlarıdır? - dedi.

Pəzəvəng boynunun ardını qaşıdı, diqqətlə Ədhəmin üzünə baxdı, başını buladı:

-Yox, bu kişinin sifətində dədəmdən bircə nişanə də yoxdur.

Ədhəm bayaqdan birinci dəfə güldü:

-Ə, sən lap fantan eləyirsən ki! - dedi.

Pəzəvəng ona nəsihətlə:

-«Ə» müraciətini kənddə-kəsəkdə işlədirlər. İsmin tək halıdır. Biz mədəni insanlarıq,ədəbiyyatımızın min ildən çox tarixi var, - dedi. - İnsan isə cəmi yaranmışların əşrəfidir. Bu əşrəf cəm halında müraciətə layiqdir. Məsələn, ingilislərdə tək hal yerli-dibli yoxdur.

Əlibalasəbirsiz halda:

-Gəl, çıxıb gedək, işim var, - dedi. - Bura sənin üçün ədəbiyyat dərnəyi deyil ki.

Ədhəm müəllimin dili dinc durmadı:

-Söhbətimiz çox maraqldır, - dedi. - Bəlkə, davam eləyək?

Pəzəvəng kişi tərs-tərs ona baxdı:

-Yeri, adə, - dedi. - Əlibala, sən öl, bu da bizi dolayır.

Ədhəm müəllim bal şirinliyi ilə:

-«Adə» bakılıların sevimli ifadəsidir. Onun Şirvan variantı «a adə»dir.

Demək olar ki,müraciətin cəm halıdır. Bir az lorudur. Ermənilərin «ara» müraciətinə oxşayır.

Pəzəvəngqeyzləndi:

-Yum, ağzını, - dedi. - Erməni özünsən. Salaram təpiyimin altına ağlın

başına gələr…

Əlibala şaqqıltı ilə güldü:

-İşin yoxdur, mən ölüm, - dedi.- Ayə, bu bizim adamdır.

Ədhəm müəllim davam etdi:

-«Ayə» deyimi Qazaxda, Borçalıda tez-tez işlənilir. Gəncəlilər «alə» deyir, muğanlılar «ədə» deyir, Salyanlılar «ələ» deyir…

Pəzəvəng quruyub qalmışdı, Əlibala isə uğunub özündən gedirdi:

-Əkişi, bu lap dəsgah imiş ki! Xalq qaynaqlarını əzbər bilir.

-«Əkişi» də fərli müraciət deyil. Təhqirli heç bir şey yoxdur, amma naqolay səslənir, - deyə Ədhəm müəllim dərhal dilləndi.

Pəzəvəng kişi sinirli halda əlini sinəsinə qoydu:

-Ay müəllim, qurtar. Yeri, yolunla get. Qoy, dərdimizi çəkək.

Ədhəm müəllim istehza ilə vaysılandı:

- Vay-vay-vay! İndi «müəllim» sözü lap hörmətdən düşüb. Adam eşidəndə xəcalət çəkir.

Əlibala qarnını tutdu:

-Ha, ha, ha, əmioğlu, qurtar, sən Allah, - dedi. - Daha məndə can qalmadı.

Ədhəm müəllimsə özünü heç cür saxlaya bilmirdi, yaman qızışmışdı:

-Elə demə, qadan alım,əmioğlu müraciətini eşidəndə adam özünü Maştağa

kəndində hiss edir.Vallah, polyaklar yaxşı edir, kişilərə «pan», qadınlara «pani» deyə müraciət edir.Almanlap «her», «frau» deyir. İngilislər «mister», «missis» deyir. Fransızlar «müsyö», «madam» deyir. Bircə biz yazıqlar, bir müraciət forması tapa bilmirik.

Əlibala heyrətlə:

-Bu lap dərya imiş ki!

Pəzəvəngbirdən özündən çıxdı:

-Bu dəryalardı da bizi bu günə qoyan. Dünyanın hər yerindən xəbər verirlər, yaxşını pisdən ayırırlar, amma camaata bir gün ağlamırlar. Bələlərini dünya işığına gərək həsrət qoyasan ağlları başlarına gəlsin. Bax, belə…

O, gözlənilmədən Ədhəm müəllimin şlyapasının yanlarından tutub var gücü ilə çəkdiaşağı. Ədhəm müəllim çənəsinə qədər parçimlənmiş şlyapanı səhmana salınca onlar hırıldaşa-hırıldaşa uzaqlaşdılar.

Bu «ədəbi disput» Ədhəm müəllimə dərs oldu. Onu çənə vurmaq azarından xilas etdi. Tanış-biliş nə illah elədisə bunun səbəbini öyrənə bilmədi. Bu bir sirr olaraq qaldı.

## İdarə zarafatları

Kompyüter şöbəsi geniş pəncərələri lazımsız əşyalarla qalaqlanmış dəhlizin lap axırında yerləşirdi. Belə məlum olurdu ki, bu idarədə müasir texnika hələ lazımi qiymətini almayıb. Amma belə deyildi. Bir neçə işçinin çalışdığı geniş otaqdakı avaldanlıq təzə idi, parıldayırdı. İçəridə bir nizam, sahman vardı. Monitor və prosessorların yüngül uğultusundan savayı bir hənir eşidilmirdi. Bu sərdabə sakitliyini küncdəki masanın arxasında qurdalanan texnikin işlətdiyi elketrik alətlərinin səsi arada pozsa da hərə öz işi ilə məşğuldu, kimsənin cınqırı çıxmırdı. Qonşu şöbənin əməkdaşları dəhlizdə saatlarla deyib-gülür, siqaret çəkir, qeybət qırır, idmandan-siyasətdən mırt vurardılar. Kompüter şöbəsinin işçiləri isə səhər otağa girər, bir də axşam oranı tərk edərdilər.

Şöbədə ağsaqqal Qədim kişidən savayı daha üç nəfər çalışırdı. Biri bütün məhəbbətini işə sərf elədiyindən qarıyıb qalmış Rəfiqə xanımdı.Geyim-gecimi, oturuş-duruşu çox qadına nümunə ola bilərdi. Amma bəzənməyi, düzənməyi kimin üçün idi, məlum deyildi. İkincisi, tündməcazlığı ilə xeyirxahlarını da özünə düşmən eləyən Rəvandı. Onun solğun üzündən həmişə zəhrimar damırdı. Üçüncüsü bir sərək rus balası idi, çilingər işlərini yerinə

yetirirdi. Onun gözü kompyüterlərdə idi. Biri boşalan kimi arxasına keçir, internetə girir, saytları mənasız yerə veyillənirdi. Şöbədə bir nəfər də vardı, amma onun təsvirinə bu hekayədə ehtiyyac görmürük. Çünki hadisə vaqe olanda həmin şəxs xəstəxanada idi.

İşçilər bir-birini təhəmmül eləyirdilər. Dinməz yola gedirdilər. Hətta Bağır müəllim də özünü müdir kimi aparmırdı, dartıb dağ başına qoymurdu. Onlarla bərabər fərdi kompüterində çalışır, onlarla bir yerdə çay içir, nahar eləyirdi. Müdirin dedi-qodudan zəhləsi gedirdi. Bu əməl sahibləri ilə arası yox idi. Şöbənin əməkdaşları da onun xasiyyətini götürmüşdülər.

Axır vaxtlar vəziyyət dəyişmişdi. İdarəyə xeyli təzə texnika gətirilmişdi. Şöbənin işi artmışdı. Texnikanı quraşdırmaq, əyər-əskiyini düzəltmək, əməliyyatçıları hazırlamaq, proqram təminatı vaxt və adam istəyirdi. Baş qaşımağa macal eləmirdilər. Bağır müəllimin təkrarxahişindən sonra şöbəyə göndərilən cavan mühəndislər onu məyus eləmişdi. Bu gənclərin dovtələbliyinə söz ola bilməzdi. Bağır müəllim bir neçə sualla onların kəmsavadlığını üzə çıxaranda belə cavanlar xəcalət çəkmirdilər. Arsız-arsız gülürdülər. Onları işdən çox maaş cədvəli maraqlandırırdı. Kompüter arxasında oturmaqdan qarnı belinə yapışan şöbə müdiri təbdən çıxırdı. Dilinin ucunda dolanan latayırı zorla udurdu.

Əslinədə, heç tərbiyyəsi də bu lüğətdən istifadə eləməyə yol vermirdi. Hövsələsini zorla basıb şöbə əməkdaşlarının qulağını yağır eləmiş məşhur kəlamlarını təkrarlayırdı:

- Sizin aldığınız ali məktəb diplomu ilə savadınız əks mütənasibdir. Amma biz sizə kömək eləməyə hazırıq. Kompüterə yiyələnmək lazımdır. Bu, dünyanın bir saylı sənətidir, hər şeyin açarıdır. Biz cavan olandadeyirdilər ki, əsrimiz kosmos əsridir. Bax, həmən kosmos əsrinin lokomotivi kompüterdir. Kompyüteri bilsəniz gələcəkdə hər şeyiniz olacaq.

Zəmanə cavanlarını belə şirin vədlər cəlb eləmirdi. Bir-iki həftədən sonra aradan çıxırdılar. Bu, Bağır müəllimi çox da kədərləndirmirdi. Bilirdi ki, belə bivec mühəndislərin yerini idarənin kadr şöbəsi yaxşı bilir. Amma belə olmadı. Yazdığı növbəti xidməti məlumatdan xeyli vaxtxəbər çıxmadı.Bir gün idarə rəisi onu yanına çağırdı. Müqəddiməsiz dedi:

- Bağır müəllim, deyirlər sən cavan mütəxəssizləri yola vermirsən? Bir yandan adam tələb eləyirsən, bir yandan da gələnləri top-tüfənglə qarşılayırsan. Bu nə işdir?

Rəislə münasibəti xoş olsa da heç vaxt sərvaxtlığını itirməyən Bağır müəllim onunlamübahisə eləməzdi. İndi də mülayimliklə özündən on yaş kiçik olan həmsöhbətinə baxdı, gülümsədi:

- Ay rəis, mən qovmuram, özləri qaçırlar. Mənim nə günahım var?- dedi və hələb-həlbət geri çəkilməyə yer elədi. - Vallah, bilmirəm, kadrlar şöbəsi bu bisavadları haradan tapıb göndərir?

Rəis şümal yanağını qaşıdı, kürsüyə yayxandı. Cavanlığına yaraşmayan xaşal qarnı çalxalandı. İstehza ilə məsləhət gördü:

- Neynək, onun göndərdikləri xoşuna gəlmir, özün tap gətir. Ölkədə kompüteribilən yoxdur bəyəm?- deyə soruşdu.

Bağır müəllim yüngül bir istehza ilə:

- Bizə baxmayın, rəis, biz öyrəncəliyik. İndi otuz-qırx «şirvan»a mütəxəssis tapmaq mümkün deyil. - dedi. - Heç kim havayı hamballıq eləmək istəmir.

Rəisin yaraşıqlı sifəti əyildi:

- Ay kişi, nə danışırsan? - dedi. - İdarədə ən böyük maaşı sənin işçilərin alır, yenə narazısan?

Bağır müəllim xəyalpərvərliklə:

-Ay rəis, xaricdə kompüter mühəndisinə ayda dörd-beş min ABŞ dolları verirlər ey! - dedi. - Haçan bizdə də belə olacaq?

Rəis ona şübhə ilə baxdı, ağır bədənini yüngülcə kürsüdən qaldırdı. Dəyişmiş səslə:

- Xaricdə küçələri də şampunla yuyurlar… - dedi. - İndi bundan bizə nə? Deyəsən kompyüter başını xarab eləyib. Yeri get, qanımı qaraltma.

Bağır müəllim pərt olmadan soruşdu:

- Rəis, bəs, işçi məsələsi nə yerdə qaldı? Vallah, çatdırmırıq.

Rəis başdansovdu:

- Sənə adam verəcəyəm, amma hünərin var onlarıyola vermə, - dedi

Bu söhbətdən bir-neçə gün keçməmişdi ki, şöbəyə iki nəfər gəldi. Hər ikisi ali məktəbi təzə qurtarmışdı. Bağır müəllim içində qırıla-qarıla qaldı. Rəislə söhbətini yada salıb yeni işçilər üçün mizan-tərəzi qurmadı. Bilirdi ki, bu ona baha oturacaq. Müxtəsər tanışlıqdan sonra dərhal onları yerbəyer elədi. Bu qərarı ilə şöbə əməkdaşlarını çaşdırdı.

Təzə mühəndislərdən biri qız idi. Adı Gülşəndi. Bu zalım qızının yanında fotomodellər yalandı. O qədər gözəl idi ki, içəri girəndə otaq işıqlanırdı. Təndürüst boy-buxununda bir mütənasiblik vardı. Adətən gözəllərin ağlı dabanında olar deyərlər. Amma bu qız səfeh deyildi, gözlərindən hiyləgərdik yağırdı. Bir neçə gündən sonra məlum oldu ki, GülşənAllahın bəlasıdır, dilinə dil çatdırmaq mahal işdir.

O biri cavanın adı Coşqun idi. Deyib-gülən, lağlağı sevən bir oğlan idi. Eybi bir bu olsaydı keçinmək olardı. Tezliklə onun daha bir çatışmayan cəhəti üzə çıxdı. Şöbədəki həmkarlarından fərqli olaraq Coşqun qonşu otaqları gəzir, burdan vurub ordan çıxırdı. Sakit oturmaqla arası yox idi, civə kimi hərəkətdə idi. Onun sayəsində idarənin dedi-qodusü tezliklə şöbəyə ayaq açdı.

Otağın sakitliyi pozulmuşdu. Gülşənlə Coşqunun öcəşməsi bitib-tükənmirdi. Qızın yağlı atmacalarını oğlan sərrast cavabları ilə dəf eləyirdi, hamını güldürürdü.

Bir gün Coşğun səhər şöbəyə girəndə salamlaşmaq əvəzinə bərkdən dedi:

- Dərvişlərə eşq olsun!

Onun sözünə Gülşən şaqqıltı ilə güldü. O biriləri isə donub qaldı. Haçandan-haçana Qədim kişi boğazını arıtladı, yerinə adlayan Coşqundan soruşdu:

- Oğlum, bizə təzə ad qoymusan? - dedivə başını buladı. - Bərəkallah! İndiki cavanlara nə deyəsən! Nə böyük bilirlər, nə kiçik.

Coşqun burnunu çəkdi:

- İncimə, ağsaqqal, sizə bu adı mən yox, qonşularınız qoyub, - dedivə təəccüblə - Doğrudan xəbəriniz yoxdur?

Məlum oldu ki, şöbədə bu ləqəbdən heç kimin xəbəri yoxdur. Coşqun istehza ilə:

- Hamı sizə lağ eləyir, ələ salır, sizin isə heç nədən xəbəriniz yoxdu. - dedi. - Niyə belə xanənişin olmusunuz? Deyin, gülün, əylənin, həmişə işlə məşğul olmazlar ki!

Qədim kişi vaxtından qabaqağarmış bığlarını sığalladı, qımışdı:

- Oğlum, hələ ağzın isti yerdədir. Eybi yox, bir az keçər işə başın qarışar, sən də əylənməyə vaxt tapmayacaqsan, - dedi. - Gör, sənə nə deyirəm, bala, qıçlarına yazığın gəlsin! Ədə, nə mərtəbələri sayırsan, otur, oxu, öyrən, özünə bir gün ağla…

Rəvan acıdilliklə söz atdı:

- Qədim kişi, indiki cavanların yazıq yeri qıçları deyil, başlarıdır.

Rəvanın təzəlikdə cavan arvadı rəhmətə getmişdi. Otuz beş yaşında dul qalmışdı. Qaraqabaq, kəmhövsələ bir kişi idi. İşi yaxşı bildiyindən həmkarları ona çox şeyi keçirdilər. Cavan mütəxəssizlərin şöbəyə gəlişi Rəvanın durğun həyatını pozmuşdu. Əvvəllər başını işdən ayırmayan kişini elə bil dəyişimişdilər. Qızdırmalı adamlar kimi yerində qərar tutmurdu.

Coşqunun Gülşənlə öcəşməsi şöbənin hüzünlü havasına bir şuxluq gətirmişdi. Rəfiqə xanımın dodaqlarından təbəssüm əskilmirdi. Gülşən anlamadığını təkrar-təkrar Qədim kişidən soruşanda onun bu həvəsinə

kompüter oyunlarından başqa heç nə ilə maraqlanmayan Coşqun lağ eləyirdi:

- Ay qız, kişidən əl çək, onsuz da səndənişləyən çıxmaz. - deyirdi.- Bir də bu sər-sifətlə sənə sənətmiqəhtdir? Məsləhətimə qulaq as…

Bir dəfə Rəfiqə xanım zarafatla soruşdu:

- Ay Coşqun , Gülşənə nə sənəti məsləhət görürsən, axı?

Coşqunuğundu:

- Bu qızdan bir yaxşı model, bir də yaxşı məşuqə çıxar! O isə vaxtını burda bica yerə havaya sovurur,-dedi və söhbətə qulaq asan Gülşəni çağırdı: - Ay qız, bura gəl, köməyin lazımdır.

Gülşən hirslə ona yaxınlaşdı:

- Ağzına gələni danışırsan ha! – dedi. - Nə olub?

Coşqun dedi:

- Yaxşı, hirslənmə, zarafatdır da edirik. Ay qız, bu oyun zəhləmi töküb, kömək elə başqasına keçim, - dedi.

İş onda idi ki, bu neçə ayda Coşqun kompyüteri açıb-bağlamağı belə əməlli öyrənə bilməmişdi. Gülşən qondarma bir mehribanlıqla dedi:

- Ay Coşqun, ay Allahın mağmını, belə sadə şeyləri də yadda saxlaya bilmirsən. Bu nə işdir? Anadan belə doğulmusan, ya dörd il aldığınali təhsil səni belə kütləşdirib?

Rəfiqə xanım ürəkdən şaqqıldadı:

- Ha, ha, ha! Allah səni sevindirsin Gülşən! Mağıl bu neçə ildə məni doyunca güldürən tapıldı.

Qədim kişi həmişə kədərli olan Rəfiqə xanımın şənlənməyinə sevindi. Söz atdı:

- Ay Rəfiqə xanım, sən güləndə tələbəlik vaxtlarım yadıma düşür. Deyəsən, təzə gələnlərin ayağı sayalıdır.

Rus balası da dirçəlmişdi. Həmyaş olduğlarındanCoşqunun böyründənəl çəkmirdi. Tez-tez: “Coşqun! Qoşqun!» - deyə Coşqunu səsləyir, hamını güldürürdü.

Rəvanüzə vurmasa da, təzə gələn oğlandan acığı gəlirdi. Müdirin tapşırığına baxmayaraq ona təhkim olunmuş Coşqunla heç məşğul olmurdu. Necə ki adları bir-biri ilə təzadda idi, eləcə xasiyyətləri də müxtəlifdi. Gülşən bunu məsxərəyə çevirirdi: «- Rəvan belə dedi, Coşqun elə dedi! Rəvan gəldi, Coşqun getdi!». Qız ikisinə də eyni gözlə baxır, zarafatından qalmırdı. Amma rəqabət hissi Rəvanla Coşqunun arasını lap soyutmuşdu.

Qədim kişinin sayəsində Gülşən operator kimi az-çox işləyə bilirdi. Amma tez-tez rəisin qəbul otağına qaçırdı. İşdən yayınmağa bəhanə axtarırdı. Rəisin katibəsi olan xalası ona müxtəlif kənar tapşırıqlar verirdi. Qədim kişi heyfisilənirdi:

- Rəfiqə, deyəsən, zəhmətim batıb gedəcək - deyə deyinirdi. - Qız şöbədə uzun müddət qalana oxşamır.

Bu gün çay dəsgahına Coşqun baxırdı. Otaq üzrə növbətçi idi. Hazırlıq görəndən sonra hamıya çay süzdü. Hərə fincanını gəlib götürdü. Coşqun da yerinə keçdi. Bir neçə qurtumdan sonra Rəvan birdən hirslədedi:

- Çay duzludur!

Coşqun istehza ilə:

-Nə duzudur?! - dedi. - Rəvan müəllim, hələ təyin edə bilməmisənsə, axıra qədər iç!

Rəvan yerindən sıçradı, onun üstünə yeridikdə Qədim kişi tez araya girdi:

- Çayda duz nə gəzir? - dedi - Biz də içirik. Bəlkə naharda yediyin duzlu balığın tamıdır damağında qalıb?!

Rəvan hikkə ilə:

- Sən bilmirsən, ağsaqqal, bu südəmər uşaq mənə ilişir, yəqin çayıma duz qatıb. Mən bunu belə qoymaram, onun başına oyun açacağam.

Coşqun ona borclu qalmadı, eyni dovtələbliklə:

- Görək kim kimin başına oyun açacaq. Onsuz da canımı boğazıma yığmısan.

Onları zorla aralaşdırdılar. İşdən sonra Qədim kişi yubandı, şüşəli arakəsmənin dalında oturmuş müdirin yanına girdi. Müqəddiməsiz başladı:

- Bağır müəllim,Rəvanla təzə gələn oğlan heç bir-biri ilə yola getmirlər. Başımıza bəla açmasalar yaxşıdır.

Şöbə müdiri eynəyini qırağa qoydu, kompüterin ekranını söndürdü. Fikirli halda:

- Rəvan Coşqunla heç məşğul olmur, axı, - dedi.

Qədim kişi narazı halda:

- Rəvan başına nə kül töksün ey, - dedi. - Bizə iş bilən lazımdır. Daha ali məktəbi dünən bitirən yox. Bir də Coşqunu öyrətmək mümkün deyil. Riyaziyyatı bilməyən adama proqramlaşdırmanı nə təhər öyrətmək olar? Bilmirəm, bunları hardan tapıbgətirmisən…

Müdir bezgin halda:

- Rəhmətliyin oğlu, boğazıma zorla keçiriblər, məndən soruşurlar bəyəm?Coşqun rəisin qohumudur, Gülşən də onun katibəsinin. Görmədin təntənə ilə ştat açdılar, iclas zalından masa, kürsü gətirdilər? - dedi və könülsüz soruşdu.- Nə olub yenə?

Qədim kişi əhvalatı danışdı:

- Gülşən şöbəyə gələndən sonra Rəvan lap dəymədüşər olub, işini rahat görə bilmir. Saatlarla xəyala dalır. Coşqun da ki it oynadanın biri, Gülşənlə birləşib onu cinlədir.

Bağır müəllim dərindən köksünü ötürdü:

- Ay Qədim kişi, sənə demək artıqdır, çalış yola ver. Bir bəladır da gəlib düşüb şöbəyə. Görək, bü xamır nə qədər su aparacaq. Biz idarənin rəisi ilə üz-göz ola

bilmərik, axı, - dedi və sözü çevirdi.-Gərək ki, Gülşən pis deyil. Yaddaşı da yaxşıdır, özü də çalışqandır.

Qədim kişi narazılıqla:

- Yaddaşın bura nə dəxli var? Onun fikri-zikri başqa yerdədir. Bundan əlavə, xalası onu tez-tez yanına çağırır, iş tapşırır, öz yerində oturdur. Yəqin ki, xəbəriniz var.

Bağır müəllim başını tərpətdi və heyrətlə:

- Deyirəm, ay Qədim kişi, indiki cavanların gələcəyi nə olacaq? Elə Gülşəni götür. Dünya gözəlidir, bir evin yaraşığıdır, amma quşbeyindir. Elə dingildəyir.

Qədim kişi güldü:

- Elə ən böyük eybi gözəlliyidir də! Kifir olsaydı biliyə, sənətə vaxt ayırardı.

Bağır müəllim yüngül bir istehza ilə:

- Qədim kişi, qocalırsan ha! Gözəlliyi daha eyib sayırsan.

Qədim kişi çaşdı:

- Əşi, söz gəlişi dedim də, - dedi və xahiş elədi. - Coşqun üçunbir kənariş fikirləş, nə qədər boş-bekar gəzəcək? Girir-çıxır, girir-çıxır, lap dəng olmuşuq.

Bağır müəllim köksünü ötürdü:

- Özün bilirsən ki, iş tapşırmalı adam deyil. Kompüteri bilmir, proqramlardan başı çıxmır, təmir işindən danışmağa dəyməz, - dedi və birdən gülümsədi. - O deyildi monitora televizor deyən?

Qədim kişi bığlarını tumarladı:

- Hə, o, idi,- dedi - Hələ bu nədir, Coşqun altını yeddiyə vurmaq üçün kalkulyatordan istifadə edir.

Rəis başını buladı:

- Vallah, hərdən bir mat qalıram, o, ali məktəbi nə təhər qurtarıb? Zəmanə lap xarab olub. Amma neyləyəsən, yola vermək lazımdır. Çibanı deşmək bizə qalmayıb ki.

Qədim kişi rəisi yaxşı başa düşürdü. Bağır müəlliminqırx yaşı olmasına baxmayaraq çox müdrik adam idi. Bacarığı, işgüzarlığı ilə şöbə müdiri olmuşdu. İdarədə ondaq başqa vəzifədə olanların hamısı rəisin qohum-əqrabası idi. Həşarat kimi daraşmışdılar. Bunlarladil tapmaq hər kişinin hünəri deyildi.

Bir neçə vaxtdı idarədə söz gəzirdi ki, maaşlar artacaq. Gözləməkdən hamının gözünün kökü saraldı. Artımdan hələ də bir xəbər yox idi. Bu barədə ən çox danışan Bağır müəllimin işçiləri idi. Neyləsinlər?.İdarədə bircə bunlar quru maaşa baxırdılar. O biri bölmələrin əməkdaşları sahələrə çıxır camaatdan beş-on «şirvan» qırtırdılar. Bir şöbənin işçiləri borcu olanlardan, o biri şöbənin işçiləriqanunsuz işıq çəkənlərdən,sayğacsız işləyənlərdən zor-xoş nəsə alırdılar. Başqa şöbə kabellərinvə sayğacların təmiri ilə məşğul idi. Hamınınəli pulnan oynayırdı, bircə Bağır müəllimin işçiləri barmağlarını sorurdu.

Bağır müəllim bu gün səhər yarım saat yubanmışdı. Şöbəyə girəndə otaqda bir şənlik hiss elədi. Hamının üzü gülürdü, bircə Rəvana çırtma vursaydılar qanı çıxardı. Rəisi görən kimi işçilər özlərini yığışdırdılar. Hərə öz masasına tərəf tələsdi. Bağır müəllim salamlaşdı, arakəsmənin arxasına keçəndə:

- Qədim kişi, dünənki hesabatıkimə tapşırmışdın? - Soruşdu.

Şöbənin ağsaqqalı ayağa durmadan:

- Rəvan məşğul olur, -dedi.

Rəis başını çevirmədən:

- Hazırdısa qoy, gətirsin, tələsirəm, -dedi.

Nəsə yadına düşdü, geri döndü:

- Gülşən hardadır?

Rəfiqə xanım başını ekrandan ayırdı:

- Xalası xəstələnib, onu əvəz eləyəcək, - dedi.

Bağır müəllim yerinə adladı, bir xeyli gözlədi, saatına baxıb başını buladı. Hirslə səsləndi:

- Ay Rəvan, nə oldun?

Rəvan içəri girdi, müdirin qabağına bir kağız qoydu. Bağır müəllim onun hirsli sifətinə baxdı, gözünün ucu ilə verilən kağızı nəzərdən keçirtdi.

- Sən işdən çıxmaq istəyirsən? Ərizə yazmısan?

- Hə.

- Niyə, nə olub ki?

- Səninlə işləmək istəmirəm.

- Nədir aşığın alçı durub?

- Mən küçədəaşıq-aşıq oynamamışam. Sizin dediyinizi də başa düşmürəm.

Bağır müəllim səbrlə:

- Rəvan, başın xarab olub? Sənin ərizənə qol çəkən deyiləm. Sən bizə lazımsan.

- Yaman da lazımam.Məndən başqa hamının maaşını artırırsan.

Bağır müəllim təəccüblə:

- Maaş artırmaq nədir? Kimin maaşı artıb?

- Hamının. Ərizəmin üstünü yaz, mən gedirəm. Sizin kimi ədalətsiz adamla mən daha bircə gün də işləməkistəmirəm.

Bağır müəllim daha hövsələsini saxlaya bilmədi:

- Neynək, etiraz etmirəm, - dedi və ərizənin üstünü yazdı. - Get, hesabınıal.

Rəvan ərizəsini qapıb kabinetdən güllə kimi çıxdı. Aynalı qapı nə cür çırpıldısa, şüşələr yerə töküldü. Bağır müəllim ümumi otağa keçdi. Soruşdu:

- Buna nə olub?

Rəfiqə xanım eynəyini çıxartdı, gözünü ovdu:

- Bilmirik.

Bağır müəllim:

- Bəs, kim biləcək? Bunun başına hava gəlib? - dedi və deyindi. -Elə deyir, mənim maaşımı artırmamısan. Kimin maaşı artıb ki, onun da maaşı artsın?

- Bağır müəllim, - deyə Qədim kişi qaşlarını çatdı. - Xəbəriniz yoxdur?

- Nədən?

-Əmr çıxıb. Elan lövhəsinə vurulub. Rəvandan başqa hamının maaşı iki dəfə artırılıb. Bayaq qırğın salmışdı:« - Mən bunu belə qoymayacağam! - Qışqırırdı. - Bağır müəllimə uşaq-muşaq lazımdı! Qoy, onlarla da işləsin.» Coşqun zarafatla söz atdı ki, işləyənlərin maaşı artıb. Rəvan da az qaldı onunla əlbəyaxa olsun, «Bu hamısı sənin əməllərindir - deyirdi. - Allah sənin bəlanı versin»

Bağır müəllim Coşquna baxdı. O, özünü itirmiş halda:

- Bağır müəllim, vallah, mənim heç nədən xəbərim yoxdur. Bilmirəm onun ağlına belə şeylər hardan gəlir, - dedi. - Onun maaşının artıb-artmamasının mənə nə ziyanı var?

Bağır müəllim köksünü ötürdü:

- Yəqin, idarə rəisi bizə sürpriz edib. Neçə vaxtdır söz verirdi, amma niyə məndən xəbərsiz bu işi görüb, məlum deyil, - dedi vəRəfiqə xanıma çevrildi. - Bacımsan, bu şüşələri yığışdır, mən bir rəisə dəyim.

Müdir otaqdan çıxdı, elan taxtasına yapışdırılmış əmrin qarşısında bir anlıq ayaq saxladı. Başını buladı,

mühasibata yolandı. Deyinə-deyinə fikirləşdi ki, çox qəribə işdir, maaşlar şöbə müdirindən xəbərsiz nə təhər arta bilər? İkinci mərtəbəyə qalxanda pilləkənlərdə operativ şöbənin müdiri ilə rastlaşdı. Müxtəsər kef-əhvaldan sonra həmkarı dilləndi:

- O nədir eləmisən?

Bağır müəllim başa düşmədi:

- Nəyi deyirsən, Ənvər müəllim?

- Deyirlər, Rəvanı işdən çıxartmısan.

Bağır müəllim çiyinlərini çəkdi:

- Özü ərizəsini yazıb, mən çıxartmamışam.

Həmkarı gülümsədi:

- İşdən başqa cür də çıxarırlar? - dedi.- Gözlə ha, Rəvan köhnə işçidir, bu işi belə qoymayacaq. Aləmi qatacaq bir-birinə. Həm də işləyəndir. Sənin başına bəla açmasa, yaxşıdır. Xatirini istədiyimdən deyirəm, ey! Sən, axı, mənim kadrım olmusan.

Bağır bir müddət onun şöbəsində işləmişdi. Ali məktəbdən birbaşa Ənvər müəllimin əlinin altına düşmüşdü. Özü kimi kənək, pulagir adam çətin tapılaydı. Bağıra vəzifə təklif edəndə Ənvər müəllim onu xeyli dilə tutdu ki, razı olmasın. Halbuki, şöbədə it-pişik kimi dolanırdılar. «Ay yuyulmamış çömçə, deyən lazımdır, sən Rəvanın vəkili-zadı deyilsən ki?» - Bağır fikirləşdi, amma

düşündüklərini ürəyində saxladı. Vəzifə onu püxtələşdirmişdi:

-Görək də, neyləyirik, Ənvər müəllim, - deyə saxta hörmətlə dilləndi.

-Ay sağ ol, cibindən getmir ki! Hamının maaşını artırmısan, onun da maaşını artır. Beş-on «şirvan»la idarəyə nə ziyan dəyəcək.

Bu yerdə Bağır müəllim hirsləndi:

- Əh, bu da deyir, artır! - dedi və özü öz hirslənməyinə güldü. - Ay canım, mən maaş artıranam? İdarə rəisinin əmrindən heç mənim də xəbərim olmayıb.

Ənvər müəllim burnunu çəkdi:

-Qardaş, indi özünü mənə tanıtmayacaqsan ki? Müdirdən xəbərsiz maaş artırırlar? Kimən ağıl danışırsan?

Söhbətin bu yerində Ənvər müəllimi telefona çağırdılar. O, Bağır müəllimə ağzını açmağa macal vermədi:

- Cavanlığına salma, Rəvanla işin olmasın. Başın ağrıyacaq. Təzə gələnlərin maaşını artırdığın kimi, onun da maaşını artır. Şöbənin işini aparır, düşmənin deyil, iki uşağı var… Bir az kəmhövsəl追di. Amma bacarığına, biliyinə söz ola bilməz. Başım vəzifədə ağarıb, bilirəm deyirəm.Bir də çörəyi çörəkçiyə verərlər. İndi tələsirəm, məni gözləyirlər, sonra söhbət edərik.

Bağır müəllim aralanmaq istəyən həmkarının qolundan tutdu:

- Ay Ənvər müəllim, belə işçi qədri bilənsən,niyə Rəvanı neçə il bundan irəli şöbəndən didərgin saldın? Yazığın başına turp əkirdin ki, ay zalım. İndi sənə pənah gətirib, neynək, götür yanına!

O, qızarıb-bozaran Ənvər müəllimin cavabını gözləmədi, hirslə ondan aralandı. Mühasibatın qapısında Firuzəyə rast gəldi. Bir yerdə ali məktəbi qurtarmışdılar. Firuzə sahə müfəttişi işləyirdi. Qarabuğdayı, dildən pərtövbir qız idi. Onunla hər barədə söhbət eləmək olardı. Bağır müəllim hərdən bir onunla dərdləşirdi.

- Hə, köhnə dost, hardasan? Çoxdandır görünmürsən? Vəzifəyə keçəni dost- tanışı unutmusan.

Bağır müəlli sevindi:

- Səni görməyimə şadam, Firuzə? Pul təhvil verirsən?

- Hə, - Firuzə başını tərpətdi. - Sonra yanına düşəcəkdim, səninlə davam var.

-Baaa! İşimiz düzəlib ki! Dostlar da davaya gəlirsədüşmənlərə nə deyəsən. Nə işin vardı ki? - deyə Bağır müəllim maraqlandı.

Firuzə hiylə ilə dilləndi:

- Maşallah, zövqünə söz yoxdur, - dedi. - O, fotomodeli hardan tapıb işə götürmüsən?

Bağır müəllim ona diqqətlə baxdı:

- Özgəsinin işinə burununu soxmaqdan əl çəkmədin də! İnistitutda da belə idin ha. Heç dəyişməmisən.

Firuzə onun ağrıyan yerini tapdığını görüb:

- Ha, ha, ha, - Güldü. -Deyəsən, aranı xəlvət görmüsən? Elə bilirsən arvad dekretdədir, xəbər verən tapılmaz? Elə günü bu günbu xəbəri qoyacağam onun ovcuna.

- Gecikmisən, artıq çatdırıblar.

- Doğrudan?

- Vallah.

- Atışmadan- filandan?

- O yerə çatmadı. İzahat yazdım, sülhlə hər şeyi həll elədik. Dedim, zorla keçirdiblər boğazıma.

- İnandımı?

- Əlbətdə, amma gücnən yola gətirdim.

Firuzə birdən şit-şit güldü:

- Amma, deyirlər ki, fotomodelin daha iki namizədi var, - dedi və tələbəlikyoldaşının

üzündə nə gördüsə üzürxahlıqla. - Vallah, eşitdiyimi deyirəm.

Bağır müəllim bilmədi gülsün, ya hirslənsin:

- Camaatdedi-qodu ilə məşğul olmaqdanləzzət alır da! - dedi. - Təsadüfən bilmirsən ki, idarədə bunları kim toqquşdurur?

- İndi deyəcəksən, Rəvanı başqa şeyə görə işdən çıxartmısan?

Bağır müəllim doğrudan acıqlandı:

- Boş-boş danışma, ay qız, yoxsa aramız dəyəcək.

Firuzə qaşlarını çatdı:

-Sənin xeyrinə danışıram. Rəvan qardaşım deyil, qohumum deyil. Abırsız adamdır, orda-burda timsah kimi göz yaşı tökür, səni rüsvay edir. Sən ki, onun şakərini bilirsən. Bayaq müavinin kabinetindən çıxırdı. Bilirsən ki, müavin də sənə ilişməyə bəhanə axtarır.

Bağır müəllim fikirli halda ondan aralandı, mühasibata girməkdən vaz keçdi. Birbaşa rəisin kabinetinə yollandı. Amma tərslikdən o, hələ gəlməmişdi. Müavinin katibəsi onu görüb sevindi. Dedi ki, Vəli müəllim səni təcili axtarır. Bağır müəllim könülsüz halda müavinin yanına girməli oldu. Onunla əvvəldən düz gəlməmişdi. Vəli müəllim dəvə kimi kinli idi. İki il qabaq iclasda kompüterin xeyrindən naqqallıq eləyəndə Bağır müəllim təcrübəsizliyindənhirslənmişdi. Guya, nəyisə sübut edirmiş kimi ayağa qalxıbpopulyar bir nitq irad etmişdi. Təzə şöbə müdirinin bu dilavərliyi müavinin xoşuna gəlməmişdi. O, iclasdakılarla gözləşibatmaca atmışdı: «Baş alıb hara gedirsən, ay kişi? Kompüter üzrə mühəndis olduğunu bilirik də!» Bağır müəllim hazırcavablıqeləmişdi: «Əlbətdə, bircə müavin olmaq

üçün mühəndis olmaq lazım deyil.» Müavin bunu heç vaxt unutmurdu. Bağır müəllimin şöbəsi ilə əlaqədar bütün məsələlərin həllini uzadırdı. İndi də müavinonu görəndə soyuq halda:

- Keç, otur, - dedi. - İşlərin necədir?

Bağır müəllim ehtiyatla cavab verdi:

- Pis deyil.

- Mən elə deməzdim. - Müavin istehza ilə qımışdı. - Bura bax, səni ona görə şöbə müdiri təyin etməmişik ki, sən idarənin köhnə işçilərini didərgin salasan. Şöbə sənin şəxsi mülkiyyətin deyil, xoşun gəlməyini çıxarasan, asıb-kəsəsən.

Bağır müəllim əsəbi halda:

- Olmaya Rəvandan söhbət gedir? - soruşdu. - Vallah, özü ərizəsini yazıb.

Vəli müəllim yüksək pafosla:

- Yaxşı işçinin şıltaqlığına dözmək lazımdır, cavan oğlan, - dedi. - Biz ki, sənin yekəxanalığına dözürük. Deyirsən, özü yazıb ərizəsini! Aydındır, adamı dəli eləməyə nə var ki? Dünən gələnin maaşını artırırsan, onun da maaşını artır. Başa düşürəm, biri qohumdur, biri dostdur, ammahər şeyinəndazəsi var da…

Bağır müəlli daha dözməyib ayağa qalxdı:

- Mənimidarədə qohumum yoxdur. Maaşı da mənartırmıram. Bu idarə rəisinin səlahiyyətidir. Sualınız

varsa ona verin, - dedi. - Başqa bir sözünüz yoxdursa, mən gedirəm.

İdarə rəisinin adı gələndə müavin duruxdu. Bağır müəllim də onun susmağından istifadə edib kabinetdən cəld çıxdı. Hirsindən şöbəyə nə cür çatdığını bilmədi. İçəridə bayaqkı şənlikdən əsər-əlamət qalmamışdı. Hamı peşiman-peşiman boylanırdı. Bağır müəllim təəccübləndi:

- Siz kefinizin də heç ortaq məxrəci yoxdur ha! Ya sevinirsiniz, ya da qaş-qabağınızı tökürsünüz. İndi nə olub?

Qədim kişi başını bulaya-bulaya:

- Mən dedim, axı, bu təzə gələnlər başımıza oyun açacaq, - dedi.

Bağır müəllimin rəngi ağardı:

- İndi nə baş verib?

- Bayaqkını deyirəm də. Rəisin əmri qəlp çıxdı. Demə, buGülşənin zarafatları imiş. Dünənxalasını əvəz eləyəndə idarənin blankında bir yalançı əmr yazıb, gətirib asıb bizim elan taxtamıza. Məlum oldu ki, bütün qalmaqalın səbəbkarı bu qız imiş.

Bu hadisədən sonra Bağır müəllim bir müddət özünə gələ bilmədi. Düzdür, Rəvan da öz yerinə qayıtdı, ondan üzr də istədi, günahkar da cəzasını aldı, amma Bağır müəllimin ürəyi həmişə səksəkəliqaldı. Şöbəyə göndərilən təzə işçiləri görəndə isə onu lap əsmə tuturdu.

## Uşaq zarafatları

Haqqında söylənən rəvayətlərə görə, Bəydadaş bu ikimərtəbəli qəsəbənin vurub-yıxan cayıllarından olub. Başına özü kimi dörd-beş dəli-dolu cavanı yığıb qəribə işlərdən çıxırmış. Mizan-tərəzi qurur, qərar verirmiş. Cavanlığına baxmayaraq sözü ötürdü. Deyilənə görə ədalətsizliyə yol vermirdi. Elə bu səbəbdəndi ki, qəsəbədə qurdla qoyun yanaşı otlayardı. Bir kişi, ya qadınayağını qırağa qoydumu Bəydadaşın hökmü ilə rastlaşırdı. Başqa vaxt kimsəyə dəyib-dolaşmazdı, amma hamı onun hökmünü hiss edirdi. Bəydadaş qeyrətli cayıl idi. Qız-gəlinləringeyim-gecimi, oturuş-duruşu gözündən yayınmırdı. Biri əndazədən çıxan kimikəsirdivalideyinlərinin başının üstünü. Onun bu təəssübkeşliyiçox adamın xoşuna gəlirdi. Atalar oğullarına, analar qızlarına onu nümunə göstərirdi. Amma Bəydadaştutulandahamı rahat nəfəs aldı. Bu da insanların naşükürlüyünə dəlalət eləyirdi. Nahaq deməyiblər ki, yaxşı igidin adını eşit, sözünü dinlə, amma üzünü görmə. Odur ki, onun türmədən çıxması qonşuları sevindirmədi. Hamı istəyirdi ki, Bəydadaşrəvayət kimi, əfsanə kimi qalsın. Real Bəydadaş kimsəyə lazım deyildi. Bəli,həyatdillemmalarla doludur.

İndi heç Bəydadaş da əvvəlki Bəydadaş deyildi.

Beş-altı il yediyi hökumət çörəyində nə illah vardısa Bəydadaş türmədən çıxandan sonra da dadı damağından çəkilmirdi. Azadlıqda günü səksəkədə keçirdi, suyu üfürə-üfürə içirdi. Ona-buna o qədər badalaq vurmuşdu ki, indi sərvaxtlığını itirə bilməzdi. Ürək qızdırmağa adam tapmırdı. Elə bil qəribliyə düşmüşdü. Köhnə dostlarının üzü dönmüşdü. Əvvəllər ətrafında fırlanmağı özünə fəxr bilən cavanların bir qismi məhəllədən köçmüşdü, qalanları da onunla rastlaşanda candərdi əhvallaşır, tez də aralanqırdılar. Bu ona bir elə də təsir eləmirdi. Bir halda ki, Məmmədlə Məhiş ona ayaqüstü dəymişdi, başqalarından nə gözləyəsən. Əslində, köhnə dostlarıda ona lazım deyildi. Başqa cür yaşamaq istəyirdi. Hər şeyi unutmq istəyirdi. Nəzəmanə o zəmanə idi, nəadamlar da o adamlar. Özüda dəyişilmişdi. Qürrəli, özündən razı ,bazburutlu cavan ahıl kişidən seçilmirdi. Başı ağarmışdı, belinin donqarı çıxmışdı.

Evlərinin də işığı azalmışdı. Ağsaqqal atası günahkar halda saatlarla susurdu. Həbsxana yollarında canını qoymuş anasının üzü gülmürdü. Ailənin Bəydadaşla bağlı ümüdləripuça çıxmışdı. O,evinyasxana havasına dözmədi. Türmədən çıxandan sonra dincəlmədi, təklif olunan birinci işdən ikiəlli yapışdı. Dəyirmana yükçü düzəldi. İş ağır olsa da, məvacibi pis deyildi. Dolanmaq olardı. Bir

neçə ay keçdi. İndi Bəydadaş iri kisələrə güc vurduqca, xıltıdurulur, hikkəsi keçirdi. Canı əzikləndikcə mülayimləşirdi. Amma bayır-bacaqda görünəndə qonum-qonşu ehtiyyatla kənara çəkilirdi. Deməli, köhnə əməlləri hələ yaddaşlardan silinməmişdi. Bu da Bəydadaşı çox kədərləndirirdi.

Birməsələ onu narahat eləyirdi. Kiçik qardaşıBəydadaş azadlığa buraxılan günü evi tərk

eləmişdi,ilim-ilim itmişdi. Bir müddət sorağını verən tapılmadı, elə bil yerə batmışdı. Kiçik qardaşıanadangəlmə şikəst idi. Bir ayağınıçəkirdi. Sısqalığına baxmayaraq çox kinli idi. Bəydadaşonu sevirdi, başına pərvanə kimi fırlanırdı, pasibanlıq eləyirdi. Amma kiçik qardaşıbeş ildə bircə dəfə də böyük qardaşının görüşünə gəlmədi. BundanBəydadaş sındı, yaman sındı.Həyatı gözündən düşdü.

Bir müddət keçdi. Axır ki, kiçik qardaşından xəbər çıxdı. Məlum oldu ki, qəsəbəyə qayıdıb. Özü də adı pisliyə çıxmış bir qadınla yaşayır. Onun bu əməliata-anasını xəcil elədi.

Atası bazar günü dünənki söhbətitəzələdi, çəkinə-çəkinə:

- Bəlkə mənimlə yol yoldaşı olasan? - dedi. - Qorxuram sözümü yerə salsın. Sifariş yollayıb ki, gözümə görünməyin. Deyirəm, bəlkə, səni eşitdi, evə qayıtdı.

Bəydada atasının sözünü çevirmədi, durub geyindi, qapıda onu gözləyən atasının yanına

düşdü. Dinməz aşağı düşdülər. Qonşu blokuun qabağından keçəndə ikincimərtəbədən dörd-beş pomidor atdılar. Dəyməyinə dəymədi, amma Bəydadaşının atasının üst-başı yaman günə qoydu. Bu təsadüfü işə oxşamırdı. Kişi dəsmalla üzünü sildi, qeyzlə yuxarı boylandı:

- Bu Bilalın qırılmışlarının işidir. Sırağa gün də üstümə çirkab su atdılar. Bu gün də belə!

Lotuluq eləyirlər. Çıxaqyuxarı … - dedi.

Bəydadaş üstündəki pomidor sıçrantısını etinasızlıqla çırtmaladı, qeyzdən əsən cüssəsiz

atasınınqoluna toxundu:

- Boşla, dədə, uşaq zarafatlarına baş qoşmağına dəyməz… - dedi.

Oğlunun sakit səsindən kişi lap özündən çıxdı, neçə vaxt ürəyində saxladığınıonun

üzünə vurdu:

- Türmədən çıxandan sonra lap xoşqeyrət olmusan ha! - dedi .- Sən belə deyildin ,axı!

Bəydadaş istehza ilə irişdi:

- Düz deyirsən, belə deyildim. Yadındadır, uşaqlıqdanə hoqqalardan çıxırdım. Bəyəm

eyvandan az pomidor, qarpız atmışam? Mənə görə sənin üstünə şikayətə az gəlirdilər?

Bağçanın tərbiyyəçiləri, məktəbin müəllimləri, həyatin adamları əlimdən dad çəkirdilər. Sən

isə üzdə məni danlayır, üzürxahlıq eləyirdin: «- Uşaqdır, qanmır, tənbehini çəkərəm!» - deyirdin,

arxada başımısığallayırdın, deyirdin: «- Mənim qorxmaz oğlum! Mənim ürəkli oğlum.»

Yadındadır, dədə? - dedi və onun qəribə mühakimələrindən çaşıb qalmış atasına təklif elədi: - Qayıt evə, bu üst-başla hara gedəcəksən ki? Qardaşımla özüm danışaram…

Bəydadaş qəsəbənin kənarında təzəlikdə peyda olmuş "gecəqondularda" soruşa-soruşa axtardığı daxmanı tapdı. Tələm-tələsik yapılmış bu dam evədənçox tövləyəoxşayırdı. Sınıq-salxaq qapıdan qabağına çıxan kiçik qardaşına yazığı gəldi. O əvvəlkindən daha çox axsıyırdı. Üzü qaxac armud kimi büzüşmüşdü. Yalnız kinli gözləri əvvəlki kimi parıldayırdı. Bəydadaş mülayimliklə:

- Salam, qardaş, bu nə işdir? Adam da valideynlərini unudar? - deyə soruşdu.

Bəydadaşın zoruna-hökmünə uşaqlıqda səcdə eləyən kiçik qardaşı indi onun əyilmiş belinə, yazıq görkəminə razılıqla baxdı, dodaqları xəbisliklə qaçdı. Elə bil neçə ildi bu günü gözləyirdi:

- Valideyn qədri bilənə bax! – dedi. - Barı sən bu sözü dilinə gətirmə! Onları o günə qoyan sənin əməllərin deyilmi? Sənin qoçuluğun deyilmi? Yazıqlar türmə yollarında qocaldılar. Onlar həmişə səninlə nəfəs alırdılar. Mən onlar üçün bir heç idim. Şikəst oğul kimə lazımdır? Amma sən sən idin! Sən də onları yaman yarıtdın! Ağ günə çıxartdın! İndi də gəlib başıma ağıl qoymaq istəyirsən! Xəbərin varmı, sənin əvəzində məhlədə döyülən də mən idim, söyülən də! Deyirdilər: «-Bu çolax filankəsin qardaşıdır! Vurun! Qardaşı məhləyə qan uddururdu, biz də əvəzinibu çolaxdan çıxaq!» Cani qardaşı olmağı allah heç kimə göstərməsin!

Əvvəllər yanında dil tərpətməyən kiçik qardaşının dilavərliyi Bəydadaşı heyrətləndirdi.

Aciz-aciz dedi:

-Qardaş, sən yaxşı bilirsən ki, mən cani deyiləm, adam öldürməmişəm, ev yarmamışam, məhəllənin qeyrətini çəkmişəm. Gədanın birisi bizim qız-gəlinə sataşanda, sakit dura bilməzdim axı!

Kiçik qardaşyana baxıb mızıldandı:

- Bir-iki şillə çəkəydin də! Daha niyə qanına-qəltan eləyirdin?

Bəydadaş köhnələri yada salıb yana-yana dedi:

- Vallah-billah, mən ona heç şillə də vurmadım. Ona çox dedim, çıx get, xəta-bəlanı bizdən uzaq elə, eşitmədi,

üstümə hücum çəkdi. Məmməd də, Məhiş də Allahın şahidir! Mən də onu yüngülcə itələdim. Nə biləydim belə olacaq, bədbəxt yerə yıxılacaq, daşa dəyəcək, başı qarpız kimi partlayacaq. Hələ Allah üzümə baxdı, ölmədi, ancaq şikəst oldu. Kim mənim yerimdə olsaydı belə eləyərdi. Elə sən də...

Kiçik qardaşı kinli bir qətiyyətlə:

- Hər kəs öz yerinə layiqdir. - dedi - Sən bir o hadisənin yox, cəmi əməllərinin cəzasını çəkirsən. Get, daha gözümə görünmə…

- Dayan, qardaş! Tutalım günahım vardı, cəzasını da çəkmişəm, daha nə istəyirsən? Mənə bir də məhkəmə qurulmalıdır?

Bəydadaş sözünü bitirə bilmədi, qardaşı salxaq qapını onun üzünə bağlamışdı. Bağlı qapını isə döyməyinə dəyməzdi. Bəydadaşın başı hərləndi. Keçən həyatını götür-qoy eləməyə belə heyi qalmadı. Necə geri döndüyünü deyə bilməzdi. Yaşadığı ikimərtəbəli binanın tininə çatanda payız günəşi günorta yerinə qalxmışdı. Yarpaqları saralmış ağacın altındada yanmış maşina fikir vermədi. Keçib getmişdi ki, arxadan onu səslədilər:

- Ay kişi, bu binada olansan?

Bəydadaş səsə çevrildi, arxasında bitmiş polis zabitini görəndə istəmədən devikdi. Amma dərhal özünü ələ alıb başını tərpətdi. Zabit tələbkarlıqla soruşdu:

- Bu binada yaşayan Bəydadaşı tanıyırsan?

Bəydadaşın başına elə bil soyuq su tökdülər, tutulmuş səslə:

- Bəydadaş mənəm, - dedi - Nə işdir ki?

Polis zabiti çəkinmədən yekəpər və donqar kişinin qolundan yapışdı:

- Eləsə maşina otur! - dedi - Bölməyə gedəcəyik. Bax ha, müqavimət göstərmək fikrinə düşmə, işin pis olacaq.

Bədadaş özünü topladı, mümkün qədər mülayimliklə:

- Hara deyirsiniz gedərəm. Amma qolumu buraxın, tanış-biliş yanında məni xəcil eləməyin.

Polis zabiti xahişi yerinə yetirdi, lakin onun müqavimətsiz tabe olacağına şübhə ilə işarə elədi. Maşından daha iki polis nəfəri düşdü. Bəydadaş dinməz maşina mindi. Beşillik təcrübəsindən bilirdi ki, mübahisə eləməyin mənası yoxdur. Tərpəndilər. Bir müddət dinməz getdilər. Maşını idarəeləyənşən polis zabiti darıxdı, geri baxmadan istehza ilə soruşdu:

- Kişi, heç soruşmursan səni bölməyə niyə aparırıq?

Arxada iki polis nəfərinin arasında oturmuş Bəydadaş laqeyd halda:

- Nə xeyri var? - dedi - Soruşsam , deyəcəksiniz, orada bilərsən…

Polis zabiti məzələnməyində idi:

- Bəlkə polisə aparılmağının səbənidə bilmirsən?

Bəydadaş köksünü ötürdü:

- Polisə adamı bica yerə aparmırlar ki! Yəqin bir səbəbi var da… - dedi və susdu.

Polis zabiti əyləci basdı, maraqla Bəydadaşa baxdı:

- Söhbətcil adama oxşamırsan, sözü səndən kəlbətinlə çəkirik… - dedi.

Bəydadaş gülümsədi:

- Susmaqdan gözəl nə var ki! Artıq-əskik danışaram, salarsız təpiyinizin altına. Sizin bu saat əliniz-ayağınız geyişir…

Onun bu dərrakəli cavabı içəridəkilərin xoşuna gəldi. Bir polis nəfəri ürəkdən güldü:

- Əmioğlu dərsini əzbər bilir ha! - dedi - Güman ki, təcrübəsi var…

Bölməyə çatdılar. Bəydadaşı növbətçi polis çavuşuna təhvil verəndə hələb-həlbət tapşırdı:

- Bunu da o iki nəfərin yanına sal, amma ehtiyyatlı ol! Bir təhər adama oxşayır. Rəisə də məlumat ver, daha mənim vaxtım yoxdur. Siyahıda bir neçə nəfər də var. Görək onları da tapırıqmı…Yoxsa təzə rəisin yanında üzü qara qalarıq.

Növbətçi küncdə dayanmış Bəydadaşa maraqla baxdı:

- Bəs, bunu nə üstə tutmusunuz? - Soruşdu.

Polis zabiti çiyinlərini çəkdi:

- Allah bilir! Əməliyyata rəis özü başçılıq eləyir… Daha biz getdik.

Növbətçi onu əylədi:

- Dayan görüm! – dedi. - Saxlanma barədə yenə akt olmayacaq?

Polis zabiti çevrilib ona pis-pis baxdı:

- Nə böyük zibildirlər ki, onlara kağız məsrəf olunsun! Bas getsin, rəisin əmridir… - dedi və tələsik aralandı .

Növbətçi narazı halda dəmir barmaqlıqlı qapını açdı. Bəydadaşı zəif işıqlandırılmış bir otağa itələdi. Dalınca da qapını şaqqıltı ilə örtdü.

Bəydadaşın gözütoranlığa alışana qədər bir neçə dəqiqə keçdi. İçəridə divar boyu düzülmüş taxta oturacaqların birində iki nəfər yanaşı oturmuşdu. Qapının səsinə başlarını qaldırmışdılar. İçəri girəni görüb hövllə qalxdılar. Heyrətlə çığırışdılar. Bəydadaş otağın ortasında quruyub qaldı. Uşaqlıq dostları Məmmədlə Məhişi burada görüb təmkinini itirdi. Onlarla polis təcridxanasında rastlaşacağına ağlına gətirməzdi. Yaxınlaşanda uşaqlıq dostlarının görkəmi onun könlünü açdı. Polislər, deyəsən tənbəllik eləməmişdilər, ikisinə də yaxşıca əl gəzdirmişdilər. Ağız-burun, baş-göz qoymamışdılar. Köynə dostlar inciklikləri unudub qucaqlaşdılar. Başqa cür ola da bilməzdi.

Elə bu başdan xarab Məmmədi götür. Bəydadaş onuunla on il bir partada otuurmuşdu. Öl desə ölərdi, qal desəqalardı. Bir az fitə gedənliyi vardı. Hər deyilənə inanardı. Məhiş isə başqa xasiyyətdə idi. Nadinclikdə onlardan geri qalmasa da, hiyləgərliyinə söz ola bilməzdi. Onlardan bir sinif aşağıda oxuyurdu, amma vaxtını dostları ilə keçirirdi.

Xoş-beşdən sonra oturdular. Məmməd şadlıqla Bəydadaşa sığındı:

- Səni görməyimə çox şadam, qardaş! - dedi.

Bəydadaş istehza ilə qımışdı:

- Elə mən də sizi burada görməyimə şadam…- dedi.

Məmməd onun sözünün gizli mənasına varmadan davam elədi:

- Lap yetim günündə idik. Nə yaxşı oldu! - dediş - Sən hara, bura hara?

Bəydadaş eyni istehza ilə:

- Mənim burada olmağımda təəccüblünə var ki! Oylaq mənim oylağımdır. Deyin görüm sizin buralarda nə itiniz azıb? Danışın görüm.

Onun hazırcavablığı dostlarının kefini açdı. Məmməd hələ də qan gələn burnunu dəsmalla silib dedi:

-Vallah, lap günahsız yerə məni bura qatıblar. Belə şey olar? Belə qanunsuzluq olar? Belə insafsızlıq olar?

Bəybala üzünü turşutdu:

- Bəsdir, sıtqadın! – dedi. - Qayda ilə danış.

-Oturmuşdum çayxanamda, müştərilərlə məşğul idim. Sən görməmisən, Məhiş görüb.

Xudmani bir çayxanam var. Yüz minnətlə yer alıb tikmişəm, kür-kürlə başımı dolandırıram, mərdimazar uşağı tökülüşdü üstümə. Çay payladığım yerdə qamarladılar məni. Stəkan-nəlbəki töküldü sındı. Mən də onları söydüm. Polislər elə bil bunu gözləyirdilər, düşdülər üstümə, döy ki, döyəsən. Soruşuram, günahım nədir axı , deyirlər biz bilmərik , rəis bilər…

Məhiş tələsik dilləndi:

- Mənə də elə dedilər… Məni marşurutdan hop götürüblər. Məmməd bilir, bir mikroavtobusum var, qonşumla şərikli işlədirəm. O, pul yığır , mənsükandayam. Keçən ay bir iş düşdü, tutub vəsiqəmi aldılar. İndi maşını qonşum sürür, mən pul yığır və müştəri çağırıram. Günorta polislər maşını əylədilər, adımı deyən kimi hamının gözü qabağında qolumu burdular. Qeyrət mənə güc gəldi, müqavimət göstərdim. Dərhal düşdülər üstümə. Onlar çox, mən tək! Qol-qabırğa qoymadılar məndə… Neynəmişəm heç özüm də bilmirəm…

Məmməd lap uşaq kimi:

- Bəydadaş, sənin başın həmişə yaxşı işləyirdi. Sən bilən bizi bura niyə qatıblar? - Soruşdu.

Bəydadaş olanlardan baş açmasa da, dostlarının təlaşından həzz alaraq ciddi halda:

- Qorxmayın! – dedi. - Məmməd, sizi mənim xahişimlə bura gətiriblər.

Məmmədin gözü kəlləsinə çıxdı:

- Həəə!? Niyə?

-Məmməd, gördüm neçə ilin dostları məndən uzaq qaçır, yaman günümdə əl tutmur, bu yola əl atdım. Gördüm öz xoşunuza gəlmirsiz də… Neynəyim? Beş il türmədə sizin üçün burnumun ucu göynəyirdi, gəlmədiz! Dedim, türmədən çıxaram, yaxşı olacaq. Türmədən çıxandan sonra da yenə də gül üzünüzə həsrət qaldım, gəlmədiniz. Bu yola əl atdım. Narahat olmayın, söhbətimi qurtaran kimi deyərəm sizi buraxacaqlar …

Məmməd sərək-sərək ona baxırdı. Gözləri yaşardı, riqqətlə dedi:

- Bəydadaş, yanında üzüqarayıq, bağışla! Gəlməyə utanırdıq, necə olsa o hadisədə bizim də günahımız vardı, amma cəzaını tək sən çəkdin. Gərək bizi üzürlü sayasan. Köhnə vaxtlar üçün lap burnumun ucu göynəyirdi, Bəydadaş! Yaxşı eləyib bizi bir yerə yığmısan! Amma gərək bizi polisə yox, restorana yığaydın.

Bayaqdan mısmırığını sallamış Məhiş Məmmədin səfehliyinə hirsləndi:

- Yum ağzını, səfeh! Heç ağlın artmadıı da! – dedi. - Bəydadaş zarafat eləyir…

Məmməd küt-küt onlara baxıb burnunu çəkəndə Bəydadaş illərdən bəri birinci dəfə ürəkdən güldü:

- Ha-ha-ha! Qanmır da, Məhiş! Yadında deyi, onun səfehliyindən necə bəlalara düşürdük? Zalım ağıllanmaq bilmirdi! Doqquzda oxuyanda zarafatla dedim ki, bizi bağaja qoyan Ənvərin başını əkmək lazımdır. Bir gün dərsdən çıxıb evlərimizə dağlışdıq. Bir neçə saatdaan sonra Məmməd tənginəfəs bizə gəldi. Dedi, tapşırığını yerinə yetirdim. Deyirəm, hansını? Dedi ki, Ənvəri aldadıb məktəbin zirzəmisinə salmışam, başına torba keçirib əl-qolunu bağlamışam, gedək işini bitirək! Yadındadır? Ha-ha-ha!

Məhişin də üzü güldü:

- Necə yadımda deyil? Sən gələnə qədər Ənvərin işini bitirmək istəyirdi. Mən qoymadım. Dedim sənin icazən olmadan bunu eləmək olmaz, - söylədi və yadına saldı - Gərək ki, o oğlan bizim məktəbdən çıxdı, axı?

Bəydadaş ağarmış saçlarını sığalladı:

- Elədir, başqa məktəbə keçdi. - dedi - Bilirsən, zirzəmidən onu çıxarand bərk yazığım gəldi. Yalvarırdı ki, onu öldürməyək! Deyirdim ki, səni öldürən yoxdur, Məmməd zarafat eləyir. Yazıq inanmırdı. Gücnən sakitləşdirib evə yola saldım. Əgər şikayət eləsəydi,

üçümüz də dəsxoşa gedərdik. Yazığın günahı elə də böyük deyildi…

Məmməd arsız-arsız güldü:

- Yaman da yazıq idi! – dedi. - Satqının biri idi. Sinifdə kim neynədi, necə oturdu, necə durdu, dərhal qaçıb qoyurdu direktorun ovcuna. Rəhmətlik atamıiki gündən birməktəbə çağırırdılar. O da evə qayıdan kimi eləmirdi tənbəllik, salırdı qayışın altına. Sən də başlamısan…

Söhbətin bu yerində qapı açıldı. Bir yaşlı kişini içəri ötürdülər. Dostlar donuxdular. Bu dülgər Rəcəb idi. Onlara əməkdən dərs verirdi. Hamı ona ancaq üzdə müəllim deyirdi. Bəydadaşla arası kök idi. Rəcəb müəllim lap qocalmışdı, daha donqarı çıxmışdı. Salamlaşıb özünü onların yanına verdi. Deyəsən, Bəydadaşı tanımadı. Dostlar onun oturmağını gözlədilər. Tanışlıq verib söhbətləşməyə macal eləmədilər. Qapı yenidənaçıldı. İçəri bir dəstə polis girdi. Qabaqda cavan, yaraşıqlı bir polis mayoru gəlirdi. Forma onu elə tuturdu ki, elə bil hökumət libasında doğulmuşdu. Mayoru müşaiyyət eləyən tanış polis zabiti və polis nəfərlərinin nizamlı sırasını bölmə üzrə növbətçi tamamlayırdı. Mayor siqaretini ağzından çıxarmadan dedi:

- İşıq verin!

Növbətçi dərhal onun əmrini yerinə yetirdi. İçəri çıraqban oldu. Mayor içəridəkiləri gözdən keçirib başını buladı:

-Elə bu? Bəs, qalanları hanı? - deyə tənə ilə soruşdu.

Polis zabiti günahkar halda irəli çıxdı:

- Əlimizə düşən bunlardı, rəis! İnşallah, sabah o biriləri də taparıq. – dedi. - İki nəfərin yaşadığı ev nəzarətdədir, üç nəfərin yeni ünvanını dəqiqləşdirmək üçün rayon pasport şöbəsinə müraciət eləmişik, sonra canım sizə desin…

Rəis əlinin hərəkətlə onun sözünü yarıda kəsdi, onlar içəri girəndən ayağa qalxmış dörd nəfəri təşəxxüslə süzdü, bığaltı güldü və polis zabitinə döndü:

- Bölmənin hasarı üçün bizə neçə maşın daş lazımdır? Dünən saymışdın, axı… - Soruşdu.

Polis zabiti dərhal dəftərçəsini çıxartdı:

- İyirmi maşın daş olsa gen-bol çatar, rəis…

Rəis toppuş əllərini sanballı qarnının üstündə çarpazladı:

- Eləsə, sənədləri hazırla, qoy, hərəsinə on beş sutka iş versinlər. Göndərək bunları Nardaran daş karxanasına… - dedi və siqaretin kötüyünü yerə atdı .

Məhiş cücə kimi büzüşdü, dostlarından utanmadan yalvardı:

- Rəis, başına dönüm, mənim bir çətən külfətim var. Çevir məni onların başına, burax gedim. Vallah, bir günahım yoxdur. Heç bilmirəm bu mərdimazar uşağı niyə məni tutub gətirib? Puldan-paradan nəyim var sizə qurbandır…

Məmməd isə başladı səfehləməyə:

- İxtiyarınız yoxdur! Mən şikayət eləyəcəyəm… Polislər mənim əmlakımı sındırıb. Nə ixtiyarla məni tutub saxlayırsınız? Elə bilirsən biz adamsızıq? - deyə haray saldı.

Rəis birinin yalvarışından, o birinin çığırtısından ləzzətal araq polis zabitinə döndü:

- Bu zırramaya əl gəzdirməmisən? Gör, necə bağırır…

Zabitin işarəsi ilə polis nəfərləri Məmmədin üstünə yeridilər. O, qorxaraq səsini kəsdi, köməksiz halda dostlarına baxdı. Amma onlardan səs çıxmadı, hərə öz hayında idi. Bircə Rəcəb müəllim dilləndi:

- Ay rəis, bu sinni yaşımda məni niyə gətirmisən bura? Müəllim babayam, kimin toyuğuna daşatmışam? Günahım nədir?

Rəis ona çəp-çəp baxdı:

- Günahın yekəsi sənin kimilərdədir, qoca! Cavanları tərbiyyə eləmək olar, səni yox!

Özün də haranın müəllimi oldun ki! Dülgər Rəcəb deyilsən? Özünü mənə tanıdacaqsan?..

Bəydadaş bayaqdan dinmirdi, rəisin toppuş əllərinə baxırdı. Handan hana onu tanıdıqda rahatlıqla köksünü ötürdü. Rəisin sözünü kəsdi:

- Uşaqlar, gözünüz aydın, rəis bizim sinif yoldaşımız Ənvərdir, - dedi və yüngül bir istehzailə əlavə elədi - Məktəbimizdən gör necə böyük adamlar çıxır…

Hamı quruyub qaldı.

Rəis tanındığını görüb qılafından çıxdı. Uşaq kimi sevinə-sevinə:

- Əlbəttə, Ənvərəm! – dedi. - Sənin yaddaşına söz ola bilməz! Heç mənim də yaddaşım pis deyil. Məktəbdəki oyunlarınız yaxşı yadımdadır. Girinc eləmişdiz məni. Evdən alma gətirirdim, almamı əlimdən alırdınız. Bufetdən kətə alırdım, əlimdən alıb yeyirdiz. Çantamdan bir fərli qələm çıxarırdım, əlüstü yoxa çıxırdı. Qorxudan səsimi çıxara bilmirdim, xəlvətə salıb qappazlayırdınız. Hətta bu cüvəllağı əmək müəllimi də mənə gün verir, işıq vermirdi. O da sizə qoşulmuşdu. Məktəbin bütün qapı-pəncərəsini mənə qaşıtdırır, sonra da rənglətdirirdi. Belə şeylər yaddan çıxmır! Zirzəmidə çəkdiyim qorxu indi də yuxuma girir. Hə, əvəzini ödəmək zamanı gəlib. Sizi on beş gün döyəcək, söyəcək, təpikləyəcəklər. Bundan sonra bəlkə, canımdakı köhnə ağrılar çıxdı…

Bəydadaş mülayimliklə dilləndi:

- Ənvər qardaşım, sən haqlısan! – dedi. - Bizi söy, döy, təpiklə! Bu sənin haqqındır! Amma uşaqlıq zarafatlarına görə adamı türməyə salmazlar, axı!

Rəis şaqqıltı ilə güldü:

- Deyirsən, onlar hamısı uşaq zarafatları idi? – bildirdi. -Düzdür, indi uşaq deyilik, amma heç qocalmamışıq da! Bir də elə mən də sizinlə uşaq zarafatı eləyəcəyəm. Siz o cür bacarırdınız, mən də belə bacarıram. O vaxt imkan sizin əlinizdə idi, indi mənim əlimdədir. Mən zarafatlarınıza dözürdüm! Siz də dözün! Mən heç kimi satmadım! Siz də kişi olun, dözün!

Rəis tələsmədən qapıya getdi. Dostlar uğunan polislərə baxa-baxa qaldılar. Heç birinin bu zarafata gülməyi gəlmirdi...

## Mübahisəli burun

Torpaqları müxtəlif yerdən götürülsə də Məmmədəli bəylə Zərəfşan xanımın nikahı zamanın sınağına tab gətirdi, çat vermədi. Bir-birindən xasiyyətcə fərqlənən ər-arvad xoşbəxt yaşayırdı. Əlbəttə, xırda-para narazılıqlardan heç bir ailə sığortalanmayıb. Fikir ayrılığı da, umu-küsü də olurdu, həyatdır da,amma atışmaya heç biri yol vermirdi. Bir tərəfdən Zərəfşan xanımın anadangəlmə ciddiliyi, o biri tərəfdən Məmmədəli bəyinsüdnən gələn qeyri-ciddiliyi qanqaraçılığa sipər çəkirdi. Məntiqə qalsa günləri dalaşmada keçməli idi. Lakin belə deyildi. Ərinin ayar zarafatlarını dinməztəhəmmül eləyən arvadınsəbrinə söz ola bilməzdi. Eləcə də arvadının mənasız iddialarını lağlağıya çevirən kişinin bacarığı da tərifə layiq idi.

Bu belə.

İndi də qəhrəmanlarımzın cizgilərini çəkək.

Məmmədəli bəyinboyu orta, başı balaca, gözləri xırda, üzü də sızanaqlıdır. O, fiziki qüsurlarına qarşı etinasız idi. Əksinə, qüsurlarına özü lağ eləyirdi. Bununla da ona sataşanların silahını əlindən alırdı.

Zərəfşan xanımisə güzgüdən qaçırdı, çünki surəti onu fərəhləndirmirdi. Allah-təala ona Quba alması kimi toppuş yanaqlar, qələmlə çəkilmiş qaş-göz ətaeləmişdi, hələ hamını valeh eləyən bir cüt zənəxtanı demirəm! Amma xanımburun sarıdan yarımamışdı, burnu qırğı dimdiyi kimi əyri idi. İllər keçdikcə burnunun üstündəki sümük böyüyürdü, Zərəfşan xanımın ürəyini sıxırdı.

Bu da belə. Söhbətin məğzinə varaq.

Əllini xırdalayan Məmmədəli bəyin heç bir işi düz deyildi. Hara əl atırdı bir əmma çıxırdı. Şura hökuməti ömrünü ona tapşırandan sona işləri bir az da korlandı.İllərlə işlədiyi zavod bağlanandan sona xeyli vurnuxdu,amma murad hasil olmadı. Xahiş-minnətdən sonra sərəncamla yer aldı, evinin tinində bir xırda köşk qoydu, başladı hamı kimiçərçiliyə. Başqaları irəli getdi,pul sahibi oldu, Məmmədəli bəysə nə artırdı, nə də azalırdı.Üzüuumşaqlığından nisyələr onu yıxdı. Amma necə olsa da balalarının çörəyini çıxarırdı. Tale bunu da ona çox gördü. Küçə ticarəti ilə mübarizə adı altında onu da çoxları kimi çörəksiz qoydular. Nümunəvi şəhər yaradan məmurlar qaldırıcı kranla onun da köşkünü qaldırıb uzaq bir zibilliyə atdılar. Məmmədəli bəyə bazarda yer verdilər. İki metrəlik piştaxtaya möhtac elədilər. Kim olsaydı başına hava gələrdi,həyatından bezikərdi, amma Məmmədəli bəy kənək qoz kimi

idi,sınana oxşamırdı.Nə deyib-gülməyindən qalırdı, nə dolaq-zarafatından.

Çöldə - bayırda necə idisə evdə də elə idi. Məmmədəli bəyözüiləşadlıq gətirirdi. Qapıdan girən kimi on yaşlı Nərmin böyrünü kəsdirirdi. Onbeş yaşlı Arifin üzündə şeytanlar peyda olurdu. Məmmədəli bəy çöpə gülən qızından arxayıın idi. Oğlunun sakit, yuxulu görkəmindən ehtiyyatlanırdı. Uşağın mimikasından baməzəlik yağırdı. Birini yamsılayanda, ya təqlidini çıxaranda adamda can qalmırdı. Hazır məzhəkə ustası idi. Məmmədəli bəyanlaşılmaz bir arzu ilə oğlunun işləklərinə rəvac verəndə Zərəfşan xanım kəmiltifatlıqla susurdu. Təklikdə isə Arifi danlayırdı:

- Ay allahın mağmını, şüvül kimi uzanırsan, amma ağlın artmır. Bu oyunbazlıqları burax getsin, dərslərinə fikir ver. Oxu, adam arasına çıx, bizim kimi əziyyət çəkmə. Onun - bunun ağzını əyməkdən nə çıxar? Lağlağı ilənecə baş dolandıracaqsan?

Axırıncı hadisədən məlum oldu ki,Zərəfşan xanım haqlıdır.

Səhər mətbəx masası arxasında oturmuş ata-oğul allah verəndən yesələr də qulaqları səsdə idi. Evin xanımı onlara dinməz qulluq eləyirdi. Arif zərbənin haradan dəyəcəyini bilirdi. Məmmədəli bəy isə işdən hali olmasa

da arvadının tərpənişindən hiss eləmişdi ki, nəsə olub. Loxmasını ötürüb söz atdı:

- Çinədanını boşaltsana! - dedi - Görürəm sözlüsən…

Zərəfşan xanım hirsini boğub mülayimliklə:

- Axşam daha yorğun gəlmişdin,başını ağrıtmadım.-dedi-Sənin bu yerəbaxan oğlun bir yekə hoqqa çıxarıb. Məktəbə getmək lazımdır. Onu litsey sinfindən adi sinifə keçiriblər. Get, gör, nə məsələdir…Vallah, bütün günahlar səndədir.Başını sığallaya-sığallayabaşımıza çıxarmısan.Bu da axırı…

Məmmədəli bəy təəccüblə:

-Neynəyib ki? Kimin gözünə torpaq atıb? - deyə soruşdu - Gedib aydınlaşdıraydın da…

Zərəfşan xanım oğluna hirslə baxdı:

-Getməyə ehtiyyac qalmadı. Zəng elədim , öyrəndim..

Zərəfşanxanım qohum-əqrabadan savayı heç kimlə münasibət qurmurdu. Naqisliyinə görə bayıra-bacağa az çıxırdı. Məmmədəli bəy buna istehza ilə:

-Hə, zənglə nə aydınlaşdırdın? - deyə soruşdu.

-Öyrəndim ki, Arif direktorun təqlidini çıxarıb. O da acığa düşüb belə eləyib.

Məmmədəli bəy ürəkdən güldü:

-Ha, ha, ha! Nə böyük işimiş! - dedi - Məşhur artistlərin, nazirlərin, hətta prezidentlərin təqlidini

çıxarırlar. Nə olar ki? Yalnız müqəddəs şəxsiyyətlər toxunulmazdır. Məktəb direktoru isə övliya deyil ki!

Zərəfşan xanım həmrəyliklə atasına baxan oğluna göz ağartdı:

- İndi hər nədir! İxtiyar onun əlindədir! -dedi.

Məmmədəli bəy Arifə tərəf çevrildi:

- Anan düz deyir, ay şuluq kişi! - dedi - İşin-gücün qurtarıb?Hamıdan qurtardın direktora keçdin? Qaşınmayan yerdən qan çıxarırsan? Danış görüm…

Arif atasının mülayim danlağındantərlədi:

-Bir işdi oldu da! Məktəb klubunda tamaşa verirdik,səhnədə bir-iki gülməli monoloq dedim, bir-iki pontomima göstərdim. Birdən şeytan məni yoldan çıxartdı, direktorun da hərəkətlərini, yerişini təqlid elədim. O qədər əl çaldılar ki…

Məmmədəli bəy yerindən qalxdı:

- Yaxşı,indi məktəbə gedərəm, görüm nə deyirlər.-dedi.

- Bəs işin?

- Bazar bir-iki saat mənsiz də keçinər, - deyə Məmmədəli bəy arvadına cavabverdi və qaşqabağlı arvadına sataşmaqdan özünü saxlaya bilmədi - Ay xanım, hirslənmə,burnun yenə xoruz pipiyi kimi qızaracaq.

Arif irişdi:

-Ata, işləri korladın. Zərəfşan xanım yenə bizi dindirməyəcək. Burundan lap nahaq söz saldın…

Evin xanımıhəmrəy kişilərə qəzəblə baxdı,heç nə demədən mətbəxdən güllə kimi çıxdı

Axşam Məmmədəli bəy bazardan evə gec qayıtdı. Zərəfşan xanım qapıda maraqlandı:

- Nə oldu, getdin? -deyə soruşdu-Bir şey elədin?

- Getmişdim, alınmadı, - Məmmədəli bəy ayağını soyuna-soyuna cavab verdi. - Direktor

dedi ki, daha əmr vermişəm, gələn rüb qaytararam öz sinifinə.

Zərəfşan xanım tənə ilə:

- Əli boş getmişdin?

- İş əndazədən çıxıb, əli dolu da getsəydim xeyri yox idi. Direktor dedi, ara soyusun bir

də dəyərsən, həll edərəm.

- Vallah, adam yarıdan deyilsən. Sulu çaydanda susuz qayıdırsan.

Məmmədəli keçib divanda yerini rahatladı:

- Boşla, ay xanım, - dedi - Nə böyük işdir ki? Oğlunudoqquz «a» - dan doqquz «b» - yə

keçiriblər. Az nadinclik eləsin. Bundan sonra hər addımını ölçər.

Zərəfşan xanım yanğı ilə:

- Elə olar da, nə tökərsən aşına, o da çıxar qaşığına.Üşaqların da özün kimidir.

Məmmədəli qızının gətirdiyi çayı qabağına çəkdi, tamciddi:

- Bilirsən, nə var, arvad?

Zərəfşan xanım ərinin ciddi görkəminə aldanmadı,daha onuun cikini də bilirdi, bikini də. Mübahisəni səbəbkarı da qaşqabaqlı halda qapıdan boylandı. Məmmədəli bəy müdrük görkəm aldı, böyründə oturmuş onyaşlı qızını qucaqladı, ağzını açacaqdı ki, Zərəfşan xanım onu qabaqladı:

- Bilirəm , lap yaxşı bilirəm - dedi vəgözlənilmədən Məmmədəli bəyi təqlidən davam elədi - Vallah, kişi, mənim burnum düzəlməsə, bizim işlərimiz düzələnə oxşamır. Gəl, sən daşı ətəyindən tök,məni həkimə apar. Qoy burnumunartıq- urtuğunu kəsib səhmana salsınlar,bəlkə bəxtimizaçıldı. Hə, belə demək istəyirdin?

Uşaqlar uğundular. Məmmədəli bəy çaşıb qaldı.Zərəfşan xanım nadir hallarda zarafat eləyərdi. Məmmədəli bəyözünə gəlib xanımını təriflədi:

- Afərin!-dedi- Sən də bizim adamoldun,yoxsa zarafat eləyən kimi qaşqabağını tökürdün…

Zərəfşan xanım onun sözünü kəsdi:

- Sən araya söz qatma! - dedi - Bu gün həkimə getmişdim. Dedi ki, vaxtıdır , kəsmək olar,sonra gec olacaq.

Məmmədəli bəy durub gəzişdi, qayıdıb yerinə keçdi:

- Yox, mən buna razı ola bilmərəm! - dedi. - Məni qızıla da tutsalar səni bıçaq altına göndərə bilmərəm.

- Sən canın razı ol. Deyirlər, beş uüz dollara başa gələcək.- Zərəfşan xanım xahiş elədi - Adam lap xəcalət çəkir. Zəhrimarsümük elə heyböyüyür.

- Ay xanım, buna bir ətək pul lazımdır,axı! Bəyəm havayıdır?Neçə paçka «şirvan» lazımdır.

Zərəfşan xanım burnunun hörgücünə barmağını toxundurdu:

- Məndə nə var ki! Bir burundur. Camaatın arvadları az qala butün əzalarını dəyişdirir, yenisini tikdirir. O gün televizorda deyirdilər ki…Adı nədir o aktrisanın…, hə…, beş min dollarlıq plastik əməliyyat elətdirib. Sən isə mənə beş yüz dollar xərcləmək istəmirsən…

Məmmədəli bəy ciddiləşən söhbəti lağlağıya çevirməyə çalışdı:

- Bilirsən, ay xanım ,mən səni o donqar burnuna görə yüz qızın içindən seçmişəm. Sən isə onu kəsdiribməni bu zövqdən məhrum eləmək istəyirsən. - dedi və uşaqlara baxdı.

Onun bu məzəsinə heç biri gülmədi. Məmmədəli bəy köksünü ötürdü:

- Mən qarnınıza çörəyi gücnən qazanıram,ay xanım,sən bahalı plastik əməliyyatdan dəm vurursan. Sənə

neçə dəfə deyərlər ki, indi buna gücüm çatmır. Allah imkan verər burnuna da əncam çəkərik. Səbr elə…

Arif qapının çərçivəsindən aralanmadan göznəlilmədən dilləndi:

- Mamanın burnu Qinnes kitabına düşməsə ata tərpənməyəcək,- dedi.

Yerində edilmiş bu qeyd hamını güldürdü. Məmmədəlibəy təslim oldu:

-Yaxşı , yaxşı , gələn ay bu işlə məşğul olarıq. Bir az alacağım var…-dedi və onunəlehinə gedən oğlunu zarafatla hədələdi-Səninlə isə, ay şuluq kişi, bir azdan söhbət edərik.

Məmmədəli bəy şam yeməyinə girişdi. Doyandan sonra divanın yastığına yaslandı, televizora gözünü dikdi. Bütün günü ayaq üstə olduğundan yorğun idi. Oğlunun tənbehini sonraya saxlaldı. Saat on olmazdı ki, onu yuxu basdı. Gözünün acısını almamışdı ki, çığırtıya dik atıldı. Başının üstündə dayanmış oğluna acıqlandı:

-Nə olub? - Soruşdu -Zəlzələdir?

Arif dili topuq vura-vura dedi:

-Ata, ata! Mamanın burnu sıınıb! Qan sel kimi axır…

Məmmədəli bəy qeyzlə ayağa durdu:

-Axmaqlama, dəyyus! Başqa zarafat tapmırsan!?

Arif and içdi:

-Vallah, zarafat eləmirəm. Hamamxanadan çıxanda mamanın ayağı sürüşüb,üzü divara dəyib.

Məmmədəli bəy başılovlu dəhlizə çıxdı. Həmişə mübahisələrə səbəb olan burun, doğurdan da,sınmışdı. Zərəfşan xanımın boyun-boğazı qan içində idi. Dəhlizdəki xırda kürsüdə başını geri atıb ağrıdan zıqqıldayırdı. Qorxudan özünü itirmiş Nərmin böyründə durub bilmirdi ki, neyləsin.Məmmədəli bəyxanımın dərini deşib sallanan burun sümüyünə baxdı, bilmədi gülsün, ya ağlasın. Arvad yaman gündə idi. Daha durmaq vaxtı deyildi. Köhnə maşınını işə salmaq üçün aşağı qaçanda oğluna tapşırdı ki, anasının qoluna girib aşağı düşürsün. Kişi mərkəzi xəstəxanaya çatana qədər ürəyini yedi. Ömründə birinci dəfə idi ki, zarafat eləmək yadına düşmürdü. Zərəfşan xanıma tərəf baxmağa qorxurdu. Xəstəxanaya çatdılar. «-Bura bütün ölkəyə xidmət eləyən yeganə şəfaxanadır ki,gecə də oyaqdır , gündüz də.» - deyə qapıçı onu məlumatlandırdı. Məlum oldu ki,sümük udanların, qulağına qurd-quş dolanların, ilan çalanların, quduz it qapanların yolu burdan keçir.

Yuxulu şəfqət bacısı zərərdidənin qoluna girib oturtdu,həkiminyuxulu gözləri alnına qaldırılmış gücləndiricinin altında itdi. Onun ləngliyində nə vardısaMəmmədəli bəy əlini cibinə atdı , olan pulunu

həkimin xalatının cibinə dürtdü. Bundan sonra otaq hərəkətə gəldi.

Bir azdan Zərəfşan xanım cərrah masasında tir-tap uzanmışdı.Ailənin, qohumların xəlvəti məzə yerinə çevrilmiş burun yuxudan kal durmuş yekəpər həkimin cənginə keçmişdi.O, necə kobud tərpənirdisə xəstənin çığırtısı otağı başına götürmüşdü.Məmmədəli bəyin ürəyinin başına od düşdü,gözlərindən gildir-gildir yaş axdı,amma əli qoynunda dayanmaqdan savayı bir şey eləyə bilmirdi.Həkim hər dəfə yarım arşınlıq dəmir millə zədəli burnu eşəndə Zərəfşan xanım zarıldayırdı.Sonracərrah əlini saxladı, qonşu otağa keçdi, tez də qayıtdı.Rezin əlcəklərini çıxarıbhirslə zibil yeşiyinə atdı.Girişdə divara söykənmiş Məmmədəli bəyə yanaşdı.Narazılıqla dilləndi:

- Ay elli, verdiyin qəpiq-quruşdurki! - dedi.

Məmmədəli bəy təəccüblə:

- Ay rəhmətliyin oğlu, on beş «şirvan» azdır? Yenə pul istəyirsən? - dedi.

Həkimin adla:

- Sən gəl haqqımızı kəsmə,bir eylə də əlavə elə. Tibb bacısına da, baş həkimə də bir şey çatsın…

Məmmədəli bəy heyrətlə:

- Bərəkallah, həkim!-dedi-İki daşın arasında, bu gecə yarı baş həkim hardan yadına düşdü?!

Həkim burnunu çəkdi:

- Eh, ay elli, sən bilmirsən, xəstəxananın qapısından girən haqqında baş həkimə məruzə edirlər. Haqqı çatmasa ciyərimi çıxaracaq.

Zərəfşan xanımın iniltisi artdı. Məmmədəli bəy xahiş elədi:

- Başına dönüm, həkim, tez elə ,yazıq daha ağrıya dözə bilmir.

Həkim şirin-şirin gülümsədi:

- Elli, narahat olma! Xanımınıza heç nə olmayacaq. Əməliyyatı yüksək səviyyədə keçirəcəyəm. İynə vurmuşam, indi keyiyəcək. - dedi və bayaqkı söhbətə bir də nərdivan qoydu - Əlavə bir şey verəcəksən?

Məmmədəli bəy istehza ilə hər iki cibini çevirdi. Həkim onun bu hərəkətindən narazı qaldı. Başını buladı. Zıqqıltısı get-gedə azalan xəstəyə yan aldı. Yenə yarım arşınlıq mili götürüb Zərəfşan xanımın burnunu qurdaladı. Xəstə inildədikdə Məmmədəli bəyi yenə ağlamaq tutdu. Həkim çevrilib ona baxdı. Kişinin kövrəldiyini görüb istehza ilə:

· Vay, vay, lap xıncım-xıncım olub e! - dedi. - Ay elli, sən xanımı nə yaman vurmusan?!

Heç insafın yoxdur?

Məmmədəli bəy heyrətlə:

-Həkim, mən heç adam döyənə oxşayıram? İçəri girən kimi səni başa saldım, axı! Arvad

əlində vedrə hamamxanadan çıxanda ayağı sürüşüb, üzü üstə qabağındakı divara dəyib. Uşaqlarım allahın şahididir, - dedi və xahiş etdi. -Sən Allah, işinlə məşğul ol! Müstəntiq deyilsən ki?

Həkim:

· Hirslənmə, elli,mən elə işimlə məşğulam - dedi - Keyiməsə heç nə edə bilmərəm.

Ölkədə hamı yatır, ey,elli! Bir mənəm gecə yarısı əməliyyat aparan. Hələ narazısan da.

Məmmədəli:

- Bəs, haçan keyiyəcək? Yazıq elə zarıyır. - deyə soruşdu.

Həkim tibb bacısına baxıb şaqqıltı ilə güldü:

- Verdiyin pula müqabil ağrıkəsici vurulub da. Yaxşıpul ver, bahalı keyidici vurum, tez keyisin.

Bu söhbət əsnasında xəstənin iniltisi kəsildi. Həkim dərhal qollarını çırmayıb işə başladı. Xəstənin burnunu dinməzcə bir xeyli əlləşdirdi. Gah masanın o tərəfinə keçdi, gah bu tərəfinə keçdi. Başdansovdu bir tikiş vurdu. İşindən razı halda Məmmədəli bəyi çağırdı:

- Gəl bax, gör necədir? Belə idi? Oxşayır?

Məmmədəli yaxına gəldi diqqətlə tikiş qoşulmuş buruna baxdı, sözün düzünü dedi:

- Oxşamır, həkim, düzü, arvadım burundan yarımayıb. Əvvəl qırğı dimdiyi kimi əyri idi, hörgücü vardı, indi isə düppədüzdür.

Həkim başını qaşıdı:

- Belə saxlasaq necə olar? O hörgüc dediyin sümüyü çıxarıb atmışam. Onsuz da kəsilməli idi. Lap vaxtında sınıb. Belə yaxşıdır. Bəyəm, burun düz olsa işə yaramaz?

Məmmədəli bəy etiraz etdi:

- Qoy, əvvəlki kimi qalsın. Açığı, gözümüz alışıb, huşu üstündə olsaydı heç özü də razı olmazdı.

Həkim bir az da xəstəni incidəndən sonra təəsüflə dedi:

- Yox, əvvəlki formanı verə bilmirəm. Sümüklər xıncım-xıncımdır. Qoy, belə qalsın.

Sınmış sümüyü yerinə tikə bilmərəm ki!

Məmmədəli bəyin damarı tərpəndi. Məzə ilə inad elədi:

- Olmaz, ay həkim. Mən onu elə əyri burnuna görə yüz qızın içində seçib bəyənmişəm.

Heç razı ola bilmərəm ki, o buruna xələl toxunsun. Arvadımın burnunu necə var elə də saxla.

Yekəpər cərrah yavaş-yavaş əsəbləşirdi:

- Nə fərqi var, axı? Burun, burundur da, əyri, ya düz. Təzədən sındırıb yığmalıyam?

Zəhmətimə hayfın gəlmir?

Məmmədəli, nəhayət, həkimin ağrıyan yerini tapdığına sevindi, tam ciddiliklə başladı onu dolamağa:

- Ə, sən nətəhər cərrahsan ki, bir işi axıracan görə bilmirsən? - dedi. - Sənə deyirlər arvadımın burnunu necə var, o cür də yığ. Yoxsa, orda-burda danışaram səni hörmətdən salaram.

Həkim peşəkarlığına şübhə ilə yanaşan Məmmədəlibəyin üstünə çığırdı:

- Balam, o əyri burun sənin nəyinə gərəkdir, axı?Nə yapışmısan ondan?

Məmmədəli bəy barmağını qaldırdı:

- Əşi, arvad mənim deyil? Qoy burnu əyriqalsın!

Həkim onun qoluna girib qırağa çəkdi:

- Ay qardaş, yenidən kəsib-tikməkdən xəstəyə əziyyət olar! Gəl sən bu daşı ətəyindən tök, razı ol, - deyə xahiş elədi.

Məmmədəli bəy ürəyində sevinə-sevinə, üzdən isə narazılıqla:

- Ay həkim, sən bilmirsən… - deyə köksünü ötürdü.

- Nə inad adamsan! - Həkim heyrətləndi.-Nəyi bilmirəm ki?

- Həkim, inadımın səbəbi var. Qonum-qonşu elə bilər ki, daha pullanmışam, arvadın üstünə maya qoyuram, plastik əməliyyatlara pul xərləyirəm.

- Lap yaxşı, bunun nəyi pisdir ki. Qoy, istəməyənlərpaxıllıqdan partlasınlar.

- Eh, həkim, dərdim böyükdür, borc aldığım adamlar bir himə bənddirlər. Dərhal tökülüşüb gələcəklər ki, bəs, daha pullanmısan, borcumuzu ver.

Həkim onu xeyli dilə tutandan sonra, nəhayət, razı saldı. O, yavaş-yavaş huşu özünə gələn Zərəfşan xanıma yaxınlaşdı. Cəld işə başladı. Bu əvvəlki adam deyildi, əllərini görmək olmurdu. Həkim axırda bir neçə arşın binti xəstənin burnunun deşiklərinə təpdi. İynəsinin keyi keçmiş Zərəfşan xanımı tibb bacısının köməyi ilə masadan düşürtdü və incik-incik başını tərpətdi, sualedici nəzərlərlə Məmmədəli bəyə baxdı. Amma xəstənin sahibindən səs çıxmadıqda mızıldandı:

-Yaxşı,-dedi -Qoy belə olsun. Özün peşiman olacaqsan…

Məmmədəli bəy bu hədəni eyninə almadı, özündən razı halda Zərəfşan xanımı xəstəxanadan çıxartdı. Maşına oturdubtez onu evə çatdırdı. Xəstəni təzə yerbəyer eləmişdilər ki, qapı döyüldü. Açıb gördü ki, bir polis zabitidir. Soruşdu:

- Nə lazımdır, qardaş?

Polis özünü təqdim edib, içəri keçdi.

-Bizə xəstəxanadan məlumat daxil olub ki, bu ünvanda dalaşıblar, ər arvadın burnunu sındırıb, aradan çıxıb.

Zərərçəkən ölümcül halda xəstəxanaya çatdırılıb, ilkin tibbi yardım alıb, həyatı xilas olunub.

Məmmədəli bütün bunları bir nəfəsə deyən polis zabitinin hökmü qarşısında aciz-aciz məzələndi:

- Polis qardaş, sizə düz məlumat verməyiblər. Dalaşan olmayıb, bədbəxt hadisə baş verib, arvad yıxılıb, burnunu sındırıb. Ər də heç yerə qaçmayıb.

Polis soruşdu:

- Siz onun nəyisiniz?

- Həyat yoldaşıyam.

- Zərərçəkən hardadır?

- Yataqdadır.

- Hadisə necə olub? Nə üstə dalaşmısınız? - deyə polis zabiti eyni hökmlə soruşdu.

- Dedim ki, dalaşmamışıq, arvadımyıxılıb burnunu sındırıb.

- Kişi,inandırıcı bir şey fikirləşə bilmirsən? Adam yıxılanda qolu sınar, qıçı sınar. Day, burnu sınmaz ki.

Məmmədəli:

- İndi olub da, - dedi. - Mən də xəbər tutanda elə sənin kimi fikirləşdim. Adamın da burnu sınar?

Polis Məmmədəli bəyin baməzəliyi qarşısında az qala öz zabitəsini itirəcəkdi. Qaşqabağını tökdü:

- Məni dolamısan? - Soruşdu. - Yığış, zərərçəkəni də götür, şöbəyə gedəcəyik. Orda izahat yazılmalıdır.

Məmmədəli istehza ilə:

- Zərərdidənin getməyə təhəri var ki?

Polis zabiti inadla dedi:

- Mən bilmərəm, - dedi. - Qanun belə tələb edir. Zərərçəkən dindirilməli, protokol tərtib edilməlidir, hadisə qeydə alınıb iş açılmalıdır... Hanı zərərdidə? Yataq otağındadır? İcazə verirsən? Bir-iki sualım olacaq…

O, Məmmədəli bəyin razılığını gözləmədən yataq otağının açıq qapısından boylandı. Soruşdu:

- Bacı, mən polisdənəm. Danışa bilirsən?

Zərəfşan xanım gözünü açmadan:

- Hə, - dedi.

- Lap yaxşı, bacı, səni kim döyüb, burnunu kim sındırıb? Şikayətin kimdəndir?

Zərəfşan xanım ağır-ağır:

- Yıxılmışam, qardaş, kimdən şikayət eləycəyəm?

Polis onu dilə tutdu:

- Qorxma, bacı, qorxma. Qanun sənin tərəfindədir. Qadına əl qaldıranın canını alcağıq. - dedi və ev sahibinə tərəf döndü: - Hadisəni gecə ilə də olsa, araşdıracağıq. Yığışın, gedək.

Məmmədəli bəy isteza ilə:

- Ora getsək sənə heç nə çatmayacaq ha! - dedi. - Nəzirdən-niyazdan verəcəkdim, indi özün bil…

Polis zabiti işarəni anlayıb boğazını arıtladı, ipək kimi yumşaldı:

- Bu başqa məsələ! - dedi - Qəzanın şahidləri kimdir?

- Oğlumla qızımdır.

Polis zabiti atasının arxasında dinməz dayanan Arifdən soruşdu:

- Oğlum, ananın burnu doğurdan divara dəyib sınıb?

Arif zorla gizlətdiyi istehza ilə:

- Doğurdan, polis əmi, - dedi. - Amma mamamın burnu sınmalı burun idi, atam hələ səbrli kişidir, bu işi qəza-qədərin umuduna qoymuşdu.

Polis zabiti oğlanın hazırcavablığına heyran qaldı. Daha işi uzatmadı, anasının burnuna yağ damızdıran Nərmindən soruşdu:

- Sən də təsdiq eləyirsən,qızım?

Uşaq başını tərpətdi. Hadisə qıza necə təsir eləmişdisə, üzü gülmürdü.

Polis zabiti dəftərinə nəsə yazdı. Umacaqla ev sahibinə baxdı. Məmmədəli bəy onun ümidini doğrultdu, əlini qoltuğ cibinə atıb axırıncı əlli minliyini çıxarıb zabitin cibinə basdı. Polisin üzü güldü, dilləndi:

-Yaxşı da, sabah şöbəyə gələrsən. Bacıya əziyyət vermə daha. Özün kifayətsən. Gələndə pasportlarınızı da gətirərsən. Gecəniz xeyrə.

Məmmədəli bəy onu yola salandan sonra, yataq otağına keçdi:

- Arvad, sonra elə bilmə ha, burnun havayı düzəlir. Bir ətək pul xərcləyirəm, - dedi və döşünə döydü: - Mən dediyimi yerinə yetirən oğlanam. Axır ki, əyri burnunu sahmana saldıq. İndi görək, əyilən işlərimiz haçan düzələcəkmi?

Zərəfşan xanımın dodağı qaçdı, uşaqların da üzü güldü...

# Torpaq aşiqi

Namaz kişi təmənnasız bir adamdı. Şükranlıq hissi qanında idi. Gec ailə qurmuşdu. Təqaüdə çıxanda böyük oğlunun heç iyirmi yaşı yox idi. Şura hökumətinin dağılmağına az qalmış mənzil növbəsinin çatacağına gümanını itirmiş Namaz kişi altı sotluq bir torpaq sahəsi götürmüşdü. Kirayənişin qalmaqdan, yataqxanalarda çürüməkdən canını qurtarmışdı. Bir xırda ev tikmişdi, balalarını başına yığmışdı. Namaz kişi torpağı, yaşıllığı sevirdi. Həyətində ağac əlindən tərpənmək mümkün deyildi. On beş «şirvan»lıq təqaüdü gen-bol yaşamağa imkan vermirdi, amma böyük oğlunun əli daha pula çatmışdı. Bəlkə də Namaz kişi şükranlıq hissi ilə bu dünyada yaşayıb və onu tərk edəcəkdi.

Zəmanə dəyişmişdi. Əldən-ayaqdan uzaq, şəhərin kənarında yerləşən qəsəbənin ətrafında qəribə işlər baş verirdi. Elə bil, adamlar dəli olmuşdular.Hamı torpaq alırdı, torpaq satırdı. Daş hasarlar yenilməz addımlarla qəsəbəyə yaxınlaşırdı. Bir-iki il də belə getsəydi ətrafda paya çalmağa bir qarış torpaq qalmayacaqdın. Namaz kişi qanunpərəst adam idi. Ölçülüb ona verilmiş altı sotdan bir metrə də qırağa çıxmamışdı. Amma övladları böyüdükcə

həyəti onu sıxırdı. Qonşusu Məhəmmədlə bir zavodda işləmişdi. İşi çətinə düşəndə həmişə ona gənəşirdi. Məhəmməd bacarıqlı kişi idi. Əlindəki altı sotluq sərancamla az qala bir hektar yeri hasarlamışdı. Vəzifə sahibləri ilə tez dil tapırdı. Namaz kişi ona üz tutdu. Qonşusu ona qulaq asıb dedi:

- Ay maymaqsan ha! Sənə o vaxt demirdim ki, qorxma, hasarla getsin. Demirdim ki, çöllü-biyabandır, kimdir arayıb-axtaran…

Namaz kişi ağ saqqalını qaşıdı:

- Ay qardaş, kimin ağlına gələrdi ki, bir belə yeri satarlarlar, hasarlayarlar. Fikirləşirdim, oğlanlarım böyüyər özlərinə qanunla torpaq götürüb ev tikərlər. Deyirdim, bu altı sot da, ölümə də bəsdir, dirimə də.

Məhəmməd istehza ilə:

- Bə, nə oldu?

- Nə olacaq ki! O gün getmişdim bələdiyyəyə. Dedim,torpaq sahəsiistəyirəm. Elə bir qiymət oxudular ki, tüstüm təpəmdən çıxdı.

Məhəmməd güldü. Torpağın qiymətindən onun xəbəri var idi. Bir az fikirləşib ona məsləhət elədi:

- Sən belə elə… - dedi və torpaq sahəsini genişləndirməyin yeni üsulunu ona başa saldı.

Qonşusununməsləhətiilə Namaz kişi hasarın bayır tərəfinə ağac əkir, bir ildən sonra hasarı sökür, yenidən

tikirdi,beləliliklə, həyəti bir ağaclıq genişləndirirdi.Bir-iki ilə altı sotluqtorpaq sahəsi ətə-qana gəldi, xeyli artdı.Amma kişinin iştahası artmışdı.İmkanlı vəvəzifəliadamlarhektarlaəkin yerini , agaclıqları , qədim bağ yerlərinihasarladıqcaNamaz kişi varından yox olurdu. «- Allah kasıblığın evini yıxsın!»-deyəyanıb-yaxılırdı.

Qəsəbənin bəxti gətirmişdi. Ətrafında doqquz mərtəbəli binalar ucaldılırdı. Bəndənin də, Allahın da unutduğu bu qəsəbə get-gedə canlanırdı.

Ətrafda tikilən doqquz mərtəbələrin tikinti tullantıları, bünövrəsi qoyulanda çıxarılan iri daşlar Namaz kişinin həyətinin dalındakı dərəyə atılırdı. Bu lazımsız torpaq sahəsi Namaz kişini valeh edirdi. O, addım-addım həyəti genişləndirməkdən bezikmişdi. İstəyirdi birdəfəliko daşlığı hasara alsın, sahmana salıb əkib-becərsin. Ammaaxır vaxtlar torpağın o qədər sahibi çıxmışdı ki, bilmirdi bu barədəkiminləsöhbət eləsin. İcra hakimiyyəti bir yandan, bələdiyyə o yandan, polis sahə müvəkkili o biri yandan, deyirdi ki, məni görməlisən. Bu daşlıq da nə matah şeydi ki, bir belə adamın bığının altından keçəsən.

Məhəmməddən savayı dahabir-iki müdrük qonşu ilə məsləhətləşəndən sonra Namaz kişi qərara gəldi ki, bu işielə sahə müvəkkili Əliquludan aşırsa ucuz başa gələcək . Amma qorxduğu şey də elə bu idi . Cibində siçanlar oynayırdı. Yaxşı bilirdi, Əliqulu karlı pul almasa onun

arzusunu gözündə qoyacaq. Zəmanə pis zəmanə idi. Zəhrimar pul, lar daşdan çıxırdı. Əliqulu da baş kəsənin biri idi. Qonum-qonşuda biri daşı daş üstə qoyan kimi dərhalxəbər tuturdu, özünü yetirirdi.Vay, o yazığın halına!Polis müvəkkili arxasız, yazıq adamlarınqənimi idi. İstədiyini almamış əl çəkmirdi. Qəsəbə kasıb qəsəbə idi. Arxalının, pullunun bu Allahın unutduğu qəsəbədə nə ölümü vardı ki!

Namaz kişi çar-naçar qərara gəldi ki, Əliqulunun yanına getsin. Amma yolda eşitdi ki, sahə müvəkkilinin maşını qəzaya düşüb, canını tapşırıb qəsəbə camaatına. Hamı sevinsə də, Namaz kişi bu sevincə şərik ola bilmədi. Fikirləşdi ki, torpaq məsələsi qaldı böyrü üstə. Axşam çay içə-içə böyük oğlu Ələmdara dedi:

- Bizim hər işimiz belədir.İşə başlayanda pişik asqırır.

İşdənyenicə qayıtmış Ələmdartəəccüblə:

- Nə olub ki?

-Əliqulunu deyirəmdə!Mərdimazar oğlu, deyirəm, ölməyə vaxt tapdı da!

Ələmdar təklif etdi:

- Bəlkə, bütün qaydası ilə eləyək? Ərizə yazaq, sərancamla yer ayırsınlar…

Namaz kişi başını buladı:

- Sərəncamabirpaçka «dollar»istəyirlər. Hardan tapaq? - dedi və yangı ilə: - Bələdiyyə səninçün Şura hökuməti

deyil ki, havayı torpaq versin! Ay gidi, dünya! Bu məmurlar ölkəni talan eləyəcək.

Süfrədən qıraqda oturmuş ortancıl oğlu Muxtar qayıtdı:

- Rəhmətliyin oğlu, bizi bu torpaq söhbəti ilə lap çərlətdin. Sən razılıq ver, bu işə mən əncam çəkim. Təzə sahə müvəkkili ilə danışıb yoluna qoymaq mənim əlimdə nədir ki! Sən o daşlığın yarısını istəyirsən, mən onun hamısını hasarlayım!- dedi.

Namaz kişi əməlli-başlı ağarmış saqqalını sığalladı, tərs-tərs ona baxdı, Ələmdara müraciət elədi:

- Bu qırışmalı görürsən? Elə bilir dünya hərki-hərkilikdir. Yox, bu sən bacaran iş deyil. Aləmi qarışdıracaqsan, sonra gəlonun altından çıx.

Muxtar elə bil qələmlə çəkilmiş enli bığlarını gaşıdı. İnadla dedi:

- Bircə sən qarışma, gör nə cür yoluna qoyuram.

Namaz kişi kiçik oğlunun inadkarlığından zövq alsa da etiraz etdi:

- Sənlik deyil, bala. Sən get bir özünə iş tap, kəsbkarlığını elə. Bir ay burda, iki ay orda işləməkdən bir şey çıxmaz. Cibində siçanlar oynayır. O boyda kişisən, bütün ciblərini axtarsam heç on «şirvan» pul tapmaram.

Muxtar atasının sözündən bərk alındı. Daha dinmədi. Ələmdar mülayim halda dedi:

- Dədə, o zəmanə uşağıdır, yəqin bir şey bilir ki, deyir. İmkan ver, qoy özü hər şeyi yoluna qoysun. Bir-iki il polisdə işləyib. Nə olsun qovublar! Lalın dilini anası bilər.

Namaz kişi çar-naçar razı oldu:

- Qoy siz deyən olsun, - dedi və barmağını onların üstünə silkələdi. - Daha hoqqa çıxartmayın. Hər şeyi xoşluqla həll edinki, daha adımızı hallandırmasınlar.

Bu söhbətdən heç bir gün keçmədi ki, Muxtarbir neçə maşınköhnə-külə daş -torpaq, sement tökdü. Namaz kişi təəccübləndi:

-Ay zırrama, məndən təzə daşın pulunualıb köhnə daş gətirtmisən ki...

Muxtar təbəssümlə:

-Qorxma, dədə, sənin qəpiyin də itməyəcək. Axırda sənə hesabat verəcəyəm, indi. Mane olma… - dedi.

O, bir usta, iki fəhlə tutdu. Gecəynən hasarı çəkdi, daşlığın yarısını zəpt elədi. Hörgünü əhəngldi. Gömgöy ağacları köklü-kömәcli çıxartdı, hasarın hər iki tərəfinə əkdi. Bu görk üçün idi. Yayın cırhacırında əkilən ağac onsuz da əmələ gəlmyəcəkdi.

Sübh tezdən yerindən qalxmış Namaz kişi genişlənmiş həyətinə razılıqla baxdı. Amma ağacların başına gətirilən oyunu görəndə bərk hirsləndi. Yuxusuzluqdan gözünü ovuşdura-ovuşdura həyəti dolanan Muxtara çımxırdı:

- Bunları niyə zay etmisən, ay zırrama? İndi ağac tutar?

Muxtar hırıldadı:

- Dədə, danışmışıq, axı,qarışmayacaqsan, - dedi. -Bir də həyətdə ağac əlindən tərpənmək olmurdu. Bir az seyrəltmişəm, dünya dağılmaz.

Yerində deyilmiş söz Namaz kişini tutdu. Hirslə əlini yellətdi:

- Bircə ağac da əkməyən adamdan daha nə gözləyəsən?! - dedi və yarıkönül: - Afərin, açıqlıqdan adamınkönlü açılır . Amma deyirdin, o daşlığın hamısını hasarlayacaqsan. Bəs nə oldu? Eh, hər işin yarımçıqdır da.

Muxtar atasının sözündn incimədənzarafat elədi:

- Ay dədə, mən sənə sərancamsız-filansız on sot yer düzəltmişəm, hələ narazısan… Bir də dünyanın axırı deyil ki! Qoy, gələn dəfəyə də bir şey qalsın da!

Namaz kişi əlini yellətdi, ona tapşırdı::

- Gedərsən elə bu gün sahə müvəkkilinigörərsən! Daha uzatma ha!

Muxtar:

-Yaxşı,- dedi və yorğun olduğundan yatmağa getdi.

Namaz kişi kiçik oğlunun ardınca mehribanlıqla baxdı. Muxtarınözündən müştəbehliyinə söz ola bilməzdi. Amma dilinə görə dilçəyi də vardı.

Axşama yaxın bir qanqaraldan əhvalat oldu. Ailə tut ağacının kölgəsində oturub çay içirdi. Qonşusu Məhəmməd də burada idi. Muxtarı tərifləyirdi:

-Oğulsan ha! Neçə illərdir atanı başa sala bilmirəm ki, vəzifəlilərdən hər şeyi zorla almaq lazımdır, öz xoşüna bir damcı su da verməzlər.

Darvazanın şaxşaxı vuruldu.Hamı susdu. Altmış yaşlı Bikə arvad «evin kiçiyi» olduğundan kişilərin yerindən tərpənmədiyini görübqapıya getdi. Əsə-əsə qayıtdı:

- Kişi, məhəlləmizə polis gəlib, səni istəyir, - dedi. - Deyir, təzə sahə müvəkkiliyəm.

Muxtar Məhəmməddən soruşdu:

-Bunun haqqında nə deyirlər?

Məhəmmd kişi başını buladı:

- Qardaşoğlu, deyirlər, bu o rəhmətlik Əliquludan dapulagirdir.

Namaz kişi işin mayası olan Muxtarın üstünə düşdü:

· Hamısı sənin zibilindir. Dedim sənə, axı, get vaxtında haqqını ver. Elə eləsəydin

qapımızı polis tanımazdı. Bundan sonra onlar əl çəkməyəcəklər.

Muxtar böyük qardaşı ilə gözləşib irişdi:

· Əşi, dədə, adamdır da, Əzrayil deyil ki? İndi yoluna qoyarıq. -dedi -Bircə qarışma,

hər şey nəzarət altındadır.

Ələmdar Muxtarın sözünə pıqqıldadı. Namaz kişi təmiz hövsələdən çıxdı:

- Çəkilin gözümün qabağından. Nə cür bu həngamını açmısınız, elə də gedin axırına çıxın, - dedi. - Ədə, mənə deyən gərəkdir, gözün doymur, o daşlıqnəyinə gərəkdir?

Namaz kişi deyinə-deyinə eyvana qalxdı. Ələmdar təklif etdi:

- Bəlkə, mən də səninlə gəlim?

Muxtar darvazaya tərəf gedə-gedə çevrilmədən cavab verdi:

- Ehtiyyac yoxdur. Nə böyük işdir ki, ikimiz də gedək, özüm həll eləyərəm.

- Qardaşoğlu, mənim köməyim lazım olanda , utanma, çağır, - deyə Məhəmməd də dilləndi. - Mənölməmişəm ki!

Muxtarinamla gülümsədi, amma cavab vermədi., möhkəm addımlarla darvazaya getdi.

O, bayırda təzə əkilmiş ağacın altında kepkası ilə üzünü yellədən sahə müvəkkilini şaddlıqla salamladı:

- Xoş gördük, rəis. Nə təhərsən? Ayağın sayalı olsun.

- Salam, - deyə polis kapitanı toxtaq halda cavab verdi. - Bizə məlumat daxil olub ki, siz qanunsuz tikinti ilə məşğulsunuz, hökumətin yerini zəbteləyib hasara almısınız.

Muxtar şirin-şirin gülümsədi:

- Rəis, sənə məlumatı gec çatdırıblar. Tikinti dünənin işi deyil. Hasar çoxdan çəkilib,hətta ağaclar da böyüyüb.

Nə eləmişik, Əliqulu rəhmətliyin razılığı ilə eləmişik. Özbaşına heç nə eləməmişik.

Sahə müvəkkili bir az karıxmışdı. Doğrudan da, bu hasar təzə hasara oxşamırdı. Hasar boyuqalxmış ağaclar göz oxşayırdı. Dəftərçəsini çıxardıb diqqətlə varaqladı.:

- Bura Namaz kişinin həyəti deyil? - Soruşdu.

- Əlbəttə, - deyə Muxtar onu sözünü təstiqlədi. - Mən də onun ortancıl oğluyam.

Əliqulu ilə də haqq-hesabı özüm çəkmişəm. Pulunu köz kimi ovcuna saymışam.

Sahə müvəkkili duruxdu:

- Qardaş, belə şeyi adam bərkdən deməz, axı. O rəhmətlik sənə etibar eləyib…

Muxtar xırda-xırda doğrayıb tökdü:

- Sən daha başqası deyilsən, rəis. İşin içindəsən. Bir də özgə yerdə demirəm ki! Həm də Əliqulu indi haqq dünyadadır. Nədən qorxacaq ki? - dedi və cibindən iki dənə əlli minlik çıxartdı. - Bilirəm, vəzifəyə təzə keçmisən, özün də birinci dəfədir qapımızı açırsan. Al, bunu, qoy, cibinə. Şirinlik verirəm.

Sahə müvəkkili onun əlini havada tutdu, özündən kənarlaşdırdı:

- Yox, yox, bu azdır!

Muxtar pulu onun cibinə zorla basdı:

- Az deyil, - dedi. - Mən özgəsi deyiləm, bir müddət polisdə işləmişəm.

Sahə müvəkkili onun hökmü qarşısında təslim olmalı oldu:

- Bəs, niyə çıxdın ki?

- Özüm çıxmamışam, mitilimi bayıra atıblar, - deyə Muxtar irişdi.

Sahə müvəkkili maraqlandı:

- Nə səbəbə çıxarıblar?

Muxtar lağla dedi:

- Rəis, artıq tamahlığımın badına getmişəm. Aza qane olsaydım, yəqin ki, hələ işləyirdim.

Sahə müvəkkili onun atmacasına rəng verib, rəng aldı. Birdən xoşluqla gülümsədi:

- Allah bərəkət versin, - dedi və hiylə ilə əlavə etdi. - İçəridə təzə tikinti aparanda görək nə deyirsən.

Muxtar saxta ciddiyyətlə:

- Rəis, narahat olma. Biz istənilən işin haqqını qabaqcadan veririk,- dedi.

Sahə müvəkkilidaha yubanmadı. Gedər ayaq əlavə elədi:

- Yaxşı, soruşan olsa, deyərsən ki, təzə sahə müvəkkilinin xəbəri var.

Muxtarla geri qayıtdı. Eyvanda narahatlıqla var-gəl eləyən Namaz kişi uzaqdan soruşdu:

- Nə oldu, ədə?

- Yola saldım.

-Nə təhər, ədə? - dedi. - Pulsuz-pənəhsiz nə təhər yola saldın?

-Cibimdə on «şirvan» var idi, verdim ona.

- Nə danışırsan? Ola bilməz? – Namaz kişi təəccübləndi. - «On şirvan»la razılaşdı?

Muxtar Ələmdara baxıb gülümsədi:

- On «şirvan», bəyəm, pul deyil, ay dədə?

Namaz kişi oğlunun atmacasını qulaq ardına vurdu, təəssüflə dedi:

- Gərək yerin qalanınıda hasara salaydın. Hayıf!

Muxtarla Ələmdar bu yerdə özlərini saxlaya bilməyib uğundular. Məhəmməd kişi Namaz kişi də yaranan tamahkarlığa heyrət elədi. Gör belə təmənnasız kişini zəmanə necə dəyişdirmişdi.

## Bədbəxt kələkbaz

Onlar ailəvi dost idilər. Əhmədin gen-bol həyəti tez-tez iki ailənin yığıncaqlarının şahidi olurdu. Əvəzin doqquzmərtəbəli binadakı mənzili dar idi, belə işlərə yarımırdı. Avqustun axırı idi. Təqvimlə yayın cırhacır vədəsi çıxsa da günəşin şaxı yatmamışdı, bürküdən nəfəs almaq olmurdu. Əvəzin gəlişi Əhmədi sevindirdi. Dostu sərinlənəndən sonra süfrə arxasına keçdi. Əhməd gördü ki, Əvəz yediyini-içdiyini bilmir. Ev sahibi onu sözlü görüb söhbətə nərdivan qoydu, soruşdu:

- Dostum, uşaqları niyə gətirməmisən? Yəqin ki , şəhərdə istidən bişirlər.

Əvəz əlini yellətdi:

-Bişməzlər, - dedi və başını süfrədən qaldırmadı.

Əhməd ona diqqətlə baxdı:

- Dostum, səni narahat görürəm. Özün də sözlü adama oxşayırsan.

Əvəz əl dəsmalı ilə dodaqlarını sildi, bir siqaret odladı, dedi:

- Daha Allahdan gizli deyil, səndən nə gizlədim, qardaş, mənim maymaq oğlum məni işə salıb.

Əhməd təəccüblə:

- Maymaq niyə olur? Uşaq zəhmət çəkib, inistituta girib, sənsə onu maymaq sayırsan.

- Girib ey, girməyinə, - Əvəz dilini sürüdü. - Amma pulluya düşüb.

Əhməd razılıqla:

- Sağ əli bizim uşaqların başına, - dedi və ona ürək-dirək verdi. - Əsas odur girib, pulunu xırda-xırda verərsən də! Olacağa çarə yoxdur.

Əvəz köksünü ötürdü:

- İş ondadır ki, pulu dərhal ödəməlisən. Yoxsa, heç sənədləri qəbul eləmirlər.

Əlimdə yüz «şirvan» var, iki yüz də lazımdır. Güman yerim sənsən. Gərək mənə borc verəsən.

Əhmədlə Əvəz uzun müddət zavodda bir yerdə işləmişdilər. Həmişə bir-birinə əl yetirirdilər. Əhməd əllərini yana açdı, dedi:

- Düzələn şeydir. Bir-iki gün dözə bilərsən?

Əvəz gülümsədi:

- Nədi, banka qoymusan?

Əhməd təəssüflə:

- Nəyim var borc vermişəm. Üstümdə bir qara qəpik də yoxdur.

Əvəz heyrətlə:

- Sən hara, borc verdi hara? Xasiyyətinə bələdəm, axı!Sən hər adama etibar eləyən deyilsən!

Əhmədin xırda gözləri üzündə itdi:

- Şeytan məni yoldan çıxartdı, - dedi və acı-acı güldü.

- Kimə borc vermisən?

- Səftərə.

- Hansı Səftərə?

Əhməd lağla:

- Salaməleyk! İndi məni də tanımayacaqsan? Cəmi on ildir zavod xaraba qalıb.

Adamları nə tez yaddan çıxartdın?

Qəsəbə iri bir zavodun ətrafında salınmışdı. Tikilmiş evlər, bağçalar, məktəblər zavodun hesabına yaşayırdı. Şura hökuməti dağılandan sonra, beşilliyin nəhəngi də sısqa bir emalatxanaya dönmüşdü. Yeddi-səkkiz min işçi, onların ailə üzvləri çörəksiz qalmışdı. İndi hamı ora-bura qaçır, birtəhər başını dolandırırdı. Əvəz yadına saldı:

- Hə, o tullantılar sexinin rəisini deyirsən?

Əhməd razı halda:

- Onu deyirəm, - dedi və ona göz vurdu. - Yadındadır , bir papaq yerə soxan arvadı vardı. Adıda, gərək ki, Sürrəyya idi. Direktorun katibəsi idi , Səftər də onun hesabına sex rəisi oldu.

Əvəz lap təəccübləndi:

- Sən ona etibar eləyib, borc vermisən? Bəs, qorxmursan sənə atar? Onun arvadını çox hiyləgər qadın deyirdilər.

Əhməd burnunu çəkdi:

- Heç elə şey yoxdur, - dedi. -Hələki pulumun faizini verir. Bir həftəyə də borcumun vədəsi tamam olur. Üç aylıq vermişdim.

Əvəz maraqla:

- Nə qədər vermisən?

Əhməd qədərini demədi. Əlini yellətdi:

- Fərqi nədir, indi gözləyə bilsən, sənə kömək edərəm. Bu gün-sabah pul məndə olacaq.

Əvəzin birdən yadına düşdü:

- Hələ bir dayan. Axı, eşitdiyimə görə, Səftər çox adamdan borc alıb. Bizim keçmiş direktor müavini var idi ha, o da Səftərə xeylipul borc verib. Deyirlər, qaytarmır. Kişi gedib-gəlməkdən əldən düşüb.

Əhmədin üzü tutuldu, amma özünü o yerə qoymadı:

- Yox, əşi, Səftərin kefi kökdür. Arvadı burdan vurur, Dubaydan çıxır. Mal gətirir, Səftər də yerbəyer edir. Əşi, onlar pula, pul demirlər. Elə şey ola bilməz, yalan deyirlər. Hamısı paxıllıqdandır.

Əvəz dayanıb-dayanıb birdən əlini dizinə çırpdı:

- Pah, atonnan! Qardaş, adamın gərək bəxti olsun. Mən Dubaya nədir, heç Biləcəriyə getməyə pul tapmıram. Neçə il zavodda işlədim, plan verdim, partbilet gəzdirdim, vəzifə sahibi oldum. Bu da axırı! Oturmuşam

«tolkuçka»da «pol» dalında. Alver yox, xərc çox, çörəkdə ki daşdan çıxır.

Əhməd ona şərik oldu:

- Day demə! Elə mən də sənin günündəyəm. Bazarda göyərti satmaqnan ailə dolandırmaq çox çətindir. Heyif deyildi şura hökuməti! Adamı oxudurdu, iş verirdi, maaş verirdi. Əsas odur ki, sabaha gümanımız var idi, - dedi və yenə ona ürək dirək verdi. - Bu gün döz, hər şey yaxşı olacaq. Sabah həll eləyərik.

Əvəz ümüdlə Əhməddən ayrıldı.Səhər işə getdi. Amma fikri-zikri Əhmədin yanında idi. Fikirləşirdi, görəsən, borcunu aldı, ya yox? Axşamüstü işdən birbaşa Əhmədgilə döndü, amma dostunun arvadı onu ağlar qarşıladı. Əvəz qorxdu:

- Nə olub, bacı? Uşaqların başında işmi var?

Əhmədin arvadı dedi:

-Uşaqlar salamatdır. Əhmədi apardılar.

- Kim apardı, hara apardı?

- Polislər apardı.

- Haçan?

- Üç-dörd saat olar.

- Nə üstə?

- Bilmirəm. Maşina basıb apardılar. Üç nəfər gəlmişdi. İndi neçə saatdır ondan bir xəbər yoxdur.

- Neyləyib ki?

- Demədilər. Qolunu burub maşina oturtdular.

Əvəz başılovlu qapıya getdi:

- İndi polisə gedəcəyəm, - dedi. - Sən darıxma, Əhməd heç qarışqanı da incitməz. Yəqin səhv eləyiblər.

Elə darvazadan bir az aralanmışdı ki, Əhməd avtobusdan düşdü. Amma elə bir gündə idi ki, tanımaq olmurdu. Ağzı-burnu şişmişdi. Əvəzin ona ürəyi yandı:

- Bu nə işdir sənin başına gəlib? - dedi. - Sən hara, polis hara?

Əhməd sıxıla-sıxıla:

- Bu da mənə azdır, - dedi və hasarın yanındakı daşın üstünə çökdü. - Mənə deyən gərək, a köpəkoğlu, pulun var, otur onu xərclə də, itə-qurda niyə verirsən? Kül başına Əhməd, nə var, nə var, beş manat qabaq olacaqsan. Ay oldun ha! İndi it də getdi, ip də.

Əvəz də onun yanında oturdu:

- Nə olub ki?

- Səftər özünü asıb.

- Nə danışırsan? Səhər-səhər onu «tolkuçka»da gördüm ki. Arvadı da yanında.

Əhməd bezgin halda:

- Sən səhər görmüsənsə, mən onunla günorta iki saat söhbət eləmişəm.

- Nə söhbət?

Əhməd yana-yana dilləndi:

- Axır vaxtlar özüm də şübhələnmişdim. Dünənki söhbətdən sonra ürəyim düşdü. Borcun vədəsi çoxdan keçmişdi. Neçə dəfə Səftərin üstünə getmişdim. Hər dəfə bir bəhanə gətirird. Bu gün günorta evlərinə getdim. Dedim, Səftər, pulumu qaytar, faizi də lazım deyil. Dedi ki, yoxumdur, pul malın üstündədir. Gözlə verərəm, qaçmıram ki! Onunla bir az mübahisə elədik. Axırda dedim ki, sabah gələcəyəm, pulu verməsən, sənin başına oyun açacağam. Qayıtdım bazara. Axşam evə dönəndə, darvazadan təzə girmişdim ki, polislər tökülüşdülər, elə bir yerin altından çıxdılar. Qolumu burmaq istəyəndə müqavimət göstərdim, onlar da acığa düşdülər, bölmədə o ki var məni döydülər. Hal-qəziyyə belədir.

Əvəz təəccüblə:

- Səndən nə istəyirlər, axı? Özü özünü asıb da, sənin nə günahın var?

- Onun çərhəya arvadı polisdə deyib ki, Əhməd ərimi hədələyirdi. Səftər də, guya, qorxudan özünü asıb.

- Ə, gicdəmə! Polisin bəyəm, başı işləmir? Bir arvadın sözü ilə adamı tutarlar?

- Elə mən də sənin kimi fikirləşirdim. Demə, kim-kimədir. Polisə bir bəhanə lazımdır, - deyə Əhməd gülümsədi. - Hələ bu nədir, məndən başqa beş nəfəri də gətirmişdilər. Hamı Səftərə borc verənlərdir. Orda ürəyim bir az üstümə gəldi. Heç demə ən az borc verən mən

imişəm. Üç min dollar verən kim, beş min dollar verən kim. Hamısı batdı, getdi. Sürəyya heç kimə pul qaytarmaz.

Əvəz dərindən köksünü ötürdü:

- Uşağın məktəbi qaldı. İndi hardan mən pul tapım?!

Əhməd ağrıyan çənəsini sığalladı, amma dinmədi.

# Məzənnə

Onlar az qala, bir qərinə idi ki, canbir qəlbdə yaşayırdılar. Belə mehriban ər-arvad çətin tapılaydı. Əlbətdə, həftədə-ayda araya düşən qanqaralıq hesabdan deyil. Əlalxüsus, Qılman bəy dükan-bazardan qayıdanda şirin ovqatları pozulurdu. Araya mübahisə düşürdü. Kimin haqlı, kimin haqsız olduğunu ayırd eləmək çətindi. Yalnız onu demək olardı ki, bütün mübahisələrdən həmişə evin kişisi qalib çıxırdı. Başqa cür ola da bilməzdi.

Bu gün də Qılman bəyin ömür-gün yoldaşı Hürü xanım uzun qollarını ölçə-ölçə səsini başına atmışdı:

- Ə kişi, sən necə adamsan?! ! Allahın bazarlığını sən havaxt əməlli eləyəcəksən?! Ay Allahsız, mal alanda tərəziyə bax da! Gözün hardadır? Daha cahıl uşaq deyilsən, axı, deyim, düzələcək, hələ yaşı azdır. Göz görəsi sənin aldadırlar! Ağsaqqal kişisən, axı!

Qılman bəyin əlli yaşı vardı. Amma bığ-saqqalında bir dənə də ağ tük tapmazdın. Nəsilliknən belə idilər. Səksən yaşında Allah rəhmətinə getmiş atasının da başında dövlət tükündən savayı birağ tük yox idi.

Hürü xanım indi «ağsaqqal» kəlməsini sözgəlişi deyirdi. Hirsi başına vurmuşdu, nə danışdığını bilmirdi.

Məgər, o, razı olardı ki, Qılman bəyin bığ-saqqalına dən düşsün, yəni qocalsın?! Dünyasında razı olmazdı. Çünki, arada otuz illik məhəbbət vardı. Bu da xırda məsələ deyildi. Bəlkə də lap qədim məhəbbət macəraları ilə bir sırada dayanmağa layiqdi. Bir az dərinə getsək, görərik ki, hələ onlara dov da gələrdi. İşdir, tərəzinin bir gözünə Hürü-Qılman məhəbbətini, o biri gözünə, cəmi Əsli-Kərəm, Leyli-Məcnun, Şahsənəm-Qərib məhbbətlərini qoysadın hansının ağır gələcəyini indidən deymək çətindi. Otuz il onların canbir qəlbdə yaşamaları çox şey deyirdi. Əgər Əsli və Kərəm, ya da Leyli vəMəcnun bir belə birgə yaşasaydı, dörd uşaq dünyaya gətirsəydi, onları ərsəyə çatdırsaydı, vallah , şairlərin dönə-dönə vəsf elədikləri məhəbbətdastanlarından əsər-əlamət qalmazdı.

Qərəz, indi söhbət başqa şeydən gedəcək. Onların məhəbbət tarixçəsinin bu işdə bizə köməyi dəyə bilməz. Şənbə günü oldüğündan,Qılman bəy həmişəki kimi , yolüstü bazarlıq eləmişdi. Hürü xanımın səhər-səhər tapşırdıqlarını bir-bir almışdı ki, daha istirahət günüonu dəng eləməsin. Hər bazar başına yığılan övladları və nəvələri ilə yeyib-içsin, deyib-gülsün , söhbətlərindən feyziyab olsun.

İndi bazarlığı arvadına təhvil veribmasanın arxasına keçmişdi.

Gavanlığında mağazada bir müddət satıcı işləmiş Hürü xanımın al-verdə səriştəsi vardı. O, hər dəfə Qılman bəyin elədiyi bazarlığı təftiş eləməsəydi, polietilen zənbillərdəki malları bir-bir çəkməsəydi, əyər-əskiyinə baxmasaydı, gözünə yuxu getməzdi. İndii də tərəzinin qarmağından asdığı zənbili boyu bərabərinə qaldırmış Hürü xanım mətbəxin ortasında dayanmışdı ,qanlı-qanlı ərinə baxırdı. Amma dinmirdi. Gözləyirdi ki, Qılman bəyçevrilsin. Evin kişisi isə üstünü almış tufanı boynunun ardı ilə hiss eləyirdi. Çayını tələsmədən axıra çıxdı. Fincanı nəlbəkiyə qoyub başını qaldırdı , tənbəl-tənbəl :

- Yorulmadın?O vaxtlar bilsəydim al-verə belə həvəsin var , səni işdən ayırıb

ev xanımı eləməzdim. Yəqin tacirlik qanınızdadır . Babanın baqqal dükanını Şura hökuməti əlindən almasaydı, indi nəsliniz milyonçu idi. Atan rəhmətlik ömrünün axırına kimi bazardan ayağını çəkmədi…. Yaxşı, yaxşı, hirslənmə. Qan olmadı ki! Zarafat eləyirəm də, - dedi və çənəsi ilə təraziyə işarə elədi. - Hə, cehizlik tərəzin nə deyir, axı?

Bu yerdə Hürü xanım elə odlandı ki, gözləri az qala hədəqqəsindən çıxsın. Atası doğrudan da, ona bir köhnə dəbli , qulplu tərəzi cehiz vermişdi. Qılman tərəfin adamlarıuzun müddət bunu yaddan çıxarmadılar. Yeri düşdü-düşmədixatırlayır şirin-şirin gülürdülər. Hikkəli

Hürü xanım da içində qırıla-qırıla qalırdı. Qılman bəyinköhnə palan içi tökübçoxdan unudulan əhvalatı yada salmasıxanımın xoşuna gəlmədi. Əvvələn, tərəzi təzə idi, hətta əqrəbi də var idi, görünüşündən məlum olurdu ki, lap müasir cihazdır. İkincisi, araya tərəzi gələndə lağlağıya hacət qalmırdı. Odur ki, Hürü xanım batqın səslə çımxırdı:

- Gözlərin tutulub? Yoxsa məni danışdırırsan?

Qılman bəy mətbəxin geniş aynasından bayırda puçur-puçur tumurcuqlayan ağacları gözdolusu seyr eləyirdi. Hürü xanımın çımxırtısına döndü , kərpic bığlarını ağır-ağır sığalladı, cavanlıqdan qalma bir mehribanlıqla onun ağzından vurdu:

-Ağzını dağıtma, axmağın qızı! Durub sümüklərini əziklərəm, ha! - dedi, sonra həlim-həlim soruşdu. - Hə, tərəzi nə deyir, axı?

Hürü xanım əndazəni aşdığını söz ağzından çıxanda anlamışdı, amma dilinin dilçəyini basmağa macal eləməmişdi. Qılman bəyin söyüşündən rəncidə olmadan gülümsədi:

- Sən canın, incimə! Bir az hirsləndim. Hə, buyur, düyüiki yüz qram əskikdir. Buna necə sakit baxasan?! - dedi və döşlüyünün ətəyini qaldırdı, mətbəxin istisindən nəmçimiş üz-gözünü sildi.

Qılman bəy oturuşunu dəyişmədən yerində dikəldi:

- Yox, əşi, belə çox? -deyə sruşdu.

- Bayaqdan nəyin söhbətini eləyirəm, - Hürü xanım məzəmmətlə deyindi. - Allah bilir fikrin haralardadır. Hansı dükandan almısan?

- Mən Ələsgərin dükanından savayı hansı yerə getmişəm ki? Bu təzə marketlərlə mənim aram yoxdur, - deyəQılman bəy Hürü xanıma çəp-çəp baxdı, nəsə demək istəyən arvadına lağ elədi. - Rəhmətliyin qızı, əlindəkini yerə qoy da, qaçıb eləyər, bəyəm? - deyə onun tərəzini yerə qoyub kətildə qərar tutmasını gözlədi. - Deyirəm, bəlkə sənin tərəzin çərən-pərən vurur?

Hürü başını buladı:

- Elə şey yoxdur. Dünən kartof alanda yoxlamışam . Birdə ki, çəki daşları evdədir. Bu saat gətirim yoxlayaq .

- Hə, hə, gətir görək. Ələsgərdən çıxmayan iş! Bir-birimizin müştərisiyik. Mən onun məzənnəsini bilirəm, o da mənim.

Qılman bəy razılığını bildirəm kimi, Hürü xanım qalxdı, çəki daşlarını mətbəx dolabından götürüb masanın üstünə düzdü.

- Keçən bazarlıq nə cür idi?- deyəQılman bəy soruşdu.

Hürü xanım dilini sürüdü:

- Belə də, aldığının hamısı əlliqram-əlliqram əskik gəlirdi.

Qılman razılıqla:

- Hə, bu insafdandır.

Hürü xanım əlini saxladı:

- Allah onun insaf evini xaraba qoysun! - deyə üzünü turşutdu. - Bu canı yanmış Ələsgər camaatın qazancına şərikdir də! Olaydı Şura hökuməti, hər qrama görə ona bir il iş kəsərdi, ağlı başına gələrdi.

Qılman bəy əlini qaldırdı:

- Daha baş alıb getmə. İşində ol, - dedi.

Hürü xanım çəki daşlarından dörd kilo düzəldib atdı zənbilə, qulpunu keçirtdi tərəzinin qarmağına. Əqrəbin dayanaqlı vəziyyətini gözlədi, razılıqla dedi:

- Görürsən?Tərəzi düzdür!

Qılman bəy fikir içində mızıldandı:

- Bir kərəmlik iki yüz qram?! Heç belə şey olmamışdı.

Hürü xanım onun yadına saldı:

-İki ay bundan irəlidə belə bir iş olmuşdu. Hardasa dəftərin qırağına yazmışam. Yadına düşdümü?

Qılman bəy tələsik dilləndi:

- Yox, yox o hesabdan deyil, - deyə istehza ilə qımışdı. - Ələsgər onda oğlu üçün toy eləyirdi, əli aşağı idi. İndiki toyların xərci daha bir aləmdi də. Üç uşaq evləndirmişəm, bilirəm. Dayan, dayan bəs oğlun hardadır? Yenə harda veyillənir?

Qılman bəy iki qızını köçürtmüşdü. Böyük oğlunu evləndirib ayırmışdı. Evin kiçiyi isə ali məktəbdə oxuyurdu, axırıncı kursda idi. Hürü xanım qələmlə çəkilmiş qaşlarını sığalladı:

- Nə bilim, ey! Onun işindən baş açmaq olmur. Deyir, diplom işi yazıram, - dedi, sonra əvvəlki söhbətin üstünə qayıtdı.- Ondan qabaqki ay da belə olmuşdu. Nə tez yadından çıxartdın?

- Qarışdırma, ay xanım, - deyə Qılman bəy yerindən qalxdı. - Onda Ələskər yazığın başına iş gəlmişdi. Maşını qəzaya düşmüşdü. Əyər-əskiyini düzəltməliydi, ya yox? Baxma bizim «Jiquli»yə, xarici maşının xərci böyükdür.

Hürü xanım heç cür sakit ola bilmirdi:

- Bəs, ondan qabaqkı ay?

- Bah, sənin heç nədən xəbərin yoxdur ki? Onda vergi müfəttişi Ələsgərin pişiyini ağaca dırmaşdırmışdı, - deyə Qılman bəy bir siqaret odladı. - Vallah, Ələsgər pis oğlan deyil, iki gündən bir dəlləkxanadadır. Oğlanları da müştərimdir. Atası hambal Cəbiş dəlləkxana-filan tanımazdı , bu isə köhnə bəylər kimi yaşayır . İstəməyənin gözü çıxsın!Bir şeyə mat qalıram. Bu adam məzənnəniniyə qaldırıb? Toy elədi, ev tikdi, maşın aldı, bağ saldı, indi nəyi çatmır?

Hürü xanım yana-yana əlini yellətdi:

- Elə danışırsan adamın cızdığı çıxır. Durub səninlə əlbəyaxa olmaq istəyirəm.

Rəhmətliyin oğlu, günün günorta çağı malına şərik çıxırlar, heç vecinə də deyil.

Qılman bəy qəhqəhə çəkdi:

- Vallah, dəlisən, arvad! Kefimi niyə pozmalıyam! Nə var, nə var, Ələsgər məzənnəni dəyişib? Qoy olsun. Sabah mən də çomağın başını çevirərəm, məzənnəni dəyişərəm. Bir üz- bir baş üçün alırdım bir «şirvan», indi alaram bir «şirvan» yarım. Olarıq onunla başabaş.

Adlı-sanlı dəllək olan Qılman bəyin şənliyi Hürü xanımın da kefini açdı.

- Birdən vermədilər?

- Oynaya-oynaya verəcəklər, - Qılman bəy barmağını ox kimi yuxarı tuşladı. - Bir dəfə verməz, ikinci dəfə üzünü küt balta ilə qırxaram, anasından əmdiyi süd burnundan gələcək.Onda ağlı başına gələcək. Mən öz işimi yaxşı bilirəm, arvad, indiyə qədər zərər eləməmişəm.

Hürü xanım dərindən ah çəkdi:

- Bir bunlardan soruşan yoxdur, bu nə çəkidir, bu nə qiymətlərdir? Hərki-hərkilikdir?

Şura hökuməti olsaydı bir soruşardı…

Qılman başını buladı:

- Ay rəhmətliyin qızı, indi sorğu-sual edən daha çoxdur. Ticarətçiləri qınamaq olmur.

Vergi gedir, milçək həkimi gəlir, yanğınsöndürə yandıra-yandıra gəlir, polis gəlir, icradan gəlir, bələdiyyədən gəlir… Ələsgər bir belə adamdan pul saldırıb başını dolandırırsa böyük adamdır. Məni bircə şey maraqlandırır, məzənnəsi niyə qalxıb?

Hürü xanım mütəfəkkir görkəm almış Qılman bəyin köməyinə gəldi:

- O günləri dərzidə idim, Ələsgərin arvadı da orda idi. Deyirdi ki, qaynatası üçün ehsan verəcək, qəbrinin üstünü də qara mərmərdən götürəcəklər. Dərzi Sənubər də az aşın duzu deyil, axı. Qayıtdı ki, ay qız, yazıq kişini on il qabaq döyə-döyə öldürdün, indi nə şirin düşüb, bu boyda xərc çəkirsiz? Ələskərin arvadı çox pərt oldu.

Qılman bəy barmağını dişlədi:

- Həə, deməli, məzənnə qara mərmərə görə artıbmış.

Qılman yenə nəsə demək istəyirdi ki, Hürü xanım gülə-gülə:

- Sabah Ələsgər atasının mərmərdən heykəlini qayırtdırmaq fikrinə düşsə, məzənnəni bir də qaldırsa, onda nə edəcəksən?

Qılman bəy çırtıq çaldı:

- Onda mən də məzənnəmi artıracığam. Elərəm bir baş-bir üzü iki «şirvan».

Hürü xanımın daha sözü qalmadı ki, desin. Axır söz həmişəki kimi Qılman bəyin idi.

## Namərd zəmanə

Maşın ustası Əbi kişinin əyalıHeyran bacı ağrı çəkirdi.Qadınmənzili fır-fıra kimi fırlanırdı ,canına yer tapmırdı.Camış kimi arvad ağrıdan, göz görəsi, şam kimi əriyirdi. Təcili yardım maşını isə gəlib çıxmaq bilmirdi.

Axırıncı on ildə işi heç düz gətirməyən Əbi kişi yana-yana necənci dəfə idi ki, təkrar eləyirdi:

- Əsəd kişinin qızı, döz, bizim işimiz haçan düz olub ki, indi də düz olsun. On dəfə zəng eləmişəm, hər dəfə də deyirlər, maşın çıxıb, gözləyin.

Qəflətən ağrıları azalmış Heyran bacı ərinin boş-boş danışmağına hirsləndi. Qeyzlə:

- Sən də zəhləmi tökmə daha, - dedi. - Bir saatdır döz-döz, deyirsən. Mağıl, vaxtında qoymadın öz ayağımla gedim xəstəxanaya.

Vurnuxan Əbi kişi bir də təkrar elədi:

–Sənə dedim döz, Əsəd kişinin qızı, namərd zəmanədir. Çörəyimiz onsuz da daşda çıxır, sən də bir yandan qanımı qaraltma.

Tini düz olanda haqq-nahaq zəmanənin qarasınca deyinən Əbi kişi hər şeydən gileyli idi. Amma hiyləgərlik eləyirdi. Yağ-bal içində üzməsə də, şikayətlənməyi dəyersiz idi. Sənəti, gün-güzaranı pis deyildi. Maşın ustası

idi. İş olanda əlinə puldan-paradan gəlirdi. Di gəl ki, içkiyə aludə olduğundan əlindəkini saxlaya bilmirdi, heçə-puça xərcləyirdi. Sərxoş olanda heç kimin sözünü eşitmirdi. İşdi, içkini tərgitsəydi lap bəy kimi dolanardı.

Heyran bacının çatma qaşları çatıldı, qeyzlə deyindi:

– Hamısı sənin günahlarının ucbatındandır. Heç tövbəli adam da içkiyə əl vurar? İndi

sənin cəzanın , budur, mən çəkirəm.

Əbi kişi həmişə ipək kimi yumuşaq arvadının dilavərliyindən çaşdı. Şübhə ilə soruşdu:

–Əsəd kişinin qızı, ağrıdan ağlın çaşmayıb ki? Tövbənin bura nə dəxli var?

Heyran zarıya-zarıya deyindi:

- Nə qazanırsan aparıb verirsən arağa. Gözündən gəlsin, özünü də biabır eləyirsən, məni də. Sorağın daha haralardan gəlmir?! Adam kimi içə də bilmirsən, dilinə dəyən kimi şirə-nərə dönürsən. Camaata sataşırsan, qalmaqal salırsan. Ya döyürsən, ya döyülürsən. İki gündən bir sorağın polisdən gəlir. Dədəm yazıq neçə dəfə gələr sənin dalınca! İndi bəyəm Şura vaxtıdır? Əvvəl yazığın sözü keçirdi, indi kimdi ona qulaq asan. Bir də ağsaqqal kişinin qapılarda boynu bükülü dayanan vaxtıdır?

Əbi kişi yetimçiliklə böyümüşdü. Atasının dostu Əsəd kişi olmasaydı lap itib-batardı. O, həddi-buluğa çatandan sonra da Əsəd kişiqayğısını ondan əsirgəmədi. Onu şəhərə

apardı, yaxşı işə düzəltdi. İki-üç ildən sonra yetim oğlanı tanımaq olmurdu. Üst-başını sahmana salmışdı. Axır vaxtlar tez-tez kəndə baş çəkirdi. Bir gün xəbər çıxdı ki, Əbi Əsəd kişininqızı Heyranı qaçırıb. Yetimin bu nəmərdliyinəhamı heyran qaldı. Əsəd kişi bilirdi ki, qızı Heyran Əbinin dəli-divanəsidir. Yəni adam kimi elçi göndərsəydi, qızı istəsəydi, əlbəttə, Əsəd kişi müzayiqə eləməzdi, bəlkə lap şadlıqla razılaşardı. Əbinin əməli ağsaqqal kişini yandırıb-yaxsa da tezliklə olacaqla barışdı.

Kəndin sayılan kişilərindən birinin qızını alandan sonra Əbinin vəziyyəti tamam düzəldi. Qaynatasının köməyi ilə şəhərdə ev-eşik düzəltdi. Amma Şura hökumətinin dağılmağı Əbini yıxdı. Bütün ümüdləri heç-puç oldu. İşlədiyi zavod bağlandı. Avtomobildən başı çıxdığından çilingər sexi açdı. İndii on il idi ki, çabalayırdı. Yaşı qırxı ötsə də, işlərinin düzələcəyinə ümid qalmamışdı. Sinədən gələn xırıltılı səsi var idi. Adi həqiqətləri o qədər ürəkdən danışardı ki, qulaq asan ona valeh olardı. Axır vaxtlar badə yoldaşlarının sayı artımışdı. Bir dəfə o qədər içmişdi ki, evə nə cür gəldiyi yadına düşmürdü. Yaşadığı doqquzmərtəbəli evin qabağındakı zibil yeşiklərinin arasında səhərə qədər yatmışdı. Sübh ayazı onu oyatmışdı. Özü də halına nifrət eləmişdi. İməkliyə-iməkliyə evə qalxmışdı, gözüyaşlı Heyrana demişdi: « - Əsəd kişinin qızı, içki ilə qurtardım. Tövbə eləyəcəyəm.»

Nə cür demişdi, elə də eləmişdi. Səhərisi hamamlanıb məscidə getmişdi. Məscidin cavan axundu onun gəlişinin səbəbini öyrənib razılıqla demişdi:

- Qardaşım, Allahın dərgahı günahkar bəndələrinin üzünə həmişə açıqdır. Sən düz yoldasan. Bil və agah ol! Tövbə qapıları həmişə üzünəaçıqdır…

Axundun qabağında diz üstə oturmuş Əbi onun möizəsinə səbirsizliklə qulaq asırdı. Təsəvvür eləyəndə ki, bir də əlinə badə ala bilməyəcək özünü çox narahat hiss elədi. Axundun sözünü kəsdi:

- Axund, tövbə eləsəm daha içə bilmərəm ki?

- Əlbəttə, qardaşım,- deyə axund başını tərpətdi. - Bu böyük günah olar.

Əbi tərəddüdlə qurcuxdu:

- Bəlkə, axund, mən altı aylıq tövbə eləyim? Baxım görüm, səbrim çatırmı?

Axund özündən çıxdı:

- Küfr danışma! Allahla al-ver olar?

Əbi çəkinə-çəkinə:

- Bağışla, axund, söz gəlişi dedim. Keç günahımdan.Başla,axund.

Əbinin tövbəsi qəsəbədə zərb-məsələ çevrilmişdi. Amma, uzun çəkmədi. O, təzədən içkiyə qurşandı. Heyran bacı da bunu deyirdi.

Təcili yardım maşını bir az da gec gəlsə idi zahını qibləyə çevirmək olardı. Əbi onu xəstəxanaya yola salıb qazı- işığı söndürdü. Qapıda dayanmış qonşuya dedi:

- Güllü bacı, başına dönüm, bizim gədə indi məktəbdən gələcək. Al açarı,onu yerbəyer elə. Mən də gedim görüm, arvad ölmüş necədir.

Qonşu arvad barmağını ağzına apardı:

–Qardaş, elə niyə deyirsən? Arvad yazıq, neyləsin? Allahın işidir də - dedi.

Əbi deyintili səslə:

–Sən bilmirsən, bacı, - dedi. - Əsəd kişinin qızına çox dedim, ikinci uşaqbizə lazım deyil. Biri bəsimizdir. Qaxıl, yerində otur. Elə dedi:-«-Uşaq.» Dedim, ay tünbətünün qızı, ölərsən. Yenə dedi: - «Uşaq.» Dedim, uşaq mən. Mənə yaxşı bax, bəsimdir.

Güllü bacı təəccübləndi:

–Aaa, Əbi qardaş, sənə, bəyəm, pis baxırdı? Yazıq gəlin sənin nazınla oynayırdı ki, - dedi.

Əbi etiraz etmədi:

-Elə olmağına, bacı, elədir ey. Amma zəmanə namərd zəmanədir. Gərək, yorğanına görə ayağını uzadasan. O isə sözə qulaq asmadı, atası Əsəd kişi kimi tərsdir.

Güllü bacı yenə nəsə demək istəyirdi ki, Əbi macal vermədi. Qapını bağladı, açarı onun ovcuna basdı, pilləkənləri tələsik düşdü. Xəstəxana yaxında idi. Amma

Əbi özünü tez ora çatdırmaq üçün yolda dayanan taksiyə mindi.

Başılovlu xəstəxananın doğum şöbəsinə qalxdı. Arvadı dəhlizdəki xərəkdə görüb ayağı bir-birinə dolaşa-dolaşa irəli tələsdi. Ətrafda bir ins-cins yox idi.Boş dəhlizdə onun səsi şimşək kimi çaxdı:

- Əsəd kişinin qızı, necəsən? -deyə soruşdu, -Ağrıların azılıb? Həkim nə deyir?

Ərini görəndə uşaq kimi sevinən Heyran bacı şikayətləndi:

–Özün görürsən də, - dedi. - Ay Əbi, hələ bir adam soruşmayıb ki, dərdin nədir.

Necə gətirib atıblar, hələ də burdayam. Maşında vurulan iynədən başqa bir əlac eləməyiblər. Allahın bir qurtum suyunu da verməyiblər. Yaxşı ki, ağrılarım kəsilib.

Əbi cin atına mindi, bağırdı:

–Bə nə bilmişdin? Bura sənə Şura xəstəxanasıdır bəyəm? Dərdinə qalsınlar,halına yansınlar, - dedi. - İndi hər şey pulnandır. Ay namərd zəmanə!

Pulun adı çəkilən kimi bir ağ xalatlı həkim peyda oldu. Elə bil yerin altından çıxdı. Əbi onun üstünə cumdu:

- Ay həkim, yazıq arvad ölür, axı, - dedi. - Niyə ona bir baxan yoxdur?

Həkim mülayim halda:

– Allah eləməsin ölsün, vətəndaş! Ağzını xeyirliyə aç, - dedi. - İndi yerbəyer edərik,

darıxma. Bura doğum evidir, işimizin adı nədir? Xəstə haqqında məlumatımız var. Bizdə qeydiyyatdadır. Cərrahiyyə əməliyyatı keçirilməlidir, yoxsa uşaq tələf olacar.

Əbi tələsik:

- Bə nəyi gözləyirsiniz? - dedi. - Əlinizi tutan var?

Həkim barmaqlarını bir-birinə sürtdü, adda-budda ağarmış bığlarının altından mızıldandı:

–Hər şey xəstənin sahibindən asılıdır.

Əbi kişi sözün hara gətirələcəyini bildiyindən əsəbi halda:

–Xəstənin sahibinin başına bir yekə daş düşsün. Ondan asılı nə var ki? -dedi.

Həkim Əbinin qanmazlığından narahat halda açıq danışdı:

–Qardaş, yüz əlli «şirvan» xərcin çıxacaq. Razısansaəməliyyata başlayaq.

Məbləği eşidən Əbinin tükləri qabardı:

- Nə? İnsafın olsun, ay həkim. Bu qədər pul məndə hardandır?

Həkim əllərini yana açdı:

–İnsafın bura nə dəxli var? - dedi. - Dəva-dərman, tənzif-pambıq bəyəm salavatla

alınır? Biz də hamısının maliyyətinə pul veririk də!

Əbi qeyzlə:

–Bura hökumət xəstəxanasdır, ya yox!?

–Qardaş, xəstəxana, əlbəttə, hökumət xəstəxanasıdır. Amma xəstəxananını indi nəyi

var ki? Dörd divardır, bir də quru çarpayılar. O Şura hökuməti idi, dərman da verirdi, tənzif də verirdi, hələ həkimə maaş da verirdi. Bizim də borcumuz müalicə eləmək idi. İndi o vaxtlar keçdi. Hay-küy salmağın da mənası yoxdur. Altı-yeddi həkim, neçə tibb bacısızəhmət çəkəcək, risk edəcək.

Əbi onun sakit səsindən oda atılmış şabalıd kimi partladı.

–Pulum yoxdur, deyənə, xəstəm yıxılıb ölməlidir?

Həkim dinmədi.Əbidaha böyük qeyzlə onu hədələdi:

-Həkim, Əsəd kişinin qızına bir şey olsa, aləmi dağıdacağam. Gör nə vaxtdandır gətiriblər, hələ də onu rahatlamayıblar. Sabah Əsəd kişi gələcək, ona cavab verə biləcəksən?

Həkim bu adı eşidib donuxdu.

Bu vaxt zahı əlini mələfənin altından qabaran qarnına çəkdi:

–Əbi, ölürəm, gör neyləyirsən, - dedi. - Yenə başladı, daha ağrıya dözə bilmirəm.

Əbi əlacsızlıqdan az qala ağlasın:

- Ay Əsəd kişinin qızı, zarıma, özü yıxılan ağlamaz, - dedi. - Əsəd kişi gələnə qədər döz, hər şey yaxşı olacaq.

Həkim duruxa-duruxa soruşdu:

-Qardaş, bu Əsəd kişi kimdir?

Əbi əlini yellətdi:

-Bu ölmüşün atasıdır, - dedi. - Nədir, həkim, anket doldurursan? Darıxma, harda olsa indi gələcək. Onda ona cavab verərsiz.

Həkim bir də soruşdu:

-Nazirlik də işləyir?

Əbi bir də əlini yellətdi:

–Əşi, yox.

–Baş idarədə işləyir?

Əbi qaşqabağını tökdü:

–Əşi, hardandır məndə o bəxt. Qaynatam nazirlikdə, ya baş idarədə işləsin, - dedi. - Əsəd kişi o dağılmış Şura hökuməti vaxtı kolxozun baş çobanı idi. Döşündəqatar-qatar ordeni var. Bir vaxtlar hara getsəydi bir sözünü iki eləmirdilər. Ordenləri işə keçməyəndə çomağını işə salırdı.

Həkim dayanıb-dayanıb şaqqıltı ilə güldü:

–Ay sənin canın yanmasın, hələ məni belə güldürən olmamışdı, - dedi və dəhlizdə görünən tibb bacılarına əmr etdi. - Xəstəni cərrahiyyə otağına aparın. Özüm əməliyyatı

keçirəcəyəm. Əsəd kişinin qızından muğayıt olmaq lazımdır.

Əbi kişi həkimin bu alicənablığından vəcdə gəldi:

–Heç demə, namərd zəmanədə də mərd adamlar tapılarmış, - dedi və inildiyən

arvadına qışqırdı.- Əsəd kişinin qızı, sən daha ölməyəcəksən.

Həkim Əbinin sadəlövhlüyünə heyrətlə irişdi...

# Yapışqan

Təzə şöbədə yeddi-səkkizmühəndis çalışırdı. Hamısı cavan idi. Otaq o qədər genişdiki, rəqs meydançasını xatırladırdı. Masalar bir-birindən çoxaralı qoyulmuşdu. Qapıdansağda, küncdə yerləşdirilmiş irimasanın üstündəki telefonların sayından məlum olurdu ki, bura şöbə müdirin iniqamətgahıdır. Amma o, otaqda çox nadir hallarda tapılırdı, gələn kimi dərhal da yoxa çıxırdı. İşçilərə lazım olanda iddialı cavan müdiri ya rəisin, ya da müavinlərin qəbul otağında asanlıqla tapırdılar. Kişi mövqe seçməkdə usta idi. Vəzifə pillələrini sürətlə qalxırdı.

Gün təzə başlamışdı. İşçilər otağın ortasında toplaşıb əhvallaşırdılar. Xadimə Aliyə bacı otağı hələ yığışdırıb qurtarmamışdı. Elektrik çaydanı isə qaynamışdı,bircə dəmlənməyi qalırdı. Nəhayət, xadimə masaların üstünə qaldırdığı yüngül kürsüləri döşəməyə endirdi. Hamı tələsə-tələsə yerinə keçdi, fincanlar dolablardan çıxdı. Bir azdan çaydəsgahı başladı. Telefonun zəngi bu şirin büsata su qatdı. Hamı başını qaldırdı. Şöbə müdirinin müavini Əli müəllim yerindən qalxıb müdirin masasına yan aldı, dəstəyi qaldırdı. Bir az qulaq asıb üzünü xadiməyə çevirdi:

- Aliyə bacı, səni oğlun istəyir. Uşaq nəsə həyacanlıdır. Tez elə, gəl!

Aliyə bacı tozsoranı əlindən yerə qoydu. Tələsik telefona yanaşdı. Həyəcanla dilləndi:

- Hə, Orxan, nə olub?…

Qulaq asdıqca tədricən həyacan Aliyə bacının üzündən çəkildi, acıqla dedi:

- Əşi, belə şeyə görə də adamı narahat eləyərlər? Yekə oğlansan, axşamdan deyəydin də. Gözləyirsən, gözləyirsən, mən işdə olanda bütün dərdlərin yadına düşür. Yaxşı, məsələnin şərtini de. Dayan, əlimin altında yazmağa bir şey yoxdur…- dedi və xahiş elədi. - Əli qardaş, kağız-qələm verə bilərsən?

Əli müəllim onun xahişini yerinə yetirdi. Aliyə bacı telefona “hə, hə” deyə-deyə, başladı yazmağa. Axırda :

- Quzu bala, yazdım. Bir azdan sənə zəng eləyərəm. Hələ məktəbə getməyinə iki saat var, çatdırarsan, qorxma. – dedi və dəsdəyi qoyb üzrxahlıqla - Uşağa məsələ veriblər, həll eləyə bilmir, ona görə zəng eləmişdi. Görün neynəyirsiz…

Şöbə bir haya bənd idi. İşçilər çayı yarımçıq qoyub Aliyə bacının ətrafına yığışdılar.Əli müəllim soruşdu:

- Aliyə bacı, nə məsələdir elə?

Aliyə bacı kağızı ona uzatdı. Əli müəllim nahamvar yazını gözünə yaxınlaşdırdı. Cavanlığına baxmayaraq

yetikliyi ilə şöbənin qadınlarından seçilən Sevinc ərklə kağızı müavinin əlindən dartıb aldı. Dedi:

- Sən Aliyə bacının xəttini oxuya bilməzsən. Onun qara-qurasından ancaq mən baş çıxarıram. Məsələyə özüm baxacağam…

Əli müəllim etiraz etmədi. O, mülayim bir istehza ilə:

- Şöbənin məsələlərini onsuz da sən həll eləyirsən. Nə olar, buyur həll elə. – deyib hamını güldürdü.

Sevinc atmacanı qulaq ardına vurdu, vəsməli qaşlarını oynadaraq, başladı bərkdən oxumağa:

- Yüz qram kazeyin yapışqanı hazırlamaq üçün on bir hissə su, beş hissə naşatır spirti, dörd hissə kazeyin lazımdır. Əgər naşatır spirti sudan on qram az olsa, nə qədər yapışqan alınar?

On il mühəndislik təcrübəsi olan Validə xanım dərhal eynyini alnına qaldırdı:

- Bunu həll eləməyə nə var ki! - dedi. - Bircə kazeyinin nə olduğunu mən başa düşmədim.

Sevinc əlini yellətdi:

- Onu bilməsək də olar. Onsuz da hər şey aydındır. Suyu “iks”, naşatır spirtini “iqrek”, kazeyini də “zet” adlandıraq, alarıq üç məchullu tənlik. Elədirmi, Aliyə bacı?

Xadimə qadınarıq çiyinlərini yazıq-yazıq çəkdi:

- Qadan alım, sən yaxşı bilərsən, - dedi. - Mənim elə bir savadım yoxdur. Mən nə bilim «ikis» nədir, «iğrik» nədir.

Lap arxada dayanmış Bilal tıntın və gur səslə dilləndi:

- Ay savad müdərrisi, belə olmaz, - dedi.

Qadınlar onun səsindən diksindilər. Sevinc dodaqaltı mızıldandı:

- Bu kətçiyə bir ildir böyürə-böyüpə danışmağı tərgidə bilmədim də! - dedi. - Hər dəfə bunun səsi bizi ürək qopmaya salır. Elə bil boğazını lomla deşiblər.

Bilal çox savadlı mühəndis idi. Şöbədə işi çətinə düşən onun üstünə qaçırdı. O da heç kimə «yox» deməzdi. Hamı xatirini istəyirdi. Bircə əli böyüklərin ətəyində olan Sevinc onunla yola getmirdi.

Aliyə bacı pərt olmuş Bilalın köməyinə gəldi:

- Qardaş, bəlkə sən də məsələyə baxasan…

Bilal yekə burnunu çəkdi. Ona uzadılan kağıza göz gəzdirdi. Mümkün qədər asta danışmağa çallışsa da səsi yenə gumbuldadı:

- Bacı, uşaq neçənci sinifdə oxuyur? - Soruşdu.

- Üçüncü sinifdə, Bilal qardaş.

Bilal barmağını qaldırdı:

- Hə, eləsə, məchulların sayı birdən artıq olmamalıdır.

Sevinc ərklə onun üstünə çığırdı:

- Adə, məchulu nə təhər azaldacaqsan? Məsələ rezindən deyil ki?

Bilal ona baxmadan çəkinə-çəkinə bir daha burnunu çəkdi, dedi:

- Bunu bu saat fikirləşərik. Əgər bir məchulla işarələsək, belə olar…

Amma onun dediyini heç kim qəbul eləmədi. Mübahisə qızışdı.

Başları məsələyə qarışmış işçilər, şöbə müdürünün gəlişini hiss eləmədilər. O, hökümlü səslə:

- Bu nədir yığışmısınız? - Soruşdu. - İşiniz-gücünüz yoxdur?

Qadınlar diksindilər. Müavin söz atdı:

- Ay rəis, köhnə şakərindən əl çəkmirsən ha? Yenə xəlvəti qulaq asırsan?

Sevinc rəisin qızarıb-bozarmağının mübahisəyə çevriləcəyini hiss edib araya söz qatdı:

- Rəis, məsələ həll edirik. Daha özünü dartma. Gəl, bizə kömək elə.

Rəis müavinin atmacasını içəri verib laqeyd halda:

- O nə məsələdir ki, bir sürü mühəndis, başda Əli müəllim olmaqla onu həll edə bilmir? Hətta mənim də köməyim lazımdır! Yaxşı, məsələnin şərtini de.

Mübahisə yenidən qızışdı. Biri təklif etdi ki, törəmə alma yolu ilə həll edək. Onu hoydu-hoyduya götürdülər. O

biri dedi ki, bu məsələ ya induksiya metodu ilə həll olunacaq, ya da deduksiya. Rəis də məsələni bir-iki dəfə oxuyandan sonra, qəflətən təklif etdi:

- Əşi, buna baş sındırmağına dəyməz. Gəlin hesablama mərkəzinə zəng edək. Orda işləyənlər daha Əli müəllim kimi geydirmə mühəndis deyillər, hamısı riyaziyyatçıdır. Ay qız, telefonu bəri elə.

Rəis nömrəni yığdı, salamlaşandan sonra məsələnin şərtini oxudu. Əlini qaldırdı:

- Səs salmayın görüm, nə deyirlər?

Hamı susdu.

- ...Atam balası, bu, üçüncü sinfin məsələsidir… Əlbəttə! Proqramlaşdıracaqsınız? Neynək, nə istəyirsiniz edin, öz məsləhətinizə baxın… Qəribə söz deyirsiniz! …Necə yəni hansı dildə proqramlaşdırasınız? Nə bilim ey, elə həll edin azərbaycanca başa düşmək olsun… Daha niyə gülürsünüz?…Mən nə bilim sizin maşının öz dili var. …Olsun lap dünya dili… Nə danışırsız, e?.. Sizə bir gün vaxt lazımdır?.. Uşaq iki saatdan sonra məktəbə getməlidir… Lap səfehləmisiniz e! Nə? Dəlixananın bura nə dəxli var?

Rəis dütdüldəyən telefona tərs-tərs baxıb dəstəyi qoydu yerinə.

- Əşi, elə onların da adı var. Demə bizim gündədilər. Məsələni həll eləyə bilmirlər.

Yüz bəhanə gətirirlər. İndi isə yerinizə dağılışın. İdarədə yoxlama var…

İşçilər yerlərini tutdular. Hərə bir qovluq çəkdi qabağına. Otağa sakitlik çökdü.

Aliyə bacı astadan mızıldandı:

- İndi mən uşağa nə deyim? - dedi. - Deyim, bir belə mühəndis bir uşaq məsəlini həll edə bilmir? Vallah, mənə güləcək.

Onun bu mızıltısını çoxu eşitdi, amma dinən olmadı. Rəis içəridə olanda hamı quzu kimi sakit otururdu.

## Qorxulu məktub

Bazar günü Məryəm xalanını hövsələsi daraldı. Sobanın üstündəki dəm çaydanını gözdənqaçırtdığına görə mətbəxdə qurdalanan iki ortancıl qızınınınbirini acıladı, deyib-güldüyünə görəo birinin abrını ətəyinə bükdü, pəncərələrin polietilen örtüyünü yazın oğlan çağında açmayan əri ilə ağızlaşdı, kiçik qızının güzgü önündə bəzənməyinə necə darıldısa hay-həşir saldı. Bir sözlə, beş otaqlımənzil qalmaqalyumağına döndü. Məryəm xala doyunca dalaşandan sonra hamıdan küsülü qonaq otağına çəkildi. Telefon aparatını yanına alıb kürsüdə bardaş qurdu, gözünü yumdu.

O, bacısı oğlu Əlinin zəngini gözləyirdi. Ondan icazəsiz telefona heç kimyaxın düşə bilməzdi. Kimsə gözünü təsadüfən oğurlasaydı , o da gəlib üstünə çıxsaydı, günahkar dərhal cəzasını alırdı. Telefonu nəzarətdə saxlayırdı ki, Əli rahat zəng eləsin, Məryəm xalanın Sibirdə işləyən oğlundan səhih soraq versin.

Məryəm xala oğlunun qürbət səfərinə əvvəldən razı deyildi. Amma onun dəlilləriqarşısındageri çəkilmişdi. “Ana, bacılarımı adam kimi köçürmək istəyirəm! Buna pul lazımdır. Mənim işimdən bir şey çıxmır! Bakıda pul qazanmaq iynə ilə gor qazımaqdır. Sibirdə isə vəziyyət

yaxşıdır. Məni yanına çağıran oğlanla da neçə il dostluq eləmişəm. İndi ona adam lazımdır, getməsəm sonra bu imkan əlimdən çıxacaq! Deyir, tikintidə yaxşı pul verirlər.Ana, qoy, bir-iki illiyə gedim. Həmişəlik getmirəm ki!"

Məryəm xala daqızlarını gözünün qabağına gətirib razılaşmışdı. İndi bunun peşimançılığını çəkirdi.

İki ortancıl qızı sükut çökmüş evdə oturmaqdan bezikib yığışıb binanın qonşu blokunda yaşayan xalası gilə getdilər. Ailənin kişisi aranı tünlük görüb astaca geyindi, qapıdan çıxdı. Fikirləşdi ki, axşama kimi gözə görünməsə yaxşıdı. Kişi düz də elədi. Məryəm xala, mübaliğə təriqi ilə desək, yarmağa baş axtarırdı.

…Məryəm xala keçən həftə Əlini uzun müddət dilə tutdu:

- Bala, aman-zaman bir oğlum var,ürəyim əsir. Kömək elə, bala, mənim səndən başqa kimim var ki? Məktubunu oxuyandan sonra özümə yer tapa bilmirəm. Yol xərcindən də qorxma, səni əliboş yola salmayacağam.

Əlinin Binə bazarında bir xırda köşkü vardı. Alverlə başını dolandırırdı. Təzə-təzə əlinə pul gəlirdi. Əvvəllər bir-iki dəfə malını «yandırmışdı». İndi olan-qalanını satıcıya tapşırmaqdan qorxurdu.

Könülsüz dedi:

- Ay xala, nə verib bu uşaqdan ala bilmirsən? Burada yazığa gün-dirilik vermirdin, ay onu eləmə, ay bunu eləmə,ay ora getmə , ay bura getmə. Salmışdın o boyda cayılı qoz qabığına. Xaloğu daha kişiləşib, qoy, pul qazansın. Bir də özün buraxmısan ki! İndi oturmusan bikar, qurdalayıb özünə dərd-çor tapırsan…

Məryəm xala məktubu ona uzatdı:

- Eləsə bunu oxu! - dedi və hirslə: - Bərkdən oxu!

Əli yekə burnunu çəkib gülümsədi:

- Ay xala, yaddaşın korlanıb ha! Məktubu dünən oxumadımmı? – dedi. - Bu bir parça kağızı adama neçə dəfə oxudarlar?…

Məryəm xala inadla təkrar elədi:

- Sənoquşğoyduğum yerləri oxu…Bərkədən oxu!

- Vallah, mat qalmışam sənə! Dünən sevinirdin, bu gün isə qan-yaş tökürsən… - deyə Əli məktubu könülsüz aldı. - Ver görüm.

Xaloğlunun məktubundakı salam-kalamı, əhvalpürsanlığı buraxdı, xalasının qırmızı qələmlə cızladığı cümlələri qayım səslə oxudu:

"…Ana, məndən sarı darıxıb eləmə! Kefim kök, damağım çağ, canım-başım sağ!"

Bu yerdə Əli atmacasını saxlaya bilmədi:

- Zalımın qafiyyə tutmağına baxırsanmı? - dedi və sonra yenə də davam elədi:

“Hər yer ağaclıq, meşəlikdir. Yaz gələli olduğumuz yerlər cənnətə dönür. Gül gülü çağırır! Axşamlar gəzməyə çıxıram. Otlar dizə çıxır, sanki məxmər üstə gəzirsən. Meh əsəndə meşəyə qulaqoxşayan xışıltı düşür,elə bil ağaclar dil açıb adamla danışmaq istəyir. Ay çıxanda buralarda olasan! Adamın könlü açılır. Bir sözlə, ana, Sibirin adı pis çıxıb, nağıllarda deyildiyi kimi, buralar lap ölüb-qalası yerdir. Heç darıxma…”

Məktubun bu yerində Məryəm xala ağlımsındı, şalının ucunu gözünə sıxdı, ah-zarla dedi:

- Gördünmü? Ay başına dönüm, gördünmü?

Əli təəccüblə:

- Nəyi, xala? - dedi: - Sən canın, ağlama!

-Bala, tərifləyir ey , tərifləyir… Vay-vay-vay!

Əli dizini şappıldadan xalasına mat-mat baxırdı:

- Bah! Nolar , tərifləyəndə? Sənə ürək-dirək verir də! Onun yazısında nə şeytan əməli gördün ki, özünə əl qatmısan?

Məryyəm xala dikəldi, Əlinin izahatını dinləmədən qətiyyətlə dedi:

- Bala, bala, sən bilmirsən! Adam durduğu yerdə yad elləri tərifləməz! Burda qız barmağı var! Sən məni bir əlli tutma, heç özün də uşaq deyilsən! Onun meşədə nə iti azıb? Soruşmaq ayıb olmasın, tək adamın meşədə nə azarı var? Hə?

Kənarda oturub söhbətə müdaxilə eləməyən qızlar xısın-xızın gülürdülər. Küyçü analarını yaxşı tanıyırdılar. Amma Əli xalanın dəmir məntiqi qarşısında təslim oldu. Gur saçlarını geri sığalladı:

- Gör ha!Afərin, xala! Səndən yaxşı müstəntiq çıxar! Heç ağlıma gəlməzdi… - dedi və qımışdı: - Tutalım ki, dediyin düzdür. Daha niyə qan-yaş tökürsən? Sevin də! - deyə heysiz oturmuş xalasını qıdıqladı - Başla tədarükə! Bir də gördün ki , xaloğlu hazır gəlir. Var dövlətinin gəlhagəlidir, xala, daha yasxana açma. Ha-ha-ha!

Məryəm xala inildədi:

-Ürəyimi partlatma, bala! -dedi - Yola hazırlaş. Ürəyim narahatdır…

Əli təslim oldu:

- Yaxşı, xala! Gedirəm, üç gündən sonra xaloğlunu o meşəlikdən çıxaracağam, danışıq məntəqəsinə gətirəcəyəm, qoy sənə zəng eləsin, özü hər şeyi sənə başa salsın. –dedi və söz atdı. - Bir də qəm eləmə, məlumdur ki, yaxşı igid dayısına oxşar, xala…

Məryəm xalanın dodaqları əsdi:

- Yaralarımı təzələmə, ay saqqalı ağarmış… - dedi və dəsmalı gözünə sıxdı. - O qırışmalı qaytar evə, qoyma arzum ürəyimdə qalsın…

…Bu söhbətdən bir həftə keçmişdi. Amma Əlidən xəbər çıxmırdı. Elə buna görə də Məryəm xalanın

hövsələsi bir tikə olmuşdu. İndi tənha oturmuşdu qonaq otağında. Gözünü yumsa da məktub dizinin üstündə idi. Bir xeyli vaxt ötdü. Əvvəl evin böyük qızı, sonra kiçiyi içəri girdi, hərəsi evin bir küncündə oturdu.

Kiçik qız ailənin sevimlisi idi. Şirin dilinə görə çox şeyi ona keçirdilər. İndi də bacısı ilə himləşib ehtiyyatla anasına sataşdı:

- Ay ana, qaqaşın məktubu roman-filan deyil ki, qurtara bilmirsən!

Məryəm xala dinmədi. O məktubu əzbər bilirdi. Ürəyindən qanlar axırdı: "Gör necə ağız bahəm eləyir? Cənnət? Axx! Hayıf ki, əlim yaxana yetmir !Mən sənə cənnətlə cəhənnəmin fərqini göstərərdim. Ölüb-qalası yer tapıbsan! Ağzımı boza verməyinə bax! Aldada bilməzsən! Yəqin yerini isti salmısan, böyrünə-başına dolanan tapmısan! Əvvəl darıxırdın, şikayyətlənirdin, indi nə oldu?"

Onun gözü qorxmuşdu. İyirmi il qabaq Xarkov şəhərində əsgərlik çəkən kiçik qardaşı da əvvəl-əvvəl şikayətlənirdi. Yazırdı ki, buranın havası mənə düşmür, oynaqlarım sızıldayır. Evdəkiləri əndişəyə salmışdı. İki il ötdü. Əsgər qardaşın məktublarındakı ab-hava dəyişdi. Daha Xarkovu vəsf eləyirdi. Hamının ürəyi sakitləşdi. Qəflətən məktub gəldi. Kiçik qardaşı yazırdı ki, mən qalası oldum. Bəs, evlənmişəm, hələ gələ bilmərəm,

arvadım boyludur, azad olar, bir yerdə gələrik. O gələn on il sonra gəldi. Anasının yeddisinə özünü zornan çatdırdı.

Səhərdən susan telefonun cingiltısı Məryəm xalanın fikirlərini dağıtdı. Amma o, dəstəyi qaldırmadı. Gözlədiyi telefonun şəhərlərarası kəsik zəngi idi.

Kiçik qız susmaq bilməyən telefona işarə ilə:

-Ana , az mələt onu, qaldır, görək kimdir… - dedi.

-Çalar, çalar, yorular! Yenə lotu-potudur... - deyə Məryəm xala mızıldandı.

Qəsəbəyə telefon təzə çəkilmişdi. Bir ara uşaq-muşaq onları girinc eləmişdi. Zənglər səngiyənə qədər ana qızlarına əyri-əyri baxmışdı.

Cihaz susdu. Məryəm xala köksünü ötürdü:

- Elə mən deyəndir. Avaralar köhnə şakərlərindən əl götürməyiblər.

Kiçik qız etiraz elədi:

- Daha telefonu niyə çəkdirirdik ki?

Böyük qız kiçik bacısını iynələdi:

- Nə əl-ayağa düşmüsən? Yoxsa zəng eləyənin var?

Kiçik qız qızardı, qalxdı, televizoru yandırdı, kürsünü fırladıb arxası bacısına tərəf oturdu.

Məryəm xala sözaltı mənasını anladığı bu gizli atışmaya müdaxilə eləmədi. Kiçik qızın on səkkiz yaşı vardı. Ali məktəbdə oxuyurdu. Ay parçası idi. Elçilərin ayağı qapıdan üzülmürdü. Məryəm xala hamını əliboş

yola salırdı, böyükləri qala-qala kiçiyini verməyə ürəyi gəlmirdi. Onların burunlaşmağını eşidib köksünü ötürdü: “Baxırsan kifir deyillər, hərə bir sənətin sahibidir, amma bəxtləri bağlanıb. Köpək oğlanları gedib iti-qurdu gətirib arvad eləyirlər, halal süd əmmişlərimiz qalır başına döyə-döyə… Yox, yox, kiçiyini vermək lazımdır. Yazıq o birilərinin gününə düşməsin…”

Böyük qız anasına ürək-dirək verdi:

- Özünü üzmə, ana, hər şey yaxşı olacaq…

Məryəm xala ah çəkdi:

- Bala, dayın yadıma düşür, damarlarımda qanım donur. Qorxuram qardaşın da başımıza oyun açsın…

Kiçik qız geri çevrilmədən:

- Day-day yaxşı elədi Xarkovda qaldı. Maşallah ev-eşiyi, şəhərdən kənarda bağı, altında maşını, gül kimi balaları…

Məryəm xala ona boğma çıxartdı:

- Kiri, azz, kiri! Yazıq qardaşımı dərd götürüb, sən isə gör nə çərənləyirsən. Keçən ilki gəlişi bica yerə deyildi ki! “Bacı, - deyirdi, - nə qədər cavandım, qolumda gücüm vardı, ailənin ipini yığışdıra bilirdim. İndi arvad da, uşaqlar da sözümə qulaq asmır”. Elə olar da! Oğlu ondan icazəsiz evlənib! Nə tökərsən aşına, o da çıxar qaşığına…

Kiçik qız dayısını müdafiə elədi:

- Onda nə günah vardı! – dedi. - Bura qayıtsaydı indiki dava-mərəkənin iştirakçısılarından biri olacaqdı. Beş qardaş kiçik ata mülkünə sığışmayacaqdılar. Görmürsən, dayılarım necə didişirlər? Heç biri ata mülkünü tərk eləmək istəmir. Bir də çıxıb hara getsinlər, axı? Hər gün mərəkə, dava-şava, saç yoldu...

Məryəm xala istər-istəməz razılaşdı:

- Bala, düz deyirsən ey! Amma sözün nədir, hamımız qaçaq ölkədən? Məmləkəti kimin ümidinə qoyaq?

Telefonun kəsik zəngi onun sözünü yarıda qoydu. Məryəm xalanın rəngi qaçdı. Əlləri əsə-əsə dəstəyi qaldırdı, qulağına apardı:

- Əloo?

Telefonçu qızın kobud səsi mikrofondan kənarda eşidildi:

-Kamalovların mənzilidir?

- Bəli, bəli!

…- Sizi şəhərlərarası telefonla calaşdırıram! Danışın…

Xəttin o başında əvvəl gülüşmə , sonra xırıltılı qız səsi eşidildi. Məryəm xala elə bildi telefonçu qızdır.

…- Alo, tet Maryam, zdrastvuy!

Məryəm xala diksindi, ağlına nə gəldisə inildədi. Xəttin o başında yenə kimsə güldü.

- Tı kto , devuşka? - soruşdu.

- ...Gəlnindi də, tanımadın? - deyə səs istehza elədi. - Dəstəyi oğluna verirəm…

Məryəm xala axırıncı sözlərin təmiz azərbaycanca deyilməyinin fərqinə varmadan əlini dizinə vurdu:

- Məryəmin başına daş düşsün! Evim yıxıldı! Ürəyimə dammışdı elə… Gəlin də bu yandan çıxdı…

Bütün bunlar dəstəyə deyildiyindən xəttin o başında uğundular. Bir səs acıqla dedi:

- ...Əşi, ver bura! Arvadın ürəyini partladarsan…

Anlaşılmaz səs-küydən sonra Məryəm xala oğlunun tanış səsini eşitdi:

…- Salam, ay ana! Necəsən?

Məryəm xalanın üzü işıqlandı:

- Can bala! Səsinə qurban olum! – dedi. - Məndə can qalmadı ki! Niyə zəng eləmirdin?

- Tayqada idik! Sən darıxma, əlimizdəki işi qurtaran kimi gələcəyəm! Uzağı iki aya yanındayam…

- Gəldiyin yollara qurban olaram, oğul! Amma başına dönüm, tək gəl, yanına quyruq bağlama, mənim arzumu gözümdə qoyma…Yanındakını azdır getsin…

Xəttin o başında güldülər:

- Qorxma, yanımda xaloğlu Əlidən başqa kimsə yoxdur. Yenə şitliyi tutub, səninlə qız səsi ilə danışan o idi. Bu saat dəstəyi ona verəcəyəm.

Məryəm xalaya sanki dünyanı bağışladılar:

- Yalan demirsən ki!? Şükür Allaha!-dedi - Dəstəyi ver, o qırışmala!..

- Hə, xala, ürəyin gəldimi üstünə? Az qala inanmışdın ha! Gördün urus gəlnin necə səninlə azərbaycanca danışır? Ha-ha-ha!

Məryəm xala sevinə-sevinə:

- Dayan bir! Qulaqlarını qoparacağam! Axx! Allah köməyin olsun, Əli, bu nə qəmədiyyədir çıxarırsan? Demirsən qoca xalanın ürəyi partlayar?

Sonra oğlu bacıları ilə danışdı. Məryəm xala dəstəyi bir də əlinə alanda əlaqə kəsildi. Şadlıqdan ev işıqlandı.

Bir az arxayınlaşmış Məryəm xala telefonu aparıb dəhlizdəki dolabın üstünə, həmişəki yerinə qoydu. Amma ürəyindəki şübhələr tamam çəkilmədi: "Çox da deyir! Bir də gördün ləçərin birinə ilişdi, o da vurdu qoltuğuna gətirdi! Onda başıma nə çarə qılacağam?"...

## Dədə, mənə arvad al

Əfsər axır vaxtlar atasının qılığına yaman girirdi. Kişi ağzını açmağa macal eləmirdi, oğlu onunistədiyini gözündən oxuyub dərhal yerinə yetirirdi. Kran su axıdırdı, - Əfsəralətlər əlindəhazır dayanırdı; ütü işləmirdi, - Əfsərdərhal onu söküb- yığırdı; qapı cırıldayırdı, - Əfsəronu yağlayırdı; qərəz, evdə elə biriş olmazdı ki, Əfsər onun yanından ötsün, ağsaqqal atasının narazılığına səbəb olsun.

Kişi oğlunun qılığına şübhə ilə baxırdı, ammaözünü o yerə qoymurdu, işin axırını gözləyirdi.

Əfsərin yaşı qırxı haxlasa da, üzündə bircə qırış da tapmazdın. Seyrəlmiş saçlarıqap-qara idi. Həmişə gülən göy gözlərini görən deyərdi ki, bu adam dərd-sərdənxəbərsizdi.

Qohum-əqraba, bacıları əvvəllər onu evləndirməyə çalışsa da heç biri Əfsəri yola gətirə bilmədi. On il bu minvalla keçəndən sonra hamı ondan əlini üzdü. Hərənin öz dərdi özünə bəs eləyirdi. Zəmanə çövr olandan sonra isəcəmi canıyananlar da qınına çəkilmiş, daha Əfsərlə işi olan yoxdu.

Anası Güllü arvad lap əldən düşmüşdü, nasazdı. Tez-tez xəstələnir, yorğan-döşəkdən qalxmırdı. Atası Əblikişi yaşına görə gümrah idi, amma oğlunun fikir-xəyalı ona köksdolusu nəfəs almağa imkan vermirdi.

Əfsər Əbli kişi ilə Güllü arvadın tək oğlu idi. Uşaqlıqdan ki, aman-zaman olmuuşdu, özünü işə verməklə arası yoxdu. Nə qədər ki, Şura hökuməti vardı, Əfsərin aldığı mühəndis maaşına ailənin ehtiyacı yox idi. Güllü arvadla Əbli kişi qızlarını köçürəndən sonra aldıqları təqaüdlə lap padşah kimi dolanırdılar. Elə ki dövran dəyişdi, əldə-ovucdakı heç puç oldu, ehtiyyac başladı qapını cırmaqlamağa. Əfsər isə hərəkətə gələnə oxşamırdı. Hələ də beş-on «şirvan» maaşa köhnə iş yerində mühəndislik edirdi. Taleyindən razı halda gedirdi işə, gəlirdi işdən. Təvazö ilə yaşayırdı. Siqaret çəkmirdi, araq içmirdi, qumar oynamırdı, bir sözlə, cayıllıq eləmirdi. İndiki zəmanədə bu tapılmayan keyfiyyətdi. Elə buna görə də işçilərinin doxsan faizi ixtisara salınmış zavodda ona toxunan yoxdu.

Əfsər bu gün evə tez gəlmişdi. Atası kiçik bağçasına quluq eləyirdi, ağacları sulayırdı. Oğlunu görən kimi əlindəki beli zərblə torpağa çaxdı, işi yarımçıq qoyub uzaqdan dedi:

-Bala, qalx, dincini al, sonra başımı sahmana salacaqsan.

- Dinclik nədir, əşi, daş daşımaqdan qayıtmıram ki… Keç evə, başını islat, gəlirəm…

Eyvandakı taxtda bardaş quruub oturmuş Güllü arvadözünü günə verirdi. Atayla oğulun mükaliməsinə mürgülü-mürgülü müdaxilə elədi:

- Macal ver, uşaq çörək yesin, dincəlsin. Yanğına tələsmirsən ki!

Əbli kişi güldü:

- Oğlun daş karxanasında işləmir ki, yorulsun ! Bu gün uzaq başı beş varaq kağızı üzbəüzə çevirib. Düzdür, bala?

Əfsər burnunu qırışdırdı:

- Dədə, gözün aydın, o qədər işimə lağ elədin ki, deyəsən, o da əldən çıxacaq. Məni də ixtisara salırlar, zavodumuz bağlanır.

Kişi əllərini göyə qaldırdı:

- Allha çox şükür - dedivə eyvana qalxa-qalxa sözünü bitirdi. - Yaxşı oldu! O zavod bağlanmasa sən özünə bir gün ağlamayacaqsan.

Əfsər ülgüc-sabun gətirdi, mətbəxə keçib qaba ılığ su tökdü, fırçanı sabuna üç-dörd dəfə çəkib köpükləndirdi. Adətgərdə bir hərəkətlə kətildə oturmuş atasının başını sabunladı. Kişi siqaretini çəkib qurtarmağa heç macal tapmamışdı ki, onun başının tükünü qaşıyıb tökdü.

Əbili kişi başını sığallayıb razı halda dedi:

- Allah sənin canına dəyməsin. Canım rahatlandı. Maşallah, lap əməlli usta olmusan. Əvvəllər gec qurtarırdın.

Əfsər dişini ağartdı, amma dinmədi. Güllü arvad yerində dikəldi , oğlunun ürəyindən keçəni dedi:

- Əşi, əvvəllər başında tük vardı, vaxt aparırdı. İndi başın boranı kimi tər-təmizdir. Onu qırxmağa nə var ki.

Əbili kişi yerində deyilmiş sözə ürəkdən güldü:

- Ha-ha-ha! Arvad, belə yaxşıdır, axmaq tükün ağıllı başda qalmağına hacət yoxdur.

Əfsər qabları yığıdırmaq istəyirdi ki, anası hıqqıltı ilə taxtdan düşdü:

- İşin yoxdur, özüm edərəm, - deyindi - Allah evinizi tiksin, mənə heç yazığınız gəlmir. Dəllək küçənin o başında, siz evdə dəlləkxana açırsız. Sinni yaşımda, xəstə-xəstə gərək dalınızca döşəmə yığışdırım. Bir köməyim yox, bir yandan da siz. Rahat ölməyə də qoymayacaqsınız.

Əbili kişi divanda yerini rahatladı, oğluna göz elədi:

- Neynək, arvad, - dedi. - Günah özündədir də!

Güllü arvadın süpürgəsi havada qaldı:

- Bıy, köməksiz qalmağımın günahı məndədirindi ? - Soruşdu.

Ərinin baməzəliyini bilə-bilə yenə onun toruna düşürdü. Əbili kişi dedi:

-İcazə ver, arvad, günü sabah sənə bir bacılıq gətrim, sənin də canın rahatlansın , mənim də. Hə, necə fikirdir ?

Ata-oğul çaşqın-çaşqın qalmış Güllü arvada baxıb şaqqıltı ilə güldülər. Güllü arvad hikkə ilə ərinə boğma göstərdi:

- Ala e! - dedi. - Məndən betər ayaq üstə dayana bilmir, arvad almaq eşqinə düşüb. Odur, oğlunun saqqalı ağarıb, hələ subaydır, onun dərdini çəkməkdənsə başlamısan lağlağıya.

Kişi yalançı qeyzlə Əfsərə tərəf çevrildi:

-Əfəl oğlu əfəl! Sənin tənəni mənə edirlər, - dedi. - Evlənmədin ki, bu arvadın söz-söhbəti qurtarsın.

Əfsər nə fikirləşdisə, qımışa-qımışa dedi:

- Neynək, razıyam , dədə!

Əbili kişi laqeyd halda:

- Nəyə razısan, ay qırışmal? Dediyimdə nə var ki, qanovuz parça kimi qırçınlanırsan? - dedi.

Əfsər halını dəyişmədən yenə də qımışdı:

- Deyirəm ki, gedin mənə arvad alın…Daha razıyam.

Əbili oturduğu yerdə, Güllü arvad durduğu yerdə quruyub qaldı. Handan-hana birağızdan dilləndilər:

- Doğru sözündür, bala? - Soruşdular.

Əfsər başını tərpətdikdə Güllü arvad şübhə ilə:

- Yoxsa yenə keçənlərdəki oynu oynamaq istəyirsən? Elçi gedən günü dəbbələyəcəksən?

Əfsər dişini ağartdı:

- Əşi, doğru sözümdür - dedi.

Güllü arvad süpürgəni qoyub özünü Əfsərin üstünə atdı. Onun boynunu qucaqlayıb üz-gözündən öpdü.

- Oğul,- dedi - Gözümün işığı oğul, ömrümü çürüdən oğul, axır səsimi eşitdin. Allah ürəyinə rəhm saldı. Ölmüşdüm, dirildim daha.

Əbili kişi onun şadlığına şərik olmaq fikrində deyildi. Başını kədərlə bulayırdı. Az qala çırtıq çalıb oynayan Güllü arvadın nə xəstəliyindən, nə halsızlığından əsər qalmamışdı. Gəldi oturdu Əbili kişinin qənşərində:

-Kişi, niyə ağzına su alıb oturmusan? Qalx, gedək, elçiliyə. Bilmirsən ki, oğlun hərdəmxəyaldır? Nə qədər fikrindən dönməyib əl-ayağını bağlayaq.

Əbili kişi səbirlə dedi:

- Dayan, arvad, bir hövsələni bas. Götür-qoy eləyək, görək kimn qızına elçi düşəyik.

Güllü arvad qızdırmalı adamlar kimi dilləndi:

-Necə kimin qızına? - dedi - Odey, İbrahimin yeddi qızından beşi evdədir. Hansını istəsək onu da verəcək. Dur, geyin, elçi gedək

Əbili kişi çığırdı:

- Axmağın qızı, - dedi və səsi mis kimi cingildədi: - «Elçi gedək, elçi gedək,» deyib bizi dəng eləmə. Hələ bir de görüm nəylə toy etmək istəyirsən? Buna pul lazımdır, para lazımdır. Bir salavat çəkməklə bu işi aşırmaq olmaz ki.

Güllü arvadın sevincdən parlayan üzü tutuldu.Xaldan düşmüş səslə dedi:

-Allah kərimdir, kişi, elə demə. Çətini işi başlamaqdır, sonrası asandır.

Əbili kişi daha özünü saxlaya bilmədi:

-Yum ağzını, səfeh arvad! - deyə bağırdı.- Qocaldıqca ağlın azır. Macal ver oğlunla söhbət eləyim.

Güllü arvad təslim oldu:

- Hirslənmə, kişi, yenə təzyiqin qalxar. - dedi.- Mən susdum.

Əfsər söhbətə, nəhayət, müdaxilə eləməyə macal tapdı:

-Ay dədə, utanıram da deməyə, açıq danışa bilmirəm- dedi və üzünü çevirdi.

Əbili kişinin hirsi soyudu. Keçdi baməzəliyə:

- Utanma, bala, utanma. Day ikimizin də saqqalı ağarıb, tay-tuşa oxşayırıq.

- Yaxşı, özün demirdin evlən?

- Deyirdim, bala.

- Bə indi niyə çığır-bağır salırsan?

Əbili kişi uzun-uzadı oğluna baxdı, boğazını arıtladı:

-Mən sənə haçan demişəm evlən? Dünən? Bildir? Yox, bala! Yadındadırsa mən sənə onil bundan qabaq hər gün deyirdim ki, evlənginən. Nə qədər Şura hökuməti vardı, mən səni ayda iki dəfə evləndirə bilərdim. Az qala ayağına düşüb yalvarırdıq. Sənsə daş atıb başını tuturdun. Sonra hər şey kəllə-mayallaq oldu. Hətda «qoz ağacları» əkilən ili də gec deyildi . « Qaynana yolu» salınanda da tərpənmək olardı. Onda da əlimizdə-ovucumuzda bir şey vardı. Sənin kimi beş oğula toy çaldıra bilərdim. İndii isə bir həsi, bir Məmmədnəsirik!

Güllü arvad dözmədi:

-İndi nə təklifin var, kişi?

- Bilmirəm, arvad. Bir güman yerim qalmayıb. Zəmanə dəyişib, kimin qapısına gedəsən, deyəsən əl yetir, toy eləyirəm?!

Güllü arvad fikirli halda dedi:

- Axtarıb eləsin tapmaq lazımdır ki, toysuz-mağarsız gəlməyə razılaşsın.

Əbili kişinin ağzı yenə əyildi:

-Məni cin atına mindirmə, - dedi. - Səni yerə yıxıb qabırğalarını sındıraram! Tutalım gəlini toysuz gətirdin, gərəkməz ki, onu dolandırasan? Əfsərin məvacibi bir dənizqırağı başmaq seyrinə bəs eləməz. Bununla ailə

saxlamaqmı olar? Bizim təqaüdümüz isə qənd-çayımıza, nəvələrinin saqqızına zornan çatır…

Əfsər söhbətə müdaxilə elədi:

- Əşi, qurtarın bu qalmaqalı! Bir qələtdi elədim. Mən arvad almaq arzumdan vaz keçirəm…

Güllü arvad kədərlə vayslandı:

- Vay-vay-vay! Elə belə subay qalacaqsan? Bizi oğul toyuna həsrət qoyacaqsan?

Əfsər ondan gözlənilməyənbir istehza ilə:

- Deyəsən, Şura hökumətinin gəlişini gözləməli olacaqsınız…- dedi və o biri otağa adladı.

Ata və ana küsülülər kimi bir-birindən üz döndərdilər. Güllü arvadın ağrıları yadına düşdü, taxta tərəf tələsdi. Əbili kişi başını qatmaq üçün həyətə düşdü, beli götürdü.